Nəsibə Günəş

BULUDLARDAN BOYLANAN GÜNƏŞ



Nəsibə GÜNƏŞ

AA296344

BULUDLARDAN BOYLANAN GÜNƏŞ

Azərbaycan Milli Kitabxanası

BAKI - YAZIÇI - 2016

Az2
2016
N 63

"Buludlardan boylanan günəş"(roman). Nəsibə Günəş
Bakı, "Yazıçı" nəşriyyatı - 2016, 256 səh.

...Bu dünyaya günahları ilə birgə doğulan insanlar da var.Ancaq çox zaman insanlar bu dünyaya mələk kimi təmiz, saf doğulurlar, fəqət sonradan başlarına gələn qəzavü-qədərlərin öhdəsindən gələ bilmədikləri üçün günaha batırlar.Qəbul etsək ki, həyat bir imtahandır, insanlar bu imtahandan yalnız və yalnız niyyətləri sayəsində ya qalib çıxarlar, ya da məğlub olarlar.Çünki, insanlar niyyətləri ilə fərqlənirlər.Əyər niyyət təmizdirsə, əyər niyyət bütün çətinlikləri aşıb təmizə çıxmaqdırsa, əmin ola bilərsiniz ki, yaradan bu yolda sizə hər cür yardımda bulunacaq, rastınıza sizə əl uzadan mələk kimi insanlar çıxardacaq.Bu romanda olduğu kimi.Gülxar, dünyaya həç bir günahı olmadan gəlir, ancaq sonradan çirkaba batır.Çünki sevib güvəndiyi adam, bir müddət sonra onu satılıq bir fahişəyə çevirir.Nə var ki, Gülxar bu yoldan çəkilməyi, belə iyrənc həyata son qoymağı niyyət edir, Allah da onun rastına Səltənət kimi bir insanıçıxardır.Səltənət, həyat yoldaşını və bircəcik oğlunu illər öncə avtomobil qəzasında itirmiş tənha yaşlı bir qadındır.Taleh onu təsadüfən, həyatına son vermk istəyən Gülxara rast gətirir.Səltənət Gülxarın xilaskarı olur.O, vaxtsız həyatdan getmiş Nərmin adlı bir qızın sənədlərindən istifadə edərək, Gülxardan tər-təmiz bir Nərmin yaradır, ona bu yolda irəliləməkçün hər cür yardım edir.Bu yol da çox asan olmur, iki kimsəsiz qadının başına gəlməyən qalmır.Fəqət möhkəm iradəli bu qadınlar, təmiz bir niyyət uğruna hər çətinliyin öhdəsindən gəlməyi bacarırlar.Səltənət, Gülxardan həm Nərmini yaşadan, həm dədzünün tənha həyatını dolduran yeni bir insan əmələ gətirir.Gülxar da Nərminə dönərək, həm Səltənətə doğma övlad, həm də Kamran kimi gözəl bir insana ailə olmağı bacarır.Və bütün bu bəşərləri qazanan, Gülxarın niyyəti olur. Çünki Gülxar, gənc yaşlarından həyatın dibinə sürüklənmişdisə də, onun hər zaman niyyəti Nərmin kimi bir övlad, Nərmin kimi bir ailə xanımı olmaq olmuşdu...


Kompüter tərtibçisi:
Ələsgər HÜSEYNOĞLU

Redaktor:
Ataş ÇƏBRAYILLI

Kompyuter dizaynı | **Səyalə BAXIŞOVA**

N 5204000583 - (042) qrifli nəşr
M - 656 - 2016

©YAZIÇI



Sizə nədən deyim, nədən danışım...

ÖMÜRDƏN GEDƏN İLLƏR...

(Altımış illik ömrümdə, ilk dəfə öz doğum günümdə belə qəribə hisslər keçirtdim, və ilk dəfə, geridə qalan illəri bu cür dərindən təhlil etmək ehtiyacı duydum...N.G.)

Gecədir.Saat ikiyə işləyib.Həmişəki kimi başım yazılarıma qarışdı, bir az yazdım, sonra yazdıqlarıma baxdım, bir az düzəlişlər elədim, bir də baxdım ki, artıq yeni günün başlanğıcıdır.Yeni gün də martın 2-sidir. Yəni mənim altımışıncı dogum günümdür.Düz altımış il... Dilə necə də asan gəlir...

Altımış il, altı dənə onillik...Altımış dəfə 365 gün...

Altı dənə onillikdən birincisini heç xatırlamıram.On yaşıma qədər həyatımda olanlar yadıma gəlmir, ya da gəlirsə də, yuxu kimi gəlir.Halbuki, ondan qalanəlli ilin hər gününü də olmasa, hər ilinin bəzi günlərini yadıma sala bilirəm.Təkcə elə hər ilin yadıma gələn günlərini, o günlərdə olanları, yaşananları bir yerə yığanda uzun-uzadı bir ömür alınır.Bu ömrün o başından yadıma gələnlər məndən o qədər uzaqdadır ki, hərdən mənə elə gəlir ki, o yaşananlar mənəaid deyil.Sanki o həyatı mən deyil, bir başqası yaşayıb, mən sadəcə hardasa bu barədə oxumuşam. Çox qəribə bir duyğudur bu, məni həyatımın əvvəlindən ayıran, çəkə-çəkə uzaqlaşdıran bir duyğu.Onsuz da bir insanın bu həyata aidiyyatı onun bir pəncərədən baxmağı qədərdir.Nahaq yerə deməyiblər ki, "Dünya bir pəncərədir, hər gələn baxar gedər." Doğurdan da belədir, həyatda nələrsə baş verir, sən də öz pəncərəndən baxmaqla bütün bu hadisələrə şahid olursan.O pəncərə bizim gözlərimizdir.Gözlərimiz, qarşısında açılan panoramda nəyi görürsə, onu da bizə sadəcə nümayiş elətdirir.Bir də ürəyimiz var ki, gözlərimizin bizə nümayiş elətdirdiyi mənzərələrə, hadisələrə, insanlara öz münasibətini bildirmədən yaşaya bilmir.Nəyisə bəyənir, kimisə sevir, nədənsətəsirlənir.Ən mükəmməl kompüter olan beynimizsə, bu görünənləri saf-çürük edir, bəzi hadisələri yaddaşımıza köçürür, qalanını silib atır.Ona görə dəözümüzü nə qədər zorlasaq da, beynimizin silib atmış olduğu hadisələri biz bir daha xatırlaya bilmirik.

Biz heç vaxt özümüzü kənardan görə bilmirik. Gözümüzlə gördüyümüz o mənzərədə hər kəs var, təkcə özümüzdən başqa. Biz özümüzü ya güzgüdə, ya da şəkildə görüb tanıya bilirik.Ona görə də yaddaşımızdan tapıb çıxartdığımız xatirələrin içində biz yoxuq, yalnız gözlərimizin gördükləri var.Bütün yaşananlar, gözümüzün önündə baş vermiş hadisələr hamısı sanki, bizim iştirakımız olmadan baş verib, biz yalnız onları izləmişik, bir film kimi.İndi burdan baxanda, biz özümüzü o filmlərdəki güzgülərdə də görə bilmirik, çünki onlar çoxdan silinib getmişdir.Yaxşı ki, əski şəkillər var.Əski şəkillər, artıq bizə heç bənzəməyən insanların biz olduğumuzu sübut edən yeganə dəlillərdir. İndi biz özümüzü müəyyən hadisələrə aid olan əski şəkillərdə görüb tanıyır, o hadisələrin bizə aid olub-olmadığını bu cür xatırlayırıq. Gördüklərimiz heç vaxt bütünlüklə yadda qalmır, biz yalnız xoşumuza gələn, ya da bizi təsirləndirən səhnələri yadımızda saxlayırıq.Keyfiyyətini itirmiş əski filmləri xatırladan o xatirələrdə təkrar baxmaq istəmədiyimiz, unutmaq istədiyimiz səhnələr də çoxdur. Ola bilsin ki, hansı məqamdasa peşmançılıq çəkəcəyimizdən qorxuruq.Biz hər şeyi əvvəlcədən bildiyimiz üçün, bəzən bir daha geri boylanmaq istəmirik. Bilirik ki, arxada buraxdığımız həyatda o qədər səhvlər eləmişik ki, indi onları düzəltmək üçün artıq çox gecdir.O səhvləri düzəltmək mümkün olmayacaq, bunu bilir, itirdiyimiz illərin xiffətini çəkirik.Əlimizdən bundan başqa da bir şey gəlmir.

Altımış il...Yaşım artdıqca, həyat da mənim üçün ayrılmış ömrün sonuna yaxınlaşdıqca, mənə elə gəlir ki, o uzaq keçmişləri özümə aid olmayan hadisələr kimi unutmağa, bilə-bilə yaddan çıxartmağa çalışıram. Sanki, çoxdan yaşananların mənə heç bir aidiyyatı olmadığını hər gün daha çox qəbul edir, boş yerəonlara vaxt ayırmaq da istəmirəm. Bu inadın arxasında duran fikirlər hərdən mənim özümü də çaşdırır.Daha çox yaxın keçmişimə ilıq münasibət bəsləyirəm.Əsasən yaxın keçmişimin beş-on il bundan əvvəlki illərini yada salmaq mənə daha çox xoş gəlir.Elə bil o illərin hadisələrini yada salmaqdan, onlardan bəhs eləməkdən daha çox zövq alır, istər-istəməz həyatımın içində o günlərin rolunu əhəmiyyətli dərəcədə yüksək qiymətləndirirəm. Bəlkə də bu ona görədir ki, uzaq keçmişin xatirələrində ancaq bitib-tükənməyən problemlər, körpə uşaqlarla birlikdə yaşanmış əzablı illər, çoxlu göz yaşları var?O zamanı yada salan kimi gözümün önündən ancaq apardığımız yaşam mücadiləsi, ömrümüzü

zəhərləyən xırda dedi-qodular, yersiz çəkişmələr, mənasız dartışmalar gəlib keçir.Bunların nəyini yada salım axı?O aralarda əyər xoş bir şey yaşanmışdısa da, dəryada damcıya bənzəyən həmin o xoş günlər də, çoxluq təşkil edən əzab-əziyyətli ayların-illərin içində itib batmış, əriyib getmişdi. Mən min-bir zəhmətlə böyüdüb boya-başa çatdırdığım göz nurum övladlarımı da doğru-dürüst görə bilməmişdim, onların boyuna baxıb sevinməmişdim. O illərdə biz heç doyunca bir araya da gələ bilməmişdik. Hərəmiz bir tərəfdə idik.

Bir yandan tez-tez baş verən konfliktlərin nəticəsində baş verən küsmələr, barışmalar, bir yandan da ədalətsiz bir cəmiyyətin bizə çəkdirdiyi sosial zillətlər həyatımızı parça-parça eləmişdi. Ömrümüzün ən gözəl illəri, yaşımızın ən gözəl çağları belə hədər olub getdi.Bu fikirlər adamı yandırmasın, neyləsin?

Ancaq sonra müəyyən hadisələr baş verdi, və bizim həyatımız heç gözləmədiyimiz halda kökündən dəyişdi.Mən yalnız bundan sonra, bir də baxdım ki, arxamda dağ cüssəli, dağ vüqarlı balalarım dayanıb.Mən ancaq bundan sonra bir az sakitləşə bildim, hər şeyə ümidlə baxmağa başladım.Nikbin fikirlərürəyimə yol tapdı, həyatıma məna qatmağa başladı.Bəlkə də yaxın keçmişə bəslədiyim istiqanlılıq burdan bəhrələnirdi.Biz, ailə olaraq, qismətimizin qabağına düşüb getdik, və həyatımızı ikiyə bölən bir taleh yaşadıq.Birinci hissə məndən çox uzaqda qaldı.Bəklə o illərin xatirəsinə ona görə belə ögey münasibət bəsləyirəm ki, o xatirələrin yaddaşımdan silinməsini istəyirəm.İstəyirəm ki, birinci hissə ürəyimi sıxan xatirələri ilə, elə ürəyimi sıxan o mühitdədə ilişib qalsın.Onsuz da ömrümüzün birinci hissəsi bizdən qırılıb başqa bir ölkədə, başqa bir zamanda qaldı.Biz istəsək də, bu iki ömür kəsimini bir-birinəcalamağa nə qədər cəhd eləsək də, onlar heç cür bir-birinə bənd olmur, düyün tutmur.Biri yarıda qırılıb orda qalan, orda yaşanan həyatımız, biri də burada tən ortadan başlayan, tamamilə başqa bir həyat.Orda qırılıb qalan həyatın davamı olmadığı kimi, burda başlayan həyatın da əvvəli yoxdur...Bu iki yarımçıq həyatların yeganə ümumi əmsalları var ki, o da Bizik...

Orda qalan həyatın qəhrəmanları da biz idik, burda davam edən həyatın qəhrəmanları da bizik.Bunu nə danmaq olar, nə də dəyişmək

olar.Sadəcə orda biz başqa idik, çox çarəsiz, çox məzlum, əzgin idik.Başımıza gələn haqsızlıqların hamısına təslim olmuşduq.

Təkcə onunla təskinlik tapıram ki, burda tamam başqayıq.İlk baxışda həyatımızda nəzərə çarpacaq şeylər baş verməsə də, zaman axımında biz çox dəyişmişik, yaşa dolmuşuq.Təkcə görünüşümüz deyil, fikir və düşüncələrimiz də, həyata baxışımız da başqalaşıb. Özümüzə güvənimiz artıb, qorxu hissi çox geri çəkilib, indi qorxu, artıq çox nadir hallarda ortaya çıxa bilir.Ən əsası da odur ki, biz indi həyata daha nikbin baxırıq.

Altımış il...Bu gün mənim altımış yaşım tamam olur.Bu da o deməkdir ki, sabahdan mən yeddinci onilliyi xırdalamağa başlayıram.Sabahdan yaşım yetmişə doğru yola çıxır.Desəm ki, bu məsələ məni qorxudur, doğru olmaz.Qorxu yoxdur.Təəssüf var, qədrini bilmədən əlimdən verdiyim illərə heyfislənmək var, buraxdığım səhvlərə görə peşmançılıq var.Nə desən var, təkcə qorxu yoxdur.Nədən qorxum, niyə qorxum?Bu yolu gedəcək tək insan mən deyiləm ki...İnsanlıq qərinələr boyunca bu yolu bir ucdan gəlir, bir ucdan da gedir.Bu bir səfərdir ki, deyilənə görə, qiyamət gününə kimi belə də davam edəcək.Kiminə yüz il, kiminə yüz gün nəsib olan hər kəs də bu yolu kedəcək...

Bu gün yuvarlaq bir rəqəmlə üz-üzə gələndə ilk düşündüyüm o oldu ki, artıq hər şeyə hazır olmalıyam.Hər an ömrün sonu gələ bilər.Bu fikir məni zərrəqədər də qorxutmadı. Bu fikir məni səfərə hazırlaşan bir yolcu kimi səfərbər olmağa səslədi.Həyatımda nə varsa, indi mən artıq daha məsuliyyətli yanaşmalıyam, hər şeyi nəzarətə götürməliyəm, hər şeyi qaydasına salmalıyam.Hər işim yolunda olsun ki, ömrün sonu məni hazırlıqsız yaxalamasın. Heç vaxt dünyanı tutub durmaq həvəsində olmamışam.Əksinə, hələ bu yaşa qədər gəlmişəmsə, Allahıma şükür edir, sevinirəm ki, balalarımın bu günlərini görmək mənə nəsib oldu.Əyər bir gün yolun sonuna gəlsəm, ancaq balalarımdan ayrılacağıma heyfislənəcəyəm ki, əvəzində, irəlidə Allahın hüzuruna çıxmaq kimi daha önəmli bir hadisənin olacağı ümidilə ürəyimə işıq saçılır.Ondan qalan hər şey həyatın qanunudur, və bir gün hər kəsin başına gələcək.Biz dünyaya gəldiyimiz gündən bu həqiqəti bilir, yolun bizi hara apadığını

anladığımız halda ona doğru gedirik.Aid olduğumuz islam dini ilk gündən bizi buna hazırlaşdırır.İndi mən də həm bundan sonrakı illərə də planlar qurur, həm də hər günü sonuncu gün kimi yaşayıram.Dinimizin öyrətdiyi kimi."Elə yaşa, sanki heç vaxt ölməyəcəksən, ancaq unutma ki, hər an ölə bilərsən."

Özlüyümdə elə bilirəm ki, mən heç vaxt naşükür olmamışam. Ümumi götürəndə anlayıram ki, gördüyüm bu günlər də hər kəsə nəsib olmayan bir səadətdir.Nə edək ki, qismətimə düşən ömür yolunda xoş günlərin sayı az oldu.Havaya sovrulmuş illəri başqa cür də yaşaya bilərdik.Ömrümün çoxunu boşuna xərcləməyim indi məni yandırıb-yaxır. Biz insanlar, bəzən o qədər ağılsız oluruq ki...Boş-boş şeylərdən ötrü bir-birimizin qanını qaraldır, həyatını zəhərləyir, ömründən kəsirik.Halbuki, heç bilmədik dünya hardan gəldi, hardan getdi, bir də baxdıq ki, artıq ömür saatının sayqacları qulağımızın pərdəsini deşə-deşə şaqqıldayır, o son anın bizə hər gün daha da yaxınlaşdığını xəbər verir.

Bu gün altıncı onillik başa çatır.Övladlarım, güllə-çiçkələ məni təbrikə gəliblər. Xoş sözlərlə məni təbrik edən övladlarımın, şirin dillə ürək sözlərini deməyəçalışıb boynuma sarılan nəvələrimin üzünə gülümsəyir, onların qarşısına içimdə indicə doğan bir günəşin üzümə vuran nurlu təbəssümü ilə çıxıram.Onların səmimi hisslərini cavabsız buraxmamaq üçün özümü bayaqki bədbin fikirlərdən gen tutur, həyatımda belə qiymətli sərvətim olduğuna ürəkdən sevinirəm.Halbuki, az öncə, hələ balalarım gəlməmişdən, daxilimdə bir fırtına qopmuşdu.O fırtına məni qəfil yaxalamışdı deyə, bir an elə bildim ki, həyatım indicə bitəcək, mən də heç kəsi görmədən, vidalaşmadan qeybə çəkiləcəyəm. Yaxşı ki, bu ani panik uşaqların səsini eşidən kimi yoxa çıxdı. Mən eləhəmin an hər şeyi unudub sevinclə balalarımın qarşısına çıxdım.İstəmədim ki, ömrümün altmışıncı ilində məni pəjmürdə edən fikirləri onlar da bilsinlər.Niyə bilsinlər ki, mən bu gün ömrümün hesabatını aparmışam, nəticəsi də məni xəyal qırıqlığına uğradıb. O qədər şeyə peşman olmuşam ki...Niyəbilsinlər? Axı, nəticədə mənim bu qədər böyük qazancım da var...Məni candan sevən bir deyil, iki deyil, sayı hələ irəlidə də nə qədər artacaq ürəklər var... Əyər çəkdiyim əziyyətlərin müqabilində, həyatmın sonunda belə bir səadətə layiq olmuşamsa, deməli

məndən xoşbəxt insan yoxdur dünyada! Bu günlərə görə Allahıma şükürlər olsun, deyirəm! Min şükür!

Bu düşüncələrin üstünə ancaq əziz qonaqlarımı, gül balalarımı yola salandan sonra qayıdıram.Daxili dünyamı dinləməyə başlayıram.İnsan yüz il də yaşasa, yüz əlli il də yaşasa, həyatdan doymur.Yalan nə deyim, bu belədir.Yaradan həyatı elə gözəl, elə şirin yaradıb ki, ondan doymaq, ondan könüllü əl çəkmək mümkün deyil.Mən də insanam, ölümdən qorxmasam da, yaşamaqdan da doymamışam.Allahın bildiyi bir zamanda mən də o yola qürurla çıxacağam, ona söz yox.Lakin məni ən çox üzən itirdiyim illərdir.

Zay elədiyim, hədər yerə yellərə verdiyim, qədrini bilmədiyim illəri geri istəməklə, nə qədər ağılsızlıq elədiyimi, çarəsiz qaldığımı başa düşürəm. Gedən illər bir də geri gəlməz, bunu da bilirəm.Bu həqiqət, bəlkə də həqiqətlərin ən acısı, ən ağırıdır.İndi mənasız "keşkələrlə" uğraş, içinə od düşsün, sən də səsiz-səmirsiz o oda tutuş, o atəşdə yan...

Keşkə qırx il əvvələ dönə biləydim, hər şeyi yenidən başalayardım...

Keşkə otuzca il geri gedə biləydim, o səhvləri bir də buraxardımmı?

Keşkə iyirmi il gəncləşə biləydim, o qədər şeyləri düzəldərdim ki...

Keşkə onca il geri gedəydim, onca il əvvəl görəsən ağlım harda idi?

Beş il də beş ildir.Beş il əvvələ dönmək mümkün olsaydı...Keşkə, keşkə...

Fəqət...özüm də bilirəm ki, elə şey yoxdur!Qırx il nədir, otuz il nədir, iyirmi il nədir, on il nədir, beş il nədir... heç beş dəqiqə əvvələ də qayıdış yoxdur. Heç beş saniyə əvvələ də dönüş yoxdur. Bu yolda geri gediş yoxdur.Zamanın çapar atı ancaq bir tərəfə, irəli çapır. O irəli dediyimiz, həm də yolun sonudur.Məni bu gün məyus edən, peşmançılıq hissi yaşadan əsas məsələ də elə bu həqiqətdir, düşüncələrimin qarşıma qoyduğu bu həqiqət.Altımış il yel olub keçdi.Altımış ilin bir saniyəsini də artıq geri almaq mümkün deyil. Divarda gecə-gündüz yol gedən saat da təkcə vaxtı göstərmir...yox...o saat, əslində bizim ömrümüzü hesablayır.Həm də sona doğru hesablayır... Budur, mən bu sətirləri yazana qədər artıq ömrümüzdən üç saat da getdi...

Nəsibə Günəş.2 mart.2012. Avropa.

ANALOQU OLMAYAN ÖLKƏ...

...İçində yaşadığımız cəmiyyətin əcaib nöqsanlarına elə alışmışdıq ki, sanki hər şey elə belə də olmalı imiş, sanki başqa cür yaşamaq mümkün deyilmiş.Ancaq bir şey də var ki, bu bədbəxt millət başqa cür yaşamağın var olduğundan da xəbərsizdir axı...Başqa cür yaşamağı görənlər də, dadını bilənlər də elə xalqı bu günə qoyanlardır.Onlar hər zaman əllərindəki hüdudsuz imkanlardan istifadə edib dünyanın gəzməlisini gəzirlər, görməlisini görürlər, demokratik ölkələrdə demokratiyanın insana verdiyi azadlığı, bərabərliyi, haqqını tələb edə bilmək hüququ olduğunu görür, evə dönüb götür-qoy edir, "Yox bu bizə sərf eləməz", deyib insanları qapısının köləsi kimi hər şeydən məhrum edirlər. İllər, əsrlər boyu dörd tərəfi sinirlənib bərk-bərk qapısına qıfıl vurulmuş bir qapalı mühitdə, bir qarın çörəyi qazanmaq naminə kölə kimi çalışan, elə kölə kimi çalışdığı üçün də başını qaldırıb bu insafsızlığı törədənlərə qarşı etirazını bildirməyə nə güçü, nə də cəsarəti çatmayan insanlar hardan biləydilər ki, başqa cür də yaşamaq olarmış?

Vərdiş ən pis alışqanlıqdır.Hər cür xəstəlik sağala bilər, ancaq vərdiş sağalmaz.Mənim xalqım kölə ölmağa alışdı.Necə ki, heyvanı əhliləşdirmək onu əvvəl döyüb, sonra yemək verməkdən keçir, mənim xalqımı da əzib-əzib müti qula döndərdilər. Əhliləşdirdilər. İndi ona bircə işarə kifayət edər ki, dünyanın ən ağ yalanını ağzına alıb bülbül kimi ötsün.Bu gün mənim xalqım bir parça çörəyə möhtac qalmamaqdan ötrü, sərvəti aşıb-daşan bir dövlətdə onu bu kökə salanların qəzəbinə gəlməmək üçün nə desələr, edər. Əxlaqsızlığın, tərbiyəsizliyin, mədəniyyətsizliyin, ən əsas da yoxsulluğun baş alıb getdiyi bir cəmiyyətdə yuxarı təbəqələrin nümayəndələri ancaq bir əldən alıb, o biri əldən də üzü yuxarı

ötürdükləri rüşvətin hayındadılar.Korrupsiya elə səviyyəyə çatıb ki, artıq hər hansı bir işdə çalışan işçi bütöv bir maaşını balalarının boğazından kəsib müdürünə versə də, bu yetərli olmur.Bir ayın zəhmət haqqından əl çəkən insanı, bir də rüşvət alıb həmin o maaşın üstünü düzəltməyə vadar edirlər.Rüşvət ala bilməyib bu qaydanı pozanları sıxışdırıb sıradan çıxarırlar.Onların sonrakı talehi heç kimi maraqlandırmır.Onların yerini, iştahı günbəgün artan başqa rüşvətxor tutur, həm də yeni gələn, qanunu pozanların aqibətini gördüyündən, işinə canla-başla girişir.

Nəsillikcə tərifi çox sevən, millətə saxta tərifləri dedirdib, bu eyforiyadan da başı gicəllənən dövlət başçılarına, bu tərifin onların ən zəif yeri olduğunu bilə-bilə, gecə gündüz tərif dedirdir, onları bir an belə, bu tərifərin gətirdiyi sərxoşluqdan ayılmağa qoymurlar.Tərif bu gün ifrat dərəcəyə çatıb.Dövləti idarə edən qurumlar əlbir olub, bu gün prezidentin atasına, sabah anasına, o biri gün babasına, nənəsinə, əmisinə, dayısına, qaynatasına, arvadının babasına, qardaşlarına nə bilim daha kimlərə, daha kimlərə yubileylər təşkil edir, millətin boğazından kəsdikləri pulları respublikanın ən kiçik qəsəbəsi bir yana, xarici ölkələrdə də, bu yubilyarlara qoyduqları on metrəlik heykəllərə xərcləyirlər. Vətəndaşının sosial təminatı ilə sağlamlıq sığortası belə olmayan bir ölkədə, xalqı elə hala salıblar ki, yeddidən yetmişə, hər kəs bu durumu tərifləyir, bu biabırçılığa şerlər yazır, mahnılar qoşur.Ölkəyə təşrif gətirən ən nüfuzlu ölkənin başçısını da, dünya xəritəsində gözlə görünməyən ən ucqar qamışlıqdan gələn nümayəndəni də, prezidentin atasının-anasının heykəlinə baş əyməyə aparırlar. Kütləvi informasiya vasitələrini, mətbuatı, radionu, televiziyanı eyni mərkəzdən idarə edir, hər şeyi nəzarətdə saxlayır, sözün düzünü demək istəyən hər kəsi zəhmləri ilə qorxudub, susmağa, yalnız tərif deməyə məcbur edirlər.Bütün ölkə

silsilə xarakterli kompanyalar keçirməklə məşğuldur.Prezident ailəsindən olan hər kəsin yubileyi, anadan olan günləri, toy günləri və sair, uşaq bağçasında da, orta məktəbdə də, ali məktəbdə də, bütün iş yerlərində də eyni ciddiyyət və eyni təm-təqla məcburi şəkildə keçirilir. Respublikanın keçmişində, indisində, gələcəyində olmuş, olan və olacaqlar hamısı mütləq keçmiş prezidentin, yəni indiki prezidentin atasının adı ilə əlaqələndirilir.Sanki bu ölkədə nə ondan əvvəl, nə də ondan sonra bu qədər dəyərli kimsə olmamışdır.Bu yaltaq təbliğat maşınının yaratdığı obraza diqqətlə fikir verəndə, bir peyğəmbər obrazı yaratmaq cəhdləri aydınca görünür.Mənim kölə xalqımın bundan xəbəri yoxdur yəqin.Öz xalqının qanı bahasına hakimiyyət kürsüsünə oturub, ömrünün son gününə kimi bu xalqın qanını içən, öləndə də yerini min bir oyunla öz oğluna verən bir diktatoru peyğəmbərlik səviyyəsinə qaldıran mənim kölə xalqım, bu hərəkətlə Allaha qarşı getdiyini anlamasa, irəlidə cəzası artacaq ki, azalmayacaq...Qürbət elin çəkilməyən fikirlərindən biri də budur ki, ağır nəfəsindən gecələr yuxularımız ərşə çəkilsə də, hər açılan sabahdan xoş xəbərlər umaraq, ümid dolu gözlərimizi yollara dikərik...

Nəsibə Günəş.noyabr-2004.

BACARMIRAM...

İstəyirəm, bu dünyanı necə varsa, elə sevəm,
Hər üzünü əzbər bilib, dəyişmədən, belə sevəm.
Qanqalını, tikanını bənzədərək gülə, sevəm,
Bacarmıram...

İstəyirəm, bu dünyada kimi görsəm qucaqlayam,
Bağrıma basıb hər kəsi sevindiyimdən ağlayam.
Güvənəm dostun sözünə, vəfasına bel bağlayam,
Bacarmıram...

İstəyirəm, gördüyümü, duyduğumu gözəl yozam,
İnsanların haqqındakı bütün böhtanları pozam,
Istəyirəm ömür boyu yaxşılıqdan dastan yazam,
Bacarmıram...

İstəyirəm, bu dünyadan pisliklәri söküb atam,
İnsanların dedikləri hər kəlməyə şəkər qatam.
Başımı yastığa qoyub gecələri rahat yatam,
Bacarmıram...

İstəyirəm, ətrafımda gül üzlü insanlar görəm,
Onların məhəbbətinə, hörmətlə qarşılıq verəm,
Ayaqlarının altına gül-çiçəkdən palaz sərəm,
Bacarmıram...

Bəlkə dünya namərdlikdən, xəyanətdən təmizlənsə,
Hər kəs dosta vəfa etsə, sevginin qədrini bilsə,
Biri murada çatanda, milyonların üzü gülsə,
Mərhəmət geri qayıdıb gözlərin yaşını silsə,

Bəlkə mən də inanmağı, güvənməyi bacararam,
Dostda vəfa gördüyümdə sevinməyi bacararam,
Bu dünyanın xoş günüylə öyünməyi bacararam.
Vallah, billah, bacararam...bacararam.

Nəsibə Günəş.26.08.2011.Belçika.

BULUDLARDAN BOYLANAN GÜNƏŞ...

....Unutmayaq ki, biz bu aləmdə tək deyilik, bizi hər zaman görən var, çəkdiyimiz zəhmətin hesabını aparan var, dəyərini verən var.Yaradan hər zaman mübariz insanları mükafatlandırmağı sevir.Çünki, onun üçün önəmli olan, bir insanın başına gələnlər deyil, o insanın təmiz niyyətidir...N.G.

2008-2009--Belçika.

Roman

Romanda təsvir olunan hadisələr
Müəllif təxəyyülünün
məhsuludur.N.G.

Nə sərt küləк, nə yağan qar,

Əsər etməz qoca ruhun dincliyinə,
Sakit qalan bu duyğular
İşıq salar ötən ömrün gəncliyinə.
Bir həzin mahnı səsindən
Ən kövrək hisslər oyanar, qəlbim yanar...yanar...yanar...

Nəsibə...

==1.

Bakının payızı, solub yerə tökülmüş sarı-qırmızı xəzəli ilə, bu xəzəli bir qəfil yerlərdən qamarlayıb göyə sovuran xəzri küləyi ilə, qaşqabaqlı qara buludların öz acığını yağışa çevirib dünyaya yağdırdığı leysanları ilə yenə gəlib qapını kəsdirmişdi.Belə havada, insanlar bir az passivləşib içlərinə çəkilir, bir az romantik, bir az da duyqusal olurdular.Bu fəsildə, həm də belə havada, əyər ətrafdakılara nəzər salan olsa, çoxlarını dərin düşüncələrə dalmış görərdi.İnsanın diqqətini maqnit kimi özünə çəkən fikirlər, kimini keçmişin xatirələrinə qaytarır, kimini də lap elə bu gün öhdəsindən gəlməkdə çətinlik çəkdiyi hansısa problemin ətrafında dönüb-dolanmağa vadar edirdi.

Böyük şəhərin insan sıxlığından əziyyət çəkdiyi gözlə görünürdü.Geniş küçədə, daha çox tünd rənglərdə paltar geydikləri üçün, qatı kütlə kimi irəli-geri hərəkət edən insan axını, irəlidəki yol ayrıcında müxtəlif istiqamələrə dönsə də, döngələrdən o tərəfdə də sıxlıq azalmırdı.Sanki şəhər sakinləri eyni vaxtda sözü bir yerə qoyub küçələrə tökülmüşdü.Bunun səbəbi, ölkə ərazisinin baxımsız vəziyyəti, rayonlarda yaşayan insanların paytaxtdan uzaqda çəkdikləri min-bir əziyyət idi.İllərdən bəri heç kimin yadına düşməyən bərbad yollar, ocağında qaza, çeşməsində suya, mağazalarında ərzaq çeşidinə həsrət qalan kəndlər, artıq neçənci nəsli beləcə yola salmışdı. Hər il payız fəsli girər-girməz, elə birinci yağışlardan sonra yolları keçilməz hala düşən, qar yağması ilə ətraf mühitlə əlaqəsi tamamilə kəsilən belə ucqar kəndlərdə insanlar illərlə ömür çürüdürdülər.Ancaq yeni nəsil, daha belə yaşamaq istəmirdi.Artıq heç kim bu qədər dərinləşmiş problemlərin nə vaxtsa düzələcəyinə inanmırdı.Yaşlılar hər çətinliyə dözə-dözə ömürlərini ata-baba yurdunda başa vurmağı qərara alsalar da, gənclər artıq onları düşünmür, bu cür yaşamağa son verib Bakıya daşınırdılar. Yeddi milyonluq respublikanın yeganə abad şəhəri olan paytaxt Bakı, eynilə "Əlcək" nağılındakı kimi dolduqca dolur, yaşamaq bir yana qalsın, küçədə gəzişmək üçün də darala-darala gedirdi.Avtobus dayanacaqlarında, mağazaların önündə, səkilərdə, hər yerdə insanlar toplaşır, az qala çiyin-çiyinə dayanırdılar.Bu mənzərə kənardan çox cansıxıcı görünürdü.Ancaq öz fikirləri ilə yüklənmiş insanlar bunun fərqində deyildilər.Elə fərqində olmadıqları üçün də, yol hərəkəti qaydalarını pozaraq yolu hardan gəldi keçir, nəqliyyatın hərəkəti üçün maneə yaradırdılar.

Hər dayanacaqda bir az da dolan, sonra da önündən asta-asta keçən insan axınını yarıb keçməyə fürsət gözləyən avtobus hərəkətə gələndə, bayaqdan gözü yol çəkən gənc qadın, birdən xiyabanla yeriyən izdihamın içində tanış bir sima gördü.Əvvəl ona elə gəldi ki, yanılır, kimisə birinə bənzədir.Avtobus irəliləyib həmin adamın bərabərinə çatanda, hansı bir quvvənin təsirilə, o da dönüb baxdı. Baxışları toqquşdu.Şübhə yeri qalmadı.Bu o

idi.Avtobus irəlilədikcə, o da maraqdan böyümüş gözlərilə qadını gözdən itənə kimi ötürdü.Qadın bu gözlənilməz təsadüfdən elə bir təlaş keçirtdi ki, həm boğazı qurudu, həm də ürəyi qulaqlarında vurmağa başladı.Onu bu hala salan səbəb çox ciddi idi.Çünki, az öncə gözü ilə gördüyü kabus bir həqiqət idisə, deməli onun sakit, düzənli həyatının sonu gəlmişdi. Bu görüş onun həyatında ən arzuolunmaz bir şey idi.Deməli, bu gün onlar ikisi də bir şəhərdə yaşayırdılar.Belə olan halda, baxışları ilə onu təqib eləmək heç də yaxşı iş olmadı.İndi o, bu baxışmadan başqa məna çıxarda bilər, qadını axtarmaq fikrinə düşərdi.Əslində, əyər bu o idisə, onsuz da qadını axtaracaqdı.Bu fikirdən gənc qadın üşəndi." Ay Allah, bircə bu olmasın, sonra mən neyləyərəm? Kamrana nə deyərəm? Olanları ona necə başa salaram? Hər şey elə o gün bitər. Kamran bağışlamaz məni.Kim bağışlayar ki?Allah, mənim nə görəcəyim var! Yəni hər şey təzədən başlayacaq?Yəni mən insan kimi yaşaya bilməyəcəyəm?"

Gənc qadın illərdən sonra özünə ailə həyatı qurub hüzur tapmışdı.İndi gözlənilmədən peyda olub onun qorxunc macəralarla dolu keçmişini yada salacaq, indiki sakit həyatını təhlükəyə atacaq bir insanın ortaya çıxması, onun üçün ən dəhşətli bir yenilik idi.Bu yenilik üzə çıxdığı ilk andan onun həyatında qiymətli nə vardısa, hamısını elə o an uçurumun kənarına gətirib ən təhlükəli vəziyyətə qoydu.Bircə kiçik səhv, bircə yalnış addım kifayət idi ki, qadının bütün həyatı o uçurumdan üzü aşağı yuvarlansın.O, öz fikirlərindən dəhşətə gəldi.Bədənini soyuq tər basdı.Bayaqkı baxışları xatırladı, ona elə gəldi ki, o baxışlar hələ də onu təqib edir.Keçirdiyi həyəcandan başı döndü, ürəyi bulandı. Növbəti dayanacaqda tələsik avtobusdan endi, özünü yaxındakı skamyaya güclə çatdırdı.Oturan kimi üzünü arxa tərəfə çevirib ödünü qusdu.Sonra dəsmalla üz-gözünü sildi, bu soyuqda çantasından kağız çıxardıb üzünü yelləndi.Sakitləşməyə çalışdı.Bundan sonrakı dayanacaq lap evlərinin qarşısında olacaqdı, ona görə də yarı yolda enmişdi ki, bir az sakitləşsin, özünü ələ alıb bir az düşünsün.Ancaq panikə qapıldığından beyni kütləşmişdi, heç nə düşünə bilmirdi."Mən

Azərbaycan Milli Kitabxanası

yuxumu gördüm, yoxsa bu o idi? Bu qədər vaxtdan sonra hardan gəlib çıxdı? Görəsən tanıdımı məni? Hələ bir soruşuram da, əlbəttə tanıdı.Yoxsa boynu dönənə kimi niyə baxırdı? Əyər bu odursa, evimi yıxacaq, ailəmi dağıdacaq, məni Seymurumdan edəcək.Allah, bəs indi mən neyləyim?"

Qadın bu qısa zaman içində bütün dünyanı unudub onu qorxuya salan bu sualın cavabını axtararaq xeyli dodağının altında öz-özüylə danışdı.Birdən xatırladı ki, evə tələsməlidir, evdə onu oğlu, həyat yoldaşı gözləyir.Bu an özü də hiss elədi ki, yadına düşən iyrənc keçmişi ilə, bu günkü təmiz ailə həyatının bir insan talehində yeri yoxdur.Bu fikirdən sarsıldı, sanki içində nəsə qırıldı.Ürəyindəki tələtümlərlə avtobusa minməyə cəsarəti çatmadı.Onsuz da havasızlıqdan boğulurdu.Odur ki, qalxıb xiyabanla piyada evə getməyə başladı.Ayaqlarından elə bil pudluq daş asılmışdı.Hər gün qaranquş kimi yuvasına tələsən qadın, bu gün həmin yolu ayaqlarını sürüyə-sürüyə gedirdi.Sanki evdə artıq hər kəs hər şeyi öyrənmiş, məhkəmə qurub onu gözləyirdi.

...Həyatının qara günləri başlayanda Gülxarın vur-tut on iki yaşı var idi.O böyük bir kəndin kolxoz sədrinin ailəsində doğulmuş yedanə övlad kimi, bura qədərki həyatını çox qayğısız yaşamışdı.Yeddi illik qurbandan sonra doğulub, bir evin aman-zaman bir qızı olduğu üçün, Gülxar az qala, nağıllardakı şahzadələr kimi böyüyürdü.Onun hər arzusu atası üçün günün ən vacib işi olurdu.Dünyanın bütün irili-xırdalı məsələləri Gülxarın arzılarından sonra gəlirdi atası üçün.Çox heyif ki, belə bir həyat uzun sürmədi.Günlərin bir günü Gülxarın atası rayon mərkəzindən evə dönəndə, gecənin qaranlığında güclü qasırğaya tuş gəldi.Leysan sularının əmələ gətirdiyi sel onu maşını qarışıq körpüdən aşırtdı, ağzına alıb apardı.Üç günlük axtarışdan sonra sədrin maşınını meyidi ilə birlikdə sel sularının əmələ gətirdiyi palçıq topasından tapıb çıxartdılar.Həmin o dəhşətli hadisə, həmin o faciəli müsibət, balaca Gülxarın həyatında bəxtinin qaraçuxasi yatan gün kimi bir başlanğıc olub bütün talehinə kölgə saldı.Onda Gülxarın cəmi on yaşı var idi.O gündən sonra bura qədərki həyatı, Gülxara kimdənsə eşitdiyi nağıl qədər uzaq oldu. Atasız qalmağı onu ən uca zirvədən yerə

vurmuşdu.Doğrudur, anasının sonsuz məhəbbəti, bir də qohumların az-çox köməyi onu çox da ehtiyac çəkməyə qoymurdu.Ancaq bu, artıq əvvəlki həyat tərzindən çox fərqlənən, ara-sıra onları kimlərəsə möhtac edən bambaşqa bir həyat idi.Gülxar atasının sağlığında çox əzizlənmişdi, ancaq əsla ərköyün böyüməmişdi. Odur ki, anası ilə yaşadığı illərdə tapdıqları ruzuya, kasıbyana yaşayışa tez uyğunlaşdı.Hər işdə anasına kömək oldu, onun ruhdan düşməməsi üçün, həyatdan küsməməsi üçün əlindən gələni elədi.Di gəl ki, gənc qadını içindən yeyib bitirməkdə olan qorxunc xəstəlikdən Gülxarın xəbəri yox idi.Ömür-gün yoldaşı olub, görünüşündən, davranışından bəyzadəlik yağan, gözəl bir insanı itirdiyindənmi, yoxsa birdən-birə düşdükləri acınacaqlı vəziyyətdənmi, yazıq qadın sağalmaz bir dərdə düçar olmuşdu.Qismətinə məsul bir şəxsin arvadı olmaq düşmüş, evində həmişə mötəbər qonaqlar qəbul eləmiş bu xanım-xatın qadın, dərdini heç kimə bildirməmiş, ağrısını-acısını içində çəkə-çəkə şam kimi ərimişdi.Onun son vida gününü Gülxar heç zaman unuda bilməyəcəkdi. Rəngi-ruhu saralmış, tanınmaz hala qalmış qadın nigaran baxışlarını dünyaya əbədilik yummadan əvvəl, Gülxarı bu qoca dünyada yalqız qoyub getdiyi üçün gözündən iki damla yaş süzüldü.Gülxarın əlini bərk-bərk sıxdı, sonra üzünü yana çevirib əbədiyyətə qovuşdu.Gülxar on iki yaşında tək qaldı.Böyük bir nəslin yetim qalmış qızı, həyatının bundan sonrasını, sözün əsil mənasında qapılarda keçirtdi.Ona ocağının başında sığınacaq verən qohum-əqrəba, yarası hələ tam sağalmamış bu qızcığazı insafsızcasına istismar eləməyə, elə ailəsinə qəbul elədiyi birinci həftədə onunla evin qulluqçusu kimi rəftar eləməyə başladı.Atasının sağlığında qapılarından əskik olmayan, hər düşən fürsətdə öz sədaqətlərini göstərməyə çalışan qohumlar, indi birdən-birə zalımlaşmış, heç bir günahı olmayan balaca, kimsəsiz qıza qarşı amansız olmuşdular. İnsanlar öz evlərində, ailələrində rastlaşdıqları problemlərin heyifini sanki bu balaca qızcığazdan çıxırdılar.Belə çıxırdı ki, Gülxarın o bəxtəvər günlərində insanların ürəyində toplanmış qısqanclıq, indi onun yalnız qaldığı zamanda üzə çıxır, insanların iç üzünü göstərirdi. Onun hər hərəkəti ilə, davranışı ilə kiçik bir şahzadəyə bənzəməsi nədənsə, hər kəsi qıcıq-

landırır, onun mədəni davranışları ətrafındakı insanları əsəbiləşdirirdi. O, rast gəldiyi haqsızlıqların səbəbini anlaya bilmir, hər evdə boynuna qoyulan işləri canla-başla yerinə yetirir, ancaq özü də bilmədən, bu hünəri ilə də hər kəsdən ancaq qısqanclıq, kin, nifrət qazanmış olurdu.

Gülxar bunların səbəbini anlamaq üçün çox kiçik idi."Bağda ərik var idi..." atalar sözünü çox sonralar anlayacaqdı ki, onda da çox gec olacaqdı. Anası rəhmətə gedəndən sonra Gülxarı öz evlərində tək qalmağa qoymadılar.Doğrusu, Gülxar nə qədər qoçaq qız olsa da, özü də o evdə qalmaqdan qorxurdu.Atasının da, anasının da ölüsünü bu evin ortasında qoymuşdular.O yerə Gülxar uzun zaman qorxusuz baxa bilmirdi.Ancaq sonra anlamağa başladı ki, bütün qorxulu hadisələr sən demə o evdən kənarda imiş.O ev, əslində Gülxarın ən güvənli sığınacağı ola bilərdi, ancaq qohum-qardaş saxta canıyananlıq göstərib onu öz yuvasından çıxartdı.Bu evdən kənarda isə onu həyatın amansız zərbələri, daşqəlbli insanların zalımlıqları, fələyin sərt üzü gözləyirdi.

==2.

İlk qaldığı ev əmisinin evi oldu.Bu evdə Gülxar Səttar əmisinin məhəbbətini əvvəllərdəki kimi hiss edirdisə də, əmisinin arvadı Fatmanın və əmisi qızı Suğranın əsil üzünü gördü, nə qədər riyakar olduqlarının şahidi oldu.Onlar Gülxara evin ən ağır işlərini buyurmaqdan, onu yerli-yersiz danlamaqdan böyük bir zövq alırdılar.Suğra ilə Gülxar bir sinifdə oxuyurdular.Bir zamanlar öz çalışqanlığı ilə sinfin gözü sayılan Gülxarı indi həftələrlə dərsə getməyə qoymur, onu ev işləri ilə yükləyirdilər.Əvəzində Suğra Gülxara məxsus olan, həm də Gülxarın yuyub ütülədiyi paltarla dərsə gedir, ev tapşırıqlarını da ona elətdirirdi.Ana-qız gün boyu evdə olanları əmisinə xəbər verməsin deyə, hər axşam onu hədələyirdilər də.O da susurdu, başı gecə-gündüz işə qarışmış əmisinin qanını qaraltmağa ürəyi gəlmirdi.Bu bir müddət belə davam elədi.Günlərin bir günü əmisi arvadı öz mirvari boyunbağısını tapmayanda Gülxarın üstünə hücum çəkib boyunbağını geri verməyi tələb elədi.Gülxar nə qədər and-aman

elədi ki, mənim boyunbağıdan xəbərim yoxdur, inanan olmadı.Bu azmış kimi, Suğra da böyürdən çıxıb onun üzünə durdu.Gülxarın boyunbağını götürdüyünü öz gözü ilə gördüyünü dedi.Fatma da elə bunu gözləyirmiş kimi, Gülxarı yun çubuğu ilə o ki var döydü.Bu səs- küyə qonşu həyətlərdən tökülüb gəldilər.Xəbər gedib Gülxarın böyük bibisi Leylaya çatdı.O gəlib qardaşı arvadı ilə dava elədi, aralarındakı köhnə haqq-hesabları ortaya töküb Gülxarı da götürüb getdi.Aradan az bir zaman keçmişdi.Bir gün Gülxar kənd meydanında Suğrayla üz-üzə gəldi.Onlar bir-birini dindirməsələr də, göz-gözə gəlib baxışdılar.Suğranın boynundakı mirvari boyunbağı da Gülxarın gözündən qaçmadı.Demək o oğurluq məsələsi lap başdan qurma imiş, demək Suğranın məqsədi Gülxarı evlərindən qaçaq salmaq imiş.Gülxar başını dik tutub Suğranın yanından ötüb keçdi.Sağlığında, kolxoz sədri hər dəfə şəhərdən gələndə Gülxar üçün aldığı hədiyyənin eynisini Suğra üçün də alardı.İndi, yolboyu Gülxar bunları xatırlayaraq, insanların dönüklüyünə acı-acı gülümsəyirdi.

Gülxar bibisigildə vur-tut üç-dörd gün əziz-xələf oldu.Burda da bibisi oğlu Xəlil ona qənim kəsildi.O yana da keçəndə Gülxarın başına bir qapaz vurdu, bu yana da keçəndə.Burda da evin bütün ağır işləri onun öhdəsinə düşdü.Du gəl ki, onun boyundan böyük işlərin öhdəsindən canı çıxa-çıxa gəlməsinin nə qədri bilindi, nə də qiyməti.Xəlil Gülxarın sədr maşınında gəzdiyi günləri, kəndin şahzadəsi olduğunu, onları guya ki, adam yerinə saymadığını başına qaxıb, hər fursətdə onun başının qapazını əskik eləmirdi.Beləcə, vur-tut on il atalı-analı yaşayışını ən yaxın qohumları onun gözündən fitil-fitil tökürdü.Gülxarın gecələr gözünün yaşı yastığını islatsa da, gündüzlər çəkdiyi əzablara inadla dözür, hamının gözü önündə ağlamamağa çalışırdı.Leyla bibi Gülxarın Xəlildən olan şikayətlərini ilk vaxtlar dinləyər, Xəlilə acıqlanardı.Ancaq çox çəkmədi ki, Leyla bibi Gülxara acıqlanıb bu şikayətlərdən bezdiyini dedi, bir də Xəlilin adını ağzına almamağı tapşırdı."Əyər bu evdə qalmaq xoşuna gəlmirsə, get, harda qalırsan, qal! Bütün kənd qohumundur!"--dedi.Beləcə Gülxar o evdən bu

evə, o qohumdan bu qohuma, kəndin yarısını gəzdi, hər evdə gecə-gündüz işlədi, çalışdı.Öhdəsindən gəldiyi işlərə görə çox "sağ ol" eşitmədisə də, öhdəsindən gələ bilmədiyi işlərə görə üzü hey danlandı.

İki il də belə keçdi.Gülxar böyüyürdü.İndi onun artıq on dörd yaşı var idi.Tərs kimi, atasından uca boyu, qaməti, anasından gözəlliyi son damlasına kimi almışdı.Özü də başa düşürdü ki, ömrü yad qapılarda keçən yetim bir qız üçün bu gözəllik baş bəlasından başqa bir şey olmayacaq.Odur ki, üz-gözünü bilə-bilə hisə-pasa bulaşdırır, görkəminə fikir vermir, ürəyinin bir küncündə isə gizlin-gizlin zəif bir ümid yaşadırdı.Bu ümid ona günlərin bir günü bu kimsəsiz qızın gözəlliyini, insani keyfiyyətlərini bəyənən birinin ortaya çıxıb onu bu əzabdan qurtaracağını deyirdi.Gülxar da o günü gözləyirdi.Kənd yerində bu yaşda da qızları ərə verirdilər.Gülxar da yaşadığı bu əzablı həyatdan can qurtarmağın tək yolunu ərə getməkdə görürdü. Kənd əhlindən heç kim onun ürəyinə yatmırdı.Tanıdığı, bildiyi hər kəsdən o qədər pislik görmüşdü, o qədər əziyyət çəkmişdi ki, bu kənddə nə vaxtsa xoşbəxt ola biləcəyinə inanmırdı.Onun xəyal qəhrəmanı hardansa, uzaqdan gələcəkdi.Onu bu, canavar xarakterli, daş ürəkli insanların əlindən alıb aparacaqdı.Ona layiq olduğu isti yuvanı, ehtiyac duyduğu güclü məhəbbəti verəcəkdi.Gülxar bunun nə vaxtsa gerçək olacağına inanırdı.Gözü yollarda o günü gözləyirdi.Gözlədiyi müddətdə də hisin-pasın içində təndirə çörək yapır, qaldığı ailənin evini təmizləyir, iki mərtəbəli binanı başdan-başa əhənglə ağardır, toyuq-cücənin, mal-qaranın altını təmizləyirdi.Yorulurdu, amma "uf" demirdi.Çünki, özü də bilirdi ki, bu "ufu" eşidib ona rəhmi gələn olmayacaqdı.Qəribə burası idi ki, bir zaman kəndin sahibi sayılan, hər kəsin dərdinə-sərinə can yandıran, gecə-gündüz elin-obanın firavan yaşaması üçün əlləşən bir adamın yetim qalmış tək bir övladına canı yanan, qoltuğuna çəkib öz balası kimi sevən kimsə tapılmadı.Halbuki kəndin tən yarısı Gülxarın ya atası tərəfdən, ya da anası tərəfdən qohumu idi.Gülxar artıq bunları düşünüb beynini yormurdu, o öz qismətini gözləirdi.

Gülxar, böyüyüb gözəgəlimli olduqca, ona ehtirasla baxanların sayı da artırdı.Bunların arasında subay, yeniyetmə oğlanlar olduğu kimi, evli kişilər də var idi ki, onların baxışları Gülxarı qorxudur, ətini ürpədirdi.Yeniyetmələr ona vurğun baxışlarla baxırdılarsa, evli kişilərin baxışlarında bir güçlü ehtiras, bir yırtıcı şəhvət var idi.Bu baxışların altında yazıq qız özünü sanki soyunmuş, çılpaq hiss edirdi.O, bu vəziyyətdən çox qorxur, həmişə adam içində olmağa çalışırdı.Bir dəfə, az qala qorxduğu başına gələcəkdi də.Gülxar artıq uzaq qohumlarından birinin evində qalırdı.Evin gəlini hamilə idi, meylinə göy qutabı düşmüşdü.Axşam düşməsinə baxmayaraq, qayınana Nazlı arvad bir bıçaqla bir torbanı Gülxarın əlinə verib onu tərə yığmağa göndərdi.İstənilən tərəni toplamaq üçün kənddən çıxmaq lazım idi.Gülxar kənddən uzaqlaşmağa qorxdusa da, etiraz eləməyə cəsarəti çatmadı.Torbanı, bıçağı götürüb kənddən çıxdı.Axırıncı evlərdən bir az uzaqlaşmışdı ki, kəndin qoyun sürüsünü lap kəndin yaxınlığında otlayan gördü.Qanı bir az da qaraldı.İndi kənddən bir az da uzağa getməli idi ki, bir şey toplaya bilsin.Gülxar sürünün yanından keçəndə, kəndin çobanı Bəhmən kişi onu görüb təəccüblə soruşdu:

--A bala, axşam vaxtı hara gedirsən belə?Qorxmursan ki, qabağına qurd-quş çıxar?

Gülxar Bəhmən kişinin bu qayğısından kövrəldisə də, bunu biruzə vermədi:

--Neyləyim, Bəhmən baba, Nazlı xala gəlini üçün göy qutabı bişirəcək, məni tərə yığmağa göndərdi.

--Ay o Nazlı xalanın insafını Allah kəssin! Bu vaxtı qız xeylağını da çölə göndərərlərmi? Biz görmüşük tərəni səhər-səhər yığarlar.Axşam vaxtı nə xəbər idi?

--Nə bilim, Bəhmən baba, sən narahat olma, mən heç nədən qorxmuram.

--Çox da uzağa getmə, bala, canavar bu illər acından adama gəlir.Elə bir az irəlidə nə topladın, topladın, tez də qayıt gəl.

--Yaxşı.

Gülxar yoluna davam elədi.İrəlidə bir təpə var idi, Gülxar neçə dəfə kəndin qızı-gəlini ilə o təpənin araxasından tərə toplamışdı.İndi

də ora getməyi düşünürdü.Hava qaralana kimi bir xeyli toplaya bilərdi.Gülxar təpəni aşıb həmin yerə gəldi, torbasını yerə qoydu.Diz üstə oturub bıçaqla tərə toplamağa başladı.Ətrafda quşların səsindən başqa bir səs yox idi.Quşların səsi də olmasa, səssizlikdən qulaq tutulardı.Gülxar çox sevdiyi "Sona bülbüllər" mahnısını zümzümə eləyə-eləyə bir xeyli tərə topladı.O əlindəki bıçaqla unlucanı, quzuqulağını, yağlıtərəni, əməköməcini, təlpətöyünü biçdikcə, havaya yeni biçilmiş ot-ələf iyi yayılır, Gülxarın özünü də məst edirdi. Gülxar yorğunluq hiss edib əlini saxladı, çəmənə oturub ətrafı nəzərdən keçirtdi.Günəş artıq qarşıdakı dağın arxasına enirdi.Qürubun qızartısı ilə ətrafın səssizliyi Gülxarın ürəyinə bir tənhalıq xofu saldı.Gülxarın qorxmağı ilə, arxadan bir hənirtinin gəlməsi bir oldu.Gülxar cəld ayağa qalxıb arxaya döndü.Nazlı xalanın oğlu, həmin o hamilə gəlinin əri Kamil sıçrayışa hazırlanmış yırtıcı heyvan kimi dayanıb ona baxırdı.

Bu baxışlar qorxulu idi.Gülxarın sanki yer ayaının altından qaçdı.Kamil yavaş-yavaş ona tərəf gəlir, Gülxar da addım-addım geri gedirdi.

--Nə var ay axmaq, yoxsa qorxursan məndən?

Gülxar, onun dillənməyindən elə bil ürəkləndi.Bu onun hər gün gördüyü sırtıq, şorgöz Kamil idi.Adam içində özünü təlxək kimi aparan Kamilin başına hava gəlmişdi, nədir? O bura niyə gəlmişdi? Bu yerdə Gülxarın ağlına gələn fikirdən ürəyi bulandı.

-- Niyə gəlmisən bura? Tülkü kimi pusquda niyə durmuşdun? Yeri, yolunu get.

Gülxar torbasını götürüb Kamilin yanından sovuşmaq istəyirdi ki, Kamil əl atıb onun qolundan tutdu.

--Hara? Ağzımın suyu axa-axa qalıb, məni belə buraxıb gedəcəksən? Gəl bir az oturaq, söhbət edək.Ölürəm sənincün...

Dəhşətdən Gülxarın ürəyi ağzına gəldi:

--Qolumu burax, sonra peşman olarsan! Ağlını itirmə, burax məni, təlxək!

--Yoox, dünya dağılsa da bu fürsəti əldən buraxmaram, səni bilirsən nə vaxtdır güdürəm?Yaşının elə vaxtıdır ki, bir azdan onsuz

da əldən-ələ düşəcəksən.Kimlərə yem olacaqsan, özün bilərsən, ancaq indi mənim olacaqsan.

Gülxar onun iyrənc niyyətini anlamışdı.O, var gücü ilə müqavimət göstərir, Kamilin kəlbətin kimi qoluna kilidlənmiş əlini açmağa çalışırdı.Birdən Kamil onu özünə çəkib iki əlli qucaqladı.Gülxarın "Sənə dedim burax, binamus!"--deməsi ilə bıçağı Kamilin qoluna batırması bir oldu.Kamil bağırıb onu buraxdı, özü də yerə oturub zingildəməyə başladı.

--Neylədin aaz, ay qancıq? Dayan, dayan, səni doğramaq mənə borc olsun! Ay-ay-ay, get kəndə adam çağır, tez ol, ölürəm...Əlbət evə dönərik, gör sənin başına nə oyun açacağam...Sən bunun bir hünərinə bax...Yetimçə...

Gülxar tərə yığılmış torbanı da, bıçağı da Kamilin üstünə atıb dedi:

--Cəhənnəmə, gora öl! Canın çıxsın, necə gəlmişdin, elə də get! Tüpürüm sənin özünə də, evinə də...

Gülxar hirsindən ağlaya-ağlaya geri dönürdü.O, öz bəxtindən, talehindən gileylənir, acığından dilini-dodağını gəmirə-gəmirə söylənirdi. Kəndə çatanda yenə Bəhmən kişiyə rast gəldi.Bəhmən kişi alaqaranlıqda onun halını görmədi, dedi:

--Hə, döndünmü, qızım? Kamil səni tapmadı? Bayaq burdan keçdi, səni axtarırdı, görünür narahat olub.

Gülxar birdən müvazinətini itirib yerə çökdü, Bəhmən kişi qorxdu.

--Bay, sənə nə oldu, bala? Gülxar, qızım nə oldu?

Gülxar hönkürtü ilə ağlamağa başladı.

--Bəhmən baba, kaş mən də atamla, anamla öləydim.Onları itirdiyim gündən günüm gün deyil.Mən niyə sağ qalırdım, axı...

Yaşlı çoban arif adam idi, hər şeyi başa düşdü:

--Olmatya o dəyyus sənə bir şey elədi? Qorxma, de, bütün kəndi ayağa qaldıraram, onun nəslini kəsdirərəm.Sən bizə Mənsurun yadigarısan ey, nə deyib səni incidərlər?

Gülxar uzun zamandan bəri ilk dəfə atasının adını eşitdi.

Sanki atasının adı ona güc-qüvvət verdi, o tez özünü ələ alıb ayağa qalxdı.

--Yox, Bəhmən baba, mən onu vurdum, bıçaqla...İndi bilmirəm nə olacaq?

--Öldürdün?

--Yox ey, qolundan batırdım.

--Onda qorxma, o özü qorxusundan heç kimə heç nə deməz.Sən də özünü bilməməzliyə vur, heç elə bil xəbərin yoxdur.

--Axı onlarda qalırdım, indi necə gedim o evə?

Bu yerdə Bəhmən kişi güldü:

--Sənə kim deyir ki, o evə qayıt, qayıtma, gedək bizdə qal. Kasıbçılıq da olsa, bir Kəklik nənəndir, bir də mən.Verərik başbaşa...

--Doğru deyirsən? Qala bilərəm sizdə?

--Vallah, bəyənərsənsə, gözüm üstə yerin var.

--Niyə bəyənmirəm, Bəhmən baba?Təki sən izin ver.

--Bay, izin nədir, a qızım? Bəyəm qaldığın evləri sən özün seçmirdinmi?

Bu sözdən Gülxar doluxsundu:

--Ay səni, Bəhmən baba, heç qapılarda qalanın da seçmək haqqı olar? Kim evinə buraxdısa, orda da qaldım.Hansı gün qovdularsa, başqa qapıya getdim.Hansı evdə qaldımsa, o evdə işin qulpundan yapışdım ki, yediyim çörəyi haqq edim, ancaq hər evdə başıma min-bir macəra gəldi.Kaş sən bu təklifi mənə elə anam öləndə edəydin.Başım da bu qədər çəkməzdi.

O gündən Gülxar Bəhmən kişi ilə Kəklik nənənin yanında qaldı.Kamil doğurdan da heç kimə heç nə demədi.Qolunun yarasını hamıya, çəpərdən aşanda mıx batdı deyə, izah elədi.Qızın Bənmən kişigildə qaldığını eşidincə, qorxusundan bir müddət ortalarda görünmədi.Gülxarın mənzil dəyişməsinə bu kənddə hamı alışmışdı, ona görə də Gülxarın Bəhmən kişigilə getməyi, heç kimi təəccübləndirmədi.Yazıq qız, bu bir həsir, bir Məmmədnəsir olan kasıb komada o kənddə keçən ömrünün ən sakit günlərini yaşadı.

==3.

İllər su kimi axıb keçir, Gülxar da böyüyürdü.Aradan iki il də keçdi.Bu iki ildə o qızlar bulağından su içmiş, böyüyüb daha da

gözəlləşmişdi.Bəhmən kişinin evində özünə sığınacaq tapandan bəri, bu mehriban ixtiyar qocalarla yaşadığı gündən, qızcığaz özünü güvəndə hiss edirdi.Kasıb olsa da, bu kəndin ən yaşlı sakinlərindən biri olan Bəhmən kişinin kənddə böyük hörməti var idi, odur ki, ona sığınmış Gülxar da özünü arxalı hiss edir, daha heç kimdən qorxmurdu.Ötüb keçən müddətdə qızın yolunu kəsib şərəfsiz təkliflər edən, ona qarşı zor işlədib nəfsini söndürmək istəyənlər də oldu, sonralar əməlli-başlı elçi göndərib onu Bəhmən kişidən istəyənlər də.Ancaq nə bəd niyyətlərin sahibləri, nə də elçi gələnlər istədiklərinə nail ola bilmədilər.Gülxar bu kəndin onu təmiz qəlblə sevən oğlanına da, baxışlarından şərəfsizlik yağan kişisinə də eyni cür biganə idi.Onların heç birini bir daha görməmək üçün, o dünyanın harasına desələr, baş alıb gedərdi.Ancaq özünün qərar verib gedəcəyi bir yeri olmadığından, Gülxar gizli arzularına sadiq qalır, onu aparmağa gələcək bir Allah bəndəsini gözləyir, gözünü yollardan çəkmirdi.

Kəndə payız gəlirdi.Hər il payız gələndə, kəndə özü ilə min-bir problem gətirirdi. Payızın gəlişi nə qədər çətinlik yaratsa da, məhz bu mövsüm, toyların ard-arda düzüldüyü, ona görə də sevildiyi bir mövsüm idi.Ucqar dağ yerlərində toylardan başqa heç bir əyləncə olmadığından, toy şənlikləri insanların həm özlərini göstərdiyi, həm başqalarına tamaşa elədikləri yeganə məclis yeri idi.Kənd camaatının konserti də bu idi, tamaşası da, toyu da.Ona görə də hamı ən gözəl paltarını payıza saxlayır, əvvəlcədən əyin-baş alıb qoyurdular. Toylar, dədə-babadan qalma adətə görə bu mövsümə təyin olunur, bir başladımı, qar qapını basana kimi davam edirdi. Musiqiçilər, əsasən bu kəndin yetirmələri olurdu.Çalğıçılar qonşu kənddən də dəvət oluna bilirdi ki, bu da toy sahibinin lovğalığını göstərir, yəni "bu kəndin çalğıçılarını bəyənmirəm, qoy başqa kənddən gəlsinlər."--demək olurdu.Camaat bu cür hallara pis baxmırdı, çünki onlar da nəsə bir dəyişiklik görmək istəyirdilər.Bu mənada musiqiçilərin başqa kənddən olması da bir dəyişiklik sayılırdı.Bu payız toy sahiblərindən biri bir az da irəli gedib oğlunun toyuna Bakıdan musiqiçi dəvət eləmişdi.Kənd camaatına şifahi söylənən dəvət zamanı bu xəbər xüsusi vurğulanmış, bu yolla

da bütün kəndə yayılmışdı.Həftədə iki-üç toy çalınsa da, hamı intizarla Rəhman kişinin oğlunun toyunu gözləyirdi.Rəhman kişi yeganə oğlu Zakirə indiki kolxoz sədrinin qızı Səliməni alırdı.Ona görə də təm-təraqlı toy eləməklə kəndə səs-səda salmaq, hamıdan fərqlənmək istəyirdi.Bakıdan dəvət edilmiş musiqiçilər onun bu toya nə qədər əhəmiyyət verdiyini hər kəsə bir daha sübut edəcəkdi.Belə şey hər gün olmurdu.Rəhman kişi indiki kolxoz sədrinin qızını oğluna almaqla, ona hamının yadında qalacaq bir toy eləməklə, Zakiri dünyanın ən xoşbəxt gənci eləmək istəyirdi.Ancaq Zakirin lap uşaqlıqdan keçmiş kolxoz sədrinin qızı Gülxarın dərdindən dəli-divanə olduğundan Rəhman kişinin xəbəri yox idi.Zakirin tez-tez yaşlı çobanın evinin ətrafında dolaşmasından, Gülxarın yolunu kəsib ürəyini açmasından, Bəhmən babadan Gülxarı istəməsindən xəbəri yox idi Rəhman kişinin.Bəhmən baba hətta bir gün oğlanı çağırıb, onunla ciddi söhbət də elədi.Onun bilmədiklərini ona başa salmağa çalışdı.O Zakirə dedi:

--Oğlum, söz yox ki, Gülxar çox ağıllı, ləyaqətli bir qızdır.O ən igid oğlana gəlin olmağa layiqdir.Ancaq sən özün də yaxşı bilirsən ki, Rəhman onu sənə almaz.Sənin atan şöhrətpərəst bir insandır. Çoxdan ölüb getmiş kolxoz sədrinin qızı qızıl olsa da, atan yenə gedib indiki kolxoz sədrinin qızını alacaq sənə.Çünki, bu qohumluğu sayəsində o hakimiyyətə söykənmək, ora yol tapmaq istəyir.Ona görə də sən də atanı bilə-bilə nə öz başına, nə də bu yetimin başına iş açma.Öz yolunu get, Gülxarın yolundan çəkil.Heç onun da sənə könlü yoxdur, qızı rahat burax, onsuz da başı az dərd çəkməyib.

Zakir ağsaqqalın sözünü sona kimi dinləyib heç nə demədən çıxıb getdi.Ancaq bir neçə gündən sonra yenə Gülxarın yolunu kəsdi.Bu dəfə Zakir sərxoş idi.O qədər içmişdi ki, ayaq üstə güclə dururdu.O demək istədiyi sözləri güclə tapır, göz yaşlarından boğula-boğula deyirdi:

--Mən bilmirəm, sənin ürəyində kim var.Mən bilmirəm sən niyə belə buz heykəlsən? Ancaq mən həyatımı sənsiz təsəvvür

eləmirəm.Mən sənsiz yaşaya bilmirəm.Gəl səni də götürüm, gedək buralardan, hara desən, ora gedək.Təki bir yerdə olaq, evlənək.

Zakir bu vəziyyətə düşdüyünə görə Gülxarın ona yazığı gəldi.Ancaq onsuz da ona bir bacı gözü ilə baxdığından, ümidini birdəfəlik kəsmək istədi. Bir yandan da əzazil Rəhman kişi yadına düşdü.Oğlunun eşqə düşüb, dəli-divanə olduğundan xəbər tutan Rəhman kişi, qızın kim olduğunu öyrənən kimi özünü Gülxara yetirmiş, elə iki gün əvvəl qızın yolunu kəsib demişdi:

--Mənə bax, ay üzünün suyu qapılarda tökülmüş qancıq, başdan çıxartmağa başqa adam tapmadın? Zakir oğlanlığı ilə səndən məsumdur, indi yüz yerdən vurulmuş damğanı mənim oğlumun əli ilə təmizləmək istəyirsən? Qulağını aç, yaxşı-yaxşı eşit, onu özündən uzaqlaşdırmasan, özüm səni əllərə verib onu da tamaşasına çağıraram, bildin?Bu yolda bu qədər qərarlıyam, məni buna məcbur eləmə.Sənin kimi əl artığının mənim evimdə yeri yoxdur, qulağında sırğa elə!

O gün Gülxar bir daha bütün dünyadan küsdü.Heç bir günahı olmadan aldığı yaralar onu elə alçaltdı ki, bir müddət özünə də nifrət elədi.Daxilində üsyanlar başlayıb "Axı, bütün bunlar niyə mənim başıma gəlməlidir?Mənim günahım nədir?" suallarına cavab axtardı, ancaq tapa bilmədi. Elə ona görə də bu gün acığını qarşısında göz yaşı tökən bu iradəsiz aşiqdən çıxdı:

--Mənə bax, Zakir, heç özündən Məncnun-filan düzəltmə. Dünyada bir sən qalasan, bir də mən, yenə də sənin olmaram. Bilirsənmi niyə? Ona görə ki, mənim bu kənddə sevə biləcəyim heç kim yoxdur. Bu kənd mənə ancaq zülüm verib, nifrət eləməyi öyrədib, mən də bu kənddən olan hər kəsə ancaq nifrət edə bilərəm, edirəm də. Bu kənddə tək sevdiyim Bəhmən baba, bir də Kəklik nənədir. Mənə görə həyatını məhv eləmə, atan kimi deyirsə, onunla da evlən.Bu sənin mənə edəcəyin ən böyük yaxşılıq olar.Səni bir də həndəvərimdə görməyim...

Gülxar dönüb getdi, ağlamaqdan ayılmış Zakirsə yerindəcə donub qaldı.O həmişə Gülxarı ürkək ceyran kimi görmüş, onu incə ruhlu, sevgi dolu bir qız bilmişdi.Bu gün onun ağzının payını verən

Gülxar bambaşqa bir qız idi.Zakir handan-hana özünə gəlib evə qayıtdı. Ertəsi gün, iki həftə sonra toy olacağı xəbəri kəndə yayıldı.Hamı, musiqiçiləri də Bakıdan olacaq o toyu intizarla gözləməyə başladı.

Təbiətin ən çox düşüncələrə daldığı payız mövsümünün sakit, sərin bir günü idi.Toy evi birinci xoruz banından qalxmış, hərə öz işinə başlamışdı.Ertə oyanmağa alışqan kənd əhli də oyanar-oyanmaz toy yerinə gəlir, hərə bir işin qulpundan yapışırdı.Həyət-baca ora-bura qaçan, biri-birinə iş buyuran, nəyinsə yerini soruşan adam əlindən qaynaşırdı.Belə bir canlanma, bu zəhmətin nəticəsindən arxayın olmağa ümid verirdi.Bu qədər əlbir olub, can yandıran insanların zəhməti sayəsində, şübhəsiz ki, gözəl bir toy dəsgahı olacaqdı.Bakıdan iki maşınla bir dəstə musiqiçi gəlmişdi.Bunlar qarmon, klarnet, nağara, qoşanağara çalanlar, bir də iki müğənni idi.Musiqiçilərin arasında yaşlısı da var idi, gənci də.Onlar gecədən gəlib, səhər hamı kimi ertə qalxmışdılar.Hələ toyun başlamasına çox vardı.Ancaq onlar da indidən çalğı alətlərini quraşdırır, lazım olan yerə elektrik xətti çəkir, oturaçaqları quşəyə masa qoyur, stullar düzür, bir sözlə öz iş yerlərini hazırlayırdılar.Ətrafda mağarı təmizləyib döşəyən qız-gəlin də öz işində idi.Sahəsi çox böyük olan mağarın işığını çəkən Əli adlı oğlan mağara girib üzünü musiqiçilərə tutub dedi:

--Mən indi elektrik xəttini çəkirəm, biriniz sizin üçün ayıracağım xəttin yerini göstərsin mənə.

Müsiqiçilərin başçısı sayılan Çingiz adlı klarnet çalan üzünü gənc qarmon çalana tutub dedi:

--Tahir, dırmaş dama, xətti ayıracağı yeri göstər ona.

Tahir Əlinin ardınca mağarın üstünə dırmaşdı.İkisi birlikdə məftilləri uzadıb istənilən yerə kimi çəkdilər.Ordan bir qol da ayırıb dəlikdən keçirtdilər, musiqiçilərin oturduğu yerə yaxın bir yerdən içəri salladılar.İşin qalanı içəridən görüləcəkdi deyə, Tahir ayağını uzadıb damda oturdu, oturduğu yerdən dağın yamacında yerləşdiyi üçün, damları ətəyə enən pillələri xatırladan kəndin gözəlliyinə tamaşa eləməyə başladı.Əli də gəlib onun yanında oturdu.Gənclər

səhərin burunları göynədən təmiz havasını ciyərlərinə çəkib sanki məst olurdular.Onlar bir-birinə baxıb bu hərəkətlərinə güldüklər.Əli soruşdu:

--Nədir, xoşuna gəlir?Gözəldir, eləmi?

--Həə...çox gözəldir, biz Bakıda təmiz havanın ətrini çoxdan unutmuşuq.Zavodlar, fabriklər, hər tərəf tüstü, toz-duman...Bura çox gözəldir, havası da o qədər təmizdir ki, burnum göynəyir.

Onlar mənzərənin gözəlliyini səssiz seyr edirdilər ki, qoyun sürüsünü hoha-ho ilə qovub aparan bir qız Tahirin diqqətini cəlb elədi.O baxışları ilə qızı gözdən itənə kimi müşayət elədi.Qızın gözəlliyi Tahirin gözündən qaçmamışdı.Ona görə də təəccübünü gizlətməyərək üzünü Əliyə tutdu:

--Bu nədir, sizdə qızlar da nobata gedir?

Əli bu sualın səbəbini o saat anladı:

--Yoox...Əyər o qızı deyirsənsə, o ayrıca bir məsələdir.Onun kimi-kimsəsi yoxdur, ona görə də qoyuna da gedir, bütün başqa işlərini də özü görür.

--Necə yəni kimi-kimsəsi yozdur, yerdən çıxıb?

--Yerdən çıxmayıb, yetim qalıb...Atası vaxtilə kolxoz sədri olub.Bir-birinin ardınca atası da öldü, anası da.Ondan sonra bu qız qaldı qapılarda.Adına hərə bir söz dedi, inanan, inanmayan, hamı qızı gözdən saldı.İndi burda övladı olmayan iki yaşlı ər-arvad var, onların evində yaşayır, hər işin dalınca da özü gedir.

Tahir eşitdiklərindən elə təsirlənmişdi ki, az qaldı elə indicə qaçıb qıza çatsın, onu bağrına basıb özü ilə aparsın.

--Yazıq qız, nə bəxtsiz imiş...Adı nədir onun?

--Gülxar.

Gənclər aşağı enib hər yerin işığını çəkdilər, bütün hazırlıqları görüb qurtardılar.Mağarda musiqiçilər üçün süfrə açıldı. Hər nemətdən bol olan süfrədə nahar edəndən sonra hərə bir kənara çəkildi.Rəhman kişi onların yanına gəlib keflərini soruşdu, Bakıdakı yaşayışla maraqlandı.Söz-sözü çəkib maraqlı söhbətə çevirdi.Hamının başı söhbətə qarışdı.Tahir onsuz da öz aləmində idi.Gülxarı gördüyü andan elə hey onu düşünürdü.Hərçənd ki, hamı

ilə birlikdə işini də gördü, naharını da elədi, ancaq bütün bu vaxtı fikri burdan uzaqda oldu, kəndin ayağındakı o qocaların evinin həndəvərində dolaşdı.İndi fürsət idi, bu fürsəti Tahir əldən vermək istəmirdi.O, hamını başı söhbətə qarışmış görüb yavaşca mağardan çıxdı, sonra da, özünü toy sahibinin həyətini gəzirmiş kimi göstərib həyətdən də çıxdı.Yavaş-yavaş üzü aşağı, Əlinin nişan verdiyi kəndin ayağındakı komaya sarı getdi.Kəndarası cığır sarı-qırmızı xəzəllə örtülü olduğu üçün, altındakı çamur görünmür, ancaq ayağını yerə düz basmadınmı, o saat bir sürüşgən olurdu ki, gəl görəsən.Tahir yolun çox hissəsini büdrəyə-büdrəyə yeriyərək, nəhayət gəlib Bənmən babanın evinə çatdı.Evin yan tərəfində böyük bir qaya parçası var idi.Bu qaya , allah bilir, nə vaxtsa, dağın başından yuvarlanıb gəlib, məhz bu komanın yanında torpağa dirənib durmuşdu.Tahir dırmaşıb qayanın üstündə oturdu, ətrafı seyr eləməyə başladı.Təbiətin bu fəsildə də insanlara göstərmək istədiyi gözəlliklər az deyildi.Tahir bu göz oxşayan təbii tabloları seyr edirdi.Birdən evin ön tərəfindən cırıltı ilə açılıb örtülən qapı səsi gəldi.Tahir gözünü evin tininə zilladı, hər kim idisə, indicə tindən çıxacaqdı.Gülxar evin tinindən çıxar-cıxmaz dikdə müqəvva kimi oturmuş Tahiri görüb diksindi.

--Bıy, bismillah, sən kimsəm?

Tahir aşağı enib yaxına gəldi:

--Adam...

--Adam olduğunu özüm də görürəm, soruşuram, kimsən, niyə burda durmusan?

Gülxarın dilli-dilavər olması Tahirin xoşuna gəldi.

--Mən toya gələn qonaqlardanam, elə-belə gəzirdim, bu qayanı gördüm, üstünə çıxıb ətrafa tamaşa elədim.Bilirsən necə gözəl mənzərələr gördüm?Sən heç ora çıxıb ətrafı seyr eləmisən?

--Yox çıxmamışam.

--Niyə? Heç ağlına gəlməyib?

--Bircə bu qalmışdı ki, indi də adımı dəli qoysunlar.

Tahir bu sözləri eşidib fikrə getdi, Əlinin dedikləri yadına düşdü.

--Sən məni təpənin üstündə görəndə dəliyə oxşatdın?

--Yoox...

--Bəs səni niyə kimsə dəliyə oxşatmalıdır ki?

--Heç...Uzun məsələdir.

--Mən o məsələni bilmək istiyərdim.

--Niyə?

--Ona görə ki, əyər o məsələnin içində sənin qəlbinə dəyən kimlər varsa, mən hamısının payını verərdim.

--Niyə?

--Ona görə ki, səni bayaq qoyunların arasında görəndə, özümə söz verdim ki, səni burdan aparım.

--Niyə?

--Ona görə ki...Sevdim səni...ilk baxışdan...

Gülxar elə burdaca söz oyununu kəsdi.Ürəyində bu yaraşıqlı oğlanın uzun illərdir yolunu gözlədiyi həmin o Allah bəndəsi olduğuna inanmağa başladı.Bu fikirdən ürəyində bir işıq yandı, vücudunu bir həyəcan bürüdü.Yanaqları od tutub yanmağa başladı.Tahir bu dəyişikliyi gördü, qızın əlindən tutub dedi:

--Bəlkə də məni Allah göndərib sənin dalınca, yoxsa, mənim bu dağ kəndində nə işim var idi.Gəl gedək mənimlə, sənin nə işin var bu daşqəlbli insanların arasında?Gedərsənmi mənimlə?

Gülxar əlini Tahirin əlindən çəkmək istəyirdi, ancaq hansı bir tilsimin gücü iləsə əlini çəkə bilmir, əli Tahirin əlinin içində od tutub yanırdı.Tahir ovucunda tutduğu əlin istisini də, bu yaxınlıqdan tir-tir əsən qızın həyəcanını da hiss edib, onun da Tahirə qarşı biganə olmadığını anladı.O qızı bir az da özünə çəkdi, yarıpıçıltı ilə dedi:

--Gülxar, biz sabah günorta yola düşürük, bu gecə düşün, qərar ver.Sabah kəndin ayağında maşınla səni gözləyəcəyəm.Gəl aparım səni buralardan.Bakıda mənimlə insan kimi yaşayarsan.Evlənərik, xoşbəxt olarıq.Mən sənə bütün çəkdiklərini unutduraram.Gedərsən mənimlə?

Gülxar nə onu özündən kənarlaşdıra bilir, nə də cavab verə bilirdi.O əsim-əsim əsir, səssizcə ağlayırdı.Tahir onu bərk-bərk bağrına basdı:

--Niyə ağlayırsan?Sənə indiyə kimi belə sözlər deyən olmayıb?

Gülxar, mən səni sevdim, çox sevdim.Mən səni aparmağa gəlmişəm, səni aparmadan da heç yana gedən deyiləm.

Bu sözlərlə Tahir qızı öpməyə başladı, yanağından, alnından, doyunca öpdü.Gülxarın çənəsindən qaldırıb dodaqlarından öpmək istəyirdi ki, Gülxar nəhayət özündə güc tapıb onu sinəsindən itələdi.

--Aman, sən neynirsən? Bu heç sənə yaraşarmı? Tanışlığımız on dəqiqə olmadı.Heç adını da bilmirəm.

Tahir qızdan aralanıb güldü:

--Doğru deyirsən, adımı deməyi də unutdum, adım Tahir, özüm də qarmon çalanam.Gəlib baxarsan, bu gecə sənin üçün çalacağam. Ondan qalan burda nə danışıldısa, hamısı doğrudur.Bir görməklə aşiq oldum sənə, gəl sabah uzatmadan gedək mənimlə.Bakıda evlənərik.Vallah, məni bura qismət gətirib.Nə deyirsən, gedərsən mənimlə?

Gülxar iki fikir arasında qalmışdı, bir yandan fikirləşirdi ki, bu oğlan bəlkə də onun illərdən bəri gözlədiyi oğlandır, bir yandan da belə cəsarətli addıma qərar verməyə qorxurdu.Doğrusu, ilk dəfə gördüyü bu gəncdən elə yaxınlıq hiss edirdi ki, sanki onu çoxdan tanıyırmış, sanki onlar əvvəllər də birlikdə olublarmış.Gülxar onun isti nəfəsindən doymadığını, o nəfəsi təkrar-təkrar duymaq istədiyini anladı, anladı ki, sabah bu oğlanla hara desə, gedəcək.İndiliksə, bunu bu açıqlıqda biruzə verməmək üçün dedi:

--Bilmirəm, qoy görək...

Tahir sevincindən uça-uça güldü:

--Bunu necə başa düşək?

--Yəni fikirləşərəm də...

Gülxar da güldü.Tahir bu fürsəti qaçırmayıb qızı bir də bağrına basdı.

==4.

Ertəsi gün əyin başını toplayıb Tahirin dediyi yerə gələndə, Gülxar sanki özündə deyildi.Bu qədər gözlənilməz bir qərarı beləcə ölçüb-biçmədən həyata keçirməsi, onun özünə də yuxu kimi gəlirdi.Ancaq dünən Tahirin sözlərində də bir həqiqət var idi.

Onu bura Allah göndərmişdi, göndərmişdi ki, Gülxarı bu bataqlıqdan çıxartsın, ona dünyanın yaxşı üzünü göstərsin.Gülxar özünə belə təsəlli verə-verə gəlib Tahirin kəndin ayağında onu gözləyən maşınına mindi, özü də bilmədiyi yerə, tanımadığı başqa bir dünyaya yola düşdü.

Kənddə hamının başı açılıb Gülxarın yoxluğunu anlayanda, Əli gəlib qızın qarmon çalan oğlanla qoşulub qaçdığını xəbər verdi.

Bu xəbərə hamıdan çox Kəklik nənə ilə Bəhmən baba məyus oldu.Onlar Gülxarı öz balaları kimi sevmişdilər, ona bağlanmışdılar.Toy sahiblərindən biri də kolxoz sədri idi.O üzünü məyus qocalara tutub dedi:

--Bəhmən kişi, fikir eləmə, görünür bu da onun qismәti imiş.Dua edək ki, o yazıq da harda olursa, olsun, təki xoşbəxt olsun.

Hamı bir ağızdan "Amin" dedi.Çox keçmədi ki, Gülxar adlı bir qızı da, onun bu kənddə yaşadıqlarını da hamı birdəfəlik unutdu.

Onlar Bakıya axşamüstü çatanda, Gülxarın ürəyi qəfəsdəki quş kimi çırpınmağa başladı.O hələ indi başa düşdü ki, tutduğu bu yol elə-belə səyahət deyildi, bu gündən etibarən o ismətini də, namusunu da, həyatını da, hələ heç yaxşı tanımağa macal tapmadığı bu oğlana etibar eləməli idi.Bu fikirdən özü də qorxdu, ancaq mənzil başına çatıb Tahirin evinə girəndə, ilk dəfə şəhər tipli ev-eşik görəndə, bayaqkı fikirləri də, qorxunu da unutdu.Tahir əl-ayağa düşüb özü ilə yoldan gəlmiş qonağına yemək hazırlamağa başladı.Gülxar onun hər hərəkətini izləyir, ürəyində bu oğlana qarşı bir doğmalıq hiss edirdi.Yox, o bu oğlana güvənəcəkdi, çünki indidən hiss edirdi ki, Tahiri sevir, və bu sevgi anbaan getdikcə daha da artırdı.Tahirin kənardan müşahidə elədiyi hər hərəkəti Gülxarın gözünü oxşayırdı.İkisi köməkli süfrə açdılar.Gülxar yavaş-yavaş açılışsın deyə, Tahir hər işi ona buyurur, özü də qab-qaşığı gətirirdi.Gülxar sonrasını düşünmədən bu an yaşadıqlarına sevinirdi.Bu ev onunku olacaqdı, bu oğlan onun həyat yoldaşı olacaqdı.Arzuladığı hər şey çin olmağa başlayırdı.İsti yuva, güclü məhəbbət, hamısı yanında idi.Tahir onunla çox incə davranır, onun

bir az açılışmasına çalışırdı.Onlar şam yeməyini yedilər, birlikdə süfrəni yığışdırdılar. Tahir qabları özü yudu.Ancaq qabları yumağa başlamazdan əvvəl Gülxarı vanna otağına gətirdi, yuyunmaq üçün hər şeyi ona başa salıb mətəxə qayıtdı.Gülxar yenə də yuxu görürmüş kimi qeyri-ixtiyari hərəkət eləməyə başladı.Birdən yadına kənd düşdü, o az qala əli ilə bu fikri başından qovdu."Yox, Tahirlə gəlməyim doğru oldu, onu,bircə elə məni o xarabadan qurtardığına görə çox sevəcəyəm, ol desə öləcəyəm, qal desə, qalacağam." Bu fikirlərlə də hamamlanıb çıxdı.Əynindəki dəsmal malından olan yumşaq xalata bürünüb divanın bir küncünə çəkildi.Tahir otağa girəndə Gülxarın gözəlliyindən gözləri qamaşdı.Sevgi dolu baxışlarla "Evinə xoş gəlmisən", dedi. Gülxar utanıb başını aşağı saldı.Tahir də öz növbəsində hamamlandı, eyni xalatdan geyib gəlib divanda oturdu. Tahir üz-gözünün tərini sildi, bir müddət önünə baxdı.Gülxar da hiss elədi ki, Tahir nəsə, vacib bir şey demək istəyir.Tahir nəhayət, deyəsən, axtardığı sözləri tapdı, aramla sözə başladı.

--Gülxar, yadında varsa, mən sənə kənddə dedim ki, biz evlənəcəyik, biz doğurdan da evlənəcəyik.Ancaq sənin hələ on altı yaşın var. Nigah kəsdirmək üçün biz gərək düz iki il gözləyək.Gözləmək də olar, indi mən sənlə gələcək həyat yoldaşım kimi məsləhət edirəm, sən necə desən, elə də olacaq.Biz bu iki ili mütləq gözləməliyikmi? Sabah, səhər bu evdə bir ər-arvad kimi oyansaq daha yxşı olmazmı? Nə gizlədim, mən səhər sənlə ər-arvad kimi oyanmağı çox istəyirəm.Biz qarşımızdakı o iki ili bir-birimizi sevə-sevə gözləyərik.Bu işə necə baxırsan?

Tahir üzünü Gülxara çevirəndə, qızın başını dəsmalla bürüdüyünü, üzünü görünməz elədiyini görüb bir az da ürəkləndi.Yataq otağına keçib yatağı hazırladı, geri gəlib eyni vəziyyətdə küncə qısılmış Gülxarı yavaşca qucağına alıb yataq otağına apardı.

Onların ertəsi gün ər-arvad kimi oyandıqları o gündən altı ay keçmişdi.Bu altı ayda Gülxar özünü dünyanın ən bəxtəvər insanı hesab edirdi.Tahir onun gözlədiyindən də mehriban, diqqətli, qayğıkeş oğlan idi.Onlar bu ikiotaqlı isti yuvada ən xoşbəxt

günlərini yaşayır, Tahirin daimi işi olmadığı üçün günün çox hissəsini birlikdə keçirirdilər.Ancaq Tahir, özünün bir ciddi kişi olduğunu göstərməyi də unutmamış, bu altı ayda Gülxara qapıdan burnunu bayıra çıxartmağa icazə verməmişdi.Onlar ara-bir axşam gəzintilərinə çıxır, hərdən-bir alış-verişə birlikdə gedirdilər. Ondan qalan vaxtı Gülxar bu mənzildən bayıra çıxa bilməzdi.Tahir bu qaydanı ilk gündən qoymuş, Gülxar da itaətlə qəbul eləmişdi.Gülxar üçün səbəb çox aydın idi, Tahir onu çox sevir, hər şeyə qısqanırdı.Bu Gülxarın özünün də xoşuna gəlirdi.Qoy Tahirin könlü necə istəyir, elə olsun.Bir şey ki, sevgidən irəli gəlir, buna incimək olarmı?Gülxara bütün dünyada Tahirdən başqa heç kim lazım deyildi.Beləcə, Gülxar onu bu qədər sevən, onu qapılarda keçirdiyi əzablı keçmişindən birdəfəlik qurtaran boy-buxunlu, yaraşıqlı Tahirinin qolu bağlı quluna çevrildi.O, Tahirdən gələn, bəyəndiyi göstərişi də, ürəyinə yatmayan sərəncamı da eyni itaətkarlıqla yerinə yetirir, hərdən içində baş qaldırmaq istəyən etiraz səsini tələsik boğurdu.Gülxarın ürəyində bir-iki cavabsız sual da var idi ki, onları tək bir dəfə Tahirə verməyə cəsarəti çatmışdı, onda da Tahir əsəbləşib ona bir də bu sualları verməməyi tapşırmışdı.Gülxar hələ də bilmirdi, Tahirin kimi-kimsəsi var idimi? Yoxsa o da bir tənha yetim idi? Onun həyatı hardan başlamışdı, harda ayrılıb onu tək yaşamağa qədər gətirmişdi? Tahir harda işləyirdi? Evə gətirdiyi pul hardan idi? Niyə bu evə heç kim gəlmirdi, qapılarını heç kim döymürdü? Gülxarı ən çox narahat edən Tahirin son zamanlar bir qəfil qalxıb evdən getməsi, saatlarla hardasa olması, gah kefi yerində, hətta nəşəli kimi, gah da bulud kimi tutulmuş, lal-dinməz, bir az da əsəbi dönməsi idi.Gülxar bunun səbəbini bircə dəfə soruşmuş, onda da Tahirin qışqır-bağırını ilk dəfə görüb çox qorxmuşdu.O an Tahir, sanki özündə olmayıb Gülxara çox ağır cavab vermişdi."Tapdığına şükür elə, burnunu hər yerə soxma!"--demişdi Gülxara, ancaq sonra özü də peşman olub min dil tökmüşdü.

--Gözəlim, bağışla qəlbinə dəydim, o tonda deməməliydim. Ancaq sən birdəfəlik bil ki, mən hər işini ortaya tökən, arvadına

hesabat verən kişilərdən deyilәm.Mənim arvadım nəyi bilməlidirsə, onu mən gəlib deyəcəyəm, əyər nəyisə demirəmsə, deməli onu sən bilməməlisən, anladın, ay mənim gözəl ceyranım, balaca xanımım?

Bu sözlərdən sonra Gülxar əriyib muma döndü, içindəki sualı-suala calayan o səsə də müharibə elan elədi.Həmin gündən o özünə söz verdi ki, bir də heç vaxt yersiz sual verib Tahiri əsəbləşdirməyəcək. Tahirin özündən çıxmasını, bu halında yad bir insana çevrilməsini bir də görmək istəmirdi.Elə o vaxtdan da Tahirin sanki əli-qolu bir az da açıldı.O istədiyi vaxt evdən heç nə deməmiş gedir, vaxt olurdu ki, bütün günü evə gəlmir, Gülxarı o evdə öz narahat fikirləri ilə baş-başa qoyurdu.Son günlər tez-tez evə sərxoş da gəlirdi ki, Gülxarı ən çox qorxudan onun bu halı idi.Tahir heç nə anlamır, sanki Gülxarı ilk dəfə görür, onu tanımaqda çətinlik çəkən yad bir adama çevrilirdi.Belə hallarda o Gülxara başqa-başqa adlarla müraciət edirdi, onu gah Yeganə, gah Sima, gah Qalya deyə çağırırdı.

Gülxar bunu heç vaxt onun üzünə vurmur, ürəyini göynədən bu dərdi içində çəkirdi.O, bir də baxdı ki, artıq arxada qalıb onlardan yavaş-yavaş uzaqlaşan qısa müddətli xoşbəxt günlərinin həsrətini çəkir, baş verməkdə olan bu dəyişikliyin, aralarında əmələ gələn bu soyuqluğun səbəbini isə heç cür tapa bilmirdi.

Zaman durmadan ötüb keçdikcə, Gülxarı da öz axarı ilə aparır, onu ömrünün çox qısa, ancaq çox rahat günlərindən sürətlə uzaqlaşdırırdı. Tahir Gülxarın onu ilk tanıdığı günlərdən bəri çox dəyişmişdi. Həm də bu gəyişiklik göz görə-görə durmadan artır, Gülxarı təşviş içində yaşamağa vadar edirdi.Birgə yaşayışlarının bir ili yeni tamam olmuşdu.Bir səhər Tahir yenə də harasa getdi.Gülxar, onsuz da gün-gündən daha da əsəbi olan, evə tez-tez sərxoş gələn, bəzən qızdırmalı xəstə kimi əli-ayağı titrəyə-titrəyə özünü yatağa güclə salıb saatlarla yatan Tahiri bir az da əsəbləşdirməməkdən ötrü, ondan heç nə soruşmadı.Az sonra qapı döyüldü.Gülxar elə bildi ki, gələn Tahirdir, fikirləşdi ki, yəqin açarı evdə unudub, onun üçün də geri dönüb.O qapını açıb qarşısında yaşlı bir kişini görəndə qorxdu.Kişi acıqlı-acıqlı onu süzüb dedi:

--Mənə bax, mən bilmirəm sən o dəyyusun nəyi olursan, ancaq o dostuna de ki, əyər bir-iki günə kirayə pulunu gətirməsə, mən bura milislə gələcəyəm.Eşitdin? Çatdır ona! Pulumu versin, özü də xoşluqla evi boşaltsın!

Bu sözlərlə də kişi dönüb getdi.Gülxar indi anladı ki, öz evi kimi sevdiyi, isti yuva bildiyi bu mənzil sən demə, heç Tahirin özünün deyilmiş, kirayə imiş.Gülxarı soyuq tər basdı.Özünü küçənin ortasında qalmış kimi hiss elədi.Yazıq qız o günü necə başa vurdu, nələr düşündü, içində cücərməyə başlamış şübhələrin əlində çabalayaraq nələr çəkdi, bunu bir özü bildi.Axşam Tahir bir az ayıq gəlmişdi deyə, Gülxar onun çayını-çörəyini verəndən sonra yanında oturub, qorxa-qorxa sözə başladı:

--Tahir, bu səhər sən gedəndən bir az sonra bir yaşlı kişi gəlmişdi...

Tahir dönüb bərəlmiş gözləri ilə ona baxdı:

--Hara?

--Bura da...Qapını döydü, mən də açdım...

Tahiri elə bil ilan çaldı:

--Nəə? Qapını açdın? Niyə?

--Elə bildim sənsən, açarı unutmusan, açanda gördüm bir kişidir...

Tahir gözlənilmədən Gülxara bir şillə çəkdi, Gülxar oturduğu yerdən aşıb yerə düşdü.Tahir qalxıb onun üstünə gəldi, saçından tutub silkələdi:

--Deməli bu qədər vaxtı mənim sənə dediklərim qaldı bir yana, sən öz bildiyini elədin, həəə? Mən sənə elə demişdim? Demişdim ki, qapı döyülən kimi qaç qapını aç? Az, bilirsən bu şəhərdə hər gün nələr olur? Qapını beləcə döyüb evlərə girirlər, evi soyurlar, kişiləri doğrayırlar, qızı-gəlini zorlayırlar... Bura sənin üçün sənin o poxlu kəndin deyil ey, halbuki ora da elə az oğraşxana deyildi.Mən səninlə necə danışım ki, sən başa düşəsən?Açma demişəm, bu qapını heç kimə açma...

Bu sözlərlə Tahir dəliyə dönüb Gülxarı amansızcasına döydü.Çöldə-bayırda kimdən nə hayıfı var idisə, hamısını bu

sahibsiz yetimdən çıxandan sonra, nəhayət ki, sakitləşdi.Gülxar, küncə qısılıb ətəyi ilə ağzının-burnunun qanını silir, hıçqırıqdan boğula-boğula ağlayırdı.Tahir deyəsən bir az ayılıb özünə gəlmişdi.Törətdiyi vəhşiliyi düzəltmək üçün bir istədi, Gülxarın yanında oturub onun könlünü alsın, ancaq içində ona çoxdan hakim kəsilmiş bir hikkə bunu eləməyə yol vermədi.Tahir o hikkəyə tabe olaraq, acıqlı bir səslə Gülxardan soruşdu:

--Kim imiş o gələn, nə istəyirmiş?

Gülxar başını qaldırmadan hıçqırıq qarışıq səslə dedi:

--Ev sahibi imiş, ev kirəsini istəyirdi...

--Səndən istədi?

Gülxar bir az da qorxdu:

--Yoox...məndən niyə? Dedi ki, sənə deyim...

Gülxar qorxusundan sözün ardını gətirmədi.Tahir ayağa qalxıb otaqda var-gəl eləməyə başladı.Onun bu hərəkəti yazıq qızı yenə qorxuya saldı, səsini içinə çəkib gözlədi.Tahir isə bir qəfil ayağı ilə qarşısındakı stula bir təpik vurub dedi:

--İt oğlu, it! Vaxt tapdı, məni divara dirəməyə...Bir az da gözləsə, elə bil canı çıxar!

Bunu deyib Tahir susdu.Ancaq onun səyriyən üzü, get-gedə daralan nəfəsi Tahirin daxilində ona tabe olmayan bir qəzəbin kükrədiyindən xəbər verirdi.

Aradan bir neçə müddət keçmişdi ki, ev sahibi qapıya bir də gəldi.Bu dəfə Tahir evdə idi, onun qarşısına özü çıxdı.Gülxar qapının arxasından onların davalarını, bir-birinə dedikləri söyüşləri eşitdi.Bu deyişmədən Gülxar anladı ki, Tahir bu evdə yaşadığı müddətdə ev kirəsini həmişə gecikdirir, iş gəlib davaya çıxandan sonra ödəyirmiş. Gülxarın qulağı kişinin dediyi bir cümləni də aldı: "Buranı döndərmisən lotuxanaya, gündə bir qız, gündə bir qız...Qonşular əlindən zara gəlib." Bu səbəbdən də bu dəfə ev yiyəsi pulunu istəməklə kifayətlənmir, Tahirin təcili evi boşaltmasını tələb edirdi. Onlar bir ara pilləkənin başında süpürləşdilər də...Kişi Tahiri söyə-söyə çıxıb getdi.O gün evə bir ölü sükut çökdü.Tahir nəsə fikirləşdi, fikirləşdi, sonra qalxıb harasa

getdi.O gecə Tahir ilk dəfə evə gəlmədi.Səhəri gözü ilə açan Gülxar hələ bilmirdi ki, vaxt gələcək, bu günləri də ona şirin gələcək. Tahirin bir nəşəxor, qumarbaz olduğundan, valideyinlərinin də bu üzdən ondan üz çevirdiklərindən Gülxar xəbərsiz idi.Ailəsinin bütün ciddi-cəhdlərinə rağmən tüfeyli həyatından əl çəkməyən Tahir, evdən getmiş, o vaxtdan da bir gün orda, bir gün burda ev kirələyib özbaşına yaşamağa başlamışdı.Onun hər barədən səliqəsiz həyatında neçə-neçə Yeganələrin, Simaların, Qalyaların qonaq olduğundan Gülxarın xəbəri yox idi.O bilmirdi ki, Tahir iki günün biri gah nəşə ilə, gah da qumar oynağığı halda yaxalanır, tez-tez qumar borcuna görə davaya düşürdü.Gülxar məktəbi dördüncü sinifdən buraxmağa məcbur olmuşdu, dünyada öz kəndi ilə Tahirin bu evindən başqa heç bir yeri görməmişdi.O avam bir qız idi, çox şeyi dərk eləmək üçün çox gənc idi, bu üzdən də sevdiyi bir adamın həyatının pərdə arxasını görə bilmirdi.Onun bu boyda şəhərdə Tahirdən başqa bir tanıdığı yox idi.Tahir onun həm atası, həm anası, həm əri, bir sözlə, hər şeyi idi.Gülxarın ona olan sevgisi azalmaq bilmirdi.Tahir onu danladıqca Gülxar yol-dil bilməyən kənd qızı olub, adi şeyləri də bilmədiyi üçün özünü günahkar bilir, yalnız özünə acığı tuturdu.Ancaq bu dəfə yaşlı kişinin dediyi "gündə bir qız" kəlməsi uzun zaman qulağından getmədi.Arabir onu beləcə şübhəyə salan şeylər olurdusa da, Güxar o fikirləri başından qovmağı, özünü o şübhələrin əlindən xilas eləməyi bacarırdı.Bu dəfə də öz qulağı ilə eşitdiyi sözlərə belə yanaşdı.Tahir onu sevir, bunu onun hər bir hərəkətindən başa düşmək mümkündür, Tahir başqasına gözünün ucu ilə də baxmaz.Belə çarəsiz anlarda Gülxar Tahirlə yaşadığı sevgi, nəvaziş dolu günləri, onun ən mehriban olduğu anları yadına salmaqla özünü pis fikirlərin əlindən qurtarırdı.Tahir son zamanlar çox dəyişmişdi, o hər şeydən ötrü tez özündən çıxır, tez-tez qışqır-bağır salırdı, heç nədən Gülxarı döyürdü.Gündüzlər bəzən tamam yadlaşan Tahir, gecələr Gülxarın yaxşı tanıdığı, güvəndiyi həmin o çılğın sevgiliyə dönürdü.Ona görə də Gülxar ondan əmin idi, inanırdı ki, on səkkiz yaşı tamam olan kimi Tahir onunla qanuni

nigah kəsdirəcək.Bunu yadına salan kimi ürəyində sanki bir işıq yanırdı.Bu işıq onu hər şeyin düz getdiyinə inandırır, həyata bağlılığını, Tahirə sevgisini bir az da artırırdı.Gülxar heç özü də bilmirdi ki, əslində bu işıq, gənc qadının hamilə olduğunu ona müjdə verən, özünü bu yolla aşkar edən daxili bir duyğunun işığı idi...

==5.

Gülxar hamilə idi, ancaq bundan onun heç özünün də xəbəri yox idi.Günlərcə davam edən ürək bulanması və qusmalar əvvəlcə Tahiri şübhəyə saldı.O, gənc həyatında qadınların özəl həyatına dair o qədər təcrübə toplamışdı ki, bu avam qızcığaz məsələni anlayana kimi Tahir artıq onun hamilə oldiğunu başa düşmüş, qərarını da vermişdi.İndi qalırdı şübhələrini bir də yoxlamaq.Və əyər qız doğurdan da hamilədirsə, onu bu hamiləlikdən yaxa qurtarmaq qərarına razı salıb yola gətirmək lazım gələcəkdi.Tahir öz pərakəndə həyatında dəfələrlə yardımına gəlib işinə yaramış ara mamaçası Əntiqə xalanın yanına getdi.Əntiqə xalanı əvvəlcədən hazırladı ki, yanına gətirəcəyi qızın heç nədən xəbəri olmamalıdır.Sadəcə yoxlasın, görək bu qız hamilədir, yoxsa yox.Ertəsi gün Tahir Gülxarı həkimə aparmaq adı ilə Əntiqə xalanın yanına gətirdi.Əntiqə qızı uzandırıb qarnını açdı, yavaş-yavaş göbəyini sığallayıb Tahirə başı ilə təsdiqləyici işarə verdi.Demək, Gülxar hamilə idi.Tahir qaşlarını çatıb fikrə gedəndə Gülxar qalxıb oturdu, sonra qorxa-qorxa Tahirdən soruşdu:

--Tahir, nə olub, olmaya mən xəstəyəm?

Tahir onun üzünə baxıb gülümsəyərək dedi:

--Qorxma, elə bir şey deyil, deyəsən soyuqlamısan.İndi Əntiqə xala bizə məsləhət verəcək, biz də onu edərik, keçib gedər.

Gülxar daha neç nə demədi.Əyin başını qaydaya salıb oturdu.Əntiqə xala Tahiri o biri otağa çağırdı.Onlar orda xısın-xısın nələrsə danışdılar, sonra Tahir yenə üzündə təbəssüm gəlib Gülxarın qolundan tutdu:

--Hə, Əntiqə xala hər şeyi mənə başa saldı.İndi evə gedərik, qalanını mən evdə sənə başa salaram. Bununla da söhbəti burda kəsib evə gəldilər.Gülxar heç nədən şübhələnməsə də Tahirin fikirli

gəzib-dolandığını gördü, ürəyində öz sağlamlığına dair pis fikirlər baş qaldırdı.Anasının xəstəliyi, ömrünün son günləri yadına düşdü.Tahirin çoxdan yaddan çıxmış nəzakətli davranışları, ehtiyatlı hərəkətləri Gülxarı qorxutdu, bütün bunlar irəlidə eşidəcəyi pis xəbərin əlamətləri kimi ürəyində bir həyəcan siqnalı çaldı.Görünür Tahir də bu qeyri-müəyyən durumu daha uzatmaq istəmədi, odur ki, iki gün sonra Gülxarın əlindən tutub divanda onunla yan-yana oturdu.Düz gözlərinin içinə baxıb sözə başladı:

--Gülxar, bax sən mənim həyat yoldaşım sayılırsan.Ona görə sayılırsan deyirəm ki, hələ bizim nigahımız yoxdur.Nigah kəsilənə hələ bir il var.Ancaq mən o gün Əntiqə xaladan öyrəndim ki, sən hamiləsən, özgə vaxt bu xəbərə uçmağa qanadım olmazdı, ancaq indi biz bu uşağın doğulmasını istəsək, bütün həyatımız alt-üst olacaq.Əvvəla, nigahdan əvvəl dünyaya gəldiyinə görə o yazıq qeyri-qanuni sayılacaq.Ona sənəd-filan da verməzlər, arada bizi də məhkəməyə çəkərlər.Belə olsa, məni həbs edəcəklər, bilirsən də, həddi-buluğa çatmamış bir qızla yaşadığıma görə mənə on beş il iş düşür.İndi gəl birlikdə qərar verək, mən deyirəm, bu dəfəki hamiləliyini abort edək, bir il də özümüzü gözləyək, yəni qorunaq.Sonra irəlidə, hələ o qədər uşağımız olacaq ki...Nə deyirsən?

Gülxar bu deyilənlərdən yalnız hamilə olduğunu bildirən sözləri eşitmişdi, ondan sonrasını eşidəcək halda deyildi.Onun özünə də indiyə kimi yad olan bir duyğu onu hər şeydən uzaqlaşdırıb ayrı bir aləmə aparmışdı.O aləmdə Gülxar oyuncağa bənzər balaca isti bir yumağı bağrına basıb onu hamıdan qorumağa, hər şeydən çox sevməyə başlamışdı.Özü də təəccüb qalmışdı ki, niyə indiyə kimi ana olacağı ağlına belə gəlməmişdi.

Gülxar sevinirdi, o sevindiyindən göyün yeddinci qatında idi.Gülxar ana olacaqdı, həm də dünyada ən yaxın, ən sevimli adamı olan Tahirdən bir övladı olacaqdı.Bu uşaq onların alovlu eşqlərinin ilk barı, ilk nübarı olacaqdı.Gülxar özünü dünyanın ən xoşbəxt qadını hesab elədi.Gözündə sevinc yaşları dönüb Tahirin boynuna sarıldı.Qəhərdən boğula-boğula dedi:

--Sevgilim, bu şad xəbərə görə çox sağ ol.İnan ki, mən səni əvvəlkindən də çox sevəcəyəm.Çünki, sən körpəmizin atasısan, çünki, sən bizim güvəndiyimiz, sevdiyimiz yeganə insansan.Tahir, inan ki, mənimlə ailə qurduğuna heç vaxt peşman olmayacaqsan. Bax, görərsən, mən sənə söz verirəm...

Gülxar bəlkə daha nələrsə deyəcəkdi, ürəyində nə vaxtdan bəri yığılıb qalmış sözləri bir ucdan elə hey sapa düzəcəkdi ki, Tahir yavaşca onu özündən araladı, az qala həddəqəsindən çıxan gözləri ilə ona baxdı.Gülxar da bu baxışlardan qorxub geri çəkildi, ancaq bu baxışların səbəbini anlamadığı üçün sual dolu baxışlarla Tahirə baxdı.Tahir ayağa qalxıb otaqda var-gəl elədi, gəlib yenə Gülxarın yanında oturdu.

--Sən deyəsən məni heç dinləmədin axı...Mən sənə başqa şey deyirəm, mən deyirəm ki, əyər bu uşaq doğulsa, onu atasız böyütməli olacaqsan, çünki, məni həbs edəcəklər.Azyaşlı qızla yaşadığıma görə mənə on beş il iş düşür...Mənə diqqətlə qulaq as, biz bu hamiləliyi abort eləməliyik, bir ildən sonra neçəsini istəsək, o qədər də uşağımız olacaq.İndi bu uşaq bizim həyatımızı alt-üst edə bilər.Bunu düşünək, yaxşı-yaxşı ölçüb-biçək, bir qərar verək, mən bunu deyirəm... Eşidirsən, ya yox?

Gülxar Tahirin dediklərini anlayanda sarsıldı, son sözləri deyərkən Tahir elə bağırdı ki, yazıq qız qorxusundan dik atıldı.Sonra səssizcə ağlamağa başladı.Tahir onu yola gətirmək üçün sözünə davam elədi:

--Mən də ata olacağıma sənin kimi sevinərdim, ancaq mən ağılla fikirləşib görürəm ki, hələ tezdir, biz valideyin olmağa hazır da deyilik.Evimiz yox, işimiz yox, pulumuz yox...Bir yandan da bayaq dediyim kimi, məni tutarlar, təkbaşına bu qərib yerdə o uşağa necə baxarsan? Biz bəyəm belə demişdik? Belə olmaz, heç olmaz... Xülasə, fikirləş, yubanmadan qərarını ver.Qorxma, çox da ağrılı olmayacaq, Əntiqə xala dərman versin, biz bu işi bitirək.Sonra gec olar, əslində indinin özündə də xeyli gecikmişik...Gözünün qorasını tökünçə, bunları fikirləş...Mənim üçün də çətindir, mən də atasıyam, ancaq başqa çarəmiz yoxdur...

Gülxar heç nə demədən bir gün axşama kimi aramsız ağladı.İkinci günü qalxıb işini-gücünü görə-görə yenə də ağladı.Tahir elə hey ona acıqlanır, ağlamağı kəsib bir qərar verməsini tələb edirdi.Üçüncü gün də belə davam edincə Tahir özündən çıxıb Gülxarı əvvəllərdə olduğu kimi yaxşıca döyüb evdən getdi, o gecəni evə gəlmədi.

Gülxar bütün gecəni ağlaya-ağlaya fikirləşir, istəməsə də Tahirin dedikləri ilə razılaşmalı olurdu.O gecə səhərə kimi gözünə yuxu getmədi, hər şeyi bir də başdan-ayağa götür-qoy elədi.Ana olub sevdiyi adamdan qucağına bir uşaq almağı nə qədər çox istəsə də, Tahiri də haqlı bildi.O hər şeyi doğru deyirdi, Gülxar qucağına atasız bir uşaq alıb həyatının yeganə dayağı olan Tahiri itirə bilməzdi.Bətnində cücərən körpəni nə vaxtsa başqa bir körpə əvəz edə bilərdi, Tahiri kim əvəz edə bilərdi? Ertəsi gün Tahir qaşqabaqlı gəlib divanda oturdu.Gülxar heç nə danışmadan ona çay süzüb gətirdi.Özü isə yemək hazırlamaq məqsədi ilə mətbəxə getdi.Tahir çaya əlini də vurmadı, qalxıb Gülxarın yanına gəldi.

--Nə qərara gəldin?--deyə soruşdu.

Gülxar burnunu çəkib dedi:

--Sən düz deyirdin, başqa çarəmiz yoxdur.Ona görə də qoy sən deyən olsun.

--Elə isə gedəkmi Əntiqə xalanın yanına?

--Elə indi?

--Elə indi.Dedim axı, gecikə bilərik...

--Yaxşı, hazırlaşım, gedək.

Əntiqə xalanın dərmanı gen dünyanı Gülxarın başına dar elədi, onu o dünyaya aparıb gətirdi.Bu əldəqayırma məhlul Gülxarın bətnindəki canlı məxluqu məhv eləməkdən ötrü, Gülxarın da canını o ki, var, oda yaxdı.Bu sancılı, ağrılı çarpışmada can candan ayrıldı, və nəhayət, Gülxar körpəsini itirdi.Allahın işinə kobudcasına müdaxilə, gənc qadını xeyli vaxt yatağa məhkum elədi.Gülxar çoxlu qan itirdiyindən bir aya qədər yataqdan qalxa bilmədi.Tahir onun bu köməksiz günlərində də öz həyat tərzini dəyişmədi, istədiyi vaxt getdi, istədiyi vaxt gəldi.Bir içim suya da

möhtac qalan Gülxarın gözü yolda, qulağı səsdə qaldı.Tahirin ürəyi isə daş bağlaya-bağlaya gedirdi.Vaxt keçdikcə, Gülxar Tahirin həyatında öz yerini tapa bilmir, ona ağır bir yük olduğunu daha cox hiss edirdi.

Aradan ötüb keçən zaman bir damın altında yaşayan bu iki gənci get-gedə bir-birindən uzaqlaşdırırdı.Gülxar nə qədər səmimi olmağa çalışırdısa, nə qədər Tahirə yaxın olmaq istəyirdisə, Tahir bir o qədər ondan gen gəzir, gecələrin çoxunu evdən kənarda keçirirdi.Evdə olduğu zamanlarda çox vaxt sərxoş gəlib yatırdı, bəzən də televizorun qarşısında oturub bu evdə tək yaşayırmış kimi, bütün diqqəti ilə televizoru izləyirdi.Tahir sanki bilə-bilə Gülxara üz vermir, onun dərdləşmək, söhbət eləmək kimi istəklərinə şərait yaratmırdı.Tahirlə Gülxarın mehri-məhəbbət dolu günləri sanki, ilk dəfə pənah gətirdiyi o mənzildə qalmışdı.O evdən köçəndən sonra, onlar bir neçə ünvan dəyişməli oldular.Hər yeni ev, şərait və təmir baxımından əvvəlkindən xeyli pis olurdu.Buna səbəb Tahirin daima pulsuz olması idi.Doğrudur, Tahir toy mövsümlərində demək olar ki, hər gecə toylara çağırılır, yaxşı da pul qazanırdı.Ancaq Tahir toylardan əldə elədiyi pulları harasa xərcləyib tezliklə yenə pulsuz qalırdı.Onlar yaşadıqları evlərin hamısından kirayə pulunu gecikdirdikləri üçün qovulurdular.Gülxar damın altında bir qarın ac, bir qarın tox yaşasa da dözür, irəlidə hər şeyin düzələcəyinə zəif də olsa, ümid bəsləyirdi.O, heç nədən şikayət eləmir, az danışır, öyrənmək istədiyi şeyləri də qorxusundan soruşmurdu.Vaxt olurdu ki, bu iki nəfər gün boyu küsülü adamlar kimi bir kəlmə də danışmırdılar.Gülxar Tahirin üzünün ifadəsindən bilirdi ki, bu gün onu dindirməsə, yaxşıdır.Tahir heç bir səbəb olmadan Gülxara qarşı qəddarlaşa-qəddarlaşa gedirdi.O ilk dəfə Gülxarı Əntiqə xalanın yanına aparanda qıza nə qədər nəzakət göstərmişdi, dil töküb yalvarmışdı.Ancaq sonrakı səfərlərdə Əntiqə xalanın yanına getmək də, sanki Gülxarın boynunun borcu imiş kimi, Tahir yalnız hökm verir, Gülxar da daha müqavimət göstərmədən ona tabe olurdu.Ürəyinin dərinliyində Gülxar Tahirin nə vaxtsa onun ana olmasına izin verəcəyinə inanmını itirməyə başlamışdı.Bu fikir onu çox qorxudurdu.İndi o, evlilik məsələsinin də nə vaxtsa gerçəkləşəcəyinə

şübhə edirdi.Tahir nəinki əvvəlki adam deyildi, o artıq özünü elə aparırdı ki, elə bil Gülxar ona bir yük olmuşdu.O tez-tez öz-özünə danışırmış kimi, talehindən giley-güzar edir, pulsuzluqdan şikayətlənirdi.Belə vaxtlarda Gülxar özünü bu evdə artıq hesab edir, Tahirə bir yük olduğunu düşünürdü.Yol-dil bilməyən, əlindən bir iş gəlməyən Gülxar ürəyində özünü qınayır, Tahirə heç cür kömək edə bilmədiyi üçün bütün günü özünü yeyib tökürdü.

Bir gün Tahir necə oldusa, evə gündüzün günorta çağında qayıtdı, həm də əlidolu gəldi.Gülxar nə zaman idi ki, onun əhvalının belə yüksək olduğunu görməmişdi.Uzun zamandır evə yalnız çörəklə yavanlığı da zorla çatdıra bilən Tahirin əlidolu gəlişi də Gülxarı təəccübləndirdi.Ancaq Tahirin xasiyyətini bildiyi üçün heç nə soruşmadı.Tahir daha bir hərəkəti ilə Gülxarı mat qoydu.O aldığı bazarlığı mətbəxə aparıb üzünü Gülxara tutdu:

--Axşama qonağımız var, yaxşı bir süfrə hazırla,--dedi.

Gülxar qulaqlarına inanmadı.Görəsən, nə baş vermişdi ki, Tahir özü qoyduğu qanunları dəyişirdi? Bəs bu evə heç kəs gələ bilməzdi, Gülxar heç kimi tanıya bilməzdi, bəs nə oldu? Bu suallar nə soruşuldu, nə də cavabını tapdı.Gülxar ürəyində danışa-danışa yemək hazırlamağa başladı.Tahir yenə də harasa getdi, bir az keçmiş əlində içki şüşələri dolu torba ilə qayıtdı.Gülxar onun gətirdiyi araq, konyak, şərab şüşələrini görəndə fikirləşdi ki, bəlkə bu gün Tahirin ad günü imiş...Ancaq yadına düşdü ki, Tahir yayda doğulub, indi isə payızın son ayıdır.Daxilindəki nigarançılıq onun fikirlərini yüz yerə şaxələndirsə də, çox ehtiyatla, hər şeyə diqqət edə-edə yemək hazırlamağa davam elədi.İlk dəfə evlərinə qonaq gəlirdi, Tahirin üzünü qızartmaq olmazdı.

Gülxarın başı işə qarışmış olsa da, Tahirin əhvalı gözündən qaçmırdı.Tahir ilk görüşə hazırlaşan adamlar kimi çox həyəcanlı idi.Bu həyəcana səbəb nə ola bilərdi? Gülxar axşamı səbirsizliklə gözləməyə başladı.Axşam hər şey aydın olacaqdı.

Qonaq çox gec gəldi, düz saat doqquzun yarısında.Əslində, axşamın doqquzu, qanacağı olan hər kəsin artıq ev yiyəsindən izin alıb getməli olduğu saat idi.Ancaq necə şeydisə, belə gec saatda

qapını çalan orta yaşlı kişi nəinki Tahiri əsəbləşdirmədi, əksinə, elə bil uzun ayrılıqdan sonra tapışmış əziz adamı gəlibmiş kimi sevindirdi.Tahir onu çox mehriban qarşıladı, içəri dəvət elədi, süfrənin baş tərəfində oturtdu.Gülxar mətbəxdə öz işləri ilə məşğul olsa da, bir qulağı içəridə idi.Bir az keçmişdi ki, Tahir Gülxarı səslədi.Gülxar gəlib qapının ağzında dayandı, başını qaldırmadan Tahirin nə deyəcəyini gözlədi.Tahir qonağı göstərib dedi:

--Gülxar, bu mənim yaxın dostumdur, ona gözəl bir süfrə aç.Bu gün biz Siracla dostluğumuzu qeyd edəcəyik.

Gülxar başını bircə dəfə qaldırıb:

--Xoş gəlmisiniz,--dedi.

Tez də dönüb mətbəxə getdi.Bundan sonra o, səhərdən hazırladığı yeməkləri süfrəyə daşımağa başladı.Hər dəfə mətbəxdən otağa girəndə Siracla göz-gözə gəldi, ilk dəfə gördüyü bu kişinin baxışlarından qorxdu.Əyər Tahir bu baxışları sezərsə, nələr edə biləcəyindən də qorxdu.Ancaq Tahir bu gün bu adamın gəlişinə o qədər sevinmişdi ki, onun baxışlarını təqib eləmək heç ağlına da gəlmirdi.Ümumiyyətlə, Tahir bu gün Gülxarın gözünə başqa cür görünürdü, əvvəlki qısqanc, hər şeyi güdən Tahirdən çox fərqli bir adam kimi, dostu ilə söhbətə başı elə qarışmışdı ki, başqa şeyi görəcək halda deyildi.O, nə otağa girib-çıxan Gülxarı oğrun baxışlarla süzən Siraca fikir verirdi, nə də həyəcandan az qala büdrəyib yıxılan Gülxara.Tahir böyük həvəslə Siraca bu gün izlədiyi futbol matçından danışırdı.Gülxar ürəyində fikirləşdi ki, yazıq Tahir, dostlarından, qohum-əqrəbasından o qədər uzaq düşüb ki, indi rast gəldiyi bu adama da uşaq kimi sevinirdi.Bir ara Gülxar süfrədə son hazırlıqlarını edəndə, Tahirlə qonaq balkona siqaret çəkməyə çıxdılar.Gülxar ürəyində Tahirin dalınca gileyləndi:" Zalım oğlu, bunu bayaqdan çıx ki, mən də rahat işimi görüm də...Bu kişinin baxışlarından heç bilmədim, nə götürdüm, nə qoydum."

Nəhayət süfrə hazır oldu.Gülxar mətbəxə keçdi ki, Tahir də qonağı ilə süfrədə yerlərini tutsunlar.Tahir süfrəni tərifləyə-tərifləyə Siracı öz yerinə oturtdu, sonra Gülxarı səslədi:

--Gülxar, gəl sən də bizimlə otur, Sirac özgəsi deyil, mənim dostumdur.Ondan utanıb çəkinmə...

Sirac fürsəti fövtə verməyib dedi:

--Gəl, Gülxar xanım, gəl sən də əyləş.Bayaqdan sənə çox zəhmət verdik, otur dincini al, bizimlə yemək ye...

Gülxar hədəqəsindən çıxan gözləri ilə Tahirə baxdı.Tahir onun əlindən tutub yanına çəkdi, stula oturtdu:

--Mən dedim, gəl, deməli gəl də...

Gülxarın bu hərəkət xoşuna gəlmədisə də, lal-dinməz oturub başını aşağı saldı.O, yad kişinin yanında necə yemək yeyəcəyini də bilmirdi.Ancaq Tahiri bir az da hövsələdən çıxartmamaqdan ötrü susub oturdu.Süfrə başındakı hər iki kişi Gülxarın boşqabına yemək qoyur, ona qulluq etməyə çalışırdılar.Gülxar yeməyə əl uzatmasa da, sakitləşməkdən ötrü tez-tez Tahirin süzdüyü meyvə suyundan içirdi.O meyvə suyundan içdikcə, deyəsən doğurdan da sakitləşirdi.Yavaş-yavaş canından qorxu gedir, onun yerini indiyə kimi heç başına gəlməyən yeni bir hiss tuturdu.Bu hiss Gülxarı halından məmnun edir, ona quş qanadlı bir yüngüllük verirdi.Arada Gülxara elə gəldi ki, bir az da belə davam eləsə, o harasa uçub gedəcək.Bir qəfil uçacağından qorxan Gülxar arada bir Tahirin qolundan, dirsəyindən bərk-bərk yapışırdı.Gülxarın başı o qədər dumanlanmışdı ki, onun Tahirdən yapışdığı anlarda Tahirlə Siracın mənalı baxışdığını da görə bilmədi.

Gülxar pəncərəni döyəcləyən leysan yağışının səsinə gözlərini açanda gün-günorta olmuşdu. O, divardan düz ona baxan saatda vaxtı müəyyən edəndə, bu saata qədər yatıb qaldığına görə qorxdu.Saat ikini göstərirdi.Gülxar başında, bədənində qəribə ağrılar hiss elədi, yerində qurdalanmaq istəyirdi ki, qolu yanında yatmış kimsə toxundu.Tahir də bu saata qədər yatıbsa, deməli onlar gecə çox gec yatıblar.O dönüb Tahirə baxdı, gördüyü mənzərədən dəhşətə gəlib bağıraraq, yataqdan yerə düşdü, huşunu itirdi.Bir azdan ayıldı, onun üzünə su vuran Siracı görüb yenə bağırdı, imək̈ləyə-imək̈ləyə otaqdan çıxdı.Gülxar ölmək istəyirdi, ancaq ölməzdən əvvəl hər şeyi anlamaq istəyirdi.Bu necə olmuşdu? Bu necə mümkün ola bilərdi? Siracla o,bir

yataqda, bəs Tahir harda idi?.O buna necə izin vermişdi?O harda idi? Axşam nə baş vermişdi? Bəlkə Sirac Tahiri öldürmüşdü?

Gülxar heç nə xatırlamırdı, suallar artdıqca, onun başı şişir, çatlayacaq dərəcəyə gəlirdi.O, hönkürtü ilə ağlayır, Tahiri çağırırdı.Ancaq özü də başa düşürdü ki, Tahir onu bağışlamayacaq. Sirac yataq otağından çıxıb Gülxarın yanına gəldi.

--Mənə bax, sakit ol, dünya dağılmayıb ki...Bir iş idi, oldu, keçdi...Bilməyənləri də ayıltma, sakit ol, qonşular da deyər görəsən nə olub...

Gülxar xalata bürünüb küncə qısılaraq elə hey için-için ağlayırdı.Bu vaxt Tahir gəldi, Gülxar qorxudan səsini içinə çəkib həyatının son saatlarını yaşadığını düşündü.Bu vaxt Tahirin Siraca dediyi sözləri eşidib bayıldı.Tahir Siraca deyirdi:

--Yekə kişisən, biz belə danışmışdıq?Səhər tezdən getsəydin, heç nə bilməzdi...Leş kimi yatıb qalmağın başıma nə boyda iş acdı, gör?Yaxşı-yaxşı, sən get, hər şey tamamdır, eləmi?Borcum qalmadı sənə, borcum silindi, get Kazıma da de, borcum silindi...

Haçandan-haçana Gülxar gözlərini açanda özünü yenə yataqda gördü.Qorxu içində ətrafına baxındı, bu səfər yataqda tək idi.Hər şeyi bir də xatırlamağa çalışdı.Başına gələnləri pis yuxuya yozmaq istədi, ancaq olmadı...İçindən bir səs,"Özünü aldatma, olanlar olmuşdur", deyə onu ayıltdı.Gülxar yenə ağlamağa başladı.Onun bu səsinə Tahir gəldi, başının üstündə dayanıb onu acıqlı-acıqlı süzdü.

--Səni bir dəqiqəliyə qoyub iş dalınca getdim, papağımı yerə soxdun, hə? Deməli sənə güvənməməkdə haqlı imişəm, hə? Bir göz qırpımında girdin ilk dəfə gördüyün kişinin qoynuna, hə?

Bu sözlərlə də Tahir Gülxarı döyməyə başladı.O, Gülxarı vurduqca dünyanın ən pis söyüşlərini söyür, onun ayağı sürüşkən biri olduğunu deyirdi:

--Deməli, bu günə kimi evimizə kim gəlsəydi, sən onunla yatacaqdın, eləmi?

Gülxar tək bircə dəfə etirazını bildirib ağlaya-ağlaya dedi:

--Hamısını sən təşkil eləmisən, mən hər şeyi eşitdim, sən bu yolla qumar borcunu ödədin, mən sənə nifrət edirəm...

Tahir əvvəlcə duruxdu, nə deyəcəyini bilmədi, ancaq tez də öz şərəfsizliyinə don geyindirmək üçün dedi:

--Sən belə şeyləri də bilirsən? Bax, görürsən, sən göründüyün kimi məsum deyilsən. Deyənlər doğru deyirlərmiş, o kənddə hər qapıda sənin üzünün suyu tökülüb, hər əməldən xəbərdarsan. Kənddə səni yaxşı tanıyırlarmış, ona görə orda heç kimi aldada bilmədin də...,sən ancaq məni aldada bildin...Əxlaqsız!!! Fahişə!!!

Tahir son şilləsini də vurub qapını çırpıb getdi.Gülxar ağlaya-ağlaya yorğanı başına çəkdi.Axşam Gülxar yataqdan qalxıb bu hadisələrdən sonra necə yaşayacağına dair götür-qoy eləyəndə Tahir də gəlib çıxdı.O, sanki Gülxarın fikirlərini gözündən oxumuşdu, odur ki, heç nə demədən dünəndən qalan yeməkləri qızdırıb gətirdi, süfrə açdı, Gülxarın da qolundan tutub gətirib süfrənin başında oturtdu.Gülxar müqavimət göstərmək istədi, ancaq gücü çatmadı, nəhayət Tahirin qolunun zoruna tabe olub süfrəyə gəldi.

Tahir dedi:

--Gülxar, səhər dediyim sözlərə görə məni bağışla.Mən heç özüm də bilmirəm, nə olmuşdu mənə...Yəqin qısqanclıqdan belə elədim.Ancaq sonra çox düşündüm, sən də yazıqsan, gəl gecəki hadisəni unudaq getsin, elə hesab edək ki, heç nə olmayıb.Mən durub bir dəfə baş vermiş hadisəyə görə səni çölə atası deyiləm.Hər birimizin günahı ola bilər.Sən mənim necə günahlarımı bağışlaya bilirsən, mən də sənə bu gecəki günahı keçə bilərəm.Gəl bir-birimizə güzəşt edək, bir-birimizin qədrini bilək, bir-birimizə yardım edək, yaxşı?Bizim bir-birimizdən başqa kimimiz var ki?Daha belə şeylərə görə dalaşmayaq, yaxşı?

Tahir sözünü yeni başlayanda Gülxarın daxilində bir üsyan baş qaldırır, dünyanı Tahirin başına uçurmağı tələb edirdi, ancaq az sonra Gülxarın bu duyğusuna sanki su səpilir, onun hikkəsini yatışdırır, Tahirin dediyi, əslində şərəfsiz sözləri də bir layla kimi şirin edirdi.Gülxar Tahirin süzdüyü meyvə suyundan içdikcə, bütün olanları unudub, bu dəqiqə Tahirlə böyük bir eşq yaşamaq istəyirdi.Tahir görünür onun gözlərindən halını anlayıb Gülxarı

qucağına aldı, yataq otağına apardı.Gülxar dünən gecə özü də bimədən Tahirin böyük həcmli qumar borcunu canı bahasına ödədiyi üçün, arzuladığı o böyük eşqi onsuz da haqq eləmişdi...

==6.

Ertəsi gün Gülxar qaranlıq fikirlərlə, çarpaz-dolaş şübhələrlə yüklənmiş halda yataqdan qalxıb yerinin içində oturu.Düşündükcə, Tahirin gecəki çılğın sevgisi də, Gülxarı tələm-tələsik bağışlaması da onda xoşagəlməz hisslər oyadırdı.Gülxar aydın zəkası ilə başına gələnlərin nə qədər iyrənc bir hadisə olduğunu anlayır, heç nəyi unuda bilmir, içində vicdan əzabı çəkirdi.Tahirin də qısa zamanda bu qədər dəyişməsinin, çox ucuz başa gələn barışığın arxasında nələrinsə durduğunu hiss edir, bundan sonrakı həyatı üçün qorxurdu.Gülxar şübhələnməkdə haqlı idi, çünki bu başına gələnlər, əslində nə vaxtdır şərəf və ləyaqətini büsbütün itirmiş Tahirin onun üçün hazırladığı sürüşkən yolun başlanğıcı idi.Tahir bu fikrə bir gündə gəlmədi, o nə zamandan bəri üst-üstə yığdığı qumar borclarını nə yolla ödəyəcəyi barədə düşünür, çabalayır, düşdüyü təhlükəli vəziyyətdən çıxış yolu axtarırdı.Tahirin çox adama qumar borcu vardı.Ən çox borcu isə Siraca idi.Çox məşhur qumarbaz sayılan Sirac da, qumar borclarını hesab-kitab edən Kazım da, insan həyatını bir heçə sayan, arxada neçə-neçə insan qətli buraxmış, ömürlərinin çoxunu həbsxanada keçirmiş adamlar idi.Tahir anlayırdı ki, onların ağzından qurtarmaq asan olmayacaq.Nəhayət vaxt daralıb, gün qoyulanda, Tahir Siracın qəddarlığını gözü önünə gətirib, şorgözlüyünə hesabını tutdu.Bir neçə gün də Tahirin özü ilə, göstəricisi get-gedə düşən vicdanının çarpışmasına getdi.Qumar düşgünlüyü ilə qorxu hissi nə vaxtdır həyatın məngənəsində çeynənməkdən zəif düşmüş vicdana qalib gəldi, Gülxar da içdiyi konyak qatılmış meyvə suyundan sərxoş olub Siracın qucağına düşdü. Həyatın çox amansız qanunlarından biri də, bir qurunun oduna neçə-neçə yaşın yanmasıdır.Tahir kimi, hələ gənc yaşlarından həyatda asılılıq yaradan hər nə varsa, içki, qumar, nəşə və sair, hamısına bağlanıb, həyatlarını ya qaranlıq dalanların birində, ya da

həbsaxana divarları arxasında başa vuran gənclər çoxdur.Onların cəmiyyətə vurduqları ən böyük ziyan, özlərindən təmizliyi, sağlamlığı ilə fərqlənən günahsız insanları da bu uçuruma sürükləmələridir.Belə tüfeylilərin qurbanı adətən, Gülxar kimi erkən yaşlarından həyatın çətinliklərindən keçmiş, kimsəsiz, savadsız, təcrübəsiz qızlar olurdu.Odur ki, bir Tahir bəs edirdi ki, neçə-neçə Yeganələrin, Simaların, Qalyaların, Gülxarların da yolu həmin o daşlı-kəsəkli, çirkab dolu düzəngahdan keçəydi.O yoldan dönmək, hər kişinin işi deyildi.Qasırğalarla, çovğunlarla dolu o yolda da, kimin başına nə gələcəkdi, onu bir Allah bilirdi.

Gülxar bütün günü düşünür, düşdüyü bu vəziyyətdən çıxış yolu axtarırdı.Tahirsə, yeni bir taktik yürüdərək, hər düşən fürsətdə onu nə qədər sevdiyini, tutduğu işləri onların birlikdə xoşbəxt olması üçün elədiyini deyir, bununla da Gülxarın da fikirlərini çaş-baş salırdı.Tahir, tezliklə qumardan böyük bir uduşla dönəcəyini söyləyir, o gündən də qumarı birdəfəlik atıb normal həyata başlayacağına söz verirdi.Onu dinlədikcə Gülxar anlayırdı ki, bu uduşu bir ömür boyu gözləyə bilərlər, ancaq qorxusundan düşündüyünü dilinə gətirmirdi. Qızın bu şəhərdə gedəcəyi, sığınacağı heç bir yer yox idi, olsaydı, bəlkə də Gülxar bir gün baş götürüb gedərdi.Bu mənzildən kənarda onun tanımadığı, yad insanlar, amansız həyat şərtləri, bir də yaxşını pisdən ayırmağa ərinən üzdəniraq qanun keşikçiləri var idi.Tahir onlardan Gülxara o qədər danışmışdı ki, yazıq qız milis adı gələndə daha çoz qorxurdu.Kimə gedəydi, kimə sığınaydı?Çöldə başına gələ biləcək macəralar, evdə başına gələnlərin eynisi ola bilərdi.Burda barı Tahir yanında idi, yeri gələndə, onu müdafiə edə bilərdi.Belə fikirləşib, Gülxar talehi ilə indilik barışmalı oldu, bu gün üçün yeganə sığınacağı olan bu evdə qalmağı, Tahirin insafına dayanıb, yaşamağı qərara aldı.

Aradan keçən zaman Gülxarın dərdlərini unutdurmamışdısa da, azacıq da olsa, ağrısını-acısını azaltmışdı.Baş vermiş bu hadisələrdən sonra Tahir də, sanki bir az yumşalmışdı.O, Gülxara qarşı əvvəllərdə olduğu kimi diqqətli olmağa başlamışdı.Daha qızı boş yerə incitmir, olub-keçənləri yada salmırdı.Bu səbəbdən, Gülxar da bir az sakitləşmişdi.O, hərdən fikirləşirdi ki, bəlkə hər

şey düzəlməyə başlayır?Bəlkə, Tahir doğurdan da olanlara peşmandır?Bir yandan da Gülxar hələ də ümid edirdi ki, on səkkiz yaşı tamam olan kimi onlar evlənəcəklər, və bundan sonra hər şey, əlbəttə, başqa cür olacaq.On səkkiz yaşa da vur-tut iki ay qalmışdı.

Günlərin bir günü Tahir evə gəlib Gülxara dedi:

--Hazırlaş, axşama teatra bilet almışam.

Gülxar qulaqlarına inanmadı.Bir də soruşdu:

--Nəə?Teatra bilet almısan? Hansı teatra?

Tahir dəsmalı götürüb vanna otağına keçdi, ordan da dedi:

--Sənin sevdiyin "Sən həmişə mənimləsən" tamaşasına. Tələsmək lazımdır, tamaşa saat səkkizdə başlayacaq.

Gülxar bilmədi sevindiyindən neyləsin.Paltar dolabını açıb geyinmək üçün nəsə seçmək istəyirdi ki, Tahir ona bir bağlama uzadıb dedi:

--Get yaxalan, bunları geyəcəksən.İndi baxma, qoy sürpriz olsun.

Gülxar çoxdandır belə sevinməmişdi, ona görə də, dünyanın bütün pisliklərini bircə anda unudub duşa getdi.Sonra başını qurulaya-qurulaya otağa gəldi.Tahir çox bahalı, çox da gözəl qara rəngli uzun gecə paltarını yatağın üstünə sərib onu gözləyirdi.Gülxar mat-mat gah paltara, gah da Tahirə baxırdı.O, deməyə söz tapmayanda, Tahir dilləndi:

--Nə baxırsan, götür geyin dəə...

Gülxar bir az tutulub başını aşağı saldı:

--Sən çıx...

Tahir bir söz demədən yataq otağından çıxdı.Gülxar yavaş-yavaş paltarı əlinə alıb, o üz, bu üzünə baxdı, sonra ehtiyatla geyindi, güzgüyə yaxınlaşıb baxdı.Güzgüdən ona baxan şıq geyimli qıza yazığı gəldi, elə soyunmaq istəyirdi ki, Tahir o yandan səsləndi:

--Birdəfəlik makiyajını da elə, vaxt azdır, bir az əldən zirəng ol.Mən demək olar ki, hazıram.

Gülxar bir az dayandı, sonra makiyaj çəkmək yerinə, saçını səliqəyə saldı.Onun makiyaja ehtiyacı da yox idi.Gözəl libasla gözəl saç düzümü öz işini gördü.Gülxar nəhayət yataq otağından

çıxanda Tahirin gördüyü gözəllikdən gözləri qamaşdı, bir xeyli qıza heyran-heyran baxdı, sonra nə düşündüsə, qaşqabağını salladı, dodağının altında dedi:

--Yaxşı hazırsansa, gedək.

Gülxar onun bu halını, sözə qulaq asmayıb makiyaj çəkmədiyinə yozdu, ancaq heç nə demədən Tahirin önünə düşüb evdən çıxdı.Onlar dram teatrına vaxtında yetişdilər, İlyaz Əfəndiyevin respublikanın ən məşhur aktyorları tərəfindən yüksək səviyyədə səhnələşdirilmiş "Sən həmişə mənimləsən" tamaşasına heyranlıqla baxdılar.Tamaşanın çox yerində Gülxar xısın-xısın ağladı da...Tamaşa başa çatanda, Tahir gəlirkən yolüstü gül dükanından aldığı böyük qızıl gül dəstəsini Gülxarın qucağına verib onu irəli itələdi:

--Yeri, gül dəstəsini özün kimə istəyirsən, ver,--dedi.

Gülxar həyəcandan büdrəyə-büdrəyə səhnəyə yaxınlaşıb aşağıdan yuxarı dül dəstəsini Əli Zeynalova uzatdı.Əsərin baş rolunu oynayan Əli Zeynalov irəli gəldi, əyilib gül dəstəsini Gülxardan aldı, qızın əlini sıxıb təşəkkürünü bildirdi.Tamaşaçılar əl çalmaqda davam edirdilər.Gülxar nəmli gözlərini gizlətmək üçün başını aşağı salıb gəlib Tahirin yanında dayandı.Tahir onun çiyinlərini qucaqladı.Pərdə bağlandı, hamı zalı tərk eləməyə başladı.Onlar teatrın binasından çıxanda Tahir bir köhnə tanışına rast gəldi.Onlar görüşüb hal-əhval tutdular.Vahid adlı oğlan uzun zaman görüşmədikləri üçün Tahiri qınadı.Ordan-burdan söhbət edəndən sonra görüşüb ayrılmaq istəyirdilər ki, Vahid onları lap teatra yaxın bir yerdə yerləşən evinə dəvət elədi.Tahir vaxtın uyğun olmadığını söyləyib, başqa bir zamana qalsın deyə, boyun qaçırmaq üçün çox dirəndi.Ancaq Vahidin inadı daha güclü olub, axırda Tahiri yola gətirdi.Onsuz da bu söhbətdə iştirak eləməyə heç bir hüququ olmayan Gülxar da, Tahirin qoluna girib Vahid adlı bu oğlanın evinə doğru addımladı.

Vahidin mənzili Beşmərtəbə adlanan yerin ən gözəl hissəsində, monolit binalardan birində idi.Bu mənzillər hündür tavanı ilə, geniş otaqları ilə məşhur idi.Vahid qonaqlarını içəri dəvət edəndə, Tahirlə

Gülxarın hər ikisinin mənzilin gözəlliyinə ağızları açıla qaldı. Mənzilin təkcə elə geniş girişi bir muzeyi xatırladırdı, hər yer bahalı vazlarla, əntiq əşyalarla dolu idi.Bahalı mebel, bahalı xalçalar ev sahibinin kasıb zümrədən olmadığını göstərirdi.Vahidin ailəsi atası evinə qonaq getmişdi.Bu səbəbdən də Vahid bu gün evdə tək idi.Tahirgili israrla evə dəvət eləməyinin başlıca səbəbi də Vahidin evdə tək olması imiş.Vahid təklikdən darıxırmış, odur ki, Tahirgili görəndə onlarla öz təkliyini paylaşacağına çox sevinib.Keçmişin xatirələrindən söhbət edə-edə Vahid bir göz qırpımında süfrəni bahalı içkilərlə, meyvə və çərəzlə doldurdu.Masada bahalı olduğu qızılı kağızlarından, və əl işi taxta qutusundan bəlli olan böyük bir şokolad qutusu da vardı.Özlərinə içki süzən Vahid, arada bir o şokoladdan birini açıb Gülxara uzatdı.Gülxar əvvəl etiraz elədi, ancaq inadına artıq bələd olduğu bu adamın ikinci təklifindən boyun qaçıra bilmədi.Şokoladı dişləmək istəyəndə, içindən qəribə xoş ətirli maye axdı.Üst-başını batırmamaq üçün Gülxar tələsik o məhlulu içdi.Dadı xoşuna gəldi.Növbəti dəfələrdə o, artıq Vahidin uzatdığı şokoladı məmnuniyyətlə alır, etiyatla yeyirdi.Şokoladın içindən axan mayenin qızıl gül qoxusu yavaş-yavaş Gülxarı məst edirdi.Köhnə tanışlar söhbətdən doymaq bilmirdilər, Gülxarın isə yuxusu gözündən tökülürdü.Əyləşdiyi yumşaq mebel o qədər rahat idi ki, Gülxar utanmasaydı, elə burdaca gözünün acısını alardı.Hər dəfə Gülxar əyilib Tahirin qulağına nəsə deyəndə, Vahid ona baxıb deyirdi:

--Xanım qız, bax, olmadı haa...Nə vaxtdır görüşmürük, qoy doyunca söhbətimizi edək də...Meyvə ye, çərəz ye, istəyirsən, keç içəridə uzan...

Gülxar qorxusundan tez dedi:

--Yox, yox, oturmuşam, sadəcə çox gecduir, ona görə dedim...

Bu vaxt söhbətə Tahir qarışdı, o da deyəsən çox içmişdi, dilini sürüyə-sürüyə dedi:

--Mən hər şeyi kontrolda tuturam, bir az da oturaq, gedərik, sən narahat olma...

Az sonra nələr oldu, nələr danışıldı, Gülxar bilmədi.Çünki, bayaqdan

sayını itirdiyi konyaklı şokoladın təsiri özünü göstərəndə, Gülxar daha müqavimət göstərə bilməyib, elə burdaca, divanda yuxuya getdi.Tahir onu Vahidə təhvil verib gedəndə, artıq gecə saat iki idi.

Ertəsi gün Gülxar yad bir mənzildə, yad bir kişinin yatağında oyananda, artıq anlamışdı ki, həyatının bundan sonrası bu cür macəralarla dolu olacaq.O, keçən dəfə, Tahirin onu Siraca təslim etdiyi günün səhəri özünü öldürmədiyinə indi çox peşman olmuşdu. Bu gün artıq Gülxar özündə o günkü qətiyyəti də tapa bilmir, başına gələnlərə qarşı mübarizə aparmağa iradəsi çatmırdı. Həyatında baş verənlərə qarşı bir biganəlik, ətrafındakı hər şeyə qarşı bir ruh düşgünlüyü ona hakim kəsilmişdi.Tahirlə bağlı arzuları puç olunca, Gülxar "bundan sonra nə olursa, olsun", deyib dilsiz-ağızsız bir köləyə çevrildi.Yazıq qız həyata küsdüyündən, rastına çıxan hər kəsə nifrət edirdi.Tahirə nifrət edirdi, onun qumaq dostlarına nifrət edirdi. Ən əsas da, özünə nifrət edirdi.Dünyaya bəxtiqara gəlib bu iyrənc həyatı yaşadığı üçün özünə nifrət edirdi.Doğulduğu dağ kəndində qoçaq bir qız olduğu halda, bu qarışıq şəhərdə iradəsi bu qədər zəif olduğuna, Tahirin əində oyuncağa çevrildiyinə görə özünə nifrət edirdi.Tahirin bir qumaq düşkünü kimi yuvarlandığı uçuruma onunla birgə yuvarlandığına görə özünə nifrət edirdi.Ancaq bu qədər nifrətin içində Gülxarın özünün də anlamadığı bir hiss vardı ki, çoxdan sönmüş bir ocağın külündə közərən zəif bir işıq kimi özünü göstərir, qızın Tahirdən üz çevirib getməsinə mane olurdu.Bu hissin adını sevgi qoymaqla, bəlkə də insan həyatının bünövrəsi sayılan həqiqi sevgiyə böyük bir həqarət edilmiş olurdu.Bununla belə, o bağlılıq, o hiss var idi.Bu qədər şərəfsizliyin müqabilində Gülxar Tahiri sevirdi.Daha doğrusu, bu sevgidən çox yazığı gəlməyə bənzər bir hiss idi.Gülxarın Tahirə yazığı gəlirdi.Çünki, Tahirin ilk vaxtalarda qurduğu xəyallar, Gülxara vəd elədiyi səadət dolu birgə həyat, onun ürəyindən gələn gerçək arzular idi.Ancaq Tahirin tüfeyli həyatı o arzuları elə uzaqlara qovdu, onları elə əlçatmaz elədi ki, o arzulara yetişmək üçün artıq bir ömür kifayət eləməzdi.Bunun üçün ancaq ikinci dəfə dünyaya gəlib, hər şeyi yenidən başlamaq lazım

gəlirdi.Gülxar daha çox Tahirə qarşı hiss elədiyi bu yazıqlığın əsiri olmuşdu.Bu hiss sevgidən də güclü idi.Tahirin düşdüyü quyuda çabaladığını gördükcə, Gülxar ürəyində bir zaman ondan üz çevirmiş valideyinlərini qınayırdı.Onlar Tahiri tək qoymasaydılar, onun uğrunda mübarizə aparsaydılar, Tahir də bu gün bəlkə də tamam başqa bir adam olacaqdı.Gah əli gətirənədə uşaq kimi sevinib Gülxara qarşı çox səmimi olan, ona yenə də şirin arzularından danışıb xəyal quran, gah da uduzub vəhşi heyvana dönən, bütün acığını bu yetim qızdan çıxan bu oğlana Gülxarın o qədər yazığı gəlirdi ki, bu qədər başına gələnlərin müqabilində onun üçün hələ bir ürəyi də ağrayırdı.Gülxar bütün bu olanlardan sonra Tahirə qarşı bəslədiyi bu hisslərin səbəbini tapa bilmir, onu özü üçün də izah edə bilmirdi.Di gəl ki, bu bağlılıq ikisindən də güclü olub, bir-birindən bu qədər mənəvi əziyyət çəkən bu iki gəncin bir yerdə yaşamasına səbəb olurdu.Gülxarın xəbəri yox idi ki, bəzən nə qədər düşünürsən, düşün, ancaq axtardığın "axı nə səbəbə?" sualının cavabını tapmayacaqsan, çünki dünyada elə suallar var ki, onların cavabı olmur...

==7.

70-ci illər Sovet sisteminin uğurlarının son dönəmi idi.Yetmiş ilə yaxın davam edən bu sistem qələbə hesab elədiyi bütün göstəriciləri yalnız kağız üzərində əldə edə bilmişdi.Hansı sahədə plan üzrə göstərici vardısa, orda o göstərici, kağız üzərində olsa da, bütün məntiqləri aşıb 150-200 faizi keçə bilirdi.Bütün dünya işini yalnız 100 faiz üzərində qurduğu halda, Sovet dövləti dünyaya arxa çevirib, hər sahədə qələbələrini şişirdərək, 200 faizdən də yuxarı yazmaqla, dünyanı özünə güldürürdü.Bu dövləti gülünc hala salan səbəb o idi ki, bütün inkişaf eləmiş dövlətlər qarşılarına qoyduqları planları 60-70 faiz yerinə yetirdikləri halda, artıq bolluq içində yaşayırdılar, ancaq SSRİ dövlətini təşkil edən on beş respublika 200-250 faiz göstəricisinin müqabilində hələ də çox kasıb yaşayır, bu ölkənin insanları gecə-gündüz dünyanın harasınasa qaçıb getmək, başlarını bu rəzalətdən birdəfəlik qurtarmağın yollarını

axtarırdılar.Saxta raportlar, saxta göstəricilər, saxta qələbələr yaxınlarda bu dövlətin iflasa uğrayacağına, bəlkə də dağılacağına bir işarə idi.Adi vətəndaş da, sürəkli alqışlarla qarşılanan bu saxta hesabatların müqabilində soyuducusunu boş, süfrəsini yavanlıqsız görəndə, anlayırdı ki, qarşıdan ya böyük bir fəlakət, ya da inqilab gəlir.Bu durum, özündə bir keçid dövrü ab-navası yaşadır, bütün keçid dövürlərinə xas olan özbaşınalıqların əmələ gəlməsinə şərait yaradırdı.Bu özbaşınalıqlar hər sahədə, dövləti idarə edən ən yüksək qurumlardan tutmuş, bütün iş yerlərində, hər küçədə, hər dalanda baş verirdi.Dövlət məmurları rüşvəti artırmaqla, istehsalçılar məhsulu çapıb-talamaqla, kriminal ünsürlər də oğurluq, nəşə alveri, qumar, saxta pul kəsmək kimi neqativ fəaliyyətlərini geniş kütlələr arasında yaymaqla məşğul idilər.Yetişməkdə olan gənc nəslin əxlaqını, tərbiyəsini, gələcəyini düşünən yox idi.Hər kəs özünü səfərbər edib, qarşıdan gələn qeyri-müəyyən bir dəyişikliyə hazır olmaqdan ötrü, müxtəlif yollara əl atır, özü bildiyi kimi hazırlıq görürdü.Bu da, sözsüz ki, cəmiyyətdə bir xaos əmələ gətirirdi.

Belə qarışıq bir zamanda kütləvi hal alan qanun pozğunluqları, cəmiyyətə böyük ziyanlar vurur, sonu hələ gəlib çatmamış bir sistemdə neçə-neçə gənc insanın həyatının sonunu gətirirdi. Cinayətkarlıq qol-qanad açıb, öhdəsindən gəlinməz ciddi bir problemə çevrilmişdi.İş o yerə çatmışdı ki, insanlar arasındakı münasibətlərdə halallığın çox böyük məna kəsb etdiyi dağ kəndlərində də, haramçılıq baş alıb gedir, mal-heyvan oğurluğu, qətl hadisələri, qadınların pis yola düşməsi halları epidemiya kimi yayıla-yayıla gedirdi.Belə xoşagəlməz hallar o qədər çoxalmışdı ki, televiziya proqramlarında kriminal xəbərləri xalqa çatdırmaq, bu yolla da xalqı duyuq salmaq məqsədi ilə xüsusi verilişlər hazırlanırdı.Hər axşam bu verilişlərdən xalqa verilən məlumatlarda neçə-neçə saxta pul kəsən dəstənin aşkar olmasından, hansı bir evdəsə yaradılmış fahişə yuvasının ifşa olunmasından, ziynət əşyaları üstündə bir-birini doğramış qohumların faciəsindən ətraflı söhbət açılır, epizodlar da göstərilirdi.Düşünmək olardı ki, bu

verilişlər cinayət hallarının azalmasına kömək edəcək.Ancaq nədənsə, cəmiyyətin dərdi-sərinə bir carə tapmaq kimi xoş bir niyyəti qarşılarına məqsəd qoymuş jurnalistlər, bir də ayılırdılar ki, bu verilişlər əks nəticə verir.Detalları ilə xalqa göstərilib müzakirə olunan bu cinayətlər, sanki başqalarına da ideya vermiş olur, yatmışları da oyadır, beləliklə də cinayətkarlıq artır ki, azalmır.Cəmiyyətdəki neqativ halların kökünü kəsməyə yönəlmiş bütün vasitələr heç bir nəticə vermir, görülən tədbirlər bu cinayətlərin daha da artmasına, çiçəklənməsinə gətirib çıxardırdı. Cinayətkar dəstələr detektiv filmlərdən özləri üçün süjet xətti götürür, bilmədiklərini də çəkilmiş filmlərdən öyrənirdilər.Öklədə mütəşəkkil cinayətkarlıq gün-gündən nüfuz qazanır, dillərə dastan olurdu.Çox təhlükəli bir durum hökm sürürdü.Bu işlərin kökünü kəsmək, cəmiyyəti bu bəlalardan qurtarmaq kimi vəzifələrin birbaşa cavabdehliyini daşıyan Daxili İşlər Nazirliyi, bu nazirliyin ayrı-ayrılıqda hər milis nəfəri ilə, bütünlükdə bütöv bir dövlət orqanı kimi, insanların inamını çoxdan itirmiş, vətəndaşın gözündə bir haqsızlıq və qəddarlıq mücəssəməsinə çevrilmişdi.Bu səbəbdən də adi vətəndaş, cinayətkardan nə qədər qorxurdusa, onu qorumalı olan milisin şərindən də bir o qədər qorxurdu.Başına gələn cinayət hadisəsindən sonra milisə gedib, ondan yardım istəmək, vətəndaş üçün, öz başını daha böyük bəlaya salmaq, həmin hadisələrin davamını yaşamaq kimi bir şey idi.Buna görə də, hər kəs başına gələnləri hamıdan gizlədir, ağrısını içində çəkirdi.Belə olan halda da Gülxar kimi kimsəsiz bir qız bir qrup qumarbazın əlində oyuncaq olur, düşdüyü bu vəziyyətdə çıxış yolu görmür, bu iyrənc həyata dözməkdən başqa çarəsi qalmırdı.

Gülxar, aradan keçən iki ildə bir gecəlik qonaq qaldığı ünvanların sayını artıq çoxdan itirmişdi.Yazıq qız artıq bilmirdi ki, Tahir onu satıb pul qazanır, yoxsa uduzduğu pulları Gülxara ödədir?Əslində, bu iki əməl arasında elə də böyük fərq yox idi, ancaq Gülxarın son zamanlar daha tez-tez qonaq getməsi, Tahirin onu bir satılıq mala çevirdiyindən xəbər verirdi.Tərslikdən, Tahir həm də uğursuz qumarbaz idi.Özü də görürdü ki, əli gətirmir, ard-

arda elə hey uduzur, di gəl ki, qumardan əl çəkə bilmirdi ki, bilmirdi.Zəif iradəli insanlar adətən öz zəifliklərinin əsiri olurlar ki, bu zaman onlara özlərindən başqa heç kim kömək edə bilmir.Nə baş verirsə versin, iradəsi zəif insanlar heç nəyi dəyişmək istəmir, təkcə bir yolu tutub, o yolu sonuna kimi gedirlər.Tahir də uçuruma gedən bu yoldan çıxmağa özündə iradə tapa bilmirdi.O, bir yandan özü Gülxarı mənfur məşğuliyyəti üzündən istismar edir, bir yandan da artıq səsi güclə eşidilən vicdanını susdurmaq üçün, hər dəfə Gülxar onun tapşırığı ilə qonaq gedib, ertəsi gün evə dönəndə, onu ən pis söyüşlərlə söyür, qəddarcasına döyürdü.Gülxar onun bu halını çox gözəl başa düşürdü, bilirdi ki, Tahir özü də əzab çəkir.Gülxar hər dəfə huşunu itirib bayılır, ayılanda Tahiri də ağlayan görürdü.Ən qəribəsi, bu da belə məhəbbət idi.Həyatın dibində, çirkaba bulaşmış, ayaqlar altında tapdanıb əzilmiş bir məhəbbət, qan ağlaya-ağlaya hələ də közərir, sönmək bilmirdi.Cəmiyyətdə şişə-şişə böyüyən sosial problemlər, bir də zəif insanların bu problemlərə dürüş gətirə bilməməsi, əzəlini dağlardan almış şəlaləyə bənzər saf bir sevginin sonunu gətirib bu yerə çıxartmış, çürüməkdə olan bir cəmiyyətin çirkab sularına bulaşdırmışdı.Aradan keçən zaman içində,Tahir əli min cür cinayətə bulaşmış qəddar bir kriminala, Gülxar da artıq heç nəyi düşünə bilməyən, ancaq verilən əmrləri yerinə yetirən hissiyyatsız bir robota çevrilmişdi.Gülxar, özünün bir vaxt Tahirin kəbinli arvadı olmaq arzusuna indi acı-acı gülürdü.On səkkiz yaş gəldi də, keçdi də, ondan geriyə heç kimin yazığı belə gəlməyən, zorla yad kişilərin qoynuna atılan bir qadın qaldı.O qadının artıq iyiri iki yaşı var idi.

Cəmiyyətin insanlıq simasını itirərək vəhşiləşən, daşqəlbli bir topluma çevrildiyi illərdə, soyuq bir qış gecəsi idi.Gülxar yeni köçdükləri bomboş evin buz kimi yataq otağında çirkli yorğana bürünərək, uzanıb keçmiş günləri yadına salır, səssiz-səmirsiz ağlayırdı.Tahir o biri otaqda öz qumar dostlarından biri ilə qumar oynayırdı.Bu oyunların sonu ya dava ilə, ya da Gülxarın yerinə yetirəcəyi şərəfsiz bir xidmətlə bitəcəkdi.Gülxar artıq belə

yaşayışdan cana doymuşdu.Tahirin getdikcə tükənən insanlığı ilə insafı onu hər yoldan ötənə təslim edir, Gülxarı getdikcə tamamilə məhv edirdi.Gülxar son günlər evdən qaçıb getməyi düşünür, yollar axtarırdı.O bilirdi ki, bir küçəsinə belə bələd olmadığı bu şəhərdə hara getsə, Tahir onu axtarıb tapacaq.Buna görə də hər şeyi yaxşı-yaxşı düşünüb, doğru bir qərar verməli idi.Gülxar nə qədər götür-qoy edirdisə də, tez-tez yerini dəyişən bu iki fikir arasında nə qədər birini qətiyyətlə seçmək istəyirdisə də, yenə də qorxu ona qalib gəlir, iradəsini qırır, planlarını alt-üst edirdi.Hər dəfə bu yerə çatanda, Gülxar yenə öz qorxusuna təslim olur, bir az da gözləməyi qərara alırdı.Beləcə, aylar, illər Gülxarın qətiyyətsizliyinə qurban gedir, onun həyatında hər şey dəyişməz olaraq qalırdı.Əvvəllər günlərlə, saatlarla hardasa itib-batan Tahir, son vaxtlar elə bil nəsə hiss eləmişdi, bütün günü evdən çıxmırdı.İş o yerə çatmışdı ki, o artıq sevimli qumar oyununu da evdə oynamağa başlamışdı.İki gün əvvəl yerləşdikləri bu uçuq-sökük koma onların yeni evi, həm də Tahirin qumarxanası idi.İndi yan otaqda qumar oynadığı tərəf müqabili də, Tahirin bu evdəki ilk qonağı idi.Oyun qızışmışdı deyə, o biri otaqda iki qumarbaz tez-tez mübahisə edir, bir-birini kobudcasına təhqir edir, söyüşürdülər.Bu səslərə qulaq asa-asa dərin düşüncələrə dalan Gülxar, özündə qəribə bir dəyişiklik hiss elədi.Elə bil daxilində başqa bir insan, onun bundan sonrakı həyatı üçün bir qərar qəbul elədi. Daxilindən gələn bir səs, elə bu an bu evi tərk edib, hara gəldi getməsini ona əmr edirdi.

Gülxar ayağa qalxdı, ətrafı nəzərdən keçirtdi, o biri otağı bir də dinlədi.Yox, onun burda bağlandığı, vaz keçə bilmiyəcəyi heç bir şey yox idi.Bir insanın qiymətli bilib üstündə əsdiyi, itirə biləcəyi nə vardısa, Gülxar hamısını çoxdan itirmişdi.İndi onun yeganə varlığı, bu düşgün həyat tərzindən cana doymuş yorğun vücudu idi ki, burda qalmağa davam edərsə, onu da itirəcəyindən qorxdu, qətiyyəti bir az da artdı.Gülxar küncdəki bağlamalardan birini açdı, olan-olmaz isti paltarını üst-üstə geyindi, nimdaş paltosunu da üstdən əyninə alıb, evin arxa küçəyə çıxan balaca pəncərəsinə yaxınlaşdı.Çöldə uğuldayan soyuq küləyi dinlədi.Əvvəlcə fikirləşdi

ki, pəncərəni açsa, o biri otaqdakılar küləyin səsini eşidə bilərlər.Sonra fikir verib gördü ki, yan otaqdakılar bir-birini qırır.Bayaqkı mübahisə, artıq süpürləşməyə çevrilmişdi.Bunlar hamısı Gülxarın hər gün gördüyü şeylər idi.Ona görə də, Gülxar daha ləngimədən, pəncərəni açdı, güclə də olsa, dar pəncərədən sivişib özünü bayıra atdı.Sərt şimal küləyi ilk qar dənəciklərini Gülxarın üzünə çırpdı.Gülxar pəncərənin önündən çəkilərək, yaxasını düymələdi, yaxalığını da qaldırıb yola düzəldi.Kəpək kimi uçuşan qar dənəcikləri küçə fənərlərinin işığında daha aydın görünür, səhərə doğru hər yeri qalın qar örtə biləcəyi xofunu Gülxarın ürəyinə doldururdu.Ancaq bu qorxu da onu yolundan döndərə bilmədi.Gülxar üçün, bu qərarın artıq geriyə dönüşü yox idi.O, iri damalı kapan şalını gözünün üstünə çəkib yoluna davam edirdi.Arxa küçənin ana yola çıxan kəsişməsinə hələ çox var idi.Gülxar tez-tez büdrəsə də, addımlarını daha da yeyinlədir, bu küçədən tezliklə uzaqlaşmağa çalışırdı.Evlərin arxa hissəsi plansız şəkildə tikilmiş balaca damlardan, bostanlardan, üst-üsrtə qalaqlanmış taxta yeşiklərdən, dəmir-dümürdən ibarət olub, Gülxar üçün çətin keçilən maneələr yaratmışdı.Gülxar əllərini cıza-cıza, hər bir taxtaya, hər dəmirə ilişə-ilişə bu maneələri aşır, iliyinə işləyən şaxtanı da hiss eləmədən yoluna davam edirdi.Arxa küçə ilə getdiyi müddət ona çox uzun gəldi.Bir ara bu yolun bitəcəyinə inanmağı gəlmədi, ancaq o, dayanmadı, elə hey yeridi.Nəhayət, Gülxar ana küçə ilə kəsişən dalana çatdı, dayanıb nəfəsini dərmək istədi.Elə bu vaxt, ürəyinin döyüntüsündən, nə olduğunu ayırd edə bilmədiyi bir səs eşitdi.Nəfəsini içinə çəkib dinlədi.Evlərin ön tərəfindəki ana küçədən milis və təcili yardım maşınlarının bir-birinə qarışan siqnalları, şaxtalı gecənin qaranlığına bir vahimə qataraq, çala-çala ötüb keçdilər.Gülxar addımlarını yeyinlədib, dalana çatdı, dayanıb burnunu tindən çıxartdı.Həmin o həyəcan əmələ gətirən maşınların hara getdiklərini müəyyən eləməyə çalışdı.Birdən kürəyinin ortasından bir üşütmə keçdi.Milis maşını da, təcili yardım da qövsvari küçəni dövrə vurub, küçənin lap o başındakı üzü bəri baxan darvazanın qabağına çatıb dayandı.Bu, onların iki gün əvvəl

köçdükləri evin darvazası idi.Milislərlə həkimlər tələşla maşından enib içəri cumdular.Gülxarda şübhə yeri qalmadı, onun vur-tut yarım saat əvvəl çıxdığı evdə, nə isə qorxunc bir hadisə baş vermişdi.Gülxar ürəyinə gələn pis fikirləri özündən uzaqlaşdırmaq istəyirdi ki, milis nəfərləri Tahiri iki qolundan tutub gətirdilər, və pəncərəsi barmaqlıqlı maşına mindirdilər.Gülxarın ürəyindən küt bir sancı keçdi.Sonra öz-özünə, "Bu bir gün olmalı idi," deyib müşahidələrini davam etdirdi.Bir az keçmişdi ki, görünür hasar görmüş ikinci adamı həkimlər evdən çıxartdılar.Gülxar ikinci dəfə üşütdü, adamın üzünü mələfə ilə örtmüşdülər...

=8.

Gülxar, artıq geriyə yolu qalmadığını başa düşüb, qaranlıq dalana geri çəkildi, bir müddət hara gedəcəyini düşündü.Bu dəfə deyəsən, taleh özü işə qarışıb, onun geriyə gedən yolunu bağlamışdı.İndi Gülxar, artıq məcbur harasa getməli idi.Bayaqkı milis və təcili yardım maşınları eyni səs-küylə gəlib onun yanından ötüb keçdi.Gülxar irəli çıxıb bu maşınların arxasınca xeyli baxdı. "İndi daha dincələrsən, Tahir, indi sakitləşərsən.İndi ağlın başına gələr.Özünü də məhv elədin, məni də.Sən get orda cəzanı çək, mən də bu soyuq dalanlarda görüm başıma daha nələr gələcək?Eh, Tahir, Tahir, o vaxt məni şəhərə gətirəndə nələr söz vermişdin.Sən demə, hamısı yalan imiş.Sən demə, sən həyatın dibinə yuvarlanan aciz, iradəsiz bir tüfeyli imişsən.Özünə yoldaş axtarırsanmış, bədbəxtlikdən mənə rast gəldin, məni də özünə yoldaş edib, o bataqlığa çəkdin.Sən yolun başına gəldin, bəs mən?Bəs mən indi neyləyim, Tahir?" Gülxar öz-özünə dediyi bu sözlərdən qəhərlənib boğula-boğula ağlayırdı.Duzlu göz yaşları şaxta vurmuş yanağı ilə axdıqca üzünü göynədir, donmuş əlləri ilə üzünü silməyə çalışırdı.Buz bağlamış barmaqları taxta parçası kimi üzünü cızır, göynərtini bir az da artırırdı.Gülxar, bunun bir çarə olmadığını başa düşüb özünü güclə də olsa ələ aldı, ağlamağı kəsdi.Sonra yavaş-yavaş irəli çıxıb yolun kənarı ilə yeriməyə başladı.Vaxt gec olduğundan küçədə adam yox idi.Gülxar indi fikirləşdi ki, gərək evdən çıxanda saata baxaydı.Ancaq indi bunun artıq heç bir əhəmiyyəti yox

idi.Gülxar qorxsa da, üşüsə də, bu yolu getməli idi, başqa çarəsi yox idi.Alın yazısı onun üçün məhz belə bir şaxtalı, zülmət gecəni seçmişdi.

Gecənin qatı qaranlığında, ins-cins olmayan bir küçədə, üzü adamı kəsib keçən çovğunlu küləyə qarşı, büdrəyə-büdrəyə yeriyən Gülxar, böyük bir panik içində idi.O, heç nə düşünə bilmir, ağlına da heç bir fikir gəlmirdi.Bu böyük şəhərdə onun tanıdığı, gümanı gələn heç kim yox idi.Bununla belə, gecə vaxtı, qarlı-şaxtalı havada kimsəsiz, yeri-yurdu olmayan gənc qadın, irəlidə ölümünə tuş gələcəyini bilsəydi də, inadla gedəcək, daha yolundan dönməyəcəkdi. Özünün bu qətiyyətinə özü də məəttəl qalmışdı.Bir xeyli gedəndən sonra, o uzun yol gəlib, geniş bir küçəyə çıxdı.Bu küçənin ortasından tramvay yolu da keçirdi.Gülxar yolun kənarındakı səkini tutub gedirdi.Arabir yanından maşınlar ötüb keçirdi.Bəzən bu maşınlardan biri onun bərabərinə çatıb saxlayır, Gülxara minməyi təklif edirdilər.Ancaq, başdan ayağa qara bürünmüş Gülxar, heç nəyə reaksiya verməden yoluna davam edirdi.Sürücülər də onu, bu saatda, bu görkəmdə, yəqin ki, dəliyə bənzədir, maşınlarını sürüb gedirdilər. Birazdan,Gülxar yorulduğunu da, soyuğu da, aclığını da yavaş-yavaş hiss eləməyə başladı.Ürəyində fikirləşdi ki, daha az qalıb, tezliklə elə buralarda bir yerdə, bütün gücünü itirib yıxılacaq, donub qalacaq. Qəribədir, o özünün bu ölüm qoxan fikrinə sevindi, nəhayət bu dünyadan canını qurtaracaqdı. Bundan yaxşı nə ola bilərdi? Əzab-əziyyətə, alçaldılmağa dözdüyü bu illəri də iradəsizliyi üzündən yaşamışdı. Əslində yaşamamlı idi, ölməli idi.İndi barı təbiət onun eləyə bilmədiyini edər, onun canını bu əzabdan qurtarardı.Bu fikirlərlə yoluna davam edirkən, bir də baxdı ki, haçandır, uzun dəmir nizələrdən ibarət bir hasarın dibi ilə gedir.İrəlidə bu hasarın darvazası göründü.Darvaza açıq idi.Gülxar dalda bir yer tapmaq ümidi ilə darvazadan içəri girdi. Bura, deyəsən xəstəxana idi.Bir neçə korpusdan ibarət olan dörd mərtəbəli binanın bəzi pəncərələrində işıq yanırdı. Həyətdə çoxlu hündür şam ağacları var idi.Onlar gecənin qaranlığında güclü küləyin təsirilə tərpəndilcə,

çox vahiməli görünürdülər. Gülxar ətrafa diqqətlə göz gəzdirdi.Bir azdan onun gözü qaranlığa alışdı.Həmin şam ağaclarının dibində yan-yana düzülmüş böyük dəmir zibil qablarını gördü.Zibil qablarına yaxınlaşıb birinin içinə boylandı, əli ilə zibilləri o yana, bu yana itələdi, əlinə yeməyə bənzər heç nə gəlmədi.Gülxar o biri zibil qablarını da yoxladı, ancaq heç nə tapa bilmədi.Yemək tapacağına ümidlənmiş mədəsi artıq acından qazınmağa başlamışdı.Zibil qablarına isə, əsasən kağız-kuğuz, əski-üskü atılmışdı.Gülxar ümidsiz halda, keçib ən sondakı zibil qabının böyründə küncə qısılıb oturdu.Ayaqlarını da paltosunun altına yığdı ki, həm müəyyən qədər isti olsun, həm də oralardan keçən olsa, onu görən olmasın.Gülxarın bir böyrü zibil qabına, bir tərəfi də ağaca söykənmişdi. Ağac, bir tərəfdən, onsuz da göz-gözü görməyən həyətdə, Gülxarın gizləndiyi yeri əməlli-başlı görünməz eləmişdi.Ancaq digər tərəfdən, möhkəm külək ona güclü həmlələr elədikcə, ağac da üstündəki qalın qarı Gülxarın başına aləyirdi. Gülxar soyuqdan əsən bədənini isitmək üçün yumaq kimi büzüşdü, ancaq isinə bilmədi. Şalını lap burnuna kimi çəkdi, əllərini də qoltuqlarında gizlətdi. Bundan sonra sanki bir az isindi, bədənini saran ilıq bir duyğu onu boşluğa yuvarlatdı. Gülxar yuxuya getdi.Nə qədər yatdığını bilmədi. Üzünə toxunan isti nəfəsdən oyandı.Şalını darta-darta mırıldayan iri bir itin hənirtisi onu qorxutdu, yuxusu qaçdı.Böyükülyü ilə, qara rəngi ilə vahiməli bir görkəmi olan köpək, yerdə oturub, ona aşağıdan yuxarı baxan Gülxarın gözündə bir əjdahaya bənzədi.İt Gülxarın paltosunun ətəyini, qolunu çəkişdirir, arada da bərkdən hürürdü.Gülxarın qorxudan dili tutulmuşdu, o elə hey şalını bu qorxunc itin ağzına verib, bu yolla özünü müdafiə eləməyə çalışırdı.İtsə, əl çəkmək bilmirdi.Bu vaxt yaxından bir qadın səsi gəldi.Qadın itə müraciətlə deyirdi:

--Ay balam, nə olub sənə?Nədir orda tapdığın?Qoy görüm, pişikdir, nədir?Öldürüb eləyərsən, sakit ol, çəkil baxım.

Qadın nəhayət iti kənarlaşdırıb Gülxarın olduğu yerə baxdı.Gözü qaranlıqda heç nə seçə bilmədi.Qadın cəld cibindən cib

fənəri çıxardıb Gülxarın üstünə tutdu, gördüyündən özü də qorxub geri çəkildi.Yaşlı qadın Gülxarı əvvəlcə ölüyə bənzətmişdi, lakin onun özünü müdafiə etməkdən ötrü əl-qol atdığını görüb ürəkləndi:

--Bismillah! Bu kimdir? Bıy başıma xeyir, a bala sən burda neyləyirsən?A qızım, bu havada burda niyə oturmusan?Evin-eşiyin yoxdurmu sənin?

Gülxar cavab vermədikcə, qadın anladı ki, onun dili söz tutmur. Qolundan yapışıb onu özünə sarı çəkdi:

--Gəl bala, gəl.Qalx, qalx gedək mənim otağıma, orda isinərsən, dərdini danışarsan. Vay, vay, donarsan ki, sən burda, a qızım...

Qadın Gülxarın qoluna girib, onu hələ də açıq qalıb qarın üstünə sarı işıq zolağı salmış balaca qapıya sarı apardı.İçərinin gur işığı Gülxarın gözlərini qamaşdırdı.Gözlərini bərk-bərk yumub, kor kimi qadının onu çəkdiyi tərəfə yeridi.Qadın onu daha bir qapıdan keçirdib nəyinsə üstünə oturtdu.Gülxar oturub kürəyini divara söykədi, yavaş-yavaş gözlərini açdı.Balaca, darısqal otaqda, üzündən nur tökülən yaşlı bir qadın onun əynindən yaş paltarını soyundurmağa çalışırdı.Gülxarın qardan ağarmış paltarları bir azdan suyu süzülən əski-üsküyə çevrildi.Qadın güclə Gülxarı o tərəf, bu tərəfə çevirir, onu bu yaş paltarlardan tezliklə azad eləməyə çalışırdı. Gülxarsa, halsızlıqdan nə ona yardım edə bilirdi, nə də mane olurdu. Gülxar heç nə ifadə etməyən küt baxışlarla qarşısındakı ağ libaslı qadına baxır, onun nə eləmək istədiyini anlaya bilmirdi.Bu qadın onu diri gözlü doğrasaydı da, Gülxarın ona mane olmağa gücü yox idi.Gülxar indi buz dolabından çıxardılıb donunun açılmasını gözləyən ət parçası kimi idi.Donu açıldıqca bədəni açı göynərtidən od tutub yanırdı.Qadın nəhayət ki, Gülxarı soyundura bildi, onu elə oturduğu yatağa uzandırıb üstünü örtdü, özü harasa getdi.Gülxar yatmaq istəyirdi, ancaq bədənini göynədən ağrı onu yatmağa qoymurdu. Bir azdan qadın yenə gəldi, əlində tutduğu içi dolu qalın stəkanı Gülxarın dodaqlarına yaxınlaşdırdı. Gülxarın başını bir az dikəltdi, bu mayeni içməsini xahiş elədi.Gülxar heç nə başa düşməsə də, onun köməyi ilə stəkandakı mayeni içdi.Elə o an da boğazını yandıran mayenin təsiri ilə öskürməyə başladı.Qadın onu sakitləşdirərək deyirdi:

--Qorxma, qorxma, bir azdan keçəcək.Səni qurtarsa, bu qurtarar, bala...

Bir azdan doğurdan da Gülxarın boğazından başlamış, üzü aşağı bütün daxilinə bir istilik yayıldı.Bu istilik deyəsən, ağrıları da azaltdı, Gülxar dərin yuxuya getdi.Qadın onun başının üstündə durub əlindəki dəsmalla elə hey axmaqda olan tərini silirdi.

Gülxar gözlərini açıb özünü yenə də bələd olmadığı bir yerdə görüncə ürəyindən bir sancı keçdi.Demək hələ də ölməmişdi, demək yenə də kiminsə yatağında qonaq qalmışdı.Son ümidlərinin də puç olduğu bu yerdə az qaldı ürəyi partlasın.Bərkdən hönkürüb ağlamaqdan özünü saxlaya bilmədi, get-gedə ucalan səslə ağlamağa başladı. Elə bu vaxt hardansa ağ saçlı, ağ xalatlı bir qadın gəldi, onu qucaqlayıb sakit eləməyə çalışdı.Gülxar bu qarışıqlıqda fikirləşdi ki, bu qadını hardasa görüb.Qadın onu nəvazişlə tumarlayıb deyirdi:

--Sakit ol, qızım, daha qorxma, hər şey geridə qaldı.Səni incitməyə qoymaram, heç kimi qoymaram...Ağlama, sakit ol...

Gülxar doğurdan da sakitləşdi, hıçqırıq ara verəndə qorxa-qorxa soruşdu:

--Mən hardayam? Bura haradır? Sən kimsən?

Qadın onun başını sığallayaraq geniş açılmış gözlərinə baxdı, gülümsəyərək dedi:

--Sən mənim iş otağımdasan.Bura xəstəxanadır.Mən də burda xadimə işləyirəm.

Gülxar xəstəxana sözünü eşidib fikrə getdi, deyəsən, dünənki gecəni xatırlamağa başladı.Xəyalən bura gəlib çıxdığı yolu geri getdi, bu minvalla da gedib dünənki hadisələrin başlanğıcına çıxdı.Hər şey yadına düşdü, dəli kimi başını əlləri ilə tutub sağa-sola döndərə-döndərə yenə də ağlamağa başladı.Bu dəfə səssiz, için-için ağladı.Qadın ona diqqətlə baxır, bu ağlamağın səbəbsiz olmadığını anlayırdı.Gülxar ağlayır, qadın da sakitcə oturub onun sakitləşməsini gözləyirdi.Nəhayət, Gülxar sakitləşdi, başını qaldırıb qadına baxdı:

--Mən sənə yük olmaram, paltarlarımı ver, geyinim gedim.

Qadın ona təəccüblə baxdı:

--Gedəsən?Getməyə bir yerin varmı, bala? Mən görməsəydim, indiyə çoxdan donmuşdun. Yerin olsa, orda niyə otururdun? Getməyə tələsmə, bu qoca nənənə qulaq as.Bir azdan səhər açılacaq, mən də növbəmi bitirmiş olacağam.Gedərik bizə, hamamlanarsan, yatıb yuxunu alarsan. Sonra birlikdə düşünüb-daşınıb bir qərar verərik, yaxşı?

Gülxar bayaqkı düşüncələrinin yalnış olduğuna sevinib gülümsədi:

---Yaxşı...

Qadın da bu cavaba sevinib onu bir də qucaqladı, alnından öpüb dedi:

--Bu Səltənət nənənin təkliyini öz varlığınla doldursan, bilirsən nə boyda savab qazanmış olarsan?Allah da səndən razı olar, mən də...

Qadının bu sözü Gülxarın yadına Bəhmən baba ilə Kəklik nənəni saldı, onları o cür qoyub xəbərsiz qaçdığına görə vcdanı göynədi.Gülxar bu səmimi qocaların yaxşılığına yamanlıqla cavab vermişdi, odur ki, getdiyi yerdə səadət tapa bilmədi, varlığı, ləyaqəti yerlərdən yerlərə vuruldu.İndi talehin onun rastına çıxartdığı bu yaşlı qadından həmin o səmimiyyəti, insanlığı görə biləcəkdimi?Əslində, Səltənət nənə adlı bu qadın, onsuz da artıq Gülxarın qanının arasına girmiş, onun həyatını xilas eləmişdi.Bir də, bəyəm Gülxarın gedəcək bir yeri vardımı?Bu düşüncələr içində, Gülxar, qadının onun üçün gətirdiyi quru xəstəxana paltarlarını geyindi.Hazır olduğunu göstərməkçün başını qaldırıb, Səltənətin üzünə baxaraq gülümsədi. Qadın şad olub onun qoluna girdi, "Ya Allah, sən özün kömək ol!"--deyib qapıya doğru addımladı.Küçədə onları soyuq, şaxtalı bir hava qarşıladı.Gecədən yağan qar hər tərəfi örtmüşdü.Gülxar, bu amansız şaxtada bir sığınacaq tapdığına ürəyində sevindi.Beləcə, Gülxar səhərin ala-qaranlığında bomboş küçələrdən keçib Səltənət adlı bu yaşlı qadınla onun evinə doğru yeriyir, ürəyində min-bir çalın-çarpaz fikirlər, qarşıda olacaqlardan nigaran, bundan sonra qismətinə düşənləri yaşamağa gedirdi...

==9.

Səltənət nənə xəstəxanaya yaxın bir yerdə, tramvay yolunun sağ tərəfində, Papanin küçəsi boyunca sıralanan beşmərtəbələrin arxa cərgəsindəki binalardan birində yaşayırdı.Yaşı altmışı keçmiş bu qadın ömrünün çoxunu bu iki otaqlı mənzilində tək yaşamışdı.İyirmi il əvvəl, hələ ömrünün yaxşı vaxtlarında, qəza nəticəsində oğlu ilə həyat yoldaşını itirən Səltənət nənə, belə bir faciədən sonra həyatında heç bir dəyişiklik eləmək istəmədiyindən, elə o vaxtdan tək yaşamağa başlamışdı.Qəzadan əvvəl o, ərinin şərikli işlətdiyi mağazada satıcılıq edirmiş.Sonralar tək qalmış şərik, mağazanı bütünlüklə almış, Səltənəti də yavaş-yavaş işdən uzaqlaşdırmışdı. Zaman dəyişir, təhsilli adamların sayı artırdı.Belə olan halda, hər kəs ətrafına daha səriştəli, daha ixtisaslı işçi almağı uyğun görürdü.Ona görə də, işini-gücünü ön plana qoyan iş sahibləri Səltənət kimi savadı az olanları bir yolla işdən uzaqlaşdırırdılar.Səltənət, bir vaxt ərinin yaxın dostu və şəriki olan o adamdan incimədi, ona yük olmaqdansa, özünə minnətsiz bir iş tapmaq qərarına gəldi.Uzun götür-qoydan sonra, Səltənət düz burnunun dibində yerləşən həmin xəstəxanada, heç bir diplom tələb olunmayan xadimə kimi işə düzəldi.Səltənət evinə yaxın bir yerdə iş tapdığına sevinib, elə o vaxtdan da orada işləməyə başladı.Səltənət nənə qısa bir zamanda özünün mərhəmətli xasiyyəti ilə, işinə məsuliyyətilə hamının hörmətini qazandı, hər kəsin Səltənət nənəsi oldu.O vaxt işə yeni düzələndə, o hələ o qədər də yaşlı deyildi, ancaq özü hamının dilini alışdırdı ki, ona məhz Səltənət nənə desinlər.Hamı da bu üzü nurlu, dili şirin, ürəyi geniş qadını Səltənət nənə kimi tanıyıb sevdi.

Axır vaxtlar, yuxusuzluqdan əziyyət çəkən Səltənət nənə, dərdini heç kimə bildirməsə də, gecələri yuxu üzünə həsrət qaldığı üçün, gündüzləri də işdə tez yorulurdu.Bütün günü ora-bura qaçıb əldən düşən Səltənət nənə gecələr nə illah edirdisə, yata bilmirdi.Çox fikirləşəndən sonra özü bu işə bir çarə eləməyi qərara aldı.Evdə səhərə kimi boş, bekar oturub səhərin açılmasını gözləməkdənsə, özü gedib könüllü heç kimin sevmədiyi, xadimələr

arasınada çəkişməyə səbəb olan gecə növbəsinə yazıldı.Səltənət nənənin gecə növbəsinə yazılması ilə, gecələr ağrısı-acısı artdığı üçün daha çox əziyyət çəkən, bu üzdən də özləri yata bilməyib, xadimələri də yatmağa qoymayan xəstələrin nəhayət ki, üzü güldü.Səltənət nənə öz nəvazişini heç kimdən əsirgəmir, xəstələrə əsil ana qayğısı göstərirdi.Onun səhərə qədər yorulmaq bilmədən, o otaqdan bu otağa girib çıxması, o mərtəbədən bu mərtəbəyə enib qalxması, ona yaşama gücü verir, ömrünün mənasına çevrilirdi.Elə olmuşdu ki, hər kəs dərdini ona danışır, sözünü ona deyirdi.Səltənət nənənin xəstəyə verdiyi bir içim su da çox vaxt güclü dərmanlardan təsirli olur, xəstəyə şəfa verirdi.Bu durum onun özünü də, ətrafındakıları da məmnun eləmişdi.Gecələri yorulmaq bilmədən çalışan Səltənət nənə, evə gəlib hamamlanır, sonra körpə uşaq kimi şirin yuxuya gedirdi.Bu yolla da Səltənət nənə özü öz problemini yoluna qoymuş oldu.Gecələr şəfqətini xəstələrə, gündüzlər də özünə sərf elədi.O vaxtdan saçı da xalatı kimi ağarmış Səltənət nənə xəstəxanada əvəzolunmaz bir personala çevrilmişdi.Onun adı ən hörmətli həkimlərin adı ilə yanaşı çəkilirdi.

Səltənət nənənin gecə növbəsinə keçməsi, bəlkə də Gülxarın həyatını qurtarmaq məqsədi daşıyırmış ki, bu dünyada öz tənhalığından bezib, biri yaşamağa, digəri ölməyə qərar vermiş iki insan, o qarlı-şaxtalı qız gecəsi bir-birinə rast gəlib əl-ələ verdilər.O gündən, onların hər ikisinin həyatı yeni bir mərhələyə girdi.

Gülxar qapıdan içəri girən kimi başa düşdü ki, bu sadə, hər tərəfi ev gülləri ilə bəzənmiş, təmizliyi göz oxşayan evdə, mələk kimi bir qadın yaşayır.Gülxar bu qadına birdən-birə güvənib sona kimi açılmağı düşünmürdü, ancaq elə indidən ürəyində ona inanmış, anlamışdı ki, ondan qorxmaq lazım deyil.Hər addımda min cür xəyanət görmüş Gülxarın ilk təəssüratda gəldiyi qənaət hələlik bu qədər idi.Gülxar, dəfələrlə inandığı adamlar tərəfindən aldandığını hələ uzun zaman unuda bilməyəcəkdi. Arxada buraxdığı həyat onun yuxularına girəcək, aşkarlarında kim bilir nə şəkildə qarşısına çıxacaqdı.Ancaq Gülxar hiss edirdi ki, bundan sonra həyat onu nə qədər sınağa çəksə də, necə yollardan keçirsə də, artıq qorxuda

bilməyəcək.Çünki, Gülxar, hamıya inanıb hər kəsin ürəyinə sevgisi ilə yol tapan mələk simalı Səltənət nənəyə arxalanacaq, ondan çox şey öyrənəcəkdi.Həyatını yenidən, lap başdan başalamaq üçün ona güvənəcək, ondan dəstək alacaqdı.Səltənət nənədən gələn işıq, dünən ölmək istəyən Gülxarın ürəyində yenidən yaşamaq həvəsi oyatdı.O axşam Səltənət nənə də, evinin çoxdan qonaq üzünə həsrət qalmış divarları da sevindi.Səltənət nənə gənclərə xas olan bir çevikliklə hərəkətə gəldi, xüsusi bir həvəslə yemək bişirdi, süfrə açdı, bu danışmaqdan çox susmağa meyilli yeni qulaq yoldaşı ilə gecə keçənə kimi süfrə başında oturdu.Səltənət nənə Gülxardan heç nə soruşmadı, bəzi hər yerə burnunu soxan qır-saqız qarılar kimi onu sualları ilə bezdirmədi.O, Gülxarın boşqabına bişirdiyi badımcan dolmasından qoyur:

--Ye qızım, ye...Gör nə ləzzətlidir, mən bu xörəyi çox gözəl bişirirəm ey, sadəcə yeyib tərifləyənim olmayıb.İndi sən həm ye, həm də tərifllə...--deyə zarafat edirdi.Gülxar da onun xətrinə dəyməmək üçün, az da olsa yeyirdi.Səltənət, doğurdan da xörəyi çox ləzzətli bişirmişdi. Həmin axşam onların söhbəti çox da geniş olmadı, onlar daha çox televiziya izlədilər.Günün xəbərlərini şərh edən "Xəbərlər" proqramı çox şeydən danışıb sonda respublikda son günlərdə baş vermiş cinayət hadisələri barədə məlumat verməyə başladı.Görünür, verilişin bu hissəsi Səltənət nənənin də diqqətini çəkən yeri imiş. Odur ki, o, stulunu irəli verib yerini rahatladı, diqqətlə baxaraq, deyilənlərin hər kəlməsini eşitməyə çalışdı. Gülxar süfrəni yığışdırmışdı. O, arxa tərəfdə yuduğu boşqabları qurulayırdı.Elə bu vaxt diktor dünən gecə 2-ci Alatava küçəsində baş vermiş bir qətl hadisəsindən söhbət açdı.Hələ də Bakının küçələrini yaxşı tanımayan Gülxar heç başını da qaldırmadı.O, öz fikirləri ilə deyəsən burdan uzaqlarda idi.Birdən Səltənət nənə dedi:

--Vay, vay, vay...Gör özlərini necə bədbəxt elədilər?Biri öldü, biri də elə ölmüş kimi bir şeydir...Ay balam, bu cavanlara nə olub axı?

Səltənətin sözlərinə Gülxar başını qaldırıb ekrana baxdı.Elə o an

ekranda qolları qandallı Tahiri gördü.Sildiyi boşqab Gülxarın əlindən düşüb çilik-çilik oldu.Səltənət nənə diksinib döndü, həyəcanla Gülxara baxdı.Gülxarın yaşla dolu geniş açılmış gözlərini görüb, yenidən üzünü ekrana çevirdi, deyilənlərə diqqət kəsildi.Diktorun dediklərinə əsasən, törətdiyi bu cinayətinə görə yəqin ki, on beş il iş alacaq Tahir adlı oğlana diqqətlə baxmağa başladı.Kadrlar dəyişdi, Gülxar səssiz-səmirsiz ağlaya-ağlaya boşqabın sınıqlarını toplamağa başladı.Səltənət nənə isə adı çəkilən küçənin lap bu yaxında olduğunu indicə xatırlayıb məchul bir nöqtəyə baxa-baxa, dərin fikrə getdi.

Aradan keçən bir neçə həftə Gülxarla Səltənət nənənin arasındakı məsafəni götürə bilmədi.Onlar bütün günü bir yerdə olsalar da, nə Gülxar söhbətə həvəs göstərirdi, nə də Səltənət nənə onu müstəntiq kimi sorğulamaq istəyirdi.Beləcə, az danışıb, çox zaman dinməz oturan bu iki qadın, artıq anlamışdılar ki, aralarındakı məsafə gərginliyə çevrilməsin deyə, gec-tez oturub danışmalı olacaqlar.Səltənət nənə də, Gülxar da ürəklərində bu qənaətə gəlib uyğun bir vaxtı gözləyirdilər.Gülxar fikirləşirdi ki, əyər tezliklə bu evi tərk edib gedəcəksə, onda Səltənət nənəyə həyatının hesabatını vermək məcburiyyətində deyil.Ancaq, əyər bu qadını özünə yaxın bilib, bundan sonrakı həyatını onunla bir damın altında yaşayacaqsa, o zaman ona layiq olduğu etibarı göstərməli, hər şeyi başdan ayağa danışmalı idi.Gülxar başa düşürdü ki, biruzə verməsə də, ürəyində bir nigarançılıq gəzdirən bu qadın, Gülxara qarşı çox nəzakətli davranır, onu ürəyi istəməyən söhbətə zorlamaq istəmirdi. İndi Gülxara daha çox əziyyət verən də elə bu idi.Gülxar tezliklə özü üçün bir qərar verib, o qərara görə də hərəkət eləməli idi.

Günlərin bir günü, Gülxar ürəyində bu fikirlərlə əlləşirdi ki, ömrü boyu dünyanın sirlərini ipək kələfi kimi çözən Səltənət nənə onun qolundan tutub yanına çəkdi, divanda ona yer göstərib, özü də yanında oturdu.Gülxarın həyəcandan əlləri, ayaqları titrəməyə başladı.Səltənət nənə onun əllərini ovucuna alıb dedi:

--Bax, qızım, elə bilmə ki, sənin halın mənim gözümdən qaçır, heç nə başa düşmürəm.Elə deyil...Mən hər şeyi görürəm, hər şeyi hiss edirəm, təxminlər də qururam, bilirsənmi? Məsələn, fikirlə-

şirəm ki, o vaxt göstərilən o qətl hadisəsi sənin lə əlaqəli ola bilər, yaxud, o cinayəti törədən oğlan sənin tanıdığın bir insan ola bilər, ya da ölən şəxs sənin kiminsə ola bilər...və sair. Fərziyələr çoxdur.Həqiqəti bilmədiyim üçün bu fərziyələri qururam, yəni ürəyimə gəlir.İstəyirəm biləsən ki, bunların heç biri mənim sənə olan bu günkü münasibətimi dəyişməyəcək.Belə olan halda, mənim o hadisələri bütün xırdalıqlarına qədər bilməyimə ehtiyac da yoxdur.Mən onsuz da elə fikirləşirəm ki, sənin başına hər nə gəlibsə, sənin günahın üzündən gəlməyib.Sadəcə, alın yazın nə imişsə, onu da yaşamısan.Mən heç ömrümdə arzularını birə-bir istədiyi kimi yaşayan insan görmədim.Sən həyatını bir cür yaşamağı arzulayırsan, taleh səni tamam başqa yollarla aparır.Həyat belədir.Nahaq deməyiblər ki, "Səm saydığını say, gör fələk nə sayır".Ona görə də elə bilmə ki, sən dünyanın ən çətin yolunu getmisən, hələ bəlkə hardasa, səndən də çətin yol keçənlər var.Belə düşün ki, yaşamağa gücün çatsın.O ki, qaldı sənin həyat hekayənə, hər nə zaman danışmaq istəsən, biləsən ki, onu sən özün danışacaqsan.İstəsən, danışacaqsan...Bildin?Ona görə də boş yerə haldan-hala düşmə, ürəyini yeyib bitirmə, sakit ol, rahatla...Ürəyində acı çəkirsən, bilirəm...Bir də mənə görə özünə əziyyət eləmə.Mən səndən etiraf gözləmirəm, mənim səndən istədiyin ancaq, məndən qorxma, yanımda rahat yaşa, heç yerə getməyi də düşünmə...Aradan zaman keçər, ehtiyac olarsa, bu mövzuya bir də qayıdarıq.Hələlik özünü öz evindəki kimi apar, hərəkətlərində sərbəst ol, ürəyin necə istəyir, elə də yaşa.Bircə onu bilim ki, çöldə-bayırda heç kimə borcun, cavabdehliyin yoxdur, heç kim bir gün qapımızı çalıb səni məndən zorla almağa gəlməyəcək. Doğrusunu söylə, bu mənə yetər.

Gülxar Səltənət nənənin əllərini dodaqlarına yaxınlaşdırıb öpdü, göz yaşları içində dedi:

--Sənə qurban olum, sən nə gözəl insansan!Sənin nə boyda ürəyin var?Bircə ondan arxayın ola bilərsən ki, heç kimə nə borcum var, nə də cavabdehliyim.Nə getdisə, məndən getdi.İnan ki, mən vaxtı gələndə, hər şeyi sənə danışacağam, ən azı ona görə ki,

təkbaşına bu qədər yükü ürəyimdə sonsuza qədər daşıya bilmərəm, gücüm çatmaz. Ancaq bunun üçün bir az zaman lazımdır.Mən hələ də olanları axıra qədər anlaya bilməmişəm, qəbul edə bilməmişəm. Ona görə də məndən incimə, mənə vaxt ver, mən hələ ürəyimi açmağa hazır deyiləm.

Səltənət nənə onu qucaqlayıb dedi:

--Gəl elə bu gündən, bir-birimizə daha yaxın olmaqçün hərəmiz bir addım ataq:əyər bu dünyada ana deyəcəyin bir kəsin yoxdursa, mənə ana de.Ən azından mən səni qızım kimi sevəcəyəm, ürəyim mənə bunu deyir.

Bu sözlərə Gülxar hönkürtü ilə ağlamağa başladı.O, ağlaya-ağlaya başını Səltənət nənənin dizlərinin üstünə qoydu.Səltənət nənə onun saçlarını oxşaya-oxşaya dedi:

--Anladım, yazıq bala, sənin ürəyində dərin yaralar varmış? Ağlama, Allahın köməyi ilə hamısının dərmanını taparıq, hamısına əncam çəkərik, ağlama, qızım...

Bu söhbət, görünür tam yerinə düşmüşdü, çünki, hər iki tərəf-dən olduqca səmimi qəbul olunan bu söhbət, onların arasındakı gərginliyi tamamilə yox etdi.O gündən həm Səltənət nənə, həm də Gülxar bir-birinə daha yaxın oldular, aralarındakı isti münasibət ana-bala səmimiyyətinə çevrilib, bu evin ab-avasını da dəyişmiş oldu.Gülxar doğurdan da Səltənətə "ana" deməyə başladı.Həyatını ana məhəbbətinə həsrət çəkə-çəkə yaşadığından, indi evini, çayını-çörəyini onunla yarı bölən, onu öz balası kimi qəbul edən bu geniş qəlbli qadına, onun da ehtiyacını ödəyərək ana deməsi, Gülxarın ən doğru qərarı oldu.Bu qərarı verdiyi gündən, Gülxarın dili də bir az açıldı, özünə aid məsələlərdən olmasa da, dünyanın min-bir işindən fikirlərini ana dediyi qadınla paylaşmağa başladı.Səltənət nənə onu dinlədikcə, Gülxarın nə qədər təmiz qəlbli, incə ruhlu, gözü-könlü tox bir qız olduğunu anlayır, ona olan ana məhəbbəti bir az da artırdı.

Zaman durmadan ötüb keçir, Gülxar da arxada qoyduğu əzablı yolların ağırlığını yavaş-yavaş çiynindən atırdı.Onun rəngi-ruhu gün-gündən açılır, Səltənətə rast gələn xəstə görünüşlü, gözlərinin

işığı sönmüş, üzü qırışlar içində olduğundan yaşlı bir qadına bənzəyən Gülxardan əsər-əlamət qalmamışdı.İndi o, çöhrəsinin ağı ilə yanaqlarının qırmızısı bir-birilə bəhsə girmiş, gözlərinin qarası şəvə kimi alışıb yanan gənc bir qıza çevrilmişdi.Səltənət nənənin öz kiçik maaşından artıraraq onun üçün aldığı geyim-keçim də, onun gözəlliyini önə çıxartmış, bu evdə gözəlliyi göz qamaşdıran bir ərlik qızın olduğunu tezliklə hamıya bəlli etmişdi.Bir müddət sonra Səltənət nənə də evində yetişmiş qız bəsləyən anaların qayğılarını yaşamağa başladı.O, bu yeni qayğılara həm sevinir, həm də Gülxarı yenidən itirəcəyindən qorxurdu.Qonşuların Gülxar barədə elədikləri sorğu-sual, evlər arasında yaranan dedi-qodu dünya görmüş Səltənəti təşvişə salmağa başladı.O, Gülxarın keçmişi barədə heç nə bilmədiyindən, irəlidə onun başına nələr gələ biləcəyini də təxmin edə bilmirdi.Bircə onu bilirdi ki, əyər qızlığa qəbul elədiyi Gülxarı bütün xəta-bəlalardan qorumaq istəyirsə, onu tezliklə rəsmi olaraq öz adına keçirtməlidir.Bunu necə edəcəyini heç özü də bilmirdi.Yeganə bildiyi o idi ki, heç bir qanuna arxalanmadan, Gülxarın varlığını çəkinmədən aləmə nümayiş elətdirmək, hələ çox erkən idi.Bunun üçün o, irəlidə müəyyən tədbirlər görməli idi.Bu səbəbdən də, bayaqdan Gülxarın evə qapanıb çöl-bayıra həvəs göstərməməsini pisləyən Səltənət, indi artıq özü ona çox tez-tez küçədə görünməməyi, ehtiyac olmasa, bayıra çıxmamağı tapşırırdı.Həyatın amansız üzünü çox görmüş Gülxar, onun təşvişini analyışla qarşılayır, özü də bu fikri doru hesab edirdi.

Aradan altı aya yaxın bir vaxt keçmişdi.Gecə növbəsindən yenicə gəlmiş Səltənət nənə, əvvəlcə hamamlandı, sonra Gülxarın təzəcə dəmlədiyi çaydan iki stəkan içib yatağıana uzandı.Gülxar artıq bilirdi ki, gecə növbəsindən sonra anasının iştahı olmaz, təkcə çay içərdi.Ona görə də, o hər səhər erkən qalxar, çay dəmləyib Səltənətin gəlməsini gözləyərdi.Gülxar evdə olan bütün işləri artıq öz əlinə almışdı, Səltənətə əlini ağdan-qaraya vurmağa macal vermirdi. Bununla belə, yaşlı qadının bu evi təkbaşına maddi cəhətdən təmin eləməsi, Gülxara mənəvi əzab verirdi.O, nə

zamandan bəri ürəyində götür-qoy edir, anasından izin alıb özünə iş tapmağı düşünürdü.Hər səhər, Səltənətin yorğun gəlib özünü zorla yatağa yetirməsi, yalnız saatlarla yatıb yorğunluğunu alandan sonra dünya işığına baxa bilməsi, Gülxarın ürəyini çox ağrıdırdı.O, bu gün nəhayət ki, sözünü deməyin zamanı gəldiyini düşünüb, yatağın kənarında oturdu. Səltənət nənə onun sözlü adama oxşadığını görüb dedi:

--Nədir, qızım, olmaya mən evdə olmayanda bir şey olub?

Gülxar onun əlindən yapışıb dedi:

--Ana, bilirəm, çox yorğunsan, dincəlmək istəyirsən.Halın varmı məni dinləməyə?

Səltənət dirsəklənib tələşlə soruşdu:

--Mənə nəsə demək istəyirsən? Sözün var?

--Həə...var...Ancaq xahiş eləyirəm, mənə acığın tutmasın, əyər sözüm yersiz olsa, geri götürərəm.

--O nə deməkdir, ay bala?Əyər bir problem varsa da, əl-ələ verib həll edərik.Çəkinmə, de.

Gülxar Səltənəti incitməkdən ehtiyat edirdi, onun üçün də qadının əllərinə sığal çəkə-çəkə dedi:

--Ana, mən hesab edirəm ki, daha belə davam eləyə bilməz, mən də işləmək istəyirəm.Sənə kömək eləmək istəyirəm.Yoxsa, bu yaşında sən o cür ağır işdə çalışıb məni də saxlayırsan, bu düzgündürmü?Bayaqdan tək idin, indi mən varam, razı deyilәm ki, sən işləyəsən, mən evdə oturam.Sənin belə yorğun düşməyin ürəyimi ağrıdır.Sənin indi ayağını uzüdıb oturan vaxtındır.

Gülxar dediklərinin təsirini yoxlamaq üçün başını qaldırıb Səltənətin üzünə baxdı.Səltənət yorğun-yorğun gülürdü.Gülxar onun gülüşünün səbəbini anlamayıb dedi:

--Deyirsən, heç nə bacarmaram?Əlimdən bir iş gəlməz?Vallah, sən hələ bir izin ver, sonrasını görərsən.Mən də çox qoçağam haa....

Səltənətin büsbütün yuxusu qaçdı, o dikəlib yerinin içində oturdu.Gülxarın küskün oturuşu ürəyini kövrəltdi.Səltənət onun kürəyini qucaqlayıb sözə başladı:

--Ay mənim ağıllı qızım!Hər şeyi düşünürsən, çox sağ ol!Əlbəttə,

günlərin bir günü sənin də işləməyinə ehtiyac olacaq.Ancaq hələ o gün gəlməyib.Yeri gəlmişkən, de görüm, sənin əlində bir sənədin varmı?

Gülxar onun gözlərinə diqqətlə baxıb soruşdu:

--Sənəd, yoxsa sənət?Nə sənəd, diplom?

--Yox ey, adicə pasport, metrika, nə bilim, sənin adını, yaşını, doğulduğun yeri göstərən sənəd.Elə bir sənədin varmı?

Gülxar başını aşağı saldı, ah çəkib dedi:

--Yox, yoxdur...

Səltənət sözlərini ehtiyatla seçməyə çalışaraq dedi:

--Gülxar, qızım, biz sənin sənədlərini əvvəl-axır bərpa eləməliyik, yoxsa hər addımda başımıza olmazın işlər gələr.Ona görə də fikirləş, gör sən sənədlərini harda qoymusan, itirmisənmi, əlindən alıblarmı?Bunların hansı birisi olsa, hamısına çarə tapmaq olar, ancaq sən mənə güvənirsənsə, düzünü de.

Gülxar barmaqlarını çəkişdirə-çəkişdirə dayanıb bir az fikirləşdi, sonra yavaşca dedi:

--Ana, bilirsən, mənim heç vaxt sənədim olmayıb...

Səltənətin təəccübdən ağzı açıla qaldı:

--Ay qızım, sən nə danışırsan?Heç elə də şey olar?Hansı əyyamda yaşayırıq?Sənədsiz, pasportsuz da insan olar?

Gülxar doluxsunub Səltənətə baxdı:

--İnanmağın gəlmir, eləmi?Ancaq sən inan, inan, mən düzünü deyirəm, mənim heç vaxt sənədim olmayıb.Bəlkə də nə vaxtsa doğum haqqında şəhadətnaməm olub, hər necə olsa, kolxoz sədrinin qızı idim.Ancaq sonralar, o da Allah bilir, hansı qapılarda it-bat olub, mən ki, bu vaxta kimi özümə aid heç bir sənədi gözümlə görməmişəm.

Hər ikisi bir xeyli susdu.Gülxar ağlayır, Səltənət də ona deyəcək sözləri tapa bilmədiyi üçün doluxsunub yerə baxırdı.

--Bəs indi biz sənin kimliyini necə sübuta yetirək ki, sənə bir pasport alaq?Bu çətin olacaq, desəm, yalan olar, bu heç mümkün deyil...

Birdən Səltənət nə fikirləşdisə, ortalığı çox hüzünlü görüb, araya bir şuxluq salmaq üçün dedi:

--Allah köməyin olsun, sən də işləməkdən danışırsan, sən

əməlli-başlı görünməz adamsanmış ki...Həm varsan, həm də yox...Bundan danış ee...

Bu sözə ikisi də güldü.Sonra ikis də bir vaxtda ciddiləşdi.Gülxar birinci dilləndi:

--Bəs indi necə olacaq?

--Nə bilim, ay qızım, gərək yaxşı-yaxşı götür-qoy edək, ondan sonra baxaq, görək, bu sirri kimə etibar eləmək olar, kimdən kömək istəmək olar?Bu dəqiqə yəqin bildiyim budur ki, hələlik bunu heç kim bilməməlidir, bildin?Hər ehtimala qarşı, bunu hələlik gizli saxlayaq.Darıxma, bala, bir çarəsini taparıq, inşallah...

Gülxar da çox ciddi görkəmlə, Səltənətin sözünə qüvvət verdi:

--Doğru deyirsən, heç kimə deməyək.Mən onsuz da heç kimi tanımıram, heç kimi görmürəm, çölə də çıxmaram...

Səltənət bir az fikirləşib soruşdu:

--Doğulduğun yeri bilirsənmi barı?Ordakı arxivi araşdırıb sənədlərindən bir şey tapmaq olardı.

Səltənətin bu sözlərindən Gülxarın üzü bulud kimi tutuldu.O, qaşlarını çatıb çox ciddi şəkildə dedi:

--Oralardan gələn xeyir də olsa, istəmirəm.Nə o yeri görmək istəyirəm, nə oranın adamlarını, nə də arxiv sənədlərini.Ondansa, mən ömrümü sənədsiz, filansız yaşayaram!

Həyatda çox şey görmüş Səltənət, bu sözlərin arxasında Gülxara elənmiş çox böyük haqsızlıqların olduğunu, qızın o yerdə, o insanlardan da nələrsə çəkdiyini başa düşdü.Gülxar dediyi acı sözlərdən sonra dönüb Səltənətə günahkarcasına baxanda, Səltənət də bu baxışlara davam gətirməyib onun boynunu qucaqlayıb özünə sarı çəkdi, alnından öpüb dedi:

--Yaxşı, qızım, ora getmərik, sənin ürəyindən olmayan heç bir iş eləmərik...Başqa bir yol axtararıq...

==10.

Həyat çox qəribə şeydir.İnsan da həyatın qəribəliklərinə bələd olmaq üçün bir ömür boyu axtarışdadır.İnsan yaşa dolduqca, ona elə gəlir ki, nə qədər çox yaşasa, o qədər çox biləcək, atdığı hər addımda həyat

bütün bilmədiklərini ona başa salacaq, və bir gün gələcək ki, insanın ətrafında niyəsini bilmədiyi heç nə qalmayacaq.Sanır ki, bir gün gələcək, dünya bütün sirlərini ona açacaq, və onun üçün dünyada bir dənə də olsun, cavabsız sual qalmayacaq.Burda əslində, doğurdan da böyük bir hikmət var.Ömür yolunun çox hissəsini qət edən insan, doğurdan da xeyli müdrikləşir, ağı qardan, yaxşını pisdən seçə bilir.Ancaq heyif ki, zaman-zaman qarşısından ötüb keçən cavabsız suallara diqqət yetirmədiyindən, onların varlığından xəbəri olmur.Bir də ayılır ki, ətrafında cavabını bilmədiyi minlərlə sual var.İnsan onda anlayır ki, həyatda cavabı olmayan suallar da varmış, və hətta, belə suallar daha çox olurmuş.Bu hesabla da, insanın bu durumla barışmaqdan başqa çarəsi qalmır.O, bir gün qəbul edir ki, bir halda ki, bu suallara cavab tapa bilmir, yaxşısı budur, boş yerə özünü yormasın, sadəcə nəzərə alsın ki, bəzi sualların cavabı olmur.Bu fikirlə də axtarışlarına son versin.Bu cür cavabı olmayan suallar, adətən insan şüurunun qəbul edə bilmədiyi, məntiqə uymadığı faktlarla rastlaşdığı hallarda ortaya çıxır.Buna misal, bəzi insanların həyata dünyanın ağası kimi doğulmaları, bu dünyaya göz açdıqları gündən, hər şeyin qarşılarına hazır gəlməsi kimi hallar nə qədər izaholunmaz bir durumdur.Düşünürsən ki, axı bu insan bu ixtiyarı nə zaman, hansı hərəkətinə görə haqq elədi?Hələ bir də bu var ki, belə insanlar, qarşılarına hazır gələn heç nəyə qiymət vermir, heç nəyin qədrini bilmirlər.Çünki onlar gözlərini açdıqları gündən önlərinə hazır gələn bu zənginliyi əldə eləmək üçün zəhmət çəkməyiblər, əllərini əllərinə vurmayıblar.Di gəl ki, yenə də başqalarının bəlkə bir ömür boyu arzu elədikləri, uğrunda mübarizə apardıqları, ancaq yenə də əlləri çatmayan o şeylərə, onlar ilk gündən sahib olurlar. Həm də, o şeyləri haqq eləmədikləri halda sahib olurlar.İnsan da var ki, dünyaya gəldiyi gündən, hələ heç bir günah işləmədiyi halda, hamını sevib, hər kəsə qarşı xoş niyyətli olduğu halda, başına gəlməyən haqsızlıq, görmədiyi bəla, yaşamadığı əzab-əziyyət qalmır.Bu yerdə:"Görən, niyə belə olur?Niyə tanrı istəyənə deyil, istəməyənə verir? Niyə hər şeyi layiq olana deyil, layiq olmayana verir?" --deməyin heç bir mənası yoxdur. Çünki, bu sual da dünyanın cavabı olmayan min-bir sualından

biridir.Bu sualların niyəsini axtarmaq özü də, bizim toplumda günah sayılır.Bu səbəbdən də o sualları elə günaha batmadan dilimizin ucundan geri qaytarsaq, daha doğru olar.Dinimiz bizə belə öyrədir ki, yaşadıqlarımız hər nə olursa, olsun, dilimiz söz tutduqca, bizə yalnız şükür eləmək düşər.Çünki, hər kəsin Allaha şükür eləmək üçün, mütləq bir səbəbi vardır.Allah da şükür edənləri sevər...İnsan da, əyər nankor deyilsə, hər şeyə şükür etməlidir.

Səltənət də şükür edən insanlardan idi.Xüsusən də, son zamanlarda həyatındakı dəyişikliyə görə, gündə nim dəfə Allaha şükür edirdi.Onun şükür eləməsi üçün çox önəmli bir səbəb var idi.Səltənət, xasiyyətindəki səmimiyyəti, və insan sevərliyi ilə böyük bir kollektivin burulğana bənzər həyatında əvəz olunmaz bir şəxsiyyətə çevrilmişdi.Təmasda olduğu insanları təmənnasız sevdiyi üçün, onun ətrafında daim həyat qaynayırdı.Ancaq o, bu həyatın içində gününü başa vurub evə döndükdən sonra, dörd divar arasındakı tənha dünyasına qayıdır, kimsəsiz, mənasız bir ömür sürürdü.Ona görə də, bir gün Gülxara rast gəldiyinə görə, ürəyində çox sevinir, yorulmaq bilmədən Allaha şükür edirdi.Səltənətin həyatda ən çox qorxduğu tənhalıq idi ki, ondan yaxa qurtarmaq üçün, heç gözləmədiyi halda, əlinə belə bir fürsət düşmüşdü.İndi bu qızın başına gələnləri onunla birgə çözmək, əl-ələ verib, həyatlarının bundan sonrakı qismini birlikdə yaşamaq, onun ömrünün mənasına çevriləcəkdi.Səltənət, heç şübhəsiz ki, Gülxarın bu günkü həyatını, gələcəyini öz qanadları altına almaq üçün onun şəxsiyyətini yaxından tanımaq, geridə qoyduğu həyatını da axıra kimi bilmək istəyirdi.Gülxarın hekayəti qalın bir pərdə arxasında qaldığından, Səltənət də təxmin edirdi ki, o pərdənin arxasında yəqin ki, çox ağır şeylər durur.Ancaq Səltənət hər şeyi əvvəlcədən gözünün altına aldığından, o pərdənin arxasında olanları öyrənməkdən qorxmurdu. Səltənət, artıq anlamışdı ki, o məsələlər nədən ibarət olursa olsun, Gülxar onun həyatında xüsusi bir yer tutacaq, və buna heç nə mane ola bilməyəcək. Səltənət üçün bir insana bağlanıb, ömrünü ona həsr eləmək, dünyanın heç bir nemətinə bərabər tutulmayacaq bir səadət idi.Səltənət, onsuz da Gülxarın ara-sıra ağzından qaçırdığı hər kəlmə ilə ona bir az da yaxınlaşır, artıq onun yaşadıqlarına dair təxminlər qura bilirdi.Hansı

rayondasa, bir kolxoz sədrinin qızının başına gələnlər, onu sonradan yaşadıqlarına tuş gətirmişdi.Səltənət ürəyində fikirləşdi ki, heç də yanılmır, Gülxarın barəsində verdiyi qərar düzgün qərardır.Bu qızın başına gələnlər hər nə olubsa, onun günahı üzündən olmayıb.Səltənət, bu qənaəti bu gün özü üçün yetərli sayıb, hər şeyi zamana buraxmağı, ikisi üçün də əvvəlki həyatlarından daha rahat, daha mənalı olmaqla fərqlənən həyatlarını beləcə, tələssiz yaşamağı qərara aldı.

Səltənət gündüzləri Gülxarla birlikdə keçirir, onunla dərdləşir, öz keçmişindən xatirələr danışır, bu yolla da onun da dilini açmağa çalışırdı.Gülxar onun söhbətlərinə diqqətlə qulaq assa da, özü hələki, heç nə danışmırdı.Səltənət gecə növbəsinə gedərkən onu evdə tək qoyduğuna görə nigaran qalırdı.Ancaq Gülxar onu arxayın edirdi ki, çölə-bayıra çıxmadığı təqdirdə, onun çəkinəcəyi, qorxacağı heç nə yoxdur.Bu söz özü də, Səltənətdə düşünmək üçün bəzi fikirlər oyadırdı.

Beləcə, sadə çərçivədən kənara çıxmadan, həyata davam elədikləri bir gün, Səltənət gecə növbəsindən çox pərişan qayıtdı.Lal-dinməz Gülxarın qoyduğu çayı içdi, sonra gəlib pəncərənin önündə dayandı.Pəncərədən baxmaq, insanların, əsasən də, dərdli, fikirli günlərinin vərdişi olduğundan, Gülxar artıq anlamışdı ki, nə isə xoşagəlməz bir şey baş vermişdi.Gülxar Səltənəti heç belə görməmişdi. Gülxarın get-gedə daha yaxından tanımağa başladığı Səltənətdə, adətən yaşına yaraşmayan bir həyat qaynayırdı.Gülxar, ana dediyi bu qadının gülər üzünə, deyib gelməsinə elə alışmışdı ki, onun bir gün bu qədər kədərli ola biləcəyini heç düşünməmişdi.İndi o, belə həyat dolu bir qadını üzən səbəbin nə olduğunu bilmək istəyirdi.Heç şübhəsiz ki, onu bu qədər məyus edən səbəb hər nə idisə, çox ciddi bir şey olmalı idi.Gülxar ayağının ucunda Səltənətin yanına yaxınlaşıb yavaşca soruşdu:

--Ana,yoxsa, bir şey olub?

Bu sözlərdən sonra Gülxar onu arxadan mehribancasına qucaqladı. Səltənət dönüb ona baxanda,Gülxar onun gözlərini gördü, Səltənətin gözlərindən yaş süzülürdü.Gülxar daha da həyəcanlandı.

--Ana, qurban olum, nə olub?

Səltənət döndü, Gülxarın həyəcanını görüb, üzündən öpdü, keçib öz yerində, yatağının kənarında oturdu.

--Ay bala, neçə ildir xəstəxanada çalışıram, gözümün önündə nə qədər insan ölüb, ancaq bu günkü ölümü yenə də ağrısız-acısız qəbul edə bilmirəm.Gənc qız, özü də ay parçası...üç-dörd saatın içində tələf olub getdi...

Səltənət susdu.Əlindəki yaylıqla gözünün yaşını sildi.Əli ilə Gülxarı yanına çağırdı.Gülxar gəlib onun qarşısında, xalçanın üstündə bardaş qurub oturdu, aşağıdan yuxarı anasına baxıb, mövzunun davamını gözlədi.Səltənət, qızın bu cür, susub onu dinlədiyini görəndə, sözünə davam elədi.

--Həmişə də belə müsibət ancaq yetimin başına gələr...Kimi-kimsəsi də yox imiş tifilin...Ona görə də atalar deyibmiş də..."Yetim yarısa da, qarımaz..." Yazıq, yetimliklə böyüyüb, tibb texnikomunu bitirib, təyinatla işləməyə gedib.Özü öz yükünü çəkirmiş, yazıq...Bu da axırı...

Bu yerdə Gülxar soruşdu:

--Nə olub ki?

--Nə olacaq, yetimlik həyatıdır da...Görünür yeməyinə fikir vermirmiş, ya da ac qalırmış, nə bilim, axır ki, hansı səbəndənsə, bağırsağında çürümə başlayıb, içərini yeyib qurtarıb...Bədbəxtin xəbəri də olmayıb.Ancaq vəziyyəti ağırlaşandan sonra bura, xəstəxanaya gətiriblər, o da bir nəticə vermədi.Yazığı qurtara bilmədilər...Adamın həm yazığı gəlir, həm də hayıfı...

Gülxar eşitdiyi "yetim" kəlməsindən tutulub doluxsundu, başını aşağı saldı.Ürəyində o qıza da yazığı gəldi, özünə də...Bir gün yetim qalmasaydı, həyatı bu cür olardımı?İndi onun səsi Allah bilir, haralardan gələcəkdi.Gülxar da bir vaxt həkim olmağı xəyal edirdi.Bir zamanlar, ata-anası onu da "Qızımız böyüyəndə doktor olacaq," deyib əzizləmişdilər.Ancaq həyatın heç kimlə, və heç nə ilə hesablaşmayan amansız qanunları hər şeyi alt-üst elədi.Gülxar yetimliyin acı yükünü körpə çiyinlərinə alıb daşımağa məcbur qaldı, gücü çatmadı, büdrəyib yıxıldı.O yıxılan, yıxıldı, bir daha

qalxa bilmədi...Özünün də, Gülxarın da həyatı ilə qumar oynayan Tahir adlı şərəfsiz bir oğlan, öz həyatının üstündən bir dəfəlik xətt çəkdiyi o qış gecəsinə kimi Gülxarı qalxmağa qoymadı...

Bu düşüncələrdən Gülxarın gözləri çeşməyə döndü, dizlərində çarpazladığı əllərinin üstünə bir cüt göz yaşı damdı...

O gün Səltənət az danışdı, fikirli gəzdi.Gülxar onsuz da çox vaxt kölgə kimi səsiz-səmirsiz olurdu.Odur ki, həmin gün hər ikisi həyatlarından çəkdikləri bu qədər dərdin-bəlanın müqabilində, ürəklərinin bir küncündə hələ də gizləyib saxladıqları şəfqət və mərhəmət hissinin təsiri ilə, beləcə, heç tanımadıqları talehsiz yetim bir qızın yasını tutdular.Səltənət gecə növbəsinə işə getdi, Gülxar da hava qaralana kimi, damları, daşları döyəcləyən, səsi ilə insanların həsrətini bir az da körükləyən yağışa tamaşa elədi.Gülxar yağışa baxa-baxa fikirləşir, kələfin ucunu tutub çox uzaqlara gedirdi. Səltənətin dediyi "yetim" kəlməsi onun əlindən tutub, çoxdan unutmaq istədiyi bir keçmişə apardı.Orda ailədə, valideyinlərinin qayğısı və məhəbbəti ilə boy atan qohum-əqrəbanın uşaqlarını, sonra da yetim qalmış özünü yada saldı.Ailədə böyüyən uşaqlar öz qayğısız uşaqlıqlarını yaşadıqları halda, Gülxar hər yaşayacağı gün uğrunda mücadilə edirdi.Bunlar bir-birindən yerlə göy qədər fərqlənən dünyalar idi.O, bu gün, ailə məvhumunun insan həyatında, talehində nə qədər vacib olduğunu daha dərindən anladı.Ailə, çox böyük qüvvə imiş, o, insana ən aciz, ən köməksiz vaxtlarında arxa dururmuş, kömək olurmuş.Ailə, özlərindən birini yeri gələndə, hər kəsdən müdafiə edir, bütün bəlalardan qoruya bilir, onu heç kimin ayağına vermirmiş.Ailə, alınmaz qala imiş, isti yuva imiş.Bunların hamısını Gülxar elə erkən yaşlarında itirmişdi ki, indi başqalarından eşitdiyi, ailəyə xas olan bu gözəl xüsusiyyətləri heç xatırlamırdı da...Ancaq əvəzində, ailəsiz qalmağın, ailə olmadan, bu çətin həyat yolunu yerimənin nə qədər çətin olduğunu, o hamıdan yaxşı bilirdi.Bu gün o, ailə olmadan, tək qalmağın, kimsəsiz ömür sürməyin nə kimi sonuclara gətirdiyinin bir daha şahidi oldu.Anladı ki, yetimliyin aqibəti birində Gülxarın həyatı kimi, atdığı hər addımda yıxılmaq olurdusa,

birində də adını da bilmədiyi, həyatdan nakam getmiş o qızın aqibəti kimi, vaxtından qabaq bu həyatdan köçüb getmək olurmuş.Nəticə etibarı ilə bir-birindən çox da fəqrlənməyən faciələrdən, birində oldu varmış, birində öldü varmış...

Hər səhər tezdən qalxıb anası üçün çay dəmləyən Gülxar, ertəsi gün yatıb yuxuya qaldı.Gecə ağır fikirlərin üzücü təsiri onun yuxusunu qaçırtmış, səhərə kimi başı kəsilmiş toyuq kimi çabalamış, yuxusuzluqdan sabaha kimi yerində qurcalanması, onun üçün bir işkəncəyə çevrilmişdi.Yalnız dan yeri sökülənə, fikirləşməkdən yorulmuş beyin, nəhayət ki, yuxuya təslim olmuşdu.Gülxar bir də ayıldı ki, Səltənət nə vaxtdır gəlib, özü üçün çay da dəmləyib, indi pəncərədən bayıra baxa-baxa çay içir.Gülxar tez qalxıb əl-üzünü yudu, gəlib günahkarcasına Səltənətin yanında oturdu.

--Çoxdan gəlmisən?Gör necə yatıb qalmışam?

--Eybi yoxdur, qızım, dünənki ağır söhbətdən sonra çox fikirləşmisən, yəqin. Mənim də başım hələ də ağırdır, nahaq qalxdın, mən də girib yatacağam... İndiki qalxmısan, sən də çaydan tök, iç...

Gülxar qalxıb Səltənətin stəkanını doldurdu, özünə də çay süzüb gəldi.

--Növbən necə keçdi?Yəqin çox yorulmusan...

--Yox, o qədər də yorulmamışam.Əslində, mən heç yorulmaq bilmərəm, ancaq növbədə olduğum zamanlarda xəstə vəfat edərsə, bax, bu mənə çox əziyyət verir.Uzun zaman ürəyim ağrayır, yata bilmirəm.Özümlə bacara bilmirəm.Elə hadisələri unudana kimi bir müddət belə xəstəhal oluram.Çoxdan alışmalı idim, ancaq alışa bilmirəm.İnsan həyatı o qədər qiymətlidir ki, onun elə-belə bir an içində yox olması, adamı öz ixtiyarından çıxarda bilir.Mənim dünəki halım kimi...Fikir vermə, bu da keçər...Rənmətliyin sənədləri məndədir, istəyirsən göstərim...Yox, bəlkə də pis olarsan, göstərməyim...

Gülxar, Səltənətin dərdləşməyə yoldaş axtardığını hiss edib dedi:

--Göstər, mən də görmək istəyirəm...

Səltənət qalxıb iş çantasını gətirdi, içəri cibindən bir bükülü kağız çıxartdı.Onu açıb arasından bir pasport, bir də bir neçə sənəd çıxartdı.O, pasportun şəkil olan səhifəsini açıb Gülxara uzatdı.

--Bax, bədbəxt nə qədər də gözəl imiş, elə xəstəxanaya alınanda da çox gözəl idi.Bir çıraq kimi söndü...

Gülxar çəkildən baxan gülər üzlü gözəl qıza baxıb altındakı yazıları oxudu.Əlizadə Nərmin İsmayıl qızı.3 aprel,1948-ci il.Bakı şəhəri.

Gülxar öz-özü ilə danışırmış kimi dedi:

--Mənimlə eyni yaşda imiş...

Səltənət onun bu sözünə dönüb maraqla Gülxara baxdı, sanki çox qəribə bir şey görürdü.Gülxar hələ də gözünü şəkildən çəkmirdi.

Səltənət nə isə fikirləşib, birdən dedi:

--Bilirsənmi, sabah üçün mən işdən azad edilmişəm, onun işləyib yaşadığı rayona gedirəm.

Gülxar təəccüblə Səltənətə baxdı.

--Niyə?

--İşdən göndərirlər...Rəhmətliyin sənədlərini aparıb, vəfat elədiyini xəbər verəcəyəm.Yazıq, axı uşaq evində böyüyübmüş, yəqinki, kimi-kimsəsi də yoxdur, belə olsa, onu elə burda dəfn edəcəklər.Yox, əyər sahib çıxan tapılsa, gəlib aparıb rayonda dəfn edərlər, iş yoldaşları, qohum-əqrəbası da mərasim qurarlar da...Nə bilim, çox ağır bir səfər olacaq, ancaq baş həkimin sözünü yerə sala bilmədim...Bir gün mənsiz qalacaqsan, darıxmazsan ki?

Gülxar gəlib Səltənətin boynunu qucaqladı:

--Desəm ki, darıxmaram, inanarsan?Əlbəttə darıxacağam, ancaq əsas məsələ bu deyil, bu ağır işi mütləq sən görməli idin? Başqa adam yox idi?

--Adamdan çox adam var, qızım, ancaq mən onun ölümünü görən, sona kimi onun yanında olan adamam, ona görə də məsləhət oldu ki, mən gedim.Yəqin ki, sualı olan olacaq, nə oldu, necə oldu...Bu baxımdan istədilər ki, mən gedim.

--Hansı rayondur?

--Şamaxı.

--Oralı imiş?

--Yox, ora təyinatla işləməyə gedibmiş.Məktəbdə tibb bacısı işləyirmiş.Özü hamını müalicə edirmiş, başına gələnlərə bax!

Ertəsi gün Gülxar erkən qalxıb Səltənətin əşyalarını topladı, onun dəyişəyini, səfər boyu lazım olacaq nə varsa, hamısını yol çantasıma qoydu.Səltənət Gülxarla evdə görüşüb, çıxdı, səhər saat səkkiz avtobusu ilə Şamaxıya yola düşdü.Gülxar da öz ünvansız həsrəti ilə, bundan sonra yaşayacağı həyata dair düşüncələri ilə baş-başa qaldı.

Gülxar yaxşı bilirdi ki, Səltənətə qarşı düzgün hərəkət eləmir.O, bir yandan fikirləşirdi ki, ona bala deyib qoynuna alan bir qadının təmiz məhəbbətinə, saf niyyətinə bu qadının layiq olduğu qarşılığı versəydi, çox doğru olardı.Ondan sonra, bu bağlılığa, bu izdivaca heç nə kölgə sala bilməzdi.Digər tərəfdən də anlayırdı ki, onun Səltənətə açacağı sirr normal həyatda, bir qayda olaraq, heç kimin tərəfindən qəbul olunmayan, bütün cəmiyyətlərdə daş-qalaq olunan bir günah olmaqla, onun üzünə açılmış bu yeganə qapını da birdəfəlik bağlaya bilərdi.Gülxar bu evdə isti yuva tapmışdı, burda rahat idi, yaralarını sağalda bilərdi.Hər şeyi ölçüb-biçib yenidən başlaya bilərdi.İndi birdən-birə, Səltənətin qarşısına keçib, mən dünənə kimi əldən-ələ ötürülən satılıq bir qadın idim, məni üzərimdəki çirkabla birlikdə övladlığa qəbul elə, deyə bilməzdi.Səltənət nə qədər mələk timsallı insan da olsa, ondan belə bir xəbəri asanlıqla qəbul edəcəyini, özünü heç nə olmamış kimi aparacağını gözləmək olmazdı.Gülxarın başına gələnləri bütün xırdalıqlarına qədər bilməyənlərin beynində, mütləq cürbəcür suallar doğacaqdı: "Niyə mübarizə aparmadın?Niyə qoyub qaçmadın? Niyə heç kimdən kömək istəmədin? Niyə?... Niyə?... Niyə?..."

Demək olmazdı ki, bu insanlar haqlı deyillər.Ancaq Gülxarın başına gələnlərin səbəbi də elə o idi ki, onun nə tutacağı bir budağı, nə də gedəcəyi bir qapısı var idi.Bunları anlayacaq, Gülxarı bağışlayacaq insanı hələ tapmaq lazım idi.Görəsən, Səltənət həmin o insan idimi? Bunu Gülxar da bilmirdi.Ona görə də tələsməyə qorxurdu.Səltənətə

açılandan sonra nələr ola biləcəyini heç təxmin də edə bilmirdi.Bu mövzu bu gün onun rahatlığını əlindən alan, gecələrini yuxusuz qoyan tək mövzu idi.Ancaq həyatındakı hər cür dəyişiklik də, məhz bu mövzuya bağlı idi, onun necə qəbul olunacağından asılı idi.Gülxarın bu dəfəki daxili çarpışmaları yenə nəticəsiz qaldı, onun bir qəti qərar almasına yardım edə bilmədi.Gülxar nə qədər götür-qoy elədisə də, yenə də eyni fikrin üstündə dayandı:Bu fikir onun ürəyindən olmasa da, onu qəbul etməli oldu.Fikirləşdi ki, hələlik hər şey olduğu kimi qalsın, yeri gələrsə, ciddi bir zəruriyyət yaranarsa, o zaman Gülxar hər şeyi ortaya tökər. Ondan sonra nə olarsa, olar.Gülxar hiss edirdi ki, Səltənətlə ikisinin arasındakı hələ çox da bərkiməmiş ana-bala ünsiyyəti, bir gün elə səviyyəyə çata bilər ki, Səltənət də övladının hər günahını bağışlaya bilən yeganə insana çevrilə bilər.O insan, anadır...Onun balası hər kim olursa olsun, anamı analıqdan, balanı da balalıqdan çıxarda bilməz! Gülxar ümidini o günə, o sevgiyə bağlayıb, bir az da gözləməyi qərara aldı...

==11.

Səltənət Şamaxıdan çox yorğun qayıtdı.Gülxara elə gəldi ki, qadın bir günün içində bir neçə yaş qocalıb.Səltənətin yerinə yetirəcəyi tapşırıq ölüm xəbərini çatdırmaq idi ki, bu da ən azı ölüm qədər ağır olmalı idi.Gülxar onun soyunmasına kömək elədi, yeni dəmlədiyi çaydan süzmək istəyirdi ki, Səltənət onu dayandırıb dedi:

--Qızım, zəhmət çəkmə.Mən hamamlanmasam, nə yorğunluğum çıxar, nə də içdiyim çayın ləzzətini bilərəm.Sən ondansa, mənim dəyişəyimi hazırla, girim yaxalanım.

Gülxar bir söz demədən, onun dediklərini yerinə yetirdi.Səltənət duş qəbul edib qayıdanda, Gülxar onun gümrahlığının bərpa olunduğunu, yenə əvvəlki Səltənət olduğunu görüb sevindi. Səltənət təzə dəmlənmiş çaydan bir-iki stəkan içib geri durdu.Gülxar onun əhvalını gördüyü üçün, sorğu-sual eləmək istəmədi, ancaq yolçuluğunun necə keçdiyini soruşmadan dayana bilməyib, soruşdu:

--Səfərin necə keçdi, ana? Çoxmu yoruldun?

Səltənət başını qaldırıb Gülxarın üzünə diqqətlə baxdı.Gülxar bu qəribə baxışdan bir az narahat oldu.Düşündü ki, yəqin yersiz sual verdi.Bu an, Səltənət elə bil sualı yeni eşitdi, dedi:

--Yox, qızım, yox...Yorulmadım, ancaq çox sarsıntı keçirtdim.Yazıq qız, insanların arasında özünə necə hörmət qazanıbmış.Kimə rast gəldim, mənə ondan gözəl şeylər danışdı.Hamıya qayğı göstərirmiş, hamıya yardım edirmiş...Ağıllı, kamallı, savadlı...Millət ondan ötrü saçını-başını yoldu... Bir görsəydin...Çox ağır bir səfər oldu.Sabah gəlib aparacaqlar...Dedilər, Nərmin sahibsiz deyil, onun burda bir kənd qohumu-əqrəbası var.Onu el adəti ilə öz qəbristanlığımızda dəfn edəcəyik. Bütün kənd ürəyi istəyəndə, onun məzarını ziyarət edəcək. Bax, bala, necə insanlar varmış... Gülxar eşitdiklərini ürəyində analiz edib məətəl qalırdı.Onun yaşadığı kənddə hamı bir-birinə qohum idi.Üstəlik hamı Gülxarın ya yaxın, ya da uzaq qohumu idi.Ancaq Gülxar onlardan heç bir qayğı, heç bir məhəbbət görmədi.Gülxar onlardan heç olmasa azacıq mərhəmət görsəydi, talehi də bəlkə başqa cür olardı.Gülxar, əslində onların zülmündən qurtarmaq üçün Tahirə qoşulub qaçdı.İndi o nə qədər fikirləşirdisə də, insanların ona qarşı belə ədalətsiz olmalarının səbəbini, talehinin belə uğursuz olmasının səbəbini tapa bilmirdi ki, bilmirdi. "Atam onlara yaxşılıqdan başqa nə eləmişdi?Mən onlara nə pislik eləmişdim?Bu qədər acıq, kin-küdurət hardan idi?"

Bu suallar Gülxarın daxilində tələtüm yaradan, onu haldan-hala salan, ancaq yenə də, cavabı tapılmayan suallar idi.Səltənət Gülxarın halındakı dəyişikliyi görüb diqqətlə üzünə baxdı.

--Gülxar, bala, sənə nə oldu?Yadına nə düşdü ki, bu hala qaldın?

Gülxar düşüncələrdən ayrılıb ona baxdı:

--Heç...keçmişlərdən ydıma bəzi şeylər düşdü.Hardasa, rəhmətlik Nərminə bir az qibtə elədim.

--Elə demə, qızım, günahdır.Dirilər ölülərə qibtə eləməz.Birdəki, sənə nə olub, Allaha şükür?Mən sənə demişəm, bundan sonra tək deyilsən, mənim kimi anan var.Heç kim sənin xətrinə dəyə bilməz bundan belə.Əyər mənə ana deyirsənsə, mənə güvən, səni hər kəsdən qorumağa gücüm çatar. İkimiz əl-ələ verib, hər işin

öhdəsindən gələcəyik. Görəcəksən...İndi mən xəstəxanaya gedirəm, baş həkim gözləyir. Gedim, hər şeyi ona danışım, gəlirəm...Mənsiz darıxma... Heç demədin, nə bişirmisən?

Gülxar mövzunun dəyişdiyinə sevinib dedi:

--Yarpaq dolması ilə dovğa...

Səltənət Gülxarın bu sevincini görüb dedi:

--Onda sən süfrəni hazırla, mən də indi gəlirəm, yaxşı qızım?

--Yaxşı...

--Ay mənim gözəl qızım!--Səltənət bu sözlərlə onu qapıya qədər ötürən Gülxarı qucaqlayıb üzündən öpdü, sonra dabanı üstə dönüb qapıdan çıxdı.

Gülxar Səltənətin halındakı dəyişikliyi görür, ancaq səbəbini anlaya bilmirdi.Səltənət sanki, ikiləşmişdi:biri Gülxarın yaxşı tanıdığı şən, şükran Səltənət idi, o biri tez-tez tutulub-açılan, fikrə gedən, Gülxara qəribə baxışlarla baxan Səltənət idi.İkinci Səltənətdən Gülxar artıq ehtiyat edirdi.Ona elə gəlirdi ki, Səltənət ürəyində Gülxarala bağlı nə isə yeni bir qərar qəbul edib, indi də onu deməyə fürsət axtarır.Gülxar bir yandan fikirləşirdi ki, qoy nə olursa olsun, ən azı, vicdan əzabından canı qurtarar.Digər tərəfdən də, hər şeyin tezliklə bitəcəyi düşüncəsi, onun ürəyini qorxunc fikirlərlə doldururdu.Amansız həyat onu yenə küçələrə atacaq, Allah bilir, başına daha nələr gələcəkdi.Gülxar yenidən o həyata dönmək istəmirdi.O, keçdiyi ömür yolunda bir ömrə bəs edəcək qədər əzab-əziyyət görmüşdü artıq.İndi, yaşadığı bu mühiti, sığındığı bu yuvanı, ona bu qədər doğma olan bir insanı itirməmək üçün, Gülxar vurnuxur, bu yeni münasibətin səbəbini axtarırdı.Gülxar yanılmırdı.Bu bir neçə gündə o, Səltənətin gözlərinin içində bir kölgə görmüşdü, bu kölgə onu şübhəyə salırdı.Səltənət niyə belə eləməli idi?O, hansı bir işin üstünü açmışdı, görəsən?Bu dəyişikliyin Nərminin ölümü ilə nə əlaqəsi ola bilərdi?Gülxar bir yandan süfrəni hazırlayır, bir tərəfdən də beynini qazıyan bu suallara cavab tapmaq istəyirdi.Beyni məşğul olduğundan, nəyi hara qoyduğunu heç özü də bilmirdi.Bir də baxırdı ki, hər şeyin yerini səhv qoyub, süfrəni bir də başdan düzürdü.Çətin idi, çox çətin idi.Ocağına sığındığı bu mehriban, qayğıkeş qadının hər sözündən, hər baxışından qorxuya düşən, onun niyyətini bilmədiyi üçün hər an küçəyə

atılacağından qorxan Gülxarın, gündə neçə dəfə kürəyinin ortasından buz kimi soyuq bir əsinti keçir, onun bütün vücudunu üşütməyə salırdı.Ancaq Gülxar, Səltənətin məhəbbətini də hiss edirdi.Onun qayğıkeşliyi, ananın balaya olan münasibəti də saxta deyildi, həqiqi idi.Gülxar bunu bütün qəlbi ilə hiss edirdi.Səltənətin ona qarşı nəvazişli davranışı, hər kəlməsində "qızım" deməsi, hər fürsətdə onu bağrına basıb öpməsi, Gülxarın bütün şübhələrini üzüstə buraxırdı.Ancaq yenə də ortada yeni əmələ gəlmiş, tam aydın olmayan bir vəziyyət var idi ki, onun içindən nə çıxacağını Gülxar bilmir, qorxu içində bu işin sonunu gözləyirdi.

Səltənət nə o axşam, nə də ertəsi gün söhbətə həvəs göstərmədi, çox danışmadı, özünü həmişə olduğundan bir az fərqli apardı.Bu fərq ondan ibarət idi ki, Səltənət tez-tez fikrə gedir, gözü elə hey yol çəkirdi.Bu da o demək idi ki, o nəsə fikirləşirdi.

Şamaxılılar gəlib Nərminin meyidini aparanda, Səltənət də onlara qoşulub getdi.Həmin gün ertədən, rayondan bir avtobus adam gəlmişdi.Onlar xəstəxanadan cənazəni almaqla məşğulkən, Səltənət evə gəlib Gülxara dedi:

--Gülxar, qızım, sənə zəhmət, mənim pal-paltarımı topla, mən də Nərminin dəfninə gedirəm.

Gülxar təəccüblə onun üzünə baxanda, Səltənət dedi:

--Ürəyim istəyir, bala.Baş həkimə dedim, dedi, get.Səni də özümlə aparardım, ancaq yeri deyil, ağır bir məclis olacaq.Sən evdə ol, məni gözlə, yaxşı, bala?

Gülxar qadının həyəcanını görsə də, heç nə biruzə verməyib yavaşca dedi:

--Yaxşı, sən narahat olma, arxayın get.Neçə günlüyə gedirsən?

--Vallah, heç bilmirəm.Yəqin iki gün ancaq olar.Ancaq sən hesabını elə tut ki, bəlkə bir az artıq da qalmalı olaram, bunu bulmirəm.Qorxmazsan ki, darıxmazsan ki?

Gülxar bu yerdə gülümsədi:

--Yox, yox...qorxmaram...ancaq darıxaram, tez qayıt...

Səltənət eyni istiqanlılıqla Gülxarı qucaqlayıb öpdü:

--Canım qızım, darıxma, tez qayıdacağam.

Bunu deyib getdi.Gülxar onun dalınca pəncərədən baxa-baxa qaldı.

Səltənət dediyi kimi, iki gündən sonra qayıtdı.Bu dəfə Gülxar onu sorğu-suala tutmadı, çünki Səltənət doğurdan da yorğun, əldən düşmüş bir halda qayıtmışdı.O, adəti üzrə, duş qəbul elədi, Gülxarın dəmlədiyi çaydan içib, bir neçə saat yatdı.Səltənət bir də həmin günün axşamı oyandı, qalxıb geyindi, gəlib divanda, televizora baxan Gülxarın yanında oturdu.Gülxar ona sarı dönüb dedi:

--Necəsən, ana, yorğunluğun çıxdımı?

Səltənət onun kürəyini sığalladı:

--Yaxşıyam, qızım...De görüm, necə keçirtdin bu iki günü?

--Sənin kitablarından bir-ikisini oxudum, televizora baxdım...

--Səni narahat edən bir şey olmadı ki?Bir gələn, soruşan...

--Yox...heç nə olmadı...Niyə soruşdun ki?

--Heç, elə-belə...Lap yaxşı, deməli hər şey yaxşıdır.

Gülxar bu sual-cavabdan bir şey anlamadı, ancaq yenə də narahat olmağa başladı.Nə demək idi bu suallar?Bəlkə bildiyi bir şey var?Nə bu fikirlərini aşkar edə bildi, nə də bir şey soruşmağa cəsarəti çatdı.Səltənət də mövzunu dəyişdiyinə görə, Gülxar hər şeyi ürəyində saxladı.

Bir neçə gündən sonra Səltənət səhər tezdən harasa getdi.Gülxar onun qalxdığını heç bilmədi də.Bir də oyananda xəbər tutdu ki, ana dediyi qadın harasa gedib.Səltənətin bu hərəkəti onun şübhələrinin üstünə şübhə qoydu.Adətən, Səltənət hara gedirdisə, mütləq Gülxara getdiyi yeri də, nə üçün getdiyini də deyirdi.İndi birdən-birə, heç nə demədən, görən bu qadın hara gedib? Gülxar anlaya bilmədiyi hər şeydən qorxurdu.Ona görə də, evi yığışdıra-yığışdıra, yemək hazırlaya-hazırlaya son günlərin tapmacalarını çözmək istəyir, ancaq çözə bilmirdi.Səltənət gün boyu gəlmədi.O, gələndə, artıq axşam idi.Gülxar nə qədər diqqətlə baxdısa da, Səltənətin əhvalında heç bir dəyişiklik hiss eləmədi.Səltənət həmişəki Səltənət idi.Bu dəfə o, hətta bir az xoş əhvalda idi.Gülxar ondan nə qədər çəkinsə də, marağını da gizlədə bilmədi.Axşam yeməyini yeyib, çay içməyə keçəndə, o da ürəklənib Səltənətdən soruşdu:

--Ana, heç demədin, hara getmişdin?Bütün günü harda idin? Çox nigaran qalmışdım...

Səltənət gülümsəyib dedi:

--Bilirəm, səni nigaran qoydum, incimə qızım, bir iş üçün getmişdim.Bilmirdim düzələcək, ya yox, ona görə də sənə heç nə demədim.

--Düzəldi?

--Düzəldi.

--Elə isə deyə bilərsənmi, o nə iş idi?

--Deyə bilərəm.Mən iş yerimi dəyişirəm...Yasamalda yeni xəstəxana açılıb, orda işə düzəlirəm.

--Niyə? Sən ki, işindən də, kollektivindən də razı idin, indi birdən-birə nə oldu?

Səltənət əlindəki satəkanı yerə qoyub, Gülxarın üzünə baxdı:

--Belə lazım idi.Həm də mənim üçün də bir dəyişiklik olacaq.Buna ehtiyacım var.Gör nə vaxtdan bəri burda işləyirəm?Bir az da başqa yerdə işləsəm, pis olmaz.

Gülxar geniş açılmış gözləri ilə hələ də ona təəccüblə baxırdı.

--Ancaq elə buna görə?Yeni iş yerinə alışmaq həmişə bir az çətin olur haa...Evimizin yaxınındakı iş yerini sən elə-belə buraxıb getməzsən, nəsə bir səbəb var...

--Nə səbəb olacaq, bala? O xəstəxana barədə çox eşitmişdim, getdim, gördüm, bəyəndim.Baş həkim də məni qəbul elədi, işə almağa razılığını bildirdi, vəssalam! İndi qaldı, burdakı baş həkimin əlindən qurtulmaq.Xətrimi burda çox istəyirdilər, ona görə də yola gətirmək bir az çətin olacaq.Ancaq qərarım qətidir, iş yerimi dəyişirəm.

--Bunun qarı, qışı var, bəs necə gedib-gələcəksən?

--Tramvayla!Başlanğıcda bir az çətin olar, sonra alışaram.Bir dəki, bir müddət sonra evimizi də o tərəflərə dəyişərik, burda nə var ki?Nə üçün belə narahat olursan?Görərsən, hər şey yaxşı olacaq...

--Əyər sən elə istəyirsənsə, qoy elə də olsun.Mən sənin üçün narahat olurdum.Dedim bəlkə işində bir problem var, ona görə

gedirsən? Ana, incimə, ancaq bir şeyi də soruşmadan dura bilməyəcəyəm. Düzünü de, bunu mənim üzümdən eləmirsən ki? Yəni, sənə bir problem yaratmamışam ki?Belə bir şeyi heç gözləmirdim, ona görə...

Səltənət bu gözlənilməz sualdan bir az çaşdı, tez də özünü ələ alıb dedi:

--Ay qızım, bu nə sözdür?Səninlə nə əlaqəsi ola bilər?Başını belə fikirlərlə yorma, sən Allah!Burda gözəl-gözəl şeylərdən danışırıq.

Gülxar, elə bil bir az sakitləşdi.O dedi:

--Nə bilim, hərdən ürəyimə belə fikirlər gəlir...

--Gəlməsin!

Səltənətin bu şux zarafatına Gülxar da gülümsədi.

--Yaxşı, əyər özün belə istəyirsənsə, mən də sənə bacardığım kimi kömək edərəm.Bir yana baxanda, sən haqlısan, bəzən yer dəyişmək insanda gözəl arzular oyadır, yaşamaq həvəsini artırır.Dəyişiklik özü də, bir dəyişiklikdir.

Səltənət Gülxarın çiyinlərini qucaqlayıb dedi:

--Ay sağ ol!Belə de, mən də deyim, ay mənim ağıllı qızım, bax, bu başqa məsələ...sözü elə yerində dedin ki, o ki deyirlər ey, "quşu gözündən vurdun",səninki də elə oldu.Əvvəl işimizi dəyişək, sonra da evimizi dəyişərik,nəticədə, ikimizin də həyatında yaxşılığa doğru bir dəyişiklik olar, nəhayət.Elə deyilmi?

--Elədir...

İki qadın, baş-başa verib, irəlidə onları gözləyən dəyişikliklərin xəyalını qurmağa başladılar.Ancaq Səltənət də, Gülxar da bilirdi ki, bu dəyişikliyə başlamazdan əvvəl, bütün örtülü bazarlar açılmalı olacaq.

==12.

Səltənət yeni iş yerinə tez alışdı.Müasir üslubda tikilmiş yeni xəstəxana öz təmizliyi ilə, müasir avadanlığı ilə seçilirdi.Hər tərəfdə göz oxşayan yenilik hiss olunurdu.Böyük pəncərələr sayəsində bolluca işıqlanan xəstəxana binası, mərmər döşəməsi ilə, hər tərəfə

düzülmüş dibçək gülləri ilə insana xoş təsir bağışlayır, digər köhnə xəstəxana binalarından fərqli olaraq, xəstələrdə pozitiv hisslər oyadırdı.Bu da insanların həyatlarını etibar elədikləri bir sağlıq ocağında çox vacib şərt idi.

Səltənət, özü dediyi kimi, əvvəlki iş yerindən çox çətinliklə ayrıldı.Onu buraxmaq istəmirdilər.O özü də ordan ürək ağrısı ilə ayrılırdı.Nə də olsa, ömrünün uzun bir hissəsini bu kollektivdə keçirmişdi.Ancaq Səltənət gediş səbəbini evini dəyişməklə əlaqələndirəndə, hər kəs buna inanıb onunla razılaşdı.Onu təmtəraqla yola saldılar.Baş həkim, hətta zəng vurub, yeni xəstəxanadakı həmkarına Səltənətdən müğayat olmağı tapşırıdı.Əslində, Səltənətin xəsiyyəti ilə buna heç ehtiyac yox idi.

Baş həkim də, öz növbəsində, onu çox böyük hörmətlə qarşıladı, iş yerini ona özü göstərdi. Səltənət belə başlanğıcdan bir az sıxılsa da, çox razı qaldı.O, elə ilk gündən qolunu çırmalayıb böyük həvəslə işə girişdi.Onsuz da çox təmiz olan xəstəxananın hər yerini par-par parıldatmağa, hər yerdə səliqə-səhmanın yerli-yerində olmasına nəzarət eləməyə başladı.

Səltənət bir neçə ayda özünü elə gözəl tanıda bildi ki, baş həkim onu gənc xadimələrin üstünə baş xadimə təyin elədi.Yaşlı qadın üçün bu gözlənilməz qərar çox yerinə düşdü.Əvvəla ona görə ki, o bu yaşında işinə çox məsuliyyətlə yanaşdığı halda, gənc işçilər işə başdansovdu yanaşır, bir növ gün yubadırdılar.İkinci tərəfdən də, Səltənətin maaşında az miqdar da olsa artım oldu ki, bu da Səltənətlə Gülxarın dolanışığına əhəmiyyətli yardım idi.Səltənət ona verilən qiymətdən məmnun qalıb, burda da işinə ürəkdən bağlandı.Aradan keçən zaman içində Səltənət bu xəstəxananın da canlı ambulansı, Səltənət nənəsi oldu.Hər kəsin qayğısını çəkən, hər kəsə məhəbbəti ilə yardıma gələn Səltənət nənənin bu xəstəxanada da əvəzi yox idi.Onu burda da hamı sevir, hörmətini saxlayırdı.Hər zaman şəfqətə ehtiyacı olan xəstələr, Səltənəti bir gün görməyəndə, həkimlərdən onu soruşur, baxışları ilə hər gün, hər yerdə onu axtarırdılar.Səltənət də, şəxsi həyatında tək qaldığı illərdə, ömrünü, ona ehtiyacı olan belə insanlar üçün yaşamışdı.

Bu gedişlə, Səltənətin başı işə bərk qarışdı.Bir uzun gün hardan gəlirdi, hardan gedirdi, bilmirdi.Bununla belə, Səltənət evdə onu gözləyən Gülxar qızını bir an belə, yaddan çıxartmırdı.Çünki, o, əvvəlki yanız Səltənət deyildi.Artıq onun da evində süfrə açıb onun yolunu gözləyəni var idi.Bir də görürdün, əlində iş gördüyü yerdə, birdən, artıq bir ailəsi olduğu onun yadına düşür, bu duyğu gözünə, könlünə nur çiləyirdi.İndi Səltənət nənə evə daha tez getməyə çalışırdı.Bütün günü evdə tək qalıb onun dönməsini gözləyən Gülxar, gün boyu Səltənətin gözünün önündən getmirdi.Yola sərf elədiyi vaxtı, Səltənət boş-boşuna itirilən vaxt hesab edir, tezliklə bu yaxınlarda bir uyğun ev tapıb, yaşadıqları mənzili buralara dəyişməyi düşünürdü.Evi dəyişmək mümkün olsaydı, Səltənət evə daha tez dönər, Gülxarla daha çox vaxt keçirə bilərdi.O zaman Səltənət Gülxara ürəyində tutduqlarının hamısını açar, onunla bundan sonra necə yaşayacaqlarına dair söhbətlər edə bilərdi.Bu fikirlə də, işdən evə dönərkən, Səltənət hər dəfə dayanacaqdakı köşkdən qəzet alır, ev dəyişmək barədə elanlar yazılan səhifəni bir-bir gözdən keçirdirdi.O bu mənzil dəyişmək məsələsini həll eləməyə tələsirdi.Çünki, Gülxarla bağlı planlarını ancaq evi dəyişəndən sonra Gülxara açа bilərdi.O vaxta qədər isə, hər kəs aradakı örtülü bazarın nədən ibarət olduğuna dair ancaq təxminlər qura bilirdi.Səltənət öz planlarını ortaya tökdüyü gün, yəqin ki, Gülxar da öz keçmişini ona açacaqdı.Bu fikirdən Səltənətin ürəyi uçunur, həyəcandan nəfəsi daralırdı.

Bir neçə aylıq axtarış, nəhayət ki, öz bəhrəsini verdi.Səltənət elanların birində ürəyinə yatan bir ünvan tapdı.Bir gün işdən sonra gedib mənzilə də baxdı.Hər şey onun gözlədiyindən də gözəl idi.Təklif olunan üçotaqlı mənzil, təmirli, işıqlı, otaqları geniş, mətbəxi daha böyük idi.Səltənət ürəyində fikirləşdi ki, əyər yanılmırsa, Gülxar bi mənzili görsə, çox bəyənəcək, uçmağa qanadı olmayacaq.Ev sahibləri bu mənzil dəyişmə əməliyyatında Səltənətdən bir az pul da istədilər. Səltənət bunu normal qarşıladı, çünki indi yaşadıqları "Xruşşovka" adlanan qüsurlu proyektlə tikilmiş mənzil, yeni ünvandakı mənzilin yanında bir toyuq hini

idi.Bu ailənin də yəqin nə isə bir problemi var idi ki, onu da ev sahibləri, görünür, mənzili dəyişərək, üstündə bir az pul almaqla həll etmək istəyirdilər.Səltənət bir neçə günün içində ərindən qalma qızıl-brilyantını zərgər dükanına satıb pula çevirdi.Bir zaman həyat yoldaşı Səltənəti ən gözəl əl işlərinə layiq gördüyündən, bu ziynət əşyalarını seçə-seçə almış, onların illər sonrası daha da bahalaşacağını bəlkə də heç düşünməmişdi.İndi həmin qədimi ziynət əşyaları Səltənəti qarşılaşdığı pul probleminin həllindən qurtara bildi.Yaz girəndə, Səltənətlə Gülxar, Yasamalın Şərifzadə küçəsindəki Leninqrad proyekti kimi tanınan yeni binalardan birində, dördüncü mərtəbədəki yeni üçotaqlı mənzillərinə köçdülər.Həmin gün həm Səltənətin, həm də Gülxarın, doğurdan da uçmağa qanadı yox idi.Evin genişliyi, gözəlliyi, iki tərəfə çıxan yeddi metrəlik balkonları hər iki qadını yetərincə xoşbəxt eləmişdi.Onlar ikisi də isti yuva bildikləri evin məhz bu qədər gözəl, rahat olmasını arzulayırdılar.Bu gün onlar bu arzuya çatmışdılar. Səhər ertədən başlayan köçün o evdən bu evə daşınması çox vaxt aparsa da, yükçülərin ağır əşyaları gətirib evin ortasına qoymaları ilə, nəhayət ki, başa çatdı.Səltənət xırda əşyalar toplanmış qutulardan birinin üstündə oturub, nəfəsini dərdi.Ağır qutuları qapı ağzından otağa sürüyən Gülxara da əl edib, onun da oturmasına işarə elədi.

--Dayan qızım, otur, dincini al.Hamısı birdən olmaz.Yavaş-yavaş hər şeyi yerbəyer edərik.Hə, bir de görüm necədir, evimizi bəyənirsən?

Gülxar da qutunun üstünə çöküb ətrafı gözdən keçirtdi.Dərindən bir köks ötürüb dedi:

--Hələ bir soruşursan da?Çox ey, çox xoşuma gəlir.Meydan kimi geniş, işıqlı...Hələ bir əşyaları yerbəyer edək, çatışmayan əyər-əksiyi də alaq, saray olacaq ey, saray.

--Bax, ana qurban, mən də bunu deyirdim haa...Dəyişiklik eləmək lazım idi.Görürsən, ən azı bir il başımız ev döşəməyə qarışacaq. İrəlidə hələ görəcəyimiz çox işlər var.Hamısı da elə gözəl olacaq ki, bax, görərsən...

--İnşallah...

Son sözləri deyərkən, Gülxarın ciddiləşməyi Səltənətin nəzərindən qaçmadı.Buna baxmayaraq, o, ruh yüksəkliyinin ömrünü uzatmaq üçün dedi

--Gülxar, gəl ləzzətli bir şey bişirib nahar fasiləsi edək, nə deyirsən?

--Hə, düz deyirsən, inidi əsil elə yemək hazırlamaq vaxtıdır.Bir azdan aclıq bizə güc gələcək.

Bu sözlərlə də, Səltənət bir tərəfdən, Gülxar da o biri tərəfdən ərzaq yığılmış qutuları açmağa başladılar.

Yeni mənzilə yerləşən gündən, Səltənət anladı ki, evdən çıxmaq istəmir.Mənzil o qədər xoşuna gəlmişdi ki, çarəsi olsa, bundan sonrakı həyatını evdə, ev işləri görməklə keçirərdi.Ancaq buna nə maddi imkan yol verirdi, nə də qarşıda Gülxarla bağlı məsələləri yoluna qoymaq üçün başqa çarə var idi.Əksinə, bəlkə də, Səltənət hələ bundan sonra işdən dördəlli yapışmalı idi ki, həyatlarındakı sual işarələrinin cavablarını tapıb bir-bir yerinə qoysun.Ona görə də ömrünün qışında ona nəsib olmuş geniş yataq otağından, işıqlı mətbəxindən, meydan boyda qonaq otağından ayrılıb işə getmək nə qədər çətin olsa da, yenə də işini axsatmır, həmişəki dəqiqliyi ilə işə gedir, işi hər nə olursa olsun, canla-başla yerinə yetirirdi.Çünki, Səltənət bu idi, və o, başqa cür ola bilmirdi.

Gülxar da yeni mənzildə sanki, bambaşqa bir adam olmuşdu. Səltənət onun bu qədər dəyişəcəyini ağlına belə gətirməzdi.Gülxarın daxilində elə bil, bir işıq yanmış, onun fikirli, daim tutqun üzünü də işıqlandırmışdı.Səltənət bu yerdə öz-özünə fikirləşirdi ki, qadın üçün ev, yuva anlayışı, doğurdan da çox vacib imiş.Gülxar bütün günü yır-yığış edir, bəzəyib-düzəyir, həm də bütün bunları oxuya-oxuya edirdi.Səltənət, heç vaxt öz evi olmayan Gülxarın, ev döşəməkdə üzə çıxan gözəl zövqünə, səliqə-səhman yaratmaq qabiliyyətinə də heyran qaldı.Gülxar ilk dəfə özünə aid olan evi, öz bildiyi kimi bəzəyir, bu işdə özünü də kəşf etmiş olurdu.Səltənət onun gördüyü işlərə müdaxilə etmir, ürəyində onunla açıq söhbət edəcəyi günü səbirsizliklə gözləyirdi.O,

əslində, hər an Gülxarın əlindən tutub oturdar, sözünü də deyə bilərdi.Məsələ onda idi ki, Səltənətin buna hünəri çatmırdı.O, heç cür cəsarətini toplaya bilmirdi ki, içindəki tələşlara son qoyacaq, elənməsi çox vacib olub, çox şeylərə aydınlıq gətirəcək söhbəti Gülxarla eləsin.Hər keçən gün həmin söhbəti başqa vaxta saxlayan Səltənət, heç özü də bilmirdi ki, nədən qorxur.Ancaq özü yəqin bilirdi ki, qorxur.Bu söhbətin haralara gedib çıxa biləcəyini bilmədiyindən, qorxur.Özünün, Gülxardan alacağı məlumatlardan sonra, necə hərəkət edəcəyini bilmədiyi üçün qorxur.Hər şey arzu etdiyi kimi olacaqdı, yoxsa, bu söhbət onu, ya da Gülxarı, hansısa bir seçim qarşısında qoyacaqdı?Bunları bilmədiyi üçün, Səltənət çox qorxurdu.

Ən çox da Gülxarın gülər üzünü, xoş avazla oxumasını yenidən itirəcəyindən qorxurdu.O, artıq Gülxarı daim belə deyib-gülən, səsini başına atıb oxuyan, nəşə dolu görmək istəyirdi.Arada isə, yenidən gərginlik yarada biləcək çox vacib, çox da ciddi bir söhbət dururdu.Bu söhbəti başlamaq çox çətin idi, ancaq onu başlamadan yaşamaq da, bir ömür boyu ayrı-ayrı divarlar arxasında gizlənərək yaşamaq demək idi.Bu, həır ikisi üçün daha böyük bir işgəncə ola bilərdi.Səltənət belə yaşamaq istəmirdi.Bəs görəsən, Gülxar bunlardan hansını seçərdi?Səltənət bunu da bilmirdi.

Bir səhər Səltənət evdən erkən çıxdı.O, nə vaxtdan bəri yığılıb qalmış kommunal xidmətlərin pulunu ödəmək məqsədi ilə evlər idarəsinə gedirdi.Mənzil-istismar kontorunun mühasibat işlərinə baxan gənc qadın Səltənətdən pulu alıb hesaba keçirə-keçirə dedi:

--Səltənət xala, bəs qızınızı nə vaxt qeydiyyatdan keçirdəcəksiniz?O hələ də heç yerə yazılı deyil.Bunu həll eləmək fikriniz varmı?Bax, sonra problem çıxa bilər.Ödənməmiş xərclər də üst-üstə qalaqlanır.

Səltənət belə bir söhbətə hazır deyildi, bir ara özünü itirdi.Sonra fikrini bir yerə toplayıb dedi:

--Haqlısan, qızım, əlbəttə onu da evimizə yazdıracağam.Ancaq arada bir məsələ var.Qızım keçən yay pasportunu itirib.Sonra başımız bu köç işinə qarışdı.İndi əvvəl gərək onun pasportunu

yenidən çıxardaq, sonra da gətirib ünvanımıza qeyd elətdirək.

Gənc qadın, sanki bu məlumata sevindi, o dedi:

--Həə...olur belə şeylər.Ancaq siz də artıq bu işi həll eləməyə başlayın.Mən bütün lazımi sənədlərin siyahısını yazım verim, qalanını siz davam edərsiniz.

Səltənət qızdan siyahını alıb öz razılığını bildirdi:

--Sağ ol, qızım, Allah köməyin olsun.Bunları toplayıb pasport stola verməliyəm, eləmi?

--Bəli, ancaq, bir az tələsin ki, il sona çatmamış yeni pasport əlinizdə olsun.

--Oldu, qızım, elə də edərik.Sağ ol.

Səltənət, ağlı havada işə gedirdi.Çünki gedə-gedə bütün yolu fikirləşirdi.Artıq vaxt daralmışdı. Nə vaxtdan bəri geri ata-ata başlamağa qorxduğu söhbətin zamanı çatmışdı.İndi Səltənət istəsəydi də, söhbəti gecikdirə bilməzdi.Odur ki, ya bu gün, ya sabah, bu söhbət açılmalı idi.İndi Səltənət bu söhbəti nədən başlayacağını, necə başlayacağını düşünürdü.Həmin gün Səltənət öz daxilində ilişib qaldığından, ilk dəfə əli işə yatmadan, ətrafda olub-bitənlərdən xəbərsiz çalışdı.Bir yandan iş gününün tez bitməsini arzuladı, o biri yandan da evə getmək gözünə durdu.İş günü başa çatanda, bütün gücünü, iradəsini səfərbər edib, inamla evin yolunu tutdu. Gülxar onu həmişəki kimi, qız anasını necə qarşılamalıdırsa, elə, gülər üzlə qarşıladı.Əlindən çantasını, çiynindən jaketini aldı.Səltənət öz adəti üzrə yuyundu, ev paltarını geyinib gəldi.Gülxarın böyük ustalıqla süfrə açdığı, göz oxşayan, iştah açan masanın arxasında öz yerini tutdu.Gülxar onun susqunluğunu yorğunluğuna yozub, özü ona xidmət elədi, yeməyini qoydu, salatını, suyunu yaxına çəkdi.Səltənət fikirli də olsa, yeməyi sona qədər yedi.Gülxar doğurdan da yeməkləri çox ləzzətli bişirirdi.Səltənət yeyib çəkiləndə, anladı ki, Gülxar nigaran baxışlarla onun hərəkətlərinə göz qoyur.Yazıq qızı belə, şübhə içində buraxmamaq üçün dedi:

--Maşallah, o qədər ləzzətli bişirirsən ki, yedikcə yeyirəm.Bu qədər yemək mənim harama yaraşır, ay qızım?

--Nuş olsun, ana!Çox yemədin, sənə elə gəlir.Süfrəni yığışdırım, sənə gözəl bir çay da verəcəyəm.İçərikmi, ana?

Səltənət bu sualda da bir nigarançılıq hiss elədi, dönüb Gülxarın üzünə baxdı.Gülxar yazıq-yazıq ona baxırdı.Səltənət dedi:

--İçərik, qızım, çay da içərik, söhbət də edərik...

--Mən bu saat ...--deyib, Gülxar süfrəni yığışdırmağa başladı.

Səltənət divanda yerini rahatlayıb, çay süfrəsi açmaqla məşğul olan Gülxara baxır, bir azdan edəcəyi söhbəti hardan başlayacağını düşünürdü.Bir az keçmişdi ki, Gülxar süfrəyə düzdüyü şirniyyatları da yerbəyer edib dedi:

--Hə...Ana , yaxın gəl, çaydan iç, yorğunluğun canından çıxsın.Maşallah, hər şeyimiz var, yenə nəyin fikrini çəkirsən?

Səltənət bu sözü fürsət bilib, ucundan tutdu:

--Nə bildin ki, fikir çəkirəm?

--Həə...Bəs sən məni nə bilmişdin?Mən də sənin qızınam da...Heç nə gözümdən qaçmır.Yenə fikirlisən.Sən Allah, indi nəyin fikrini çəkirsən?

Səltənət bir az susub dedi:

--Gülxar, qızım, necə bilirsən, bizim həyatımızda hər şey qaydasındadırmı?

Gülxar o saat ciddiləşdi.Bir az fikirləşdi, həyəcandan yanaqları allandı.Bir anın içində əli-ayağı əsməyə başladı.Səltənət də elə bundan qorxurdu.Ona görə də söhbəti düzgün yerdən başlamadığını anlayıb, elə sözünü düzəltmək istəyirdi ki, Gülxar onu qabaqladı:

--Ana, qurban olum, nə varsa, tez de, uzatma, yenə nə oldu?Bilirəm, hər nədirsə, mənimlə bağlıdır, ancaq sən nə varsa, hamısını açıq de, çəkinmə.Özün də məni qiymətli oyuncaq kimi evdə bəsləməkdən əl çək.Mən də bir işə yaramaq istəyirəm.Belə oturub hazıra nazir olmaq məni utandırır, vicdan əzabı çəkirəm.Əlbəttə, hər şey qaydasında deyil, məyər mən də bunu demirəmmi?

Səltənət qalxıb Gülxara yaxınlaşdı.Onun boynunu qucaqladı, saçlarına sığal çəkib dedi:

--Yox, yox, bu deyil, sən düz tapmadın.Mənim fikirləşdiyim şeylər heç də bu deyil.Bundan vacib, bundan ciddi şeyləri fikirləşirəm mən.

--Bundan vacib?Bundan ciddi?Sən məni qorxudursan, o nədir elə?

Gülxar başını qaldırıb Səltənətə baxanda, Səltənət də onun üzünü gördü.Gülxarın üzü kətan kimi ağarmışdı.Səltənət əsas məsələyə keçməyə qərar verdi

--Gülxar, sənin varlığını kölgədən çıxartmaq lazımdır.Sən daha belə, adsız, ünvansız, pasportsuz yaşaya bilməzsən.Mən bunu nəzərdə tutmuşdum.Ağlına başqa şeylər gəlməsin.Mən bütün bu işləri yoluna qoya bilərəm, təki sən öz razılığını ver.Məni yaxşı-yaxşı dinlə, sonra öz razılığını ver.Ancaq sənin razılığın lazımdır, sonrası asandır.

Gülxar geniş açılmış gözləri ilə Səltənətə baxır, onun dediklərini anlamağa çalışırdı.Ona elə gəlirdi ki, Səltənət son dediklərini yad dildə demişdi, ona görə də o, heç nə anlaya bilmədi.Bir müddət Səltənətin üzünə key-key baxandan sonra, Gülxar yavaşca soruşdu:

--Razılığımı verməliyəm?Nəyə?

--Bax, qızım, anam, övladım, indi deyəcəyim sözlərə diqqətlə qulaq as.Bu çox vacibdir.Mən sənin həyatını bilmirəm, bilməsəm də olar.Bilməyim heç vacib deyil, çünki o, hər nə idisə, keçmişdə qaldı.Ancaq sən artıq evli-eşikli, ailəsi olan bir qızsan.Sənin kimiliyini təsdiq edən bir sənədin də olmalıdır ki, sən sərbəst həyat sürə biləsən, heç kimdən çəkinməyəsən.Yeri gələndə oxuyasan da, ya da özün dediyin kimi işləyə biləsən.Ona görə də mən səndən son dəfə çox ciddi soruşuram. İmkan varkən, istərdinmi, arxivlərdən sənin sənədini tapıb çıxardaq, ona əsasən də pasport alaq?Bu yolla sənəd almaq mümkündür, hətta bunun qanuni yolu da budur.Çətinliyindən qorxma, mən hara lazımsa, gedərəm, nə lazımsa edərəm.Orasını heç düşünmə.Sadəcə yaxşı-yaxşı fikirləş.Mənə cavab verməyə də tələsmə, çünki hələ sözümü deyib qurtarmamışam.Bundan sonra deyəcəyim sözlərə daha diqqətlə qulaq as.Sən, öz adınla həyatına davam eləmək istəyirsənmi?Sən bilən, öz adın yenidən sənin başına işlər açmaz ki?Keçmişində yəqin ki, bu adla sən çox xoşagəlməz şeylər yaşamısan.Bəlkə bu adı birdəfəlik atıb, yeni həyatını yeni ad altda davam eləmək daha doğru olardı?Bu məqsədlə, bəlkə biz başqa bir

yol axtaraq?Çəkinmə, de, ürəyindən nə keçirsə, onu de...İndi dediyim də mümkündür, təki sən fikirləş, qərarını ver.Evlər idarəsi artıq məni xəbərdar edib, ən yaxın zamanda səni evimizə qeyd elətdirməliyəm.Daha bu məsələni uzatmaq olmaz...

Səltənət keçib divanda, öz yerində oturdu.O, burdan Gülxarın düz gözünün içinə baxmaq istəyirdi.Ancaq Gülxar qollarını masanın üstündə çarpazlayıb, başını da qollarının üstünə qoydu.Ağlayırdımı, fikirləşirdimi, bilinmirdi.

Səltənət başını divanın kürəyinə söykəyib gözlərini yumdu.Beləcə, Gülxarın bu an nələr keçirdiyini anlamağa, təsəvvür eləməyə çalışdı.Ancaq heç nəyə nail ola bilməyib gözlərini açaraq dikəldi.Gülxar nəmli gözləri ilə ona baxırdı.

--Ana, mən bilmirəm sənə nə cavab verim...Bir yandan mən, doğurdan da öz adımı birdəfəlik unutmaq istəyirəm.Bu ad mənə ağrı-acıdan başqa, dərd-sərdən başqa, yetimçilikdən başqa heç nə gətirmədi.Digər tərəfdən, sən başqa adla mənə necə sənəd ala bilərsən?Məyər mən bilmirəm ki, bu mümkün deyil?Sən mənim zəhmətimi az çəkimsən ki, indi də sənin başına bu boyda iş açım?Düzünü deyim ki, öz adımla yaşamaqdansa, keşkə, tamam adsız yaşaya biləydim.Bu da mümkün deyil...İndi özün görürsən ki, çarəsizlik məni divara qısır.İstəməsəm də, öz adımın ardınca getməyə məcburam.Başqa yolum yoxdur.

Gülxar susub başını aşağı saldı.Səltənət də bir xeyli susdu.Sonra qalxıb, paltar dolabına yaxınlaşdı.Dolabın siyirtməsini açıb, ordan nəsə götürdü.Gəlib Gülxarla üz-üzə stul çəkib oturdu.Bir müddət Gülxarın üzünə baxdı, sonra yavaş-yavaş sözə başladı:

--Gülxar, qızım, mən sənə indi bir sirr açacağam.

Gülxar geri durdu, stulun söykənəcəyinə yaslanıb ona baxdı.Bu baxışlarda, dəhşətli bir şey görməyə hazırlaşan insanın qorxusu var idi.Səltənət, onun diqqət kəsilib sözün gerisini gözlədiyini görüb, davam elədi:

--Bax, qızım, məni qınamağa tələsmə.Mən nə boyda günahın altına girdiyimi özüm yaxşı bilirəm.Allah şahiddir ki, mən bunu balam üçün, sənin üçün edirəm.Babalı mənim boynuma, o dünyada

cavabını verəcəyəm.Ancaq sən də mənim hərəkətimi anlayışla qarşıla, sözümün canını dinlə, anlamağa çalış, yaxşı?

Gülxar cinayətə şahid olmuş adam dəhşəti ilə soruşdu:

--Ana, olmaya sən kimisə öldürmüsən?

Səltənət bu gözlənilməz sözdən əvvəlcə diksindi, sonra özünü saxlaya bilməyərək, qəhqəhə çəkib güldü.Gülxar bir az da qorxdu.

--Sağ ol ey, belə övlad...Deməli, mənim cani ola biləcəyimə inanarsan, hə?Biri gəlib belə bir şey desə, sən də inanarsan?Deməli məni hələ də yaxşı tanımamısan?A bala məndən cani çıxar?

--Nə bilim, elə danışdın ki, mən də qorxdum.Ana, sən Allah, ürəyimi partlatma, nə demək istəyirsənsə, de.Ağlıma min cür şey gəlir.

Gülxarın bu sözlərindən sonra, Səltənət qolunun altında gizlətdiyi sənədi düz qızın qarşısına qoyub dedi:

--Qısası, sən bu olcaqsan, qərarını ver.

Gülxar qarşısındakı pasportu götürüb baxdı, sonra yavaşca onu açdı.Oxudu.Sonra başını qaldırıb Səltənətə baxdı.Onun böyümüş gözlərində bir cüt göz yaşı titrəyirdi.

==13.

Bəzən olur ki, çox qorxduğun, düzələcəyinə inanmadığın bir iş elə asan düzəlir ki, özünün də inanmağın gəlmir, lap mat qalırsan.Ancaq onda başa düşürsən ki, sən demə, bu qismət imiş.Nərminin adına pasport çıxartmaq da, hardan baxsan, asan məsələ olmamalı idi.Səltənət də bunu elə belə də bilirdi.Ancaq, nə var ki, bu sənəd Gülxarın həyatını dəyişəcəkmiş, nə var ki, onun Nərminə çevrilməsi qismət imiş, pasport məsələsi də heç bir maneəyə rast gəlmədən, elə asanlıqla düzəldi ki, həm Səltənət, həm də Gülxar qısa bir müddət içində danılmaz bir faktla qarşı-qarşıya qaldılar.Bu günə kimi həyatı da, varlığı da qaranlıqlar içində kölgəyə dönmüş, hər addımı şübhələr doğuran Gülxar adlı talehsiz bir qız qeybə çəkildi, əvəzində, əlində daşdan keçən qanuni pasportu ilə, həm öz həyatında, həm də Səltənətin həyatında öz yerini tutub, bir ömür kitabında yeni

səhifə açmaq üçün peyda olan, Nərmin adlı gənc qız, elə bil göydən düşdü.

Nərminin arxiv sənədləri, bir də Gülxarın foto şəkilləri kifayət elədi ki, heç bir şübhə doğurmadan, Nərmin adlı bir qız öz itirilmiş pasportnunu yenidən ala bilsin.Səltənətin də, Nərminin də sevincinin həddi-hüdudu yox idi.Zarafat deyildi, bayaqdan gizlənə-gizlənə yaşayan, yalnız ehtiyac olanda, balkona da oğru kimi çıxan bir qız, indi artıq özünü sərbəst apara bilir, istədiyi vaxt balkona çıxır, hələ qonşu evin qızı ilə söhbət də edirdi.Nərminin həyatı günbəgün dəyişir, mənayla dolurdu.Bir gənc qızın həyatında, bundan əvvəl yalnız ağla-qaradan ibarət olan cansıxıcı mənzərədə, indi həyatın bütün rəng çalarları yavaş-yavaş öz yerini tutmağa başlayırdı.

Nərminin sənədini aldıqları gündən, Səltənət də özünü dünyanın ən xoşbəxt insanı hesab edirdi.O, nə vaxtdan bəri qurduğu xəyallarından birinin nəhayət ki, çin olmasına nail ola bilmişdi.İndi o da özünü daha sərbəst aparır, Nərminlə istədiyi yerdə görünə bilir, onun adını çəkinmədən çağırır, evdə də yerli-yersiz Nərmin deyib, ucadan qızı gah evdən balkona, gah da balkondan evə səsləyirdi. Səltənətin məqsədi o idi ki, Gülxar öz adını tezliklə unutsun, Nərmin adına alışsın.Səltənətin Nərminlə bağlı planlarının ikinci hissəsi də yaxın zamanda yoluna qoyulmalı idi.Səltənət indi də, məsələnin ikinci hissəsini Nərminə açmaq üçün uyğun bir fürsət gözləyirdi.Bu fürsət də, elə bil öz növbəsini gözləyirmiş kimi, heç ləngimədən özünü yetirdi.

Son günlər Səltənət Nərmini də yanına alıb, bir çox geyim mağazalarını gəzdi.O, ancaq indi Nərminə etiraf edə bildi ki, məhz bu günlər üçün kənara qoyduğu bir miqdar pulu, Nərminin əyin-başına xərcləyəcəyini düşündüyündən, bu pula əl dəyməmiş, ən çox ehtiyacı olan zamanlarda da, dolanışıqlarını alış-verişə bir az ekonom eləməklə yola vermişdi.Odur ki, indi çəkinmədən, qızını yanına alıb ona yeni əyin-baş alırdı.Səltənət Nərminə bu adı daşımadığı günlərə aid heç bir şey geyindirmək istəmirdi.O, Nərmindən, hər barədə təzələnməyi xahiş edirdi.Bu şərtə, Gülxardan qalan paş-paltar da daxil

idi.Xoşbəxtlikdən, Nərmin də onu düzgün anlayır, onun dediklərini övlad itaətkarlığı ilə yerinə yetirirdi.Onlar çox dükana girib-çıxdılar.Hamısından olmasa da, çoxundan vacib olan alt və üst geyimlərindən bəzi şeylər aldılar.Evə dönərkən, Səltənət Nərmini evlərinin yaxınlığında yerləşən qadın bərbərxanasına da apardı.Saç ustasından Nərminə yeni, gözəl görkəm verəcək bir saç düzümü eləməsini tapşırdı.Səltənət bilirdi ki, yaxşı ustanın məharətlə elədiyi saç düzümü insanın görkəmini tamamilə dəyişə bilir. O, yanılmamışdı.Təxminən bir saat sonra, Səltənətin qarşısına Gülxara heç bir bənzəyişi olmayan, ondan daha gözəl, son dəbə aid qısa kəsilmiş saç düzümü ilə gözəl bir qız çıxdı.Səltənət onu yeni görürmüş kimi, qucaqlayıb öpdü, ustanın pulunu verib, Nərminin qoluna girdi.

--İndi tez evə gedək, ləzzətli yemək hazırlayaq.Bayram süfrəsi açıb, ana-bala sənin yenidən dünyaya gəlişini təm-təraqla qeyd edək, yaxşı?

Nərmin də bu dəyişikliyin bu qədər gözəl alınmasına sevindiyindən, əyilib onun üzündən öpdü və dedi:

--Yaxşı...

Evə çatıb hər ikisi qollarını çırmaladılar.Özlərinə kiçik bir bayram süfrəsi açmaq üçün mətbəxdə işə başladılar.Nərmin gənc qız həvəsi ilə alınmış paltarları öz əynində görməyə nə qədər tələssə də, Səltənət onunla zarafat edə-edə, ona cürbəcür tapşırıqlar verir, qaçıb aradan çıxmasına bilə-bilə mane olurdu.Səltənət Nərminin hər hərəkətinə göz qoyur, onda əmələ gələn dəyişiklikləri gördükcə, sevinirdi. Artıq əvvəlki Gülxar adlı qaradinməz, qaşqabaqlı qızdan əsər-əlamət belə, qalmamışdı.Səltənət əsil Nərmini tanımadığından, onun necə bir insan olduğuna dair ancaq eşitdikləri ilə qənaətlənməli olmuşdu.Belə olan halda, Səltənət Gülxarın bu dəyişikliyini bir yandan Nərminin adı ilə, onun haqqında deyilən xoş sözlərlə əlaqələndirsə də, özü də anlayırdı ki, bu əslində gənc ömründə zalımlıqdan, laqeydlikdən başqa bir şey görməmiş köməksiz bir qızın həyat nəşəsinin yenidən oyanışı idi. Nəhayət, ana-qız həvəslə bişirdikləri cücə-plovu gətirib süfrəyə qoyanda,

anladılar ki, nə qədər ac imişlər.Səltənətin özünün hazırladığı badımcan tutması, bibər, xiyar, çuğundur və kələmdən ibarət qarışıq turşu ilə birgə, cücə-plov çox ləzzətlə yeyilirdi.Onlar yeyə bildiklərə qədər yeyib çəkildilər.Nərmin süfrəni yır-yığışedənə kimi, Səltənət də çayı dəmləyib hazır qoydu.Gəlib divanda ayaqlarını uzadıb oturdu.Ürəyində fikirləşdi ki, sən demə, Allah onun üçün hələ nə qədər gözəl günlər saxlayıbmış...Dodağının altında dedi:

--Şükür sənə, İlahi!Səni tanımayana, sənə inanmayana lənət!

Bir azdan Nərmin çay süfrəsinin hər təm-tərağını düzüb, süfrəyə çay gətirdi. Səltənət onun billur vazda qoyduğu heyva mürəbbəsini, balaca nəlbəkidə qoyduğu dilimlənmiş limonu görəndə, özünü saxlaya bilməyib dedi:

--Ay səni ağgünlü olasan qızım!Nərmin, bala qoy yeri gəlmişkən deyim, ürəyimdə qalmasın.Sən mənim qızımsan.Qız övladının da qisməti bir gün telli-duvağlı gəlin getməkdir ki, mən də sənə onu arzulayıram.Hər qız kimi sən də bir gün, öz yuvanı qurub uçub gedəcəksən. Harda olursan ol, təki Allah səni xoşbəxt eləsin, qızım! O heyva mürəbbəsi də, o dilimlənmiş limon da mənim çox sevdiyim şeylərdir.Ancaq mən onları süfrəyə gətirməyi çoxdan unutmuşdum. Bilirsən niyə?Ona görə ki, həyatım sönük idi, mənasız idi.Sən mənim həyatıma məna gətirdin, Allah sənə əvəzini versin, qızım, sənə canım qurban.Allah bizi bir-birimizə çox görməsin.Ən azı, səni ürəyimcə yerbəyer edənə kimi, Allah mənə möhlət versin.

Nərmin gəlib Səltənətin yanında oturdu, onun əllərini əlinə alıb dedi:

--Ana, canım ana, sən məni çox kövrəltdin.Onda qoy mən də ürəyimdəkiləri deyim.Mən sənə rast gəldiyim gün yenidən doğuldum.İnsana həyatı anası verir.Sən, həmin gün, doğurdan da mənə həyat verdin.Allah bizi bir-birimizdən ayırmasın.Mənim yerim sənin yanındır.Bundan artıq heç nə istəmirəm.Sən mənim anamsan, mənim də borcum bir övlad kimi sənin qeydinə qalmaq, qayğını çəkmək olacaq.Qoy hələ bir iş tapım, gör səninlə necə

yaşayacağıq...Heç nəyin dərdini çəkməyəcəksən, bax, görəcəksən. Bu sözlərlə Nərmin Səltənəti qucaqlayıb öpdü, əlindən tutub masaya tərəf çəkdi.Onlar ordan-burdan danışa-danışa çay da içdilər.Sonra Səltənət dedi:

--Bax, qızım, hər şeyin öz vaxtı var.İndi get o paltarları bir-bir əyninə al, mənə də moda göstər.

--Yaxşı, mən bu saat,--deyə, elə bunu gözləyirmiş kimi, Nərmin yataq otağına qaçdı.

Bundan sonra, Səltənət divanda yerini alıb oturdu, Nərmin də bu gün aldıqları paltarları bir-birinə yaraşdıra-yaraşdıra geyinib gəldi, Səltənətə göstərib getdi.Nərminin bu hərəkəti doğurdan da moda nümayişinə çox bənzədi, və dünənə qədər niskilli olub, bu gün öz səadətlərini bir-birində tapmış bu iki qadını yetərincə əyləndirdi. Səltənətin ürəyində boş qalmış övlad yerini Nərmin, Nərminin ürəyində boş qalmış ana yerini isə Səltənət doldurdu.Nərmin palpaltarını yerbəyer eləyib qonaq otağına gəldi.Stulu çəkib oturdu. Sətənət hiss elədi ki, Nərmin ona nəsə demək istəyir.Nərmin süfrənin saçaqlarını didişdirə-didişdirə sözə başladı:

--Ana, bir söz desəm, inciməzsən ki?

Səltənət söykəndiyi yerdən dikəlib oturdu.

--Niyə inciyirəm, bala, nə sözün varsa, çəkinmə, de...

--Ana, mən işləmək istəyirəm.Bax, bu gün evin olan-qalan pulunu xərcləyib qurtardıq.Təkbaşına işləyib ailəni dolandırmaq sənin üçün də asan deyil.Özün deyirdin ki, sənədin düzəlsin, sonra istəsəm, işləyərəm.İndi sənədim də var, özüm də işləmək istəyirəm.Gəl axtarıb mənə bir iş tapaq, mən də işləyim, sənə köməyim dəysin, hə? Səltənət başını aşağı salıb fikirləşirdi.Birdən-birə onun düşündüyü planın ikinci hissəsinə yol açılırdı.Ancaq, Səltənət yenə də bilmirdi ki, bu söhbəti başlasa, nə ilə qurtaracaq.Bu dəfə də məsələni açsa, qan qaraldan söhbətlər olacaq, ya yox?Nərmin özü bilmədən, elə mövzuya toxunmuşdu ki, Səltənət bu mövzuya girməyə nə vaxtdan bəri fürsət axtarırdı.Odur ki, o da artıq uzatmadan öz sözünü deməli idi, ikinci dəfə bu fürsət elə düşməyə bilərdi.

--Nərmin, qızım, əvvəla onu deyim ki, mən sənin işləməyinin əleyhinə deyiləm.Ancaq sənin hara gəldi getməyini, nə iş oldu işləməyini də istəmirəm.Məni düzgün başa düş, sənin artıq iyirmi altı yaşın var.Bu yaşda, heç bir təhsilin olmadan, sən nə iş tapa bilərsən özünə?Hardasa fəhləlik? Deyək ki, oxumaq istədin, onda da qəbul imtanalarını verməlisən, verə biləcəksənmi?Yox!Sən işləmək istəyirəm deyirsən, mən də bunları fikirləşirəm.Baxırsan ki, o qədər də asan iş deyil.

Nərmin ümidsizləşərək, yazıq-yazıq Səltənətə baxdı.

--Bəs nə edək?Heç bir çıxış yolu yoxdur?Ömrümün axırına kimi mən oturacağam, sən də işləyib məni saxlayacaqsan?

Səltənət mənalı-mənalı Nərminin üzünə baxdı.

--Mən bir yol bilirəm, indi əyər sən də diqqətlə dediklərimi dinləyib ağılla götür-qoy eləsən, bir yol tapa bilərik.

Nərmin diqqətlə onun üzünə baxdı.

--Deyəsən, mən bilirəm, nə deyəcəksən...

--Elə isə, deyimmi?

--De...

--Düz tapmısan, Nərminin tibb texnikomunu bitirməsi haqqındakı diplomu da məndədir. O vaxt sənədlərin ikisini bir yerdə vermişdilər.

Yazığın başqa da heç bir sənədi yox imiş...

--Axı mənim heç bir anlayışım yoxdur...Sonra biabır olarıq, hər şeyin üstü açılar.Mən bundan çox qorxuram.

Nərminin bu söhbəti bu dəfə belə sakit qarşılaması Səltənəti ürəkləndirdi.

--Bax, qızım, yenə də deyirəm, babalı mənim boynuma.Tarixinə baxanda, diplomun verildiyi üç-dörd il olur.Bu müddətə insanın bildiyi də yadından çıxa bilər.Mən səni öz yanımda tibb bacısının köməkçisi düzəldərəm, sən də bilmədiklərini yavaş-yavaş öyrənərsən.Bu daha yaxşı olacaq, gözünlə görəcəksən, təcrübədə təkrarlayıb öyrənəcəksən.Bu ən ideal təhsil növüdür.İnan mənə, sonda sən institut bitimiş həkimlərdən də çox biləcəksən.Yenə də deyirəm, başqa yolumuz yoxkən, əlimizdə belə bir imkan var.Bu imkandan düzgün

istifadə eləsək, hər şey yaxşı olar.Mən baş həkimə deyəcəyəm ki, səni oxutmuşam, ancaq işləməyə qoymamışam. İndi vəziyyət dəyişib, yaşayış da çətinləşib, odur ki, məcbur qalmışıq.Sən də işləmək istəyirsən.Bizim baş həkim elə gözəl insandır ki, heç şübhəsiz, mənim sözümü yerə salmayacaq.Əsas odur ki, bismillah deyib, başlayasan.Sonrası öz-özünə gələcək.Bax, qızım, bir neçə gün ikimiz də yaxşı-yaxşı fikirləşək, hər şeyi bir də ölçüb-biçək, sonra qərar verək.Bu məsələni uzatmağın heç bir adı yoxdur. Ana-bala bir gedib, bir də gələrik, inşallah...

Nərmin dərin düşüncələrə dalaraq, qeyri-ixtiyari dedi:

--İnşallah...

Qadınların bir qərara gəlməsi bir xeyli vaxt apardı.Səltənət nə qədər tələssə də, Nərminin öz qorxusunu, həyəcanını dəf etməsi üçün ona zaman verir, onun qətiyyətsizliyindən irəli gələn min-bir sualına cavab verərək, səbirlə gözləyirdi.Son qərarı, həm də qəti qərarı yenə də Nərmin özü verməli idi.Nərminsə, ilk dəfə adam içinə çıxmağı, cəmiyyətin içində yerini tutmağı nə qədər istəsə də, qorxu ona güc gəlirdi.İndiki şəraitdə, qonum-qonşu, tanış-biliş, onu yalnız çölə çıxanda, hardansa gələndə ötəri görürdü.Ancaq xəstəxanada işləməyə başlasa, onu həm xəstəxananın işçiləri, həm də daim dəyişərək, biri gedib biri gələn xəstələr, hər gün görəcəkdilər.Hər gün eyni yerə işə getmək, orda olan insanlarla təmasda olmaq, səkkiz saat onlarla bir yerdə işləmək Nərmini çox qorxudurdu.Bu qorxunun bir səbəbi özünə güvənməməsi idisə, əsas səbəb tamam başqa şey idi.Nərmin, günlərin bir günü, Gülxarın tanışlarına rast gələcəyindən qorxurdu. Qorxurdu ki, onu tanıyan olar, tanıyıb ifşa eləyən olar.Gülxar hələ tam olaraq Nərminə çevrilə bilməmişdi.Bunun üçün uzun zaman lazım idi.Qorxusu da bu səbəbdən idi.Fikirləşirdi ki, bir gün biri gəlib onu ifşa etmək fikrinə düşsə, Nərmin bu işin öhdəsindən gələ biləcəkmi?Əyər belə bir durumda Nərmin özünü itirsəydi, Gülxar olduğunu danmasaydı, çox iyrənc şeylər baş verərdi.O zaman hər şey məhv olardı.Səltənət bütün bunları Nərmindən də çox fikirləşirdi, götü-qoy edirdi.Bu səbəbdən də Nərminlə söhbətlərində ancaq bunu xüsusi vurğulayırdı ki, əyər bir gün belə bir şey baş versə, nə olursa

olsun, o hər şeyi inkar eləsin, vaxt itirmədən tez Səltənəti köməyə çağırsın.Vəssalam.Ondan sonrasını Səltənət necə lazımsa, elə də yoluna qoyacaqdı.Nərmin bilirdi ki, Səltənət doğurdan da bu hünərin sahibidir.Elə ona güvəndiyi üçün də, bir gün Nərmin öz qərarını verdi:

--Ana, sən hər şeyi yaxşı fikirləşmisən, mən inanıram ki, hər şey yaxşı olcaq.Odur ki, baş həkimlə danışa bilərsən. Səltənət az qaldı qol götürüb oynasın.O, sevincək Nərmini qucaqlayıb dedi:

--Afərin, ağıllı qızım.Günü sabah fürsət tapıb baş həkimlə danışacağam.Görərsən, hər şey yaxşı olcaq.Allahım, sən də bizə kömək ol!

==14.

Səltənətin öz işinə ürəkdən can yandırması, uzun illər vicdanla çalışıb hamının hörmətini qazanması, çalışdığı kollektivdə onun etimadının qarantisi oldu.

Günlərin bir günü, Səltənət çox hörmətli baş həkim Salman doktorun qəbuluna gəlib, öz qızı üçün iş istəyəndə, Salman doktor da onu diqqətlə dinləyəndən sonra, ürək cərrahiyəsi şöbəsində tibb bacısı yardımçısı yerini Nərminə etibar edərək, onu işə aldı.Bu minvalla da, Səltənət Nərminin həyatındakı bir vacib məsələni də həll etmiş oldu.Nərmin də tibb bacısının yardımçısı olaraq, işi ancaq "şunu götür, şunu qoy"--dan ibarət olan bir iş yerinə, bütün cəsarətini toplayıb, ürəklə getməyə başladı. Səltənətlə danışdıqları kimi, tibb texnikomunun dərslikləri Nərminin əlindən düşməyəcək, ordan oxuyub öyrəndiklərini iş yerində rəhbəri olan tibb bacısının köməyi ilə təcrübədən keçirəcəkdi. İnsafən, Nərminə rəhbərlik edən tibb bacısı da, peşəsi ilə insani keyfiyyətləri çox nadir hallarda üst-üstə düşən, böyük təcrübə sahibi yaşlı bir qadın idi.Qaratel adlı bu qadın, Səltənətlə ən səmimi münasibət saxlayan işçilərdən biri idi.

Onların təxminən eyni yaşda olmaları, insan kimi qayğıkeş olub, hər kəsin harayına yetişmələri, bu üzdən də kollektivin əvəzolunmaz işçilərinə çevrilmələri ikisini bir-birinə yaxınlaşdırmış, ən yaxın iş yoldaşına çevirmişdi.Ona görə də, Səltənət Nərmini işə gətirdiyi ilk gün, onu Qaratellə tanış edib demişdi:

--Qaratel, bu allahın işi olmalıdır ki, mən varım, yoxum olan bircəcik qızımı, ən yaxın rəfiqəm olan sənə əmanət edirəm.Dünyanın ən şəfqətli peşəsi olan tibb bacısı olmağı qızım səndən öyrənəcək. Ona bildiklərini öyrət, ona bu peşənin sirlərini aç.Özün də çəkinmə, bir müəllim kimi tələbkar ol.Nərmin sənin dediklərini, öyrətdiklərini acgözlüklə götürəcək, çünki o da bu sənətin vurğunudur.

Qaratel bu xoş sözlərdən bir az utandısa da, eyni zamanda məmnun qaldı.Ərklə Nərminin çiyinlərini qucaqlayıb dedi:

--Səltənət, arxayın ol, mən onu öz balam bilib, yeri gələndə tərifləyəcəyəm, yeri gələndə, danlayacağam.Sən narahat olma, Kamran doktorla ikimiz sənin qızından bir cərrahiyyə tibb bacısı yetişdirəcəyik ki, adı dillərə dastan olsun.Mənim də təqaüdə getməyimə bir şey qalmayıb.O vaxta qədər gərək Nərmini lazımi səviyyəyə çatdıraq.Sən evdə ona vaxt ayır ki, kitablar əlindən düşməsin, oxuyub öyrəndiklərini yenidən xatırlasın, kitablardan öyrəndiklərini burda da təcrübədən keçirər, bir də baxarsan ki, məni də arxada buraxdı.

Səltənət qürur hissi ilə Nərminə baxdı.

--Evdə onu əlini ağdan-qaraya vurmağa qoymaram, təki oxusun. Sən də bacardıqca tələbkar ol, qoy hər şeyə ciddi fikir versin, diqqətli olsun.

Qaratel sonda dedi:

--Narahat olma, ay bacım, nə mən, nə də Kamran doktor onu bir an belə gözdən qoymarıq.Bizim nəzarətimiz altında o da özünü məsuliyyətli aparacaq, işə can yandıracaq.Bizim yetişdirəcəyimiz kadr son nəticədə bir nömrə olmasın, sən də nə deyirsən, de...

Bununla da Səltənət Nərmini Qaratelə tapşırıb öz işlərini görməyə getdi.Qaratel Nərmini şöbəyə apardı, bir-bir palataları gəzdirdi, xəstələrlə tanış elədi.Nərminin işinin nədən ibarət olacağını ona başa saldı.Hər yeri gəzə-gəzə gəlib şöbə müdirinin otağına çatdılar.Qaratel müdirin qapısını döyüb, girmək üçün icazə istədi.İçəridən "gəlin", cavbını eşidib, Qaratel içəri girdi, Nərmini də içəri dəvət elədi.O üzünü masa arxasında oturmuş qırx-qırx iki

yaşlarında yaraşıqlı kişiyə tutub Nərmini təqdim elədi:

--Doktor, bu bizim şöbəmizə təyin olunmuş yeni işçidir.Adı Nərmindir, Səltənət nənənin qızıdır.Özü beş-altı il əvvəl tibb texnikomunu bitirib, ancaq heç yerdə işləməyib.Salman doktor onu bizim şöbəyə, mənə yardımçı kimi işə alıb.İzninizlə, bu gündən işə başlamasına siz də öz razılığınızı verin ki, mən də onu işə qoşa bilim.

Kamran doktor Qaratelin dediklərini başını qadırmadan dinlədi, sonra bircə dəfə Nərminə baxıb, yenə də başını aşağı saldı.Sözünü əlində oynatdığı qələmə baxa-baxa dedi:

--Belə çıxır ki, xanım qız heç bir təcrübəyə sahib deyil.Hər şeyi sıfırdan başlayacaq.Bu mənada ağırlıq sizə düşəcək.Bir şey də var ki, hər şeyi sizin kimi təcrübəli bir tibb bacısından öyrənməsi onun üçün bir şansdır, elə deyilmi?Əminəm ki, sizin zəhmətiniz boşa getməz, və biz bir müddət sonra qarşımızda bacarıqlı, savadlı bir tibb işçisi görərik.Hər şey ikinizdən asılı olacaq.Biriniz gözəl anlatmalı, o biriniz də deyilənləri olduğu kimi qəbul etməlidir.Əyər belə olacaqsa, mən də xeyir-duamı verirəm.Xeyirli olsun.İşə başlaya bilərsiniz.

Qaratel doktora öz minnətdarlığını bildirib baxışlarını Nərminə çevirdi, ona gözü ilə işarə elədi.Bayaqdan bu qaraqabaq doktorun zəhmindən heykəl kimi yerində donub qalmış Nərmin, birdən özünə gəldi, ürkək baxışlarla doktora baxdı:

--Çox sağ olun, doktor.--deyib tez də başını aşağı saldı.

Yalnız bundan sonra, Kamran doktor başını qaldırıb, diqqətlə Nərminə baxdı, üzünün həmişə ciddi ifadəsində təbəssümə bənzər bir şey əmələ gəldi.Ancaq bunu nə tələsik otaqdan çıxan Qaratel, nə də elə başını qaldırmadan onun ardınca addımlayan Nərmin görmədi.

Həmin o gündən sonra Səltənət nə vaxtdan bəri arzuladığı kimi, hər səhər Nərminlə birlikdə işə gedib-gəlir, axşamlar bir süfrə başında, cəmiyyətin bir parçası olub, onların ümumi dünyasına çevrilmiş xəstəxana xəbərlərini təhlil edirdilər.İşə başladığı gündən Nərminin üzü gülər, xasiyyəti daha istiqanlı olmağa başlamışdı.

Doğrudur, o hələ də əvvəlki kimi az danışıb çox dinləyən qız olmaqda qalırdı, ancaq bu xasiyyəti onu hamının gözündə daha da qiymətə mindirir, onu ağır xasiyyətli, tərbiyəli bir qız kimi hamıya sevdirirdi.Səltənət Nərminin bu kollektivdə qazandığı hörmətdən, əldə elədiyi uğurlardan hər gün daha çox sevinir, qürur duyurdu.O, bu yaranmış vəziyyətdən çox məmnun olsa da, gecələri yuxuya getməzdən əvvəl dualarında Allahdan, tutduğu bu əməlinə görə, günahlarının bağışlanmasını diləməyi də unutmurdu.Səltənət özü də bilirdi ki, bu həyatdan vaxtsız getmiş Nərmin adlı bir qızın ölümündə heç bir günahı olmadığı kimi, onun bir daha heç nəyə yaramayan sənədlərindən istifadə edib, başqa gənc qızın həyatını xilas eləməyində də heç bir günahı yoxdur.Günah, yalnız arada can alıb yaşayan yalanda idi ki, bunun da babalı, hər halda Səltənətin boynuna idi.Odur ki, Səltənət də hər gecə Allaha yalvarıb bu günahlarının bağışlanmasını diləyirdi.

Aradan keçən bir il Nərminin işlədiyi kollektivdə özünə yer eləməsi üçün yetərli bir zaman oldu.Bir ildən sonra, hamı Səltənət nənənin özündən savadlı, həm də özü kimi insanpərvər, işinə can yandıran bir qızı olduğunu qəbul elədi.Nərminin ciddi, hər cür şitlikdən uzaq xasiyyəti onu qeybətçilərin, hər cür dedi-qodu yayanların dilinə düşməkdən saxladı.Hər hərəkətində ölçülü-biçili olub, hər işində səlidə-səhmana diqqətli olan Nərmin, tezliklə bütün kollektivin sevdiyi gənc personala çevrildi.O, kollektivdə hər kəsin hörmətini saxlayır, hamının yardımına gəlirdi.Öz keçmişini Gülxarın qapılarda keçirdiyi uşaqlıq həyatından alan Nərminin əlindən gəlməyən iş yox idi.Tibb sahəsindəki bilik və təcrübələrini də Qaratel kimi öz işinin ustası olan bir tibb bacısından alması, onu böyük addımlarla irəli aparırdı.Artıq, Qaratelin müəyyən səbəblər üzündən işə gəlmədiyi günlərdə, Nərmin onu bütünlüklə əvəz edə bilirdi. Doğrudur, Kamran doktor ona sona qədər güvənmədiyini tez-tez hiss etdirir, onun hər gördüyü işi özü şəxsən konrtol edirdi.Ancaq Qaratelin dediyinə görə, Kamran doktor Nərminin bilik və bacarığını yüksək qiymətləndirir, sadəcə qızı vaxtından əvvəl tərifləyib arxayın salmaq istəmirdi.Nərmin nə Kamranın

daim onu izləyən kontrollarına, nə də Qaratelin dediyi sözlərə fikir vermir, öz işini ürəyinin tələb elədiyi kimi cani-dildən yerinə yetirir, hər işində anası Səltənətə bənzəməyə çalışırdı.Yeni-yeni işığını görüb, istisini hiss elədiyi bu həyatı ona Səltənət bağışlamışdı.Ona görə də, Nərmin hər bir işin Səltənətin ürəyincə olmasına çalışır, onun borcundan bir övlad kimi layiqincə çıxmaq üçün çox çalışır, söz verdiyi kimi kitablar əlindən düşmürdü.

Soyuq qış günlərindən biri idi.Bakının soyuq küləyi, axşamdan yağan qarı buza döndərmiş, yolları sürüşkən edib, əhalinin gəliş-gedişini çətinləşdirmişdi.Belə günlərdə işə tramvayla gedən insanların işi nisbətən asan olurdu.Onlar sərnişin sıxlığından zorla hərəkət edən tramvayı saatlarla gözləsələr də, sonunda ona minib heç bir problemsiz işə gələ bilirdilər.Bu mənada, işə avtobusla gələnlərin işi zülüm olurdu.Onlar da avtobusu xeyli gözləyirdilər.Ancaq avtobus gələndən sonra, yalnız kim qoçaq olurdusa, o da avtobusa minə bilirdi.Qalanlar yenə də qalıb ya növbəti avtobusu gözləyirdilər, ya da piyada işin yolunu tuturdular. Avtobusa minə bilənlər də işə vaxtında çata bilmir, yollarda hər an təhlükə ilə üz-üzə gələn nəqliyyat vasitələri, ehtiyatlı davranmaqdan ötrü az qala addım-addım hərəkət etdiklərindən, hər kəs işə gecikirdi.Belə günlərdən biri idi.

Səltənətlə Nərmin tramvayala işə gəldilər, əyinlərini dəyişib hərə öz yerinə getdi.Saat doqquz olmuşdu, ancaq Qarateldən hələ bir xəbər yox idi.Bu günə təyin olunmuş üç ürək əməliyyatı onsuz keçirilə bilməzdi.Ona görə də Kamran doktor artıq neçənci dəfə gəlib Qarateli Nərmindən soruşdu.Onun əsəbi, gərgin halı Nərminin gözündən qaçmadı.Saat onda Qaratelin oğlu şöbəyə zəng vurub, Qaratelin yıxıldığını, ayağını sındırdığını xəbər verdi.

Qarateli təcili yardımla Semaşko xəstəxanasının travmatologiya şöbəsinə aparmışdılar.Kamran doktor bu xəbərdən bulud kimi tutuldu. Bir yandan ən yaxşı işçisinin başına gələnlər, bir yandan da bu günə təyin olunmuş əməliyyatlar onun əhvalını korladı.Görünürdü ki, o nə edəcəyini bilmir, elə hey vurnuxurdu. Nərmin ürəyində onun bu halına yanır, ancaq bir söz deməyə, öz yardımını təklif eləməyə cəsarəti çatmırdı.Otağında oturub bu işlərin

sonunu gözləyirdi ki, Kamran doktor içəri daxil oldu.

--Xanım qız, bu nə oturmaqdır belə?Məyər bizim bu günə əməliyyatımız yox idimi?

Nərmin yerindən sıçrayıb qalxdı, kəkələyə-kəkələyə sözə başladı:

--Doktor, mən, Qaratel xanım, siz...

Kamran, onun onsuz da bir məna kəsb eləməyən sözünü kəsib dedi:

--Heç nə bilmirəm, Qaratel xanım sizin yerinizə söz verdi ki, siz hər şeyin öhdəsindən gələcəksiniz.Odur ki, hazırlaşın, iyirmi dəqiqədən sonra mənimlə əməliyyata girəcəksiniz.

Bu sözlərlə də, o cavab gözləmədən dönüb otaqdan çıxdı.Nərmin həyəcandan əsirdi.O, hər nə qədər özünə arxayın idisə də, əvvəllər yanında həmişə Qaratel olurdu.Onu yanında görüb, özünə güvənməyə nə var idi ki...İndi nə Qaratel vardı, nə də Qaratelin yanında özünə güvənən Nərmin.İndi həyəcandan əlini-ayağını özünə tabe edə bilməyən qorxaq bir Nəmin vardı.Hələ bu azmış kimi, yanında bir də zəhmindən siçan deşiyi axtardığı Kamran doktor olacaqdı ki, bu da Nərmini tamamilə ruhdan saldı.Otaqda bir xeyli vurnuxduqdan sonra, ilk ağlına gələn, əl-üzünü soyuq su ilə yumaq oldu.Nərminə elə gəldi ki, bir az toxdadı.Sonra bir dolu fincan soyuq su da içdi, bir az da sakitləşdi.Sonda öz-özünə:

--Elə bil ki, imtahana gedirsən, özünü ələ al, adımızı batırma,--deyə-deyə cərrahiyyə otağının qapısına gəldi. İçəridə əməliyyat xalatını geyinib onu gözləyən Kamranı gördü.Ona yardım eləmək lazım idi.Nərmin yubanmadam yaxınlaşıb, xalatın da, tənzifin də bağlarını bağladı.Kamran dönüb ona baxdı, gözlərini qırpmaqla hər şeyin qaydasında olduğunu anlatdı.O, başının hərəkəti ilə Nərmini əməliyyat otaşına çağırdı.Əməliyyat başladı.

O gün, Nərmin ilk dəfə əməliyyatda təkbaşına iştirak elədi, doktorun istədiyi bütün alətləri doğru-düzgün tapıb verdi, vaxtlı-vaxtında doktorun alnının tərini sildi, bir sözlə, Qarateldən görüb öyrəndiklərini eynilə təkrar elədi.Əməliyyat uğurla başa çatanda,

Nərmin Kamran doktorun çıxmasını gözlədi, fürsət tapan kimi, öz otağına qaçıb, sevindiyindən ağladı.Elə bu vaxt Səltənət özünü yetirdi, onu bağrına basıb dedi:

--Afərin qızım, bax gördün, hər şeyin öhdəsindən bir-bir gəlirsən. Daha qorxma, ürəkli ol.Bundan sonra hər şey özü, sənin ayağına gələcək.Qarşına çıxan zirvələri bir-bir fəth edəcəksən.Mən sənə inanıram. Qaratel də demişdi, bayaq zəng vurub dedi ki, narahat olmayın, Nərmin necə lazımdır, əvəz edəcək məni.Doğru da deyirmiş.

Ana ilə balanın başı bir-birinə elə qarışmışdı ki, qapıdan içəri boylanan Kamran doktoru da görmürdülər.O, çarəsiz qalıb içəri girəndə, hər iki qadın özünü toplayıb az qala farağat əmrinə uyğun dayandılar.Kamran onların bu duruşunu təbəssümlə qarşılayıb dedi:

--Bu nədir canım, elə bil hərbi qulluqdasınız, yəni mən o qədər rəsmiyəm?Rahat olun, mən də gəldim deyim ki, Nərmin xanım işin öhdəsindən gəldi.Ancaq onu da deməliyəm ki, bu hələ hamısı deyil.Biz ürəklə çalışırıq, ürəkdə əməliyyat aparırıq.Odur ki, xanım qız hər zaman diqqətli olmalı, bir insanın həyatı qədər böyük məsuliyyət daşıdığını bilməli və unutmamalıdır.Bu günkü nailiyyət ilk imtahan idi, lakin sonsuz imtahanlardan yalnız birincisi idi.İstərdim ki, bunu unutmayasınız.

Bu sözlərlə Kamran Nərminə heç vaxt baxmadığı bir tərzdə, çox diqqətlə baxdı.Nərmin bu baxışların altında sıxıldı, başını aşağı saldı.Kamran da fikirdən ayrılıb tələsik:

--Sizə uğurlar,--deyib cavab gözləmədən, otaqdan çıxdı.Nərmin dönüb Səltənətə baxdı.

--Ay ana, Qaratel xala sağalıb işinə dönənə kimi mən bununla necə baş çıxardacağam?

Səltənət dönüb təəccüblə Nərminə baxdı.

--Niyə ay qızım?O yazıq sənə nə dedi ki? Hər nə dedisə, sənin yaxşılığın üçün dedi.Pis bir şey də demədi.Onun dediklərini sən özün də bilirsən.Bir də Qaratel deyəndə, xətrinə dəymir, bu yazıq deyəndə inciyirsən? Nərmin demək istədiklərini anlada bilməyəcəyindən ehtiyat edirdi, ona görə də dedi:

--Mən incimirəm ey, onun zəhmi basır məni. Zalım oğlu, o qədər qaraqabaqdır ki,... Yaxşı söz deyəndə də adama elə gəlir ki, danlayır. İndi ən azı bir ay ikilikdə çalışacağıq, əlim-ayağım əsəcək.Səhv eləməkdən qorxuram. Hər şeyi elə diqqətlə izləyir ki...

Səltənət Nərminin çiyinlərini qucaqlayıb dedi:

--Kamran doktor həkim kimi çox savadlı həkimdir.İnsan kimi də yaxşı adamdır, sadəcə dərdlidir.

--Dərdlidir?

--Hə, bala, hə...Neçə il bundan əvvəl yeni evləndiyi həyat yoldaşını doğumda itirib...

--Doğumda itirib? Məyər indiki zamanda da doğumda ölənlər olur?

Səltənət dərindən bir ah çəkdi.

--Olur, bala, olur...Kimin qismətində nə varsa, o da olur.Bu, nə zamana baxır, nə də elmə...

--Yazıq qadın...Bəs uşaq necə oldu?

--Uşaq da anasının qismətini paylaşıb.Ana uşağı doğa bilməyib, özü də ölüb, uşaq da...Ona görə də, o vaxtdan Kamran doktorun güldüyünü görən olmayıb.Üzdən elə zəhimli görünməyinə baxma, daxilən uşaq kimi səmimi bir insandır.

Nərmin eşitdiklərindən çox təsirlənib fikrə getdi.Xəyalən Kamran doktoru gözü önündə canlandırdı.Onu diqqətlə nəzərdən keçirtdi, onun əvvəlki zəhmli görünüşündən bir əsər-əlamət görmədi.Hərdən bir də olsa, onunla göz-gözə gəldiyi yadına düşdü.Nərmin o gözlərin dərinliyində bəzən səmimiyyət, bəzən də acı kədər gördüyünü indi xatırladı.

==15.

Nərmin öz iş yerini, öz işini elə sevmişdi ki, artıq həyatını bu iş olmadan təsəvvür eləmirdi.Hərdən olurdu ki, özünü yaxşı hiss eləmirdi, ya başı ağrayırdı, ya da boğazı gəlirdi.Ancaq o, işdən qalmağı ağlına belə gətirmir, Səltənətin bütün ciddi-cəhdlərini boşa çıxardıb inadla işinə gedirdi.Bu qızcığaz uşaqkən də zəhməti çox sevərdi.O, hər kəsə qayğı göstərərdi, əlindən gələn yaxşılığı edərdi.Ancaq o vaxt indikindən fərqli olaraq, onun nə zəhmətinə,

nə də insanlığına qiymət verilməzdi.Hər gördüyü işdə bir nöqsan tapıb, elə hey üzünü danlayardılar.Bu gün hər şey başqa cür idi.Sanki, Nərminin həyatını yaşamağa başladığı gündən, o qızın sağlığında qazanmış olduğu hörmətin davamını görürdü Gülxar.Hər kəs bu gənc qızın gördüyü işi bəyənir, çəkdiyi zəhməti qiymətləndirirdi.O, gördüyü işə görə həm xoş sözlər eşidirdi, həm də maaş alırdı.Kollektiv də çox mehriban insanlardan ibarət olub, böyük bir ailəni xatırladırdı.Belə bir şəraitdə, hələ bir də Səltənət ana ilə bir yerdə çalışmaq, Nərmini son dərəcə məmnun edirdi.Bu aralar Nərminin həyatı sakit bir axarla gedir, heç bir ciddi narahatçılığı olmadan davam edirdi.Yeganə bir şey var idi ki, onu son zamanlar narahat eləməyə başlamışdı.Bu da Kamran doktorun ona qarşı tədricən artan marağı, son dərəcə nəzakətli davranışı, həddən artıq səmimi olmağa çalışması idi.Kamran doktorun bu dəyişikliyi, Nərminə yaxın olmaq cəhdləri, qızı əməlli-başlı narahat edir, əslində qorxudurdu.Nərmin düşünmək belə istəmirdi ki, nə vaxtsa Kamran doktor kimi bir insan onu bəyənib sevə bilər.Əksinə, Nərmin fikirləşirdi ki, belə bir şey heç vaxt ola bilməz.Əvvəla, xəstəxanada onlarla gənc qız çalışırdı ki, onların çoxu ali savadlı həkimlər olmaqla, Nərmindən çox-çox üstün idilər.Sonrası da, Nərmin hesab edirdi ki, əyər bir gün onun kimi bir qız Kamran doktorun seçimi olarsa da, bu seçimi düzgün saymağa, hələ bir də onu qəbul eləməyə, onun heç bir haqqı yoxdur.Kamran doktor həkimlər ailəsində böyümüş bir ziyalı olaraq, ömrünü təhsilə, həkimlik peşəsinə vermiş, ailə həyatında da bir faciə yaşamış təmiz vicdanlı bir insan idi.Nərminsə, bu gün adını da, həyat tərzini də dəyişsə belə, geridə insan həyatının son pilləsinə qədər enmiş bir qadın olduğunu unutmur, özünü nəinki Kamran doktora, hətta başqa heç kimə də layiq görmürdü.Ona görə də, nə Kamranla, nə də başqa biri ilə ailə həyatı qurmağı heç ağlından belə keçirtmirdi.Belə olan vəziyyətdə, o Kamranın ona yaxınlaşmaq cəhdlərindən özü də əzab çəkir, Kamrana da bu səmimiyyətdən xoşlanmadığını bildirməyin yollarını axtarırdı.Di gəl ki, o, hər gün Kamrandan bir az da artıq diqqət görür, onun

daim Nərmini izləyən baxışlarını üzərində hiss edir, bu durumdan sıxıla-sıxıla daxilində bir göynərti yaşayırdı.Nərmin hər gün artmaqda olan bu göynərtinin səbəbini Kamran doktora yazığı gəlmək kimi qiymətləndirirdi.Ömürlərinin ən yaxşı vaxtında belə bir faciə nəticəsində həyatları bərbad olmuş iki gəncə, kimin yazığı gəlməzdi ki...Kamranın həyat yoldaşını tanımamışdısa da, bir gündə həm arvadını, həm də uşağını itirmiş Kamranın o vaxtdan bəri üzünün gülməməsi, bu yaşında qaraqabaq bir insana çevrilməsi özü, onu göstərirdi ki, onların arasında böyük bir eşq yaşanıbmış.Onlar bir-birini böyük məhəbbətlə sevirlərmiş ki, aradan keçən yeddi-səkkiz ildə o yara hələ də tam sağalmamışdı.

Qaratelin bir aydan da artıq xəstəxanada yatdığı o günlərdə, Nərmin demək olar ki, bütün iş gününü Kamranın əhatəsində keçirməli olurdu.Onlar birlikdə əməliyyata girir, bir yerdə çay içir, xəstələri ikisi birlikdə ziyarət edirdilər.Aralarında işdən başqa heç nə danışılmasa da, bütün günü başları işə qarşmış olsa da, Nərmin Kamrandan gələn isti bir cərəyanı artıq hiss eləməyə başlamışdı.Bu cərəyanı hiss eləməyə başladığı gündən də, durduğu yerdə həyəcanlanmağa, ürək döyüntülərini qulaqlarında duymağa başladı.Bundan bərk qorxdu, və mümkün qədər doktordan uzaq durmağa çalışdı.

Qaratel sağalıb işinə döndükdən sonra, Nərmin, nəhayət ki, dərindən nəfəs alıb sakitləşdi.Ancaq aradan bir az keçmiş, Kamranın onu tez-tez müxtəlif bəhanələrlə yanına çağırması, heç də vacib olmayan işləri ona tapşırıb, sonra da nəticəsini özü yoxlaması, Nərmini yenidən təşvişə saldı.Nərmin yenə hər şeydən qorxmağa başladı.Ürəyindəki şübhələri Səltənətə açmaq hələ çox tez idi.Arada nə bir kəlmə söz var idi, nə də bir artıq hərəkət.Di gəl ki, Nərminin rahatlığı günbəgün əlindən gedirdi.O, əslində indi həyatında heç bir dəyişiklik olmasını istəmirdi.Belə bir dəyişikliyin olacağına heç inanmırdı da.Ancaq ortada onu təşvişə salan bir durum var idi ki, Nərmin Qaratelin bir gün bu durumdan şübhələnəcəyindən ehtiyat edir, ortaya dedi-qodu çıxacağından qorxurdu.

Nərmin, son zamanlarını bu həyəcanların içində keçirdiyi üçün, öz keçmişini də, işə başlamazdan əvvəl onu qorxudan fikirləri də tamamən unutmuşdu.Adi günlərin birində, adəti üzrə işə gəlirkən, irəlidə nələr olcağından xəbəri yox idi Nərminin.Bir gün öz keçmişi ilə rastlaşacağı, ən yaxın məsafədə üz-üzə duracağı Nərminin heç ağlına da gəlmirdi.Halbuki, uzun zaman gözünün önündən keçirdiyi, həmişə qorxduğu bir hadisə, o gün Nərminin başına gəlmək üçün xəstəxanada onun yolunu gözləyirdi.

Soyuq bir qış günü idi.Səltənətlə Nərmin işə gələr-gəlməz, Kamran doktor Nərmini yanına çağırdı.Nərmin yenə həyəcandan titrəməyə başladı, yanaqları od tutub yandı.Doktorun otağına girib qapı ağzında dayandı.Kamran onu diqqətlə süzüb dedi:

--Xanım qız, bir şey olmayıb ki?Çox həyəcanlı görünürsünüz, halbuki bir azdan əməliyyata girəcəyik.Yeni xəstə gətiriblər, təcili əməliyyat olunmalıdır.Vəziyyəti kritikdir, Qaratel xanımsa, yenə neyçünsə gecikir.

Nərmin, bu dəfə yersiz əmələ gəlmiş həyəcanını gizlətmək üçün var gücünü toplayıb sözə başladı:

--Doktor, Qaratel xanımın gəlib-gəlməyəcəyi barədə məlumatım yoxdur.Ancaq istəsəniz, zəng vurub öyrənə bilərəm.

Doktor ona diqqətlə baxmaqda davam edərək dedi:

--Gərək deyil, özümüz yola verərik.Siz yaxşısınızmı?Bir problem yoxdur ki?

--Xeyr, hər şey qaydasındadır.

--Elə isə xəstənin yanına gedib, onu əməliyyata hazırlayın.

--Bəli doktor...

Nərmin yersiz həyəcanı üçün özünü qınaya-qınaya otaqdan çıxdı.Ürəyində:"Mənimki lap,"Qarğa, məndə qoz var,"oldu ey...bu yazıq mənimlə işdən başqa nə danışır ki, ürəyimə başqa şeylər gəlir?"--deyə düşündü.Bu düşüncələrlə də palataya, doktorun dediyi xəstənin yanına gəldi.İçəri girib palatanı gözdən keçirtdi, yeni xəstəni pəncərənin yanındakı yataqda görüb, ona yaxınlaşdı.Xəstə də elə bil kiminsə yaxınlaşdığını görüb, gözlərini açdı.Nərmin gördüyü mənzərədən sarsıldı.Yataqda yatan Sirac

idi.Tahirin ilk dəfə öz qumar borclarını pozdurmaq üçün Gülxarı qucağına atdığı Sirac...Sirac, görünür o an Nərmində Gülxarı tanıya bilmədi.Ancaq elə ilk baxışda da qıza zənnlə baxdı, sanki onu harda gördüyünü xatırlamağa çalışdı.Nərminin qorxudan nitqi tutulmuşdu.Sirac özü sözə başlamasaydı, yəqin ki, Nərmin bu gedişlə özünü ifşa edəcəkdi.Sirac zorla nəfəs ala-ala dedi:

--Həə...doxdur xanım, məni doğramağa aparırsan?Axırımdı?

Nərmin fürsət tapıb cəld özünü topladı, həyəcandan dəyişib özünə də yad gələn bir səslə dedi:

--Bu qədər qara fikirli olmayın.Hər şey yaxşı olcaq.Kamran doktor gündə neçə-neçə xəstəni həyata qaytarır.Bizə güvənin.

Bu sözlərdən sonra Nərmin xəstəyə lazım olan dərmaı verdi, təzyiqini ölçdü, ürəyinin kardioqramını çıxartdı.Ancaq bütün bu işləri ürəyində iyrənc bir duyğu ilə elədi.Başını qaldırıb Siracın üzünə baxmağa, həm də bu qədər yaxından baxmağa qorxdu.Sirac xəstə də olsa, Nərmini diqqətlə süzür, onun hər hərəkətini baxışları ilə izləyirdi.Nərmin də bu baxışların altında əsim-əsim əsirdi.Nəhayət işini bitirib otaqdan çıxanda da, arxasınca baxan odlu baxışların atəşini öz kürəyində hisss elədi.

Siracın əməliyyatı uzun sürdü, ancaq uğurlu keçdi.Nərmin onun, iki gündən sonra ümumi palataya keçiriləcəyini, ən azı bir ay orda yatacağını fikirləşəndə, bədənindən soyuq bir üşütmə keçdi.

Səltənət qızındakı dəyişikliyi elə həmin axşam sezdi.

Nərminin bu tərki-dünya halı dünyanın hər halını anlamaq qabiliyyəti ilə seçilən Səltənətin gözündən qaçmadı.O, qısaca bu dəyişikliyin səbəbini öyrənmək üçün :

--Nə olub, qızım, xəstə-zad deyilsən ki?—deyə soruşanda, Nərmin də ona çox qısa:

--Bir şey olmayıb, bir az başım ağrayır,--deyə cavab verib ertədən yatağına girdi.

Səltənət, onun bu halında başağrısından daha ciddi bir şeyin olduğunu ihss edib, çox məyus oldu.Ürəyi yenə şübhələrlə doldu, ancaq Nərminə daha heç nə deməyib, öz otağına çəkildi. Aradan bir neçə gün keçdi, ancaq Nərmin öz qaradinməzliyindən çıxa bilmədi.

O, bu halı ilə Səltənətin də rahatlığını əlindən almağa başladı.Yeni-yeni üzü gülməyə başlamış Nərminin bu qədər vaxtdan sonra yenidən içinə qapanması, əvvəllərdə olduğu kimi fikirli gəzib dolanması, həyatın hər üzünə şahidlik eləmiş Səltənətin ürəyini şübhələlrə doldurdu.Bu qədər dəyişiklik boş-boşuna ola bilmzədi.Arada mütləq nə isə baş vermişdi.Ancaq nə?Səltənətin ürəyinə gələn ilk fikir bu oldu ki, hər nə olmuşdusa, bu Nərminin, daha doğrusu, Gülxarın keçmişi ilə bağlı olmalıdır.Bundan artıq heç bir fərziyyə yürüdə bilməyən Səltənət, ürəyində qızına gileyi-güzar da elədi."Ay qızım, ay balam,...Artlq bir pud düz-çörək də yemişik.Səni özümə bala bilirəm.Ancaq hələ də keçmişində nələr olub, o gecə başına nə gəlmişdi, o birisi ölüb, birisi tutulan oğlanlar sənin nəyin idi, bilmirəm.Hardan bilim?Bir şey danışırsan ki...Sən danışmırsan, mən də gözləyirəm.Bax indi mən hər şeyi bilsəydim, bilərdim ki, sənə necə kömək edim.Heç nə bilmədiyim halda, sənə necə kömək edim?Qarşımda səninlə bağlı ancaq tapmacalar var.Hamısı tapmaca, hamısı tapmaca..." Bundan artıq öz ciyərparəsini qınamağa Səltənətin ürəyi gəlmədi.Yenə də o düşüncənin üstündə dayandı ki, yəqin zamanı gəlməyib, zamanı gəlndə Nərmin özü hər şeyi ona danışacaq.Nərmin, ilk gündən Səltənətə belə söz vermişdi ki, zamanı gələndə, özü hər şeyi açıb başdan ayağa danışacaq.Bu düşüncələrlə də Səltənət yenə də o vaxtı, o saatı gözləməyi qərara aldı.Əslində, bu işin başqa yolu da yox idi...Səltənət bunları düşündüyü bu aralarda, Nərmin də təkbaşına öz keçmişindən gəlib, onunla üz-üzə dayanmış bir kabusun əlindən qurtulmağın yollarını axtarırdı.Artıq iki gün idi ki, Siracı ümumi palataya keçirtmişdilər, və artıq iki gün idi ki, Nərmin ortalarda havalı kimi gəzir, nə fikirlərini bir yerə toplaya bilir, nə də əsən vücudunu kontrolda saxlaya bilirdi.Onun bu vəziyyətə düşməsinin səbəbi gün-gündən özünü daha gümrah hiss eləməyə başlamış Sirac idi.Sirac palataya keçirildiyi gündən, Nərminin hər addımını izləyir, ona qəribə bir baxışla baxırdı.Bu baxışlar sanki Nərmini yüz yerdən dəlib keçir, üzərinə də iyrənc bir məhlul sıçradırdı.Nərmin anlaya bilmirdi ki, Sirac doğurdanmı ona

belə baxır, yoxsa bütün bunlar onun öz qorxusundan ağlına gələn xəstə fikirlərdir?Tərs kimi, palatada Siracdan başqa beş xəstə də var idi ki, Nərminin günü onlardan kimisinin iynəsini vurmaqla, kimisinin yarasını yumaqla, kimisinin də təzyiqini ölçməklə keçirdi.Qaratel yaşlı qadın idi, ona görə də qış aylarında tez-tez xəstələnir, Nərmini də təkbaşına bu işlərin öhdəsindən gəlməyə məcbur qoyurdu.Nərmin həm onun əvəzindən, həm də öz əvəzindən çalışmalı olurdu.Bu gün yenə Qaratelin yaxın üç-dörd gündə işə gəlməyəcəyi xəbəri ortaya çıxanda, Nərminin qanı lap qaraldı.Nərmin işin öhdəsindən gələ bilirdi, bundan əvvəl də Qaratel işə gəlməyəndə, Nərmin böyük həvəslə çalışır, öz bacarığına inamını bu yolla əldə edirdi.Ancaq indi onu əzən, qorxudan işin çətinliyi deyildi, Siracın atmacalı sözləri, şərəfsizlik yağan baxışları, ondan gələn təhlikə qorxusu idi.Gün keçdikcə, Sirac deyəsən onu tanımağa başlayır, bunu nümayiş elətdirmək üçün də, məhz Nərminə ünvanlanan atmacalar atırdı.

Nərmin istəsə də öz otağına çəkilib bu xoşagəlməz durumdan gizlənə bilmirdi.Çünki, o tək idi.Ondan başqa xəstələrin iynəsini vuran, dərmanını verən heç kim yox idi.Nərmin altı xəstənin hər biri üçün bircə dəfə palataya girəndə, iş günün çox hissəsini palatada keçirmiş olurdu.Sirac da onu görən kimi, guya ki, palata yoldaşlarına öz keçmişindən iyrənc-iyrənc macəralar danışmağa başlayırdı. Nərmin, çox yaxında bu şərəfsizin ağzından öz adını eşidəcəyini, Siracın konkret bir xatirəni təfsilatı ilə danışacağını artıq hiss eləmişdi.Bunun qarşısını almaq üçün Nərmin heç bir çarə bilmirdi.Onu da bilmirdi ki, belə bir şey baş versə, o özünü necə aparacaq.Səltənətin öyrətdiyi kimi, özünü ələ alıb hər şeyi inkar edə biləcəkmi?

Lap elə bir gün əvvəl, Siracın Nərminə dediyi sözlər, təhlükənin get-gedə yaxılaşdığına işarə edirdi.Həmin gün Nərmin yenə də onun yarasının sarğısını dəyişirdi.Məhz Siracın yarasını sarımaq, bir sözlə ona yaxınlaşmaq, Nərmin üçün bir işgəncə idi.Bununla belə, o xəstələrə fərq qoymamağın, hər kim olursa olsun, ona yardım eləməyin bu məsləkdə ən müqəddəs bir şey olduğunu

unutmurdu. Buna görə də, Sirac nə qədər mənfur biri olsa da, Nərmin onun da yarasını sarıyacaqdı.

Sirac Nərminin ona bu qədər yaxın olmasından xüsusi zövq aldığını heç gizlətmirdi də.O,yenə Nərmini həris baxışlarla süzüb, ikisinin eşidəcəyi bir səslə dedi:

--Səni çox yaxından tanıdığım bir qıza bənzədirəm...

Başı aşağı öz işini görən Nərminin əlləri əsməyə, nəfəsi kəsilməyə başladı.Sirac özü o qədər həyəcanlanmışdı ki, Nərminin halını anlayacaq durumda deyildi.O səsində, iyrənc bir məhlulun axımını xatırladan yağlı avazla sözünə davam edib deyirdi:

--Əyər adın Nərmin olmasaydı, özün də burda işləməsəydin, mən deyərdim ki, sən elə osan...Onu çox bəyənmişdim...Sən hər şeyinlə, hər şeyinlə ona bənzəyirsən...

Nərmin bu sözlərdən, ona bir az da yaxınlaşan nəfəsdən elə iyrəndi ki, işini bitirməmiş yerindən sıçrayıb ucadan dedi:

--Bu nədir ey...Yaşlı adamsınız, özünüzü ədəbli aparın!Mən sizin yaranızı sarımaq üçün burdayam, daha sərsəm-sərsəm sözlərinizi eşitmək üçün yox!

Sirac Nərminin bu hərəkətindən özünü itirdi, rəngi qaçdı.Hamının onlara baxdığını görüb dedi:

--Canım, burda nə var ki?Dedim ki, səni bir qıza bənzədirəm də...Bu sözə də bu cür acıqlanarlar?

Nərnim həyəcandan boğulurdu, ancaq cavab verməyə söz tapa bilmirdi.Elə bu vaxt Kamran doktor palatanın qapısında göründü. Sirac bir az da qorxub özünü itirdi.Nərmin dönüb Kamrana baxdı, sonra tez başını aşağı saldı ki, doktor onun ağladığını görməsin. Ancaq doktor onun gözlərindəki yaşı görmüşdü.O, Siracın yatağına yaxınlaşıb dedi:

--Biz, kim olduğundan asılı olmayaraq, hər kəsi müalicə edirik. Ölümün pəncəsindən alıb həyata ona görə qaytarmırıq ki, sonra o bizim xətrimizə dəysin, əsəbimizlə oynasın, bizi elədiyimiz yaxşılığa görə peşman eləsin.Mən bayaqdan qapının arxasındaydım. Sən bu ağsaqqal yaşında, sənin yaranı sarıyan qız uşağına elə yaraşmaz baxışlarala baxıb, elə əskik sözlər deyirdin ki, mən

dayanıb bu işin axırını gözləməli oldum.Halbuki, mən ağır xəstələri nəzarətdən keçirməyə gedirdim.Biz balığı tutub dəryaya atanlardanıq ki, balıq bilməsə də xaliq bilir.Xanım qızdan üzr istə, özünü də elə apar ki, vaxtından əvvəl səni yola salmalı olmayaq.

Sirac şit-şit gülüb dedi:

--Ay doxdur, mən nə dedim ki?İncitdimsə, bağışlasın, elə bir söz də demədim axı...

--Sən bildin, mən nə dedim.

Bu sözlərlə də Kamran doktor Nərmin tərəfə baxmadan, palatadan çıxdı.

==16.

Növbəti bir-iki gün ara sakit keçdi, heç nə baş vermədi.Sirac, görünür Kamran doktordan ehtiyat edib, özünü əməlli-başlı yığışdırdı.Nərmin, bir qayda olaraq, öz işini görmək üçün vaxtlıvatında palataya girib çıxsa da, Sirac tərəfdən gələn gərginliyi hiss edir, onun həmişəlik sakitləşdiyinə, nədənsə, inanmırdı.

Nərmin, hələ də ürəyindən, yaxın günlərdə xoşagəlməz hadisələrin baş verəcəyi hissini qovub çıxarda bilmirdi.Bu da ona, özünü sərbəst hiss eləməyə mane olur, həmişə narahat, sək-səkədə gəzibdolaşmağa vadar edirdi.Yazıq qız, tikan üstə gəzirmiş kimi, özünə yer tapa bilmirdi.Nərmin, bir yandan təkcə onu istəyirdi ki, nə qədər ki, Sirac öz mənfur xatirələrini dilə gətirməyib, nə qədər ki, Nərminin qorxduğu söhbətlər ortaya tökülməyib, o tezliklə xəstəxananı tərk edib getsin, və bir də heç vaxt Nərminin qarşısına çıxmasın.O biri yandan da, Nərmin başa düşürdü ki, Sirac o qədər iyrənc bir tip idi ki, onun ağzının payını layiqincə almadan burdan getməsi, bu məsələdən çıxış yolu olmayacaqdı.Sirac, öz qurbanını parçalamaq üçün uzun zaman səbirlə pusquda duran yırtıcı heyvana bənzəyirdi.Eyni bir yırtıcıya xas olan sərraf hissiyatı var idi Siracın.Sirac, yəqin ki, Nərminin xoflandığını hiss eləmişdi.Onun bu qədər qorxduğunu gördüyü halda xəstəxananı tərk eləsəydi də, ola bilərdi ki, başqa bir yerdə, başqa bir şəraitdə Nərminə rast gələydi, və öz şübhələrini yenə də yoxlamaq fikrinə

düşəydi.Nərmin, günlərin bir günü, belə bir uğursuz günün yaşanmaması üçün, mümkün olsa, hadisələri elə bəri başdan sığortalamaq istəyirdi.Nərmin bilmirdi ki, o indidən nə edə bilər.O, bilmirdi ki, bu söhbətə son qoymaq mümkün olacaq, ya yox, ancaq o, hər gün özünü belə bir vəziyyəti qarşılamağa hazırlayırdı.Çünki, o hər səhər işə gələndə, Siracın bir yırtıcı kimi pusquda durub fürsət gözlədiyini gözlərindən oxuyur, odlu nəfəsini kürəyində hiss edirdi.Günlər ağır-ağır keçir, Nərminin səbri tükənirdi.

Bir həftə sonra Kamran doktor Nərmini yanına çağırdı.Doktor bu gün evə yola salınacaq Mahir adlı xəstənin çıxış sənədlərini hazırlamağı Nərminə tapşırdı.Nərmin xəstənin səhhəti barədə bütün nəticələri toplayıb, son dəfə xəstənin ürəyinin kardioqramını da çıxartmalı idi.

O, ürəyində fikirləşdi ki, bu saat bircə elə bu çatmırdı. Kardioqram çıxartmaq uzun sürən bir prosedur olduğundan, Nərmin bu qədər vaxtı palatada olmaqdan ehtiyat edirdi.

Lap elə heç nə baş verməsə də, onun hər hərəkətini diqqətlə izləyən Siracın baxışları altında iş görmək, Nərmin üçün əməlli-başlı işkəncə idi.Ancaq Nərmin onu da bilirdi ki, başqa çarəsi yoxdur, o öz işini görməlidir.

Bu fikirlə də palataya gəlib Mahirin təzyiqini ölçdü, xəstənin yarasını bir də dərmanlayıb sarıdı.Sonra kardioqram aparatını yaxına çəkib işə başladı.Öz yataqlarında uzanıb, kimi mürgüləyən, kimi öz düşüncələrinə dalan xəstələr, Nərminin məharətlə gördüyü işləri izləməyi də unutmurdular.Bu sakitlikdə birdən Siracın səsi eşidildi.

--Niyə danışmırsan, ay Çingiz?

Bu səsdən Nərminin bütün əzaları gərildi, Siracın səsindəki oynaq notlar onu qorxutdu.Ancaq o, bunu biruzə verməməyə çalışaraq, öz işinə davam elədi.Çingiz adlı orta yaşlı xəstə Siracın bu sözünə cavab olaraq dedi:

--Nə danışım, ay Sirac, söhbətlər səndə...Olandan, keçəndən bir şey danış, başımız qarışsın.

Sirac, sanki söhbətin bu şəkil almasına sevindi, tez yana dönüb, üzünü həmin o Çingiz adlı xəstəyə tutdu.

--Danışım da...Gəlin sizə bir xatirə danışım, elə bir xatirə ki, aradan bu qədər illər keçib, ancaq o hadisə mənim heç yadımdan çıxmır, elə bil dünən olub.

Xəstələrdən Baba adlı biri də maraqla Sirac tərəfə dönüb soruşdu:

--Danış görək, sənin heç yadından çıxmayan bu hadisə nə imiş elə?Bizi də nigaran qoydun...

--Yox, nigaran qoymaram, vaxtımız çox, işimiz yox, mən danışım, siz də qulaq asın...

Yerbə-yerdən xəstələr dedilər:

--Danış, danış...

Heç kimin ağlına da gəlmirdi ki, onların arasındakı bu adi dialoq, Nərminin qanını beyninə vurur, təzyiqini sürətlə qaldırırdı.Nərmin əlləri əsə-əsə işini görüb bitirməyə çalışırdı, ancaq kardioqram aparatı, sanki bilə-bilə çox ləng işləyir, az qala özündən gedəcək Nərminin halını heç vecinə də almırdı.Bu vaxt Siracın səsi gəldi:

--Sizə nədən danışım, bir neçə il bundan əvvəl mənim Tahir adında gənc bir dostum var idi...

Nərminə elə gəldi ki, ürəyində bir sim qırıldı.Ona birdən elə gəldi ki, o iflic oldu.Bir müddət nə gözü gördü, nə də qulağı eşitdi.Başını donduran bir ağrı, Nərminin ətrafındakı hər şeyi iki dəfə onun başına dolandırıb, yenə də əvvəlki yerinə qoydu.Nərmin əvvəlcə hər şeyi dumanlı gördü, hər şeyi hamamda olan səslər kimi əks-sədalı eşitdi.Sonra hər şey birdən normala qayıtdı.Nərmin yenə də hər şeyi aydın görür, hər şeyi təmiz eşidirdi.Sirac hələ də Tahirdən danışırdı.Nərmin əvvəlcə qulaqlarına inanmadı, Tahirin adını eşidib bir an əl saxladı, nə edəcəyini bilmədi.Ancaq sonra tez özünü ələ aldı, və ürəyinə gələn bir fikri başının hərəkəti ilə özü üçün təsdiqlədi.Nə vaxtdan bəri özünü hazırladığı sınaq günü bu günə rast gəlibmiş.

Nərmin dərindən nəfəs alıb sakitləşməyə çalışdı.Əlindəki işə davam edərək, özünü ifşa eləməmək üçün bütün gücünü topladı. Sirac, ara-bir ona göz ataraq sözünə davam elədi:

--Hə...,onu deyirdim axı, bu Tahir çox yaxşı oğlan idi.Özü də musiqiçi idi.Gözəl qarmon çalırdı.Gənc olmasına gənc idi, ancaq o qədər məharətli qarmon çalmağı var idi ki, ən yaxşı musiqiçilər onu öz dəstələrinə almışdılar.Tahir Bakının ən mahir musiqiçiləri ilə toylara gedər, yaxşı da pul qazanardı.Di gəl ki, bu bədbəxt də, bütün pulu erkən yaşlarından tanıyan uşaqlar kimi, az bir zaman içində yolunu azdı.Həm nəşəyə bağlandı, həm də qumara qurşandı.Mən onunla tanış olanda, o artıq geriyə yolu olmayan bir nəşəxor idi.Günü də qazandığı pulları qumarda uduzmaqla keçirdi.Mən onun xətrini çox istəyirdim, bir yerdə çörək kəsmişdik.Ona görə də belə bir oğlanın göz görə-görə tələf olmasına baxa bilmirdim.Bir gün onu çağırıb qarşımda oturtdum, ona bir böyük qardaş kimi öyüd verib dedim:"Tahir, qardaş, nə qədər gec deyil, çəkil bu yoldan.Özün də yazıqsan, bilirsən ki, bu yolun sonu uçurumdur." Tahir özünə çox güvənirdi, odur ki, mənim bu sözlərimi qulaq ardına vurub, əməlindən qalmadı.Bir müddət sonra eşitdim ki, Tahir bir dağ kəndindən qız götürüb qaçıb.Bir-iki gün sonra təsadüfən ona rast gəldim, təbrik elədim, sonra yenə də ona məsləhət verib dedim:"Tahir, bax evlənmisən, artıq ailən də var, gəl daşı tök ətəyindən, sözümə qulaq as, qumardan, nəşədən əl çək.Dedim, o qədər namusunu qumar borcuna satan adamlar görmüşəm ki...Özünü də bədbəxt edərsən, o qızı da..."O da cavabında mənə dedi ki, "Mən o binamuslardan deyiləm, qumarın da yerini bilirəm, ailənin də." Nə başınızı ağradım, bir gün bu Tahir üstünə o qədər borc yığdı ki, daha altından çıxa bilmədi.Orda döydülər, burda söydülər, qumar borcunu istəyənlər bu Tahirə daha göz verib işıq vermədilər.Bu yazığın da evi-zadı da yox idi ki, satıb borcunu ödəsin.Yəni əvvəlcədən nəyi vardısa, hamısını satıb qumara qoymuşdu.Bir gün mən də ondan borcumu istədim, çünki ən çox borcu da mənə idi.Bu da mənə nə desə yaxşıdır, dedi ki, axşam bizə gəl, sənə on elə qumar borcuna dəyən bir şey verəcəyəm.Maraq məni götürdü, axşam onlara getdim.Tahir mənim adıma gözəl bir süfrə açmışdı.Əvvəl elə bildim ki, tərifləyiyi şey elə budur.Sonra o mənə gecəni onlarda qalmağı təklif edib, həmin o

götürüb qaçdığı dağlar gözəlini mənə təklif elədi, borcunun yerinə...Qız da nə qız, o qədər gözəl idi ki, deməklə qurtarmaz...

Sirac öz xatirəsini ağzı sulana-sulana danışır, Nərmin isə utancaqlığın, həyəcanın, bir də qorxunun gətirdiyi soyuq tərdən paltarı bədəninə yapışmış halda, tir-tir əsirdi.Nə əlindəki işini yarımçıq qoyub çıxa bilirdi, nə də bu iyrənc söhbətin gerisini eşitməyə gücü çatırdı.Başı küt ağrıdan çatlayır, ürəyi bulanırdı.Sanki, Sirac ona neçə il bundan öncə deyil, elə bir az bundan əvvəl təcavüz eləmişdi, indi də ağzının şorbası axa-axa bunu bütün təfsilatı ilə başqalarına danışırdı.Siracın bir gözü Nərmində, hekayəsinə davam edirdi:

--O gün elə onu deyirdim ki, həmin o qız bizim bu tibb bacısına çox oxşayırdı.Vallah adı Gülxar olmasaydı, elə bilərdim ki, elə onun özüdür...

Çingiz adlı xəstə bu yerdə dözməyib dedi:

--Sən lap ağ elədin haa...Ağzına gələni danışma, sənin tibb bacısı ilə nə işin var?Sözün var, söz danış, baxmaram ki...

Sirac tələsik onun sözünü ağzında kəsdi:

--Yaxşı, yaxşı, bir də demərəm...Nə dedim axı?Dedim ki, adam adama necə də oxşayarmış...

--Sənə söz dedim axı...

Sirac yenə də dil töküb Çingizi sakitləşdirməyə başlayanda, Nərmin daha dözə bilməyib palatadan çıxdı.Elə qapıdan çıxan kimi də Səltənətlə üz-üzə gəldi.Səltənət onu saxlayıb nəsə soruşmaq istəyirdi ki, Nərmin onu kənara itələyib, dayanmadan qaçıb getdi.Onun heç xəbəri də olmadı ki, Səltənət haçandır, təsadüfən gəlib söhbətin üstünə çıxmış, söhbətin lap başından bəri bu qapının arxasında dayanmışdı.Səltənət Nərminin ardınca getmək istəyirdi ki, Siracın səsini eşitdi.Sirac öz hekayəsini danışmaqda davam edirdi.Səltənət durduğu yerdə qalıb, Siracın danışdıqlarına qulaq asmağa davam elədi.Bu işin başqa yolu yox idi.Səltənət bu yolla da olsa, bu məsələni başdan ayağa bilməli idi.İndiki bu gün bu sirr bu şəkildə də olsa açılırdı, Səltənət onu sonuna kimi dinləyəcəkdi.Səltənət o qədər həyəcanlı idi ki, ürəyinin səsini qulaqlarında eşidirdi. O, bayaqdan, bütün bu danışılanları eşitmək

məcburiyyətində qalmış Nərminin halına acıdı.Bir ana ürəyi, qızının çəkdiyi əzabları bütün dəhşəti ilə hiss elədi, bu ağrıları öz üzərinə çəkmək, bununla da bir az da olsa Nərminə kömək eləmək istəyirdi.Səltənət içəri girib, Siracı parçalamaqdan özünü güclə saxlayırdı.O, bu hadisənin hansı şərtlərdə baş verdiyini, Gülxarın başına gələnlərin hamısını sonuna kimi bilmək üçün bu yerdə hisslərini cilovlayıb, qulaq asmaq məcburiyyətində idi.Gülxar nə Gülxar olanda, nə də Nərmin olandan sonra da ona heç nə danışmadı.Ürəyindəki sirləri ona etibar eləmədi, o sirlər də bu gün, bu şərəfsiz adamın dilindən danışılırdı. Səltənət, nə olursa olsun, bu hadisəni sona kimi dinləyəcəkdi.Heç bir şeydən xəbəri olmayan Sirac, danışdığı xatirəni yenidən yaşayırmış kimi, həmin o keçmiş günlərə qayıtmış, bununla da, ətrafındakı real həyatı büsbütün unutmuşdu.Tam bu yerdə, Sirac xatirələrinin ən xırda detallarına girərək, artıq Tahirlə birlikdə Gülxarı necə içirdib sərxoş elədiklərindən, Tahirin onu öz əli ilə Siracın qucağına verib evdən getdiyindən danışırdı.Sonralar, Gülxarın əldən-ələ düşdüyünü deyən Sirac, özünün Gülxarı qucağına alan, sayı bilinməyən kişilərdən ən birincisi olması ilə hələ bir öyündü də...

Səltənətin ürəyi parçalanırdı, gözünün yaşı dayanmaq bilmirdi. Demək belə...demək Gülxarın başına gələnlər bu qədər ürküdücü bir şey imiş ki, yazıq qız bir ömür boyu susmağa çalışırmış.Səltənət, əvvəlcə eşitdiklərinə inanmaq istəmədi.Gülxarın başına gələnlərdən ötrü Siracdan intiqam almaq hissi, Gülxara acıması, eşitdiyi əhvalatın iyrənciliyi, bir-birinə qarışıb, Səltənətin beynində bir düyün əmələ gətirmişdi.Ancaq bu düyünün içində həqiqətə çox yaxın gələn bir əlamət var idi.Bu düyünü çözmək üçün, vaxt lazım idi.Ancaq Səltənətin vaxtı yox idi.Səltənət ürəyinin səsini dinləyərək, eşitdiklərini bir də analiz elədi, heç bir şübhə yeri qalmadı.Sirac həmin bu Gülxardan bəhs edirdi.Səltənət düşüncələrə daldı.Gülxara rast gəldiyi gündən bir neçə gün sonra, televizorda öz qumar yoldaşını öldürmüş Tahir adlı gənc oğlan yadına düşdü.Ona o vaxt on beş il iş vermişdilər.Səltənət o gecə Gülxarın həyəcandan bərəlib ekrana dikilmiş gözlərini də, əlindən salıb sındırdığı boşqabı da xatırladı.Demək, Gülxarın tarixçəsi bundan ibarət imiş.Ona görə də,

bu neçə ildə ana-bala qədər yaxın oldularsa da, Gülxar öz keçmişini, başına gələnləri Səltənətə danışmağa cürət eləmədi ki, eləmədi...Doğurdan da, belə bir şeyi necə danışmaq olardı?Buna kim ürək edərdi, kimin üzü gələrdi?Səltənət birdən ayıldı ki, bu düşüncələrin yeri deyil, o elə indicə Siracın aşının suyunu verməli idi.Odur ki, Səltənət ayağını yerə bərk basa-basa palataya girib, qəzəblə Siracın üstünə yeridi.

Siracın arxası qapıya olduğundan, iri addımlarla onun yatağına yaxınlaşıb başının üstündə dayanmış Səltənətdən xəbəri yox idi.Səltənət ona bir dürtmə vurub bağırmağa başladı:

--Ay binamus, ay şərəfsiz, elədiklərindən xəcalət çəkmək əvəzinə, hələ bir ağzına alıb danışırsan da?Heç yaşından-başından da utanmırsan? Sənin başına daş düşsün elə!Doktor da səni adam bilib, ürəyini əməliyyat elədi, səni həyata qaytardı, heyif sənə çəkilən zəhmətə... Tfu!!! Alçaq!Səni hələ o oğraşlıqları elədiyin illərdə gəbərtmək lazım imiş!

Sirac özünü itirmişdi, nə baş verdiyini anlamırdı.Axı, bu qadın kim idi?Ondan nə istəyirdi?O, gözünü döyə-döyə küncə sıxılıb qalmışdı.Nəhayət cəsarətini toplayıb soruşdu:

--Ay bacı, kimsən, nəçisən?Məndən nə istəyirsən? İşə düşmədik...

Səltənət elə coşmuşdu ki, xəstəxanada olduğunu da, yaralı xəstə ilə danışdığını da unutmuşdu.

--Canına azzar istəyirəm...Sənin kimi şərəfsizdən qardaş olacaqsa, elə bu gün ölsün...

--Aaa... kimsən ey sən?

--Mən kiməm? Sənin canını almağa gəlmiş əzrayılam!O həkimlər qurtaran həyatını bu saat sənin gözündən tökəcəyəm.Neçə gündür yazıq uşaq gəlib deyir ki, bir şərəfsiz kişi gətiriblər, o qədər abırsız şeylər danışır ki, yaxınlaşıb iynəsini vurmağa da adamın əli gəlmir.Mən də inanmadım, dedim elə şey olar?Bayaqdan qapının arxasında dayanıb qulaq asıram.Törətdiyin əməllərdən utanmaq yerinə, hələ bir öyünə-öyünə ağzına alıb danışırsan da?O bədbəxt elədiyin qadını da hələ bir mənim qızıma bənzədirsənmiş...Ay

namussuz, o qadın əsil elə sənin anana-bacına, arvadına bənzəyər ey, get yaxşı-yaxşı bax!Sənin adını daşıyan qadınlar da elə sənin tayın olar.Get xatirələrini onlara danış, onlar da öz əməllərindən sənə danışsınlar. Bu yerdə Sirac guya ki, qeyrətləndi, yerindən dikəlib Səltənətə xox gəlmək istədi:

--Bura bax, bura bax, ağbirçək arvadsan, danışığına fikir ver, yoxsa əlimdən xata şıxar...

Səltənət bir addım da irəli gəlib, Siracın üzərinə əyildi:

--Nə çıxar? Xata çıxar?Ay sən öləsən!Nədir, sözüm xoşuna gəlmədi? Yoxsa elə bilirsən, sənin o vicdanını itirmiş oğlandan bir fərqin var? O da qumarbaz, sən də qumarbaz, o da nəşəxor, sən də nəşəxor...O da arvadını borc yerinə satan, sən də...Yoxsa, ikinizin bir arada nə işiniz vardı?Deyək ki, o cavan idi, yolunu azmışdı, sən niyə o işi tuturdun? Arvadın, bacın, qızın yox idimi?Öz ailəsinin namusuna qiymət verən, başqasının namusuna əl uzadar?Şərəfsiz o oğlan deyil ey, sənsən... Nə qədər burda yatırsan, səsin gəlməsin, kölgə ol, yoxsa, başına bir oyun açaram, yatdığın yerdə gəbərərsən. Mən yetimçiliklə qız böyütməmişəm ki, haranınsa kaftar bir oğraşı onun yanında ağzını pozub, zəhləsini töksün.Uşaq utandığından palataya girə bilmir, işini görə bilmir.Nə var, nə var, əcəl səni girləyib, bu yaşında özünə əcəl axtarırsan.Özünü yığışdırmasan, and içirəm, sənin əcəlin olaram!Eşitdin?Binamus, oğraş!

Bunları deyib, Səltənət iri addımlarla qapıya doğru addımladı, qapının ağzında Kamran doktorla üz-üzə gəldi.Kamranın üzünün ifadəsindən Səltənət başa düşüdü ki, Kamran hər şeyi eşidib.Səltənət başını qaldırıb utana-utana ona baxdı.

--Sizdən çox-çox üzr istəyirəm, doktor,--deyib palatan çıxdı.

Doktor Siraca uzun-uzun baxıb üzünü koridora tutdu:

--Xanım qız, Nərmin xanım, hardasınız?

Nərmin, görünür çox da uzaqda deyilmiş, qaça-qaça gəlib özünü yetirdi.

--Bəli doktor...

--Nərmin xanım, xəstə Siracın da çıxışını hazırlayın, zəhmət olmasa...

--Bəli doktor,-deyib Nərmin dönüb çıxdı.

Kamran Siraca bir də baxdı, Sirac başını aşağı salıb heç nə demədi.Kamran da dönüb palatadan çıxdı.Xəstələr yerbəyerdən Siracı məzəmmət elədilər, o isə eşitdiklərinin müqabilində susub, deyilənlərin hamısını cavabsız buraxdı...

=17.

Nərmin nə evə dönərkən, nə də həmin günün axşamı Səltənətlə kəlmə kəsmədi.O, nəinki danışmaqdan, hətta Səltənətlə göz-gözə gəlməldən də qaçdı.Lal-dinməz çörək yedilər, lal-dinməz çay içdilər, kəlmə kəsmədən süfrəni yığışdırıb televizorun qarşısında oturdular. Nərmin ilk dəfə Səltənətlə yan-yana oturmaqdan sıxıldı.Ancaq bu sıxıntı Səltənətin özü ilə bağlı deyildi, sadəcə, bu gün baş verənlərdən sonra sanki, bu iki qadının arasına sədd çəkilmiş, onları bir-birindən uzaqlaşdırmışdı.

Səltənət Nərmini özünə övlad elədiyi bu bir neçə ildə onun keçmişi haqqında hər şeyi öyrənməyi çox istəmişdi.Ancaq, bu müdrik qadın bunun üçün heç bir tədbir görməmiş, heç bir vasitəyə əl atmamışdı.Səltənət hər şeyi qızın özündən eşitmək istəmişdi.O, Nərminin etirafını çox gözləmişdi, bu dəfə də gözləməyi qərara aldı.Nərmin gec-tez ürəyini, illərlə ürəyində saxladığı sirləri ona açacaqdı, lap az qalmışdı.Xüsusən də, bu gün baş vermiş hadisədən sonra, ya Nərmin Səltənətə açılamalı, ya da bir daha onunla göz-gözə gəlməmək üçün bu evdən çıxıb getməli idi.Bu fikrin ikinci hissəsi Səltənəti qorxutdu.Çünki, o daha həyatını Nərminsiz təsəvvür eləmirdi.Bundan sonra, nə olursa olsun, Səltənət Nərmini gözündən bir addım da kənara buraxmaq istəmirdi, heç buraxmayacaqdl da...Axı, başına gələnlərdə Gülxarın nə günahı var idi?Məyər Gülxar o həyatı özü seçmişdimi? Kim belə yaşamaq istərdi ki? Öz-özü ilə ürəyində apardığı bu sorğu-sualda, Səltənət hər zaman özünü Nərminin tərəfində görür, onu hər vasitə ilə müdafiə edirdi.Götürmə qızının keçmişini tam olaraq bilməsə də, o qaranlıq dünyanın bir günah yuvası olduğunu, o yuvada qızcığazın başına nələr gəldiyini artıq təxmin edə bilirdi.Buna görə də,

Səltənətin ana ürəyi intiqam hissi ilə alışıb yanırdı.Əlində olsaydı, bu hikkə ilə sahibsiz bir qızı o günə qoyanların hamısını bir gündə öldürə bilərdi.Ancaq birazdan Səltənət tezliklə özünü ələ aldı, daxilindəki fırtınaları biruzə verməmək üçün, Nərminlə heç nə olmamış kimi davranmağa başladı. Ürəyində, "Məndən böyük Allah var, onsuz da onlar o dünyada cəhənnəm odunda yanacaqlar", deyib Nərminin bundan sonrakı həyatını hər cür bəladan qoruyacağına dair özünə söz verdi.

Nərmin də öz daxili aləmində istintaq aparırdı.Səltənətin vaxtında yetişib onu Siracdan qoruması, Nərmində Səltənətə qarşı qəribə bir doğmalıq əmələ gətirmişdi.İndi o, bu hissi özü üçün izah eləməyə çalışırdı.Nərmin əmin idi ki, Səltənət Siracın hekayəsinin lap əvvəlindən qapının arxasında idi.Səltənət Siraca hücum çəkib ürəyini boşaldanda, Nərmin artıq geri gəlirdi.O, eşitdiklərindən belə qənaətə gəldi ki, Səltənət hər şeyi bilir.Belə olan halda, deməli o, bu hekayəni başdan ayağa dinləmişdi.Elə hekayəni başdan ayağa eşitdiyinə görə də, daha dözə bilməyib, özünü içəri atdı.Əslində, Səltənətin Siraca o şəkildə hücum çəkməsi, onun Nərminə hər şəraitdə sahib çıxacağının göstəricisi idi.Həyatı boyu heç kim onu bu qədər ürəkdən, həm də heç bir qarşılıq ummadan belə müdafiə eləməmişdi.Nərmin bu gün yaşadığı bu qədər qorxunun, utancın içində bir də özünün arxalı olduğunu hiss elədi, ona arxa duran, onu hamıdan təmənnasız qoruyan, həm də, yalnız sevdiyi üçün qoruyan birinin olduğunu gördü.

Bu Səltənət idi.Ona təkcə "qızım" deməklə kifayətlənməyən, ona həqiqətən, ürəkdən bağlanmış bir anaya çevrilən Səltənət, bu gün özünün analıq duyğularını da, həm özü üçün, həm də Nərmin üçün imtahan eləmiş oldu. Nərmin, özünün, Səltənətə sığındığı ilk vaxtlardakı düşüncələrini xatırladı."Belə şeyləri yalnız ana anlaya bilər, ana bağışlaya bilər, ana qəbul edə bilər.Həqiqi bir ana öz övladı barədə nə eşitsəydi də, ondan üz çevirməyəcəkdi, onu sevməyə davam edəcək, ona yardım eləməyə çalışacaqdı." Səltənət artıq belə bir ana idi.Nərmin də, bu gün olanlardan sonra bunu bir daha anladı.Əslində, indi Nərmin ona güvənə bilərdi, öz qaranlıq

keçmişini ona danışa bilərdi.

Ancaq, hələki Nərmin bu cəsarəti özündə tapa bilmir, xəcalətdən Səltənətlə göz-gözə gəlməkdən qorxurdu. Səltənətə yaşatdığı bu acı sürprizə görə özünü çox günahkar hiss edir, onun çəkdiyi əzabı təsəvvürünə gətirdikcə, özünə nifrət edirdi.Bu düşüncələrlə də, Nərmin əvvəlcə Səltənətə bir neçə gün vaxt vermək istədi ki, Siracın danışdıqlarından anladığı məsələni yetərincə götür-qoy eləsin, bundan sonra necə yaşayacaqlarına dair bir qərar versin. Bu bir-neçə gün gərgin keçə bilərdi, lakin sonunda Nərmin də, Səltənət də hər şeyə aydın gözlə baxıb, düzgün qərar verərdi. Qətiyyətsiz, hər şeyini yenidən itirəcəyindən qorxan, ümidsizliyə qapılmış Nərmin, bu gün belə düşünür, nə olursa olsun, vaxtı uzatmağa çalışırdı.

Ertəsi gün, səhər naharında əvvəlki abı-hava olmadısa da, Səltənət heç bir şey olmamış kimi, gümrah səslə əvvəlcə Nərminin keyfini soruşdu, sonra ortadakı gərginliyi azaltmaq məqsədilə, bir neçə kəlmə də havadan-sudan danışdı.Nərmin onun bu əhvalını yaxşı əlamət hesab elədisə də, söhbətə qoşulmağa cəsarəti çatmadı, ancaq Səltənətin suallarına qısa cavabalar verməklə geniş mövzulardan bilə-bilə qaçdı.Səltənət özünü nə qədər şux göstərməyə çalışırdısa da, fikirli olduğu aydın görünürdü. Nərmin də onun bu halının aralarındakı səmimiyyətin yetərsizliyi üzündən əmələ gəldiyini anlayıb özlüyündə bir qərar qəbul elədi.Nərmin ən yaxın zamanda öz etirafını eləməli idi.

O gün iş yerində də hər şey elə bil başqa cür idi.Kamran doktor nədənsə, gün boyu Nərmini bir dəfə də olsun, yanına çağırmadı.Nərmin bundan da narahat olmağa başladı.Siracı dünən evə yola salandan sonra palatada da bir durğunluq hiss olunurdu. Bəlkə Nərminə elə gəlirdi, ancaq elə bil hamı Nərmindən soyumuşdu, ona qarşı bir səssizlik cəbhəsi qurmuşdu. Günortaya qədər Nərmin bunları o qədər düşündü ki, günorta ona elə gəldi ki, yer ayağının altından qaçır.Bu günə qədər əldə elədiyi yaxşı nə vardısa, hamısını bir günün içində itirir.Nərmin bu fikirlərdən panikə düşdü. Fürsət tapan kimi, öz otağına çəkildi.Yenicə ümidsizlikdən kövrəlib

ağlayırdı ki, onu palatadan çağırdılar.Nərmin tez gözünün yaşını sildi, özünü qaydaya salıb palataya getdi.Siracın boş qalan yatağına yeni xəstə gətirmişdilər.Yetmiş yaşlarında Nazim adlı xəstəni yerinə uzandırıb ilkin müayinəsini edən Kamran doktor dönüb Nərminə diqqətlə baxdı.

--Xanım qız, xəstənin gəlişindən, deyəsən, heç xəbəriniz olmayıb... Özünüzü necə hiss edirsiniz, xəstə deyilsiniz ki?

Nərmin tez yaxınlaşıb xəstənin nəbzini ölçməyə başladı.O, təzyiqölçəni xəstənin qoluna bağlaya-bağlaya doktora cavab verdi:

--Üzr istəyirəm, doktor, zəngi eşitməmişəm...Qalan hər şey qaydasındadır.

Kamran ona diqqətlə baxmaqda davam edərək:

--Nazim baba, o adını çəkmək istəmədiyim xəstənin tayı deyil, bizə tariximizdən maraqlı söhbətlər edəcək, elə deyil, Nazim baba?

Üzündən nur tökülən yaşlı kişi gülümsəyib dedi:

--Doktor, başağrısı olmasın, ancaq doğurdan da yaddaşımda bir əsirlik xatirələr var, mənə bəzən canlı tarix də deyirlər, ancaq bilimirəm, siz bunları hardan bilirsiniz?Yoxsa, elə sözgəlişi dediniz?

Kamran da xoş bir təbəssümlə ona baxdı:

--Nazim baba, əslində, həkim üçün xəstənin kim olması fərq eləmir, ancaq mən, hər xəstənin bioqrafiyasına göz atmağı sevirəm.Yəqin bilərsiniz, vaxt olur ki, yerində deyilən bir xoş söz dərmandan daha təsirli olur.Mən bu fərziyyəni düzgün sayan həkimlərdənəm, odur ki, praktikamda belə bir vərdişim də var.Ən azı, xəstənin nə işlə məşğul olduğunu bilmək istəyirəm.Şəxsi işdən oxuduqlarım, xəstə ilə ünsiyyət qurmaqda çox işimə yarayır.Sizin tarixçi olmağınızı da ordan bilirəm.

--Elə isə, vaxtaşırı söhbətlərimi eşidəcəksiniz, ümid edirəm, söhbətlərim maraqlı, əsas da, faydalı olar...

Kamran Nərminə təbəssümlə baxıb dedi:

--Xanım qız, eşitdiniz də, Nazim baba bir xəzinədir, onun söhbətlərini qaçırmayın, ancaq işinizə də diqqətli olun.

Nərmin həmişəki kimi başını aşağı salıb dedi:

--Bəli, doktor...

Nərmin başını qaldıranda, doktorun hələ də ona baxdığını gördü, həyəcanlandı, tez yenə də başını aşağı saldı.Doktor palatadan çıxan kimi, Nazim baba dedi:

--Qızım, adın nədir sənin?

--Nərmin...

--Hə, Nərmin bala, onu deyirəm ey, nə gözəl insanlar varmış bu dünyada?Sənin bu Kamran doktorun var haa...çox gözəl insandır, halal olsun!Savad, bilik, bacarıq çox adamda ola bilər, ancaq insanlıq, hər kəsdə rast gəlinən şey deyil.Halal olsun...

Palatadakı başqa xəstələr də onun bu sözünə yerbəyerdən qüvvət verdilər.

--Doğurdan da, çox gözəl insandır, gözəl də həkimdir, əlləri qızıldır ey, qızıl...

Nərmin bayaqki bədbin fikirlərini unudub təbəssümlə yeni xəstəyə baxdı.

Son günlərin hadisələri Nərmində, onun özü üçün də çətin izah oluna biləcək dəyişikliklər əmələ gətirmişdi.Nərmin daxilində bir cücərtinin baş qaldırdığını bir müddət bundan əvvəl hiss eləmişdi, ancaq dəqiq ayırd edə bilmirdi ki, bu hiss Siracın doktor tərəfindən xəstəxanadan qovulduğu gündən baş vermişdi, yoxsa, Nazim babanin Kamran doktor barədə dediyi xoş sözləri eşitdikdən sonra...Hər nə vaxt oldusa, hər nədən sonra oldusa, Nərmində Kamran doktora qarşı yeni bir hiss oyanmağa başladı.Bu hissin, əvəldə olduğu kimi, Nərminin ailə faciəsi yaşamış bir insana acımaq hissi ilə heç bir əlaqəsi yox idi.Bu, elə qəribə bir duyğu idi ki, sanki, Nərminin ürəyində yeni bir günəş doğub, onun bütün vücudunu nura boyamışdı.Nərmin gün boyu Kamranı gözünün önünə gətirir, onun uca boyunu, kino artistinə bənzəyən yaraşıqlı üzünü, dibsiz bir quyuya bənzər dərin baxışlı qara gözlərini xatırlayır, ürəyində bu görünüşdən bir qürur hissi keçirir, hələ heç özünə də aydın olmayan bir səbəbdən, çox həyəcanlanırdı.Yazıq qız bilmirdi ki, son günlərdə başına gələn hadisələrin xəcalətini çəksin, yoxsa, Kamran doktor kimi hər barədən böyük bir sevgiyə

layiq olduğu halda, həmin o günəş qədər əlçatmaq bir insanın, Nərminə bu qədər gözəl münasibət bəsləməsinə sevinsin?...Nərmin, bir yandan onu bu qədər həyəcanlandıran bu coşqunun başını buraxmaq, hər yadına düşəndə onu uçunduran bu həvəsə yaşıl işıq yandırıb sevinmək, sevincdən quş olub uçmaq istəyirdi.Ancaq pudluq daş kimi ürəyindən asılmış ağır keçmişi onun bu həvəsini gözündə qoyurdu.Nərmin başa düşürdü ki, daxilində baş verənlərin real həyatla heç bir əlaqəsi ola bilməz.Hələ bir də, Səltənətin bütün olanları anlamasından sonra, Nərmin bəlkə də hələ öz yerini də dəyişməli olacaqdı.Bu cür ikili fikirlərlə Nərmin iş gününü başa vurdu, paltosunu götürüb Səltənətin işlədiyi şöbəyə gəldi.Səltənət onu xoş təbəssümlə qarşıladı, geyinib çıxdı.Onlar tramvay dayanacağına qədər heç nə danışmadan yeridilər. Dayanacaqda Səltənət üzünü Nərminə tutub dedi:

--Nərmin, gəlsənə bir az mağazaları gəzək, nə vaxtdır, heç alış-verişə çıxmırıq...

Öz fikirləri ilə burdan çox uzaqda olan Nərmin birdən ayıldı:

--Həə...Vallah...Həm də bir az gəzərik.

Onlar yollarını dəyişib yol üstündə cərgələnmiş mağazaları gəzməyə başladılar.Əsasən bahalı qab-qacaq firmalarının malını satan mağazaların birində Səltənət, gözəl çinidən hazırlanmış bir çay servizinin qarşısında dayandı.Onu Nərminə göstərib dedi:

--Qızım, bax, mən bunu nə vaxtdır, sənin üçün gözaltı eləmişəm, bu gün maaşımızı da almışıq.Bəyənirsənsə, gəl bu servizi alaq.

Nərmin onun bu sözündən bulud kimi tutuldu.

--Yox, lazım deyil...Ana, mənə heç nə lazım deyil!

Səltənət onun bu halını təxmini anlasa da, inadında davam edib dedi:

--Niyə? Axı niyə? Sən kimdən əskiksən? Niyə biz sənə cehiz almamlıyıq?Sabah, biri gün elçilər qapını kəsdirəcək, olmaz ki, biz də yavaş-yavaş tədarükə başlayaq?

Nərmin birdən dayanıb üzünü Səltənətə tutdu:

--Yox! Olmaz! Eşidirsən? Olmaz!

Bunu deyib, Nərmin iti addımlarla tramvay dayanacağına qayıtdı.Səltənət də söhbəti burda kəsib, evə qədər susmağa qərar verdi. Onlar ikisi də bilmirdilər ki, bu axşam bütün tapmacaların, bütün sirlərin açllacağı axşam olacaqmış.Bunu onların heç biri planlamamışdı, sadəcə, talehin hökmü ilə məhz bu axşam, onların aralarındakı pərdə qalxacaq, hər şey ortaya töküləcəkdi.Necə deyərlər, qismət bu günə imiş...

Səltənətlə Nərmin mağazadan heç nə almadan evə döndülər. Səltənət özünü çox sakit aparırdı.O, Nərminlə bu evlilik məsələsini onsuz da çox ciddi şəkildə müzakirə eləməyi düşünürdü.Çünki, bunun üçün onun əlində ciddi bir səbəb də var idi.Səltənətdən fərqli olaraq, Nərmin çox gərgin idi.Bu gərginliyin səbəbini o özlüyündə bilirdi. Nə vaxtdan bəri, özünü alınmaz qala hesab eləyən Nərmin, indi birdən-birə özünə də etiraf eləmək istəmədiyi bir həqiqətlə üz-üzə dayanmışdı.Nərmin uzun zaman idi ki, ürəyini bütün dünyaya qapatmışdı, heç kimi sevməyəcəyinə, heç kimlə evlənməyəcəyinə dair özünə söz vermişdi.Həm də o, bu sözünü ömrünün sonuna kimi tutacaqdı.Çünki, onun həqiqəti o qədər ağır idi ki, bu həqiqəti bir insan oğlu bilib-qəbil edə bilməzdi.Onsuz da, Nərmin bu həqiqətləri onunla evlənmək istəyən, özünün də bəyənəcəyi şəxsə mütləq danışacaqdı.Əyər bir gün, Nərminin bütün etirazlarına baxmayaraq, inadla onunla evlənmək istəyən biri tapılacaqdısa, o əvvəlcə bütün olanları biləcəkdi, ancaq bundan sonra, nə olacaqdısa, olacaqdı...Və yəqin ki, heç nə də olmayacaqdı.Ona görə də, heç bir fərziyə yürütməyə, xəyal qurmağa ehtiyac da yox idi.Nərmin hər zaman belə düşünürdü.Ancaq indi, Nərmindən heç bir izin almadan, onun ürəyinə yerləşib oturmuş bir duyğu mövcud idi.Bu duyğu, Nərmindən güclü olub, hər şeyi dəyişə bilərdi.Nərmin artıq onun gücünü hiss eləməyə başlamışdı.Bu duyğu, onu öz ixtiyarından alıb, yavaş-yavaş özünə tabe edirdi.Nərmin öz iradəsini toplayıb ona qarşı nə qədər müvazinət göstərirdisə də, ona gücü çatmayacağını indidən hiss edirdi.Əsil əsəbləşdiyi, özünə də etiraf eləmək istəmədiyi səbəb bu idi.Bu səbəb onu çox qorxudurdu.

Səltənət axşam yeməyini yeyib yığışdırana kimi, heç nə danışmadı.Elə ki, ortaya çay süfrəsi gəldi, Səltənət Nərminin oturmasını gözləyib sözə başladı:

--Qızım, mən sənin yaralı könlünü sızlatmaq istəmirəm, ancaq bir ana kimi sözümü söyləməyə mənə izin ver.

Nərmin heç nə demədi.Gözünü ovuclarının arasında tutub, istisini canına çəkdiyi stəkana zilləyib durdu.Səltənət bunu razılıq əlaməti kimi qəbul edib, sözünə davam elədi:

--Bax, qızım, insanın başına dünyada nə desən, gələ bilər. Dünyanın bütün dərdi-səri insan üçündür.Eyni şey min-bir insanın başına da gələ bilər, hər insanın başına fərqli-fərqli şeylər də gələ bilər.Əyər sən yaşayırsansa, deməli həyatın davam edir, sən də onu yenidən başalaya bilərsən.Gör, Allah bizə necə gözəl imkanlar verir.Sən həyatında yeni bir səhifə açıb, yenidən yaşamağa başlaya bilərsən.Sən bundan niyə imtina eləməlisən ki?Məyər, dünyanın sonudur? Məyər, dərd çəkən tək elə sənsən?Bəs mən insan deyiləmmi? Yoldaşımı, övladımı itirdim...Onların o dəhşətli faciəsini öz gözlərimlə gördüm.Bəs mən niyə ölmədim?Yaşadım! Yaşayıram, bax! Çünki, ölənlə ölmək olmur.Yaşayırsansa, həyat davam edir, sən də bir yerdə yenidən başlamalısan...Sən tək yaşamaq üçün çox gəncsən. Gənc qadın tək yaşayanda, adına min-bir söz deyirlər.Mən bu dünyanı tutub duran deyiləm.Təkliyin nə qədər ağır cəza olduğunu sən hələ bilmirsən.Sən bunu biləndə, çox gec olacaq, odur ki, daşı tök ətəyindən, yola gəl, ərlik qızlar hansı qayğılarla yaşayırlarsa, sən də o qayğılarla yaşa.Özünə cehiz almaqdan çəkinmə.Bir insan oğlu elçi düşsə, bax, bəyən, özünə yuva qur.Mən sənin ananam, bir ana kimi mənim də arzum var, arzumu gözümdə qoyma.

Səltənət bu sözləri asta-asta deyirdi ki, Nərmin birdən hönkürüb ağlamağa başladı.O, başını masada çarpazladığı qollarının üstünə qoyub ağlayır, hıçqırıqdan, sanki boğulurdu.Səltənət bu vəziyyətdən təşvişə düşdü, tez mətbəxə qaçıb su gətirdi.Nərminin başını güclə qaldırıb sudan bir qurtum içirtdi, qalanını da qızın üzünə çilədi. Nərmin, elə bil bir az sakitləşdi, ancaq ağlamağa

davam elədi. Səltənət keçib yerində oturdu.Handan-hana, Nərmin hönkürə-hönkürə sözə başladı:

--Sən heç bilirsən mən kim olmuşam?Bilirsən necə həyat yaşamışam? Yazıq deyilmi mənimlə evlənmək istəyən adam?Mən həyatımı danışım, görüm kim mənimlə evlənmək istəyər?Sənin bayaqdan danışdıqların mənim üçün deyil, mənə onların heç birində yer yoxdur. Eşitdin, Sirac nələr danışdı?Bilirəm ki, eşitmisən, hələ nələr-nələr var ki, eşitsən, yəqin ki, məni elə bu gecə küçəyə atarsan. Mənim həyatım çox iyrənc olub, çox iyrənc...Mənim bu iyrənc həyatın içində bircə həqiqətim var, mən belə həyatı özüm seçmədim, hamısı sahibsiz olduğum üçün başıma gəldi.Bunu bir sənə deyirəm, bircə sən mənə inan...əyər sən özünü mənə ana bilirsənsə, inanmalısan, bu yaşadıqlarımda mənim günahım olmadı...

Bunu deyib, Nərmin yenidən hönkürdü.Səltənət gedib yenə də su gətirdi, Nərminə su içirdib dedi:

--Sakit ol, bala, mən sənə inanıram...Gör nə deyirəm, qızım Nərmin, bəlkə artıq vaxtı çatıb, bəlkə hər şeyi mənə danışasan?Əyər istəyirsənsə, hər şeyi başdan-ayağa mənə danış.Bu necə ana-balalıq olar ki, sənin ürəyində mənim bilmədiyim bir dünya şey var?Mən səni inandırıram ki, sənin keçmişdə yaşadıqların nə ilk rastlaşdığımızda münasibətimizə təsir edə bilməzdi, nə də indi ana-bala münasibətimizə kölgə sala bilməyəcək.Sən artıq bunun şahidi oldun.Bu neçə ildə mən səndən heç nə soruşmadım.Çünki, hər şeyi bilsəydim də, heç nə dəyişməyəcəkdi.Mən sənə rast gələngə, sən ölməyə qərar vermişdin.Bu, hər halda yaxşı gündən deyildi.Mənim hər şeyi bilməyim, ancaq sənə yardım eləməyimə xidmət edə bilər.Odur ki, danış bala, özün də yüngülləş, məni də intizardan qurtar.Mən bu günü neçə ildir, gözləyirəm.

Nərmin Səltənətin bu sözlərindən sonra xeyli sakitləşdi, dərindən bir ah çəkib, öz hekayətini lap başdan danışmağa başladı.Ucqar dağ kəndinin kolxoz sədrinin yeganə qızı olub, həyatını kiçik şahzadələr kimi yaşamağa başlamış Gülxarın əvvəlcə atasını, sonra da anasını

itirdikdən sonra başına gələnləri bircə-bircə Səltənətə danışdı.İlk başda Tahirlə yaşadığı gözəl günlərdən də, sonralar Tahirlə birlikdə yuvarlandığı uçurumdan da söhbət açdı.Əldən-ələ düşməsinin Siracla başlandığını, sonralar sayını itirdiyi bir gecəlik qonaq olduğunu da Səltənətdən gizlətmədi.Ən son, Tahirin öz qumar yoldaşını öldürüdüyü o şaxtalı gecəni xatırladı, o gecə baş verənləri dəqiq bilmədiyini, lakin, məhz o gecə həyatına son verməyi qərara aldığını da etiraf elədi.Bütün bunları danışdığı vaxt ərzində, Nərmin dəfələrlə qəhərdən boğulub, hıçqırtı ilə ağladı.Bəzən də susaraq, gözlərini yerə dikib oturdu.Səltənət onun çəkdiyi əzabları onunla birgə yaşayırmış kimi, elə hey ağlayır, arada "can bala, can", deyə Nərminin dərdinə şərik olurdu.Nərmin hekayətini danışıb bitirəndə, gecədən xeyli keçmişdi.Səltənət Nərminin boynunu qucaqlayıb ağladı, sonra geri çəkilib onun gözünün içinə baxdı:

--Qızım, gör sənə nə deyirəm, çox çətin həyat yaşamısan, başına çox ağır işlər gəlib, buna sözüm yox.Ancaq sən buna görə həyatının üstündən xətt çəkə bilməzsən.Sən tək deyilsən, mən hər zaman sənin yanındayam.Nə qədər mən varam, mənə güvənə bilərsən.Ancaq sənə bir söz deyim, yadında saxla.Bu danışdıqların ölüncə ikimizin arasında qalacaq.Bu hekayəti birdəfəlik özündən uzaqlaşdır, bunun da tək yolu odur ki, sən Nərmin ol.O danışdıqların Gülxar adlı qızın başına gəlib.Sənsə, Nərminsən, bunu unutma!Danışdıqmı?

--Ana, səncə, bu doğru olarmı?Mənim belə hərəkət eləməyə haqqım varmı?

--Bu, ən doğrusudur, sən bütün bu olanlarda günahkar deyilsən, sən qurbansan, qurban...Qoy cəzanı səni o günə qoyanlar çəksin, sən niyə özünü fəda edirsən ki?Sən Nərminsən, və yüzlərlə elə Gülxarların əvəzindən də həyatını qurub dolu-dolu yaşamalısan, bildin?

--Belə bir şey mümkündürmü?

--Nəinki mümkündür, hətta vacibdir.

İki qadın, biri eşitdiklərinin, biri də xatırladıqlarının acısını azaltmaq üçün baş-başa verib xeyli ağladılar, sonra da, səssiz-səmirsiz hərə öz otağına çəkildi.

==18.

Bəzən olur ki, insan uzun zaman onu qorxudan bir məsələnin öhdəsindən bir anda gəlir, və sonra düşünür:Elə bu?Bunun üçünmü mən nə vaxtdır bu əziyyəti çəkirdim?Əyər bunun çarəsi var imişsə, həm də belə asan imişsə, mən niyə bu vaxta qədər bunu eləməmişəm? Nə idi mənim bu çəkdiklərim?Ancaq, təəssüf ki, belə şeylər çox nadir hallarda olur, bəzən olur...Həyatda hər şeyi belə asan həll eləmək mümkün olsaydı, daha nə vardı ki...

Çox təəssüf ki, belə bir qətiyyətli hərəkəti həyatın hər halına uyğulamaq olmur.İnsan talehində elə şeylər olur ki, onu heç bir vasitə ilə silib atmaq mümkün deyil.Elə şeylər var ki, danışsan dinləyəni, danışmasan da özünü daxilən gəmirə-gəmirə gedir.Həm də bu elə şeydir ki, əyər bir gün həyatını yenidən qurmaq fikrinə düşsən, başlanğıcı məhz bu sirri həyatını birləşdirmək istədiyin adama açmaqdan başlamaq lazım gələcək.Çünki, bu sirri o adamdan gizlətmək düzgün olmaz.Bu mümkün deyil.Bir ömür boyu birgə yaşamaq üçün seçdiyin həmin adam, hər şeyi bilməlidir.Öyrənib bildikləriuni qəbul edərmi, etməzmi, bax, bu məsələnin ikinci tərəfidir. Nərminin tarixçəsi də bu qəbildən bir şey idi.Ona görə də o, öz sirrini Səltənətə danışmaqla, heç də gözlədiyi nəticəni almadı.Doğrudur, etiraf gecəsi Nərmini xeyli yüngülləşdirdi, ancaq ürəyindəki ağırlıqdan büsbütün qurtara bilmədi.Nərmin anladı ki, ürəyindəkiləri Səltənətə açmaqla, o özünü yalnız bu dərdlə təkbətək qalmaqdan xilas elədi.Ancaq bu o demək deyildi ki, Nərmin hər kəsə qarşı açılmış oldu.Əyər, Nərmin bir daha ailə qurmağı düşünməsəydi, Səltənətin məsləhətinə əməl eləmək yetərdi.O zaman o, heç kimə hesabat vermək məcburiyyətində olmazdı.Ancaq günlərin bir günü, Nərmin kiminləsə evlənməyi düşünəcək olsaydı, o ağır məsələ olduğu kimi bu yolun üstündə duracaq, bu yolu getməkdə ən böyük maneə olacaqdı.Nərmin anlayırdı ki, evlənəcəyi adamdan bu boyda haqq-hesabı gizlədə bilməz, buna haqqı yoxdur.Bir evliliyin bünövrəsi yalanla qoyularsa, bir gün bu yalan o evliliyi yerlə yeksan edər, kimsə də imdadına yetişə bilməz.Çalın-çarpaz fikirlərin bu yerində, dairə yenə də qapanırdı.Belə olan halda, Nərmin yenə də əvvəlki fikirlərinə

qayıtdı, heç bir evlilik xəyallarını yaxına buraxmayacağına qərar verdi.Bu yol ona daha real, vicdan baxımından da daha dürüst yol kimi göründü.O, tək özü üçün yaşasaydı, kimə nə dəxli vardı, Nərmin kim imiş, Gülxar kim?Bu fikirlə də Nərmin öz şəxsi həyatına dair bütün versiyaları başından atmağa qərar verdi, ancaq bu barədə hələlik Səltənətə heç nə demədi.

Aradan aylar, illər keçir, Səltənətlə Nərminin o gecəki söhbətdən sonra aralarında əmələ gəlmiş mehriban ana-bala ünsiyyəti günbəgün arta-arta gedirdi.Bu barədə bu iki qadının arasında artıq heç bir anlaşılmazlığa, heç bir problemə yer yox idi.Onlar hər ikisi bir-birinə qarşı son dərəcə açıq, son dərəcə səmimi idilər.Aralarındakı müəmmalar, tərəddüdlər, şübhələr getmiş, öz yerini güvənə, möhkəm etibara, sonsuz məhəbbətə vermişdi.Nərmin bu cəhətdən həyatından son dərəcə məmnun idi.Onun ailəsi bir tək Səltənətdən ibarət olacaqdısa, Səltənətlə bu qədər gözəl münasibətdə olmaq onun üçün əvəzi olmayan bir səadət idi.Səltənət onu heç kimin anlaya bilməyəcəyi kimi anlayır, öz ağıllı məsləhətləri ilə ona yol göstərir, onu hər gözlənilməz təhlükədən qoruyurdu.Nərmin yeni həyatında bu qədər qayğıdan özünü elə xoşbəxt hiss edirdi ki, bundan artığını düşünmək belə, istəmirdi.Ancaq arada bir şey var idi ki, Nərmin nə qədər onu özündən uzaqlaşdırmaq istəyirdisə, nə qədər o barədə düşünmək istəmirdisə, yenə də özü ilə bacara bilmir, bütün günü fikri-zikri onun yanında olurdu.Bu da Kamran doktor idi.Nərminin hər zaman qorxduğu, özünə dönə-dönə söz verib yaxına buraxmayacağı, adını çəkmək belə istəmədiyi bir duyğu onu yavaş-yavaş özünə tabe eləməyə başlamışdı.Nərmin artıq özünə etiraf edirdi ki, tanışlıqlarının lap əvvəlindən görünür, özü Kamran doktora vurulubmuş, ona görə də yazığın babalını yuyub hər baxışından, hər sözündən başqa məna çıxardırmış.Kamranın heç nədən xəbəri olmadığı halda, onun haqqında yersiz fərziyyələr yürütdüyünə görə, hələ bir Kamrana yazığı da gəldi.Bu, öz-özünə giley-güzar, əslində, Nərminin sevdiyi adama qıymaması kimi, hər şeydə təkcə özünü suçlaması kimi, Kamranı həqiqətən böyük məhəbbətlə sevdiyinin göstəricisi idi.Yalnız sevənlər belə edərdi, yalnız sevənlər hər şeyin günahını özündə tapar,

sevdiyi adama toz da qondurmazdı.Nərmin hər gün bir az da bu hissə təslim ola-ola gedir, qarşıda onu seçim qarşısında qoyacaq bir durumun anba-an ona yaxınlaşdığını hiss edirdi.

Son günlər Nərminin əhvalı heç yaxşı deyildi.Öz-özündən zəhləsi gedirdi.Nə qədər inad edib özünə etiraf eləmək istəməsə də,artıq çox gözəl anlamışdı ki, Kamran doktoru dəlicəsinə sevir.Onun səsini eşitməyəndə, dünya başına dar olurdu, onu görməyəndə özünə yer tapa bilmirdi.Kamran koridorun o başında görünəndə Nərmin həyəcandan əsim-əsim əsir, o gəlib çatana kimi özünü güclə ələ ala bilirdi.Nərminin ən çox qorxduğu şey, bir gün kiminsə bu sevdadan xəbər tutması idi.Nərmin bunu heç istəmirdi.O, öz-özünə düşünürdü ki, nə qədər ki, bu sevdadan xəbəri olan yoxdur, Nərmin Kamranı ürəyində sevə bilər.Bunun heç kimə bir zərəri də olmaz.Nə o Kamrandan bir qarşılıq umar, nə də Kamranın bu sevgidən xəbəri olar.Belə bir sevgiyə haqqı vardı Nərminin.O, artıq özünə bu sevgini etiraf edirdi.Bu sevgini daim gizli tutmağa, heç kimə biruzə verməməyə çalışırdı.Nərmin ürəyində fikirləşirdi:"Qoy Kamran kiminlə istəyir, evlənsin.Təki o, xoşbəxt olsun.Bu mənə yetər.Mən ki, heç vaxt ona layiq ola bilməyəcəyəm, mən ki,heç vaxt onunla evlənə bilməyəcəyəm, barı, o evlənsin, xoşbəxt olsun.Mən onu uzaqdan da sevə bilərəm.Mən onu özüm üçün sevəcəyəm.Gecə-gündüz Allaha yalvaracağam ki, onu xoşbəxt eləsin.O, buna layiqdir." Ürəyində belə düşünsə də, Nərmin bir tərəfli sevginin əzabını indidən hiss edir, ürəyinin göynərtisi ona Kamranı bir anlıq da olsa, unutmağa qoymurdu.Hələ son günlər Kamranın ona qarşı biganəliyi, qızı daxildən üzür, təkbaşına yandığı bu eşq oduna güclə tab gətirə bilirdi.Nərmin nə qədər fikirləşirdisə, anlaya bilmirdi ki, o əvvəllər Kamranın ona həddən artıq diqqət göstərdiyini düşünəndə yanılırdı, yoxsa indi, onun soyuq davranışlarını, Nərminə tamam biganə olduğu qənaətinə gələndə yanılır?Bunları fikirləşə-fikirləşə özünü elə yormuşdu ki, ətrafında qaynayan həyatı nə görür, nə də eşidirdi.

Nərminin ağlına da gəlmirdi ki, Kamranın ona qarşı soyuq davranışı, əslində, onun Nərminlə ciddi danışacağı günə bir hazırlıq idi.

Həmin gün heç bir şeylə adi iş günlərindən fərqlənmirdi.Səhər Səltənətlə Nərmin, işə nəqliyyata minmədən, piyada gedirdilər. Evlərindən xəstəxanaya kimi uzanan xiyabanla gedərək, yol boyu vaxtından bir az da tez çiçəklənmiş ağaclara baxa-baxa gözəl mövzularda söhbət edirdilər.Səltənət baharı çox sevdiyini bildirdi, baharda insanın ürəyinə dolan xoş arzulardan danışdı.Nərmin onun həzin mahnıya bənzər söhbətlərini dinləyir, ara-bir səhərin yasəmən qoxulu havasını ciyərlərinə çəkirdi.Beləcə, onlar gəlib mənzil başına çatdılar.Xəstəxananın həyətinə dönürdülər ki, Kamran doktorun xarici maşını gəlib yanlarından keçdi.Nərmin ürəyinin şiddətlə atdığını, yanaqlarının od tutub yandığını hiss elədi.Səltənətin onun bu halından duyuq düşəcəyindən qorxdu, tələsik vidalaşıb öz iş otağına qaçdı. O, otağının qapısını açdığı müddətdə Səltənətlə Kamranın səsini eşitdi.Onlar, yaxın adamlar kimi, mehribancasına hal-əhval tuturdular.

İş günü başlayar-başlamaz, Nərmin öz xəstələrinin qayğılarına baş vurdu.O, hər zaman olduğu kimi, xəstələrin dava-dərmanını verir, təzyiqini ölçür, Qaratelin müxtəlif sərəncamlarını yerinə yetirirdi.Qaratel xanım yaz girəndən işə davamlı gəlirdi ki, bu da Nərminlə Kamran doktorun bir araya gəlməsinin mümkünsüz edirdi.Axır vaxtlar doktor hər sözünü Qaratel xanıma deyirdi deyə, Nərminin onu istədiyi vaxt görmək imkanı da azalmışdı.Nahar fasiləsinə yaxın Qaratel xanım Kamranın otağından şən əhval-ruhiyyə ilə qayıdıb dedi:

--Nərmin, nahar fasiləsinə doktora qonağıq.

--Hansı doktora?

Qaratel mənalı-mənalı güldü:

--Bizim neçə doktorumuz var?Kamran doktora.

Nərmin yenə həyəcanlandı:

--Niyə?Nə olub ki?

--Kamran doktor olubmuş, bu gün onun ad günü imiş, bildin?

Nərmin dərindən nəfəs alıb dedi:

--Həə...Böyük oğlan olsun.Mən də qorxdum, dedim görəsən nə olub...

--Nə olacaq, ay qızım?Doktor bizi otağına qonaq çağırıb, ad gününü bizimlə qeyd eləmək istəyib.Bütün kordioloji şöbəni dəvət edib.

--Bilsəydik, hədiyyə alardıq...

Qaratel fəxrlə dedi:

--Eey...O da elə ona görə bildirməyib ki, biz bir şey edə bilməyək də...Özü dedi...Deyir, sizin gülər üzünüz ən böyük hədiyyəmdir.

--Neylək, elə olsun...

Qaratel birdən ciddiləşib dedi:

--Yaxşı qızım, hazırlaş, daha fasiləyə bir şey qalmayıb.

O gün onlar nahar fasiləsini doğurdan da Kamran doktorun kabunetində çay süfrəsində keçirtdilər.Kamran özü böyük bir tort sifariş edibmiş.Düz nahar fasiləsinə on beş dəqiqə qalmış, üzərində Kamrana xitab xoş sözlər yazılmış tortu gətirib təhvil verdilər.Kordioloji şöbənin gənc həkimləri, tibb bacıları köməkləşib gözəl bir çay süfrəsi açmışdılar.Kamran fəxrlə bunları deyəndə, Nərmin ürəyində hələ bir qısqandı da.Nahar fasiləsi kiçik bir bayram kimi şən keçdi.İş yoldaşları Kamrana xoş arzularını bildirdilər, qızlardan hələ mahnı oxuyanı da oldu.Bütün bu şən mərasim boyu Nərmin oğrun-oğrun Kamrana baxır, bu insanı gizli də olsa, sevdiyi üçün qürur duyurdu.Nərmin bu gün Kamranı lap çox sevirdi, ona görə də, yanaqları od tutub yanırdı.Ancaq Kamranın bir dəfə də olsun, onun tərəfinə baxmaması, Nərmini qısqanclıqdan öldürürdü. Nərmin Kamranın bu həkim qızlardan hansını sevdiyini anlamağa çalışır, həm qızların, həm də Kamranın baxışlarını güdürdü.Gənc həkimlərdən Nərgiz adlı qız həm çox gözəl idi, həm də şən idi.Kamranla ən çox zarafat edən də o idi.Nərgizin xəbəri də yox idi ki, Nərmin onu gözü ilə öldürmək istəyir.Di gəl ki, ürəyinin dərinliyində Nərmin özünü qınayırdı.Kamran kimi sevərsə, sevsin, bu onun işidir, təki seçdiyi adamla xoşbəxt olsun.Nərminin son düşündükləri bu idi.

Nahar fasiləsi bitti, qızlar süfrəni necə açmışdılarsa, elə də yığışdırdılar.Qaratellə Nərmin öz həkimlərini ayrıca təbrik eləmək

üçün sona qaldılar.Qaratel ikisinin adından danışdı, doktora üzün ömür, ailə səadəti arzuladı.Dönüb çıxmaq istəyəndə, doktor Nərmindən qalmağı xahiş elədi.Qaratel getdi, Nərminin yer ayağının altından qaçdı.Doktor diqqətlə Nərmini süzürdü.Nərmin başını aşağı salıb dayanmışdı, ancaq doktorun baxışlarını üzərində elektrik cərəyanı kimi hiss edirdi.Bir azdan Kamran dedi:

--Xanım qız, işdən sonra gənc yoldaşlarla yaxındakı restorana toplaşırıq, siz də gələrsinizmi?Nə qədər olsa da, siz ən yaxın iş yoldaşlarımsınız.Bax, xətrimə dəyməyin haa...Bu gün ad günümdür.

Nərmin başını qaldırıb Kamrana qaçaraq bir göz atdı, tez də gözünü qaçırtdı.

--Mən orda heç kimi tanımıram.Heç bayaqkıları da tanımırdım. Tanımadığım yerdə sıxılıram.Gəlməsəm olmaz?

--Olmaz! Məni ki, tanıyırsınız...Bu xəstəxanada sizi hər kəs tanıyır.Səltənət xanımın qızı, Kamran doktorun asistenti...Heç sıxılmağa ehtiyac yoxdur.Odur ki, mütləq gəlin.

--Bilmirəm nə deyim...

--Mən bilirəm, gəlin.Mən Səltənət xanımdan icazə alaram.Sizi restoranda gözləyəcəyəm, gələrsiniz.

Nərmin çaşdığından, cavab da vermədən doktorun otağından çıxdı.Əlini, ayağını özünə tabe eləyə bilmədiyi vaxtlarda həmişə elədiyi kimi, qaçıb üzünə su vurdu, soyuq sudan içdi, sonra öz-özünə ürək-dirək verdi:

--Düz deyir də, nə vaxta qədər Mauqli olacaqsan?Adam içinə çıx, millətə qarış. Yoxsa, fikirləşməkdən dəli olacaqsan.O da qoy öz tayını tapsın, həyatını qursun İstədiyin bu deyilmi?

Bundan sonrakı vaxtı Nərmin sanki, kəndirlə çəkdi.Üst-başı xoşuna gəlməsə də, özünü qonaqlığın ikinci dərəcəli şəxslərinə aid edib, görünüşünü normal hesab elədi.Sonra güzgünün qarşısına keçib üz-gözünə bir az sığal çəkdi.Geyinib Qaratellə birgə aşağı endi. Qaratel hər şeydən xəbərsiz, onunla görüşüb getdi.Nərmin Səltənətin yanına gəldi.

--Ana, xəbərin oldu da, bu gün doktorun doğum günü imiş.

--Bilirəm, bilirəm, hamı ondan danışırdı.

--Ana, doktor bizi restorana dəvət edib, indi orda gözləyir.Mən getmək istəmirdim, ancaq o israr elədi.Dedi səndən icazə alacaq, aldımı?

--Aldı, aldı...A bala, nə olar, iş yoldaşındır daa...sözünü yerə salma, sən də get... Kimlər olacaq orda?

--Nə bilim, yəqin ki, bayaqkılar.Heç birini də tanımıram, sıxılacağam.

--Sıxılma, onlar da buranın işçiləridir, adam yeyən deyillər ki... Kamran doktor özü səni evə qədər gətirəcək, söz verdi.Gecikmə, get.

Səltənət qızının əyin-başını yoxalmadan keçirib yola saldı, özü tramvay dayanacağına doğru addımladı.

Nərmin şəhəri yaxşı tanımasa da, xəstəxananın arxa tərəfindəki küçədə yerləşən restoranı asan tapdı.Ürkək addınlarla salona daxil olub ətrafa baxdı.Restoranın gur işığı, sıx əyləşmiş izdihamı, yüksək səsli musiqisi onu ürkütdü.Yerindəcə donub qaldı.Hara baxsın, kimi axtarsın?Həyəcandan gözü heç nəyi görmürdü.Bu vaxt ofisiant ona yaxınlaşıb dedi:

--Xoş gəlmisiniz, sizi gözləyirlər, bura buyurun...

Bunu deyib gənc oğlan irəli düşdü.Nərmin də onun ardınca getdi.Kamranı tanımasaydl bu içki qoxulu, qarmaqarışıq yerə gəlməzdi, ya da elə qapıdan qayıdıb gedərdi.Nərminin keçmişindən qalma, belə yerlərə qarşı qorxusu var idi.İndi də ürəyində götür-qoy edir, bu toplantının nədən ibarət olacağını təxmin eləməyə çalışırdı. Onlar gəlib salonun lap o başındakı masalardan birinin yanında dayandılar.Nərmin masanın arxasında oturan Kamranı görüb, dərindən nəfəs aldı.Kamran qalxıb onu qarşıladı, yanında yer göstərib oturtdu.Nərmin indi fikir verib gördü ki, masada ikisindən başqa heç kim yoxdur.Utana-utana dedi:

--Hələ heç kim gəlməyib?Mən birinci gəldim?

Kamran ona həmişəki kimi diqqətlə baxıb dedi:

--Başqa heç kim olmayacaq.Mənim doğum günümü ikilikdə qeyd edəcəyik.Etirazın yoxdur ki?

Nərminin bənizi ağardı, o başını qaldırıb heyrətlə Kamrana baxdı.

--İkimiz?Bəs gənclər?Siz yalan danışdınız?Niyə?Bu yaxşı fikir deyildi...

Bu dəfə Kamran həyəcanlandı.

--Xanım qız, Nərmin xanım, bu gün mənim doğum günümdür, və mən bu günü sizinlə qeyd eləmək istədim, burda pis olan nə var ki?

--Siz yalan danışdınız, bu sizə yaraşmaz, düzünü deməydiniz, mən gəlməzdim.

--Mən də anlamışdım ki, düzünü desəm, gəlməzsiniz, axı niyə?

--Ona görə ki, bu doğru deyil, bu düzgün deyil...

--Doğru olmayan nədir?Sizinlə maraqlanan, həm də ciddi niyyətlə maraqlanan subay bir kişinin sizinlə üz-üzə danışmaq istəməsi niyə doğru olmasın?Siz də bildiyimə görə, evli deyilsiniz, bəlkə mənim təklifimi dinləyib düşünəsiniz?

--Təklifinizi? Hansı təklifinizi?

--Nərmin xanım, mən sizinlə evlənmək istəyirəm, mənimlə evlənərsinizmi? Nərmin utandığından əlləri ilə üzünü qapayıb, bir müddət belə oturdu.Kamran da görünür çox həyəcanlanmışdı, nə isə töküb içdi, yavaşca əlini uzadıb, Nərminin dirsəyindən tutdu.

--Nərmin, əlini üzündən götür, xahiş edirəm, hamı bizə baxır...

Nərmin o saat əllərini üzündən götürüb, gözünün altından ətrafa baxdı.Kamran ona sarı əyilib yenə yavaşca dedi:

--Heç kim baxmır, qorxma, yalan dedim, ancaq üzünü qapama, sənlə söhbət eləmək istəyirəm.

--Siz həmişə belə yalan danışırsınız?Desəydilər, inanmazdım...

Kamran Nərminə süzgün baxışlarla baxdı, bu baxışlardan Nərminin bədəni uçundu.Kamran bir az geri çəkilib dedi:

--Qorxmayın, sizin ürəyiniz istəməyən heç bir şey olmayacaq.Mən sizi görən gündən bu fikri başımda götür-qoy edirəm.Mənim fikrimcə biz bir-birimizə uyğun gəlirik.Sizin xasiyyətiniz xoşuma gəlir.Siz də məni az-çox tanıyırsınız, tələsməyin, fikirləşin.Bu gün bizim burda oturub bu mövzuda

şöhbət eləməyimizi mən özüm-özümə hədiyyə elədim.Bu gün mənim üçün bundan gözəl hədiyyə ola bilməz.

Nərmin yenə də üzünü qapadı, sonra Kamranın sözləri yadına düşdü, əlini üzündən çəkdi, başını aşağı salıb oturdu.Kamran anladı ki, bu fürsət bir də ələ düşməyə bilər, odur ki, sözünü aramla deməyə başladı:

--Bilmirəm, mənim ailə faciəmi bilirsinizmi?Mən səkkiz il əvvəl həyat yoldaşımı doğum zamanı itirdim, həm də oğlumla birlikdə...İksini birdən...O vaxtdan tək yaşayıram.O vaxt mənə elə gəldi ki, mən daha həyatdan heç nə gözləyə bilmərəm.Mənim üçün hr şey bitti.Onların yasını səkkiz il tutdum, xatirələrini isə ölüncə ürəyimdə daşıyacağam.Siz bura işə düzələnə kimi hər şey belə idi.Sizi gördüm, hər şey dəyişdi.Sizə bələd olduqca, sanki ruhum yuxudan oyanmağa başladı.Bu gün duyğularımdan o qədər əminəm ki, sizinlə danışmağı qərara aldım.Ömür keçir, zaman su kimi axıb gedir.Yaxşı-yaxşı düşünüb qərar vermək lazımdır.Gəlin, talehlərimizi birləşdirək, ömür yolunu birgə gedək.Nərmin, bu barədə nə düşünürsünüz?

Nərmin başını qaldırdı, Kamran onun yaşla dolu gözlərini gördü.Nərmin yaylıqla gözünün yaşını silib, dodaqları səyriyə-səyriyə sözə başladı:

--Siz elə hey özünüzdən danışdınız.Çox qəmli bir faciədir sizin faciəniz.Ancaq burda onu hər kəs bilir.Bəs mənim kimliyim, mənim faciəm sizi heç maraqlandırdımı?Bilmək istəməzsinizmi, mən bura qədər necə yaşamışam, kim olmuşam?Bəlkə heç sizə layiq adam deyiləm?Mənu kimdən soruşdunuz, kimdən öyrəndiniz?

Kamran onun bu sözlərindən həqiqətən kövrəldi, əlini uzadıb Nərminin əlindən tutmaq istədi, lakin Nərmin tez əlini çəkdi.

--Nərmin, mən səni dinləməyə hazıram, təki sən ürəyindəkiləri mənə danış.Əlbəttə, mən də sənin haqqında hər şeyi bilmək istəyirəm, ancaq onu biləsən ki, mən qarşımdakı Nərmini artıq sevirəm, və bunu heç nə dəyişə bilməz.Sənin həyatın, keçmişin də, bu günün də, mənim üçün maraqlıdır, ancaq eşidəcəklərim heç nəyi

dəyişə bilməyəcək.Mən sənin barəndə öz qərarımı vermişəm.Hər şey sənin sözünə bağlıdır.Çox xahiş edirəm, cavab verməyə tələsmə, yaxşı-yaxşı fikirləş, hər şeyi fikirləş.

--Doğrusu, mən sizi ciddi bir adam bilirdim.Ancaq indi sizin bu qədər ciddi bir məsələyə belə səthi yanaşımınız məni qorxutdu.Siz mənim haqqımda heç nə bilmədən qərarınızı verirsiniz.Bu ciddi ola bilməz.Mən belə münasibətə güvənə bilmərəm.Birdəki, mən evlənmək istəmirəm.Sizdən xahiş edirəm, mənə bu mövzuda bir də heç nə deməyin.Mən həyatımda çox ağır şeylər yaşamışam, bundan belə evliliyi heç düşünmürəm.Yalvarıram, bu söhbəti burda kəsək, məni evə aparın.

Kamran onu incitməmək üçün daha inad eləmədi, ayağa qalxıb Nərminin qolundan tutdu.Onlar restorandan çıxıb Kamranın maşınına doğru getdilər.Kamran Nərmini evin önündə maşından endirəndə, yazıq-yazıq onun üzünə baxıb dedi:

--Nərmin, incitdimsə, üzr istəyirəm, nə qədər olmasa ad günüm idi.

Nərmin onun bu sözünə gülümsəyib, heç nə demədən dönüb getdi.

==19.

Nərmin, nə qədər bir şey bildirmədən sivişib içəri keçməyə çalışdısa da, əhvalı Səltənətin gözündən qaçmadı.Sərraf gözlü Səltənət, onun qapıdan girər-girməz, öz otağına çəkilməsinin yaxşı əlamət olmadığını anladı.Ona görə də, narahat oldu, içəri girib Nərminin vəziyyətini öyrənmək üçün bəhanə axtarmağa başladı. Yazıq qadın, otaqda var-gəl edə-edə həyəcandan əllərini ovuşdurur, nə edəcəyini bilmirdi.Orda, mütləq nə isə baş vermişdi, bu aydın idi.Nərmin evə çox tez qayıtdı, həm də dilxor qayıtdı.Dilxor olmasaydı, əynini dəyişib geri gələr, bu axşamın təəssüratlarını danışardı. Daha salamsız-kəlamsız keçib yataq otağına qapanmazdı. Səltənət yaxşı bilirdi ki, nə baş verdiyini öyrənə bilməsə, bu gecə gözünə yuxu getməyəcək.Hələ bir də Sirac məsələsi unudulmamışdı deyə, Səltənətin ürəyinə gəlməyən şey qalmadı.Bəlkə restoranda kiməsə rast gəlib?Bəlkə elə Sirac özü

orda imiş?Yox, belə olmayacaqdı, nə isə eləmək lazım idi.Bu fikirlə də Səltənət Nərminin yataq otağına yaxınlaşdı, qulağını qapıya dayadı, heç nə eşitmədi.Yavaşca qapını döyüb dedi:

--Nərmin, qızım, bu saatda yatırsan?Bax, mən də çörək yeməmişəm, gəl oturaq ana-bala çörəyimizi yeyək.Çay da dəmləmişəm. Nə deyirsən?Gəlirsənsə, gözləyim səni...

Səltənətin bir cavab alacağına gümanı yox idi, odur ki, sözünü deyib qapıdan uzaqlaşmaq istəyirdi ki, Nərmin içəridən dedi:

--İndi gəlirəm.

Səltənət çoxdandır bu qədər sevinməmişdi.O, tez mətbəxə keçib, əli ayağını basa-basa yeməyi qızdırdı, otağa qayıdıb süfrəni hazırladı. Nərminin göy-göyərtini çox sevdiyini bildiyi üçün, süfrəyə bolluca göyərti qoydu.Burda göy soğandan tutmuş, reyhana kimi hər cür göyərti var idi.Səltənətin tutduğu çuğundurlu kələm turşusu da, yarpaq dolması ilə yan-yana süfrəyə bir yaraşıq verdi.Hazırlıqlarını bitirən Səltənət, vanna otağından su şırıltısı gəldiyini eşidib duruxdu.Nigaran baxışlarını vanna otağının qapısına dikib durdu.Az sonra Nərmin əl-üzünü yuyub gümrahlaşmış halda otaqdan çıxdı, gülə-gülə masaya yaxın gəldi. Səltənətin onu diqqətlə nəzərdən keçirdiyini hiss edib dedi:

--Düzünü bilmək istəsən, yatacaqdım, ancaq sən çağırdın, mənim də yuxum qaçdı.

Səltənət hələ də diqqətlə ona baxırdı.Nərmin daha nələrsə deməli olduğunu analyıb dedi:

--Bilirsən, evdən necə gözəl yarpaq dolması iyi gəlir?Bu iydən sonra o dolmadan yemədən yatmaq olar?Adam şişər ki...

Səltənət yaxınlaşıb onu çiyinlərindən qucaqladı, stula oturtdu.

--Gəl soyutmadan, bir-iki tikə yeyək.Sən bu saatda yemək yeməzsən, mənə görə gəldin, eləmi?

--Ona qlırsa, mən bu saatda yatan da deyiləm. Dincəlmək istəyirdim bir az.

--Orda hər şey yaxşı keçdimi?Çox tez qayıtdın, ona görə soruşuram.

Nərmin əlindəki tikəni o tərəf, bu tərəfə çevirib dedi:

--Çox da maraqlı olmadı, ona görə də tez dağılışdıq.

--Səni Kamran gətirdi?

Nərmin hiss elədi ki, yenə də yanaqları od tutub yanır.

--Həə...sənə dediyi kimi.

--Sağ olsun, ona da bu yaraşır.

Onlar yeməklərini yeməyə başladılar, mövzu yavaş-yavaş dəyişdi.Nərmin də rahat nəfəs alıb yeməyini yedi.Nərmin, həmişə olduğu kimi süfrəni yığışdırdı, sonra təzə dəmlənmiş məxməri çaydan iki stəkan süzüb gətirdi.Elə yenicə əlini çaya uzadırdı ki, Səltənət dedi:

--Kamran doktor çox gözəl insandır, Allah saxlasın.

Nərmin söhbəti uzatmamaq üçün heç nə demədi, ancaq elə bununla da Səltənətin diqqətini çəkmiş oldu.Səltənət bir gözü televizorda, bir gözü Nərmində, çay içə-içə nə isə fikirləşirdi.Nərmin onun bu dəqiqə Kamranla bağlı daha nəsə deyəcəyini sanki hiss elədi.Səltənət elə bu an birdən dedi:

--Görəsən, Kamran doktor o həkim qızlardan hansını almaq istəyir?

Nərmin nə qədər özünü hazırlamış sayırdısa da, bu sual onu lap çaşdırdı.

--Ana, sən Allah, bu hardan ağlına gəldi?Bəyəm Kamran doktor sizə deyib ki, evlənmək istəyir?

--Biz onun tayı-tuşuyuq ki, bizə belə bir söz desin?

--Bəs onda bu sualın nə deməkdir?

--Sən onu əvvəllər görsəydin, tanısaydın, onda bilərdin ki, Kamran doktor son zamanlar necə dəyişib.Gözünün içi gülür.Kiməsə aşiq olduğu gendən bilinir.Ona görə soruşdum.İndi mən burda deyirəm, bax görərsən, yaxında hər şey ortaya çıxacaq.Kaş ki, Allah ona bir halal süd əmmiş yetirsin, o da ailəsini yenidən qursun.Yazıq, çox xoşbəxt olmağa layiq bir insandır.Onu balam kimi sevirəm.

Səltənət bu sözləri deyəndə, fikri Kamranın yanında olduğundan, Nərminin birdən-birə necə gərildiyindən xəbəri olmadı.Nərmin onun son sözlərini ağır zərbə kimi öz üzərinə

çəkdi.Çünki, Səltənət doğru deyirdi, Kamrana halal süd əmmiş bir qız yaraşardı, daha Nərmin kimisi yox.Səltənət öz aləmində olub daha nələrsə danışır, Nərmin də özünü zorla gülümsəməyə məcbur edərək, başı ilə onun dediklərini təsdiqləyirdi.Bu axşam Nərmin üçün hadisələrlə dolu bir axşam oldu, ancaq o sevinsinmi, kədərlənsinmi, bilmirdi.

Ertəsi gün günortaya qədər heç nə baş verm ədi.Nərmin Kamranı gün boyu görə bilmədiyi üçün, dünənki söhbətin də gerçəkdən olub-olmadığına şübhə eləməyə başladı.Əvvəl fikirləşdi ki, bəlkə dünənki söhbəti yuxuda görüb?Ancaq ağlının başında olduğuna inanıb bu fikirdən vaz keçdi.Sonra fikirləşdi ki, söhbət olmağına olub, ancaq yəqin Nərmin onu düz başa düşməyib. Başındakı bu qarışıqlığı çözmək üçün, fürsət tapan kimi otağına çəkildi, oturub yaxşı-yaxşı düşündü.Axırda bu qənaətə gəldi ki, söhbət olmuşdu, ancaq yəqin Kamran zarafat edirmiş, onu sınayırmış. Hələlik bu qənaətdə qalıb gözləməyi qərara aldı.Özünə də söz verdi ki, ikinci dəfə Kamrana belə şeylərlə zarafat eləməyə fürsət verməyəcək.Getsin öz tayını tapsın, nə çoxdur halal süd əmmiş həkim qız.Nərmin bu dəqiqə özü-özünü anlamaqda çətinlik çəkirdi, ona görə də acığını Kamranın heç olmasa, xəyalından çıxırdı. Əslində, Nərminin daxilində baş verənlər, sevən bir insanın sevdiyinə əli çatmayacağı fikrindən çəkdiyi əzabı, bir də qısqanclığı idi.Çarəsiz bir insanın daxilində püskürən vulkanla təkbaşına mücadiləsi idi, Nərminin bu yaşadıqları.

Nahar fasiləsindən sonra Səltənət, gözlənilmədən, Nərminin otağına gəldi.Həm də yel kimi gəldi, özü də çox həyəcanlı idi.O qədər həyəcanlı idi ki, əlinin-ayağının əsdiyini, rənginin qaçdığını özü hiss eləmirdi.Nərmin onu bəlkə ikicə dəfə bu halda görmüşdü, onun da son dəfəsi Siracın üstünə cumanda olmuşdu.Səltənətin dili söz tutmurdu.Onun bu halı Nərmini də Qarateli də qorxutdu.Əslində, Səltənət Nərminə çox vacib bir söz demək üçün gəlmişdi.Ancaq o, içəri girib Qarateli görəndə, fikrini dəyişdi, zorla da olsa, özünü ələ aldı.Qaratel onun bu halını görüb soruşdu:

--Səltənət, bu nə rəng-ruhdur, nə olub sənə?

Səltənət ustalıqla özünü ələ alıb dedi:

--Daha nə olcaq?Tramvayda pulumu çəkiblər. Ax... ax... yaramazlar, necə çəkiblərsə, heç ruhum da duymayıb.İndi çantaya baxanda, gördüm...Nə isə, sizin yanınıza gəlincə sakitləşdim, artıq...

Qaratel onun halına acıdı.

--Görürsənmi, heyif, heyif, çox idimi pulun?

--Var idi bir az.Nərminə serviz alacaqdım, onun üçün götürmüşdüm. Nə isə, it aparan olsun.Qızımın başına tasadlıq.

Qaratel də onu dəstəklədi.

--Amin, amin, tezliklə cəzasına çatar inşallah!

İki qadının arasında gedən bu qəribə söhbəti, Nərmin bayaqdan ovsunlanmış kimi dinləyirdi.Səltənət onun təəccübdən böyümüş gözlərini görür, ona izahat verməli olduğunu anlayırdı.Ancaq indi yeri deyildi, ona görə də, gəldiyi kimi otaqdan çıxdı.Nərmin qaçıb koridorda ona çatdı.

--Ana, bu dediyin doğru idimi?Pulunu çəkiblər?

Səltənət birdən dayanıb Nərminin qolundan tutdu, gözünün içinə baxıb dedi:

--Bax, qızım, pulumu-zadımı çəkməyiblər.Sadəcə, Qaratelin yanında danışmaq istəmədiyim bir şey vardı.İndi daha bunun əhəmiyyəti yoxdur, evdə danışarıq.Sə də uzatma, işinə dön...

Nərmin mat-mat onun üzünə baxdı, Səltənəti çoxdan bu qədər ciddi görməmişdi.Odur ki, Nərmin bir də soruşdu:

--Axı, nə olub? Mən də nigaran qaldım.Evə qədər ürəyim partlayar ki...

--Heç nə olmaz, gözəl qızım, bir az da sən nigaran qal, nigaran qalmağın dadına bax.

Bunu deyib Səltənət yeyin addımlarla Nərmindən uzaqlaşdı. Nərmin bir xeyli onun ardınca baxdı, Səltənət koridorun tinini burulandan sonra, Nərmin öz işinə gedi döndü.Gün boyu Kamranı görməməsi səsini eşitməməsi ona bir dərd olmuşdu, indi bu nigarançılıq da üstünə gəlincə, onun əlini işdən soyutdu, fikrini bir yerə cəmləməyə imkan vermədi.Buna baxmayaraq, yenə də Nərmin bütün bu müəmmaların içində Kamranı bir an belə

unutmurdu, sanki, hər şeyin əlacı onun əlində idi.Onu bircə dəfə uzaaqdan da olsa görmək, bəlkə də bu saat Nərminə dərman kimi təsir edər, ürəyini üzən fikirlərdən yayındırardı.Tərs kimi, Kamran ortalarda yox idi.Onun maşınını xəstəxananın həyətində görməsəydi, Nərmin elə bilərdi ki, o bu gün işə gəlməyib.Halbuki, maşın həyətdə dururdu, Kamranın isə nə özü görünürdü, nə də səsi gəlirdi.Nərminin bu qeyri-müəyyənlikdən ürəyi ağrayırdı.Başındakı suallarla ürəyindəki küt ağrı onu tamam ruhdan saldı.Qaratel onun solğun üzünü, fikirli davranışını görüb dedi:

--Nərmin, qızım, xəstə deyilsən ki?Bax, özünü pis hiss edirsənsə, gedim Kamran doktordan sənin üçün izin alım.Onsuz da bu günə əməliyyatımız yoxdur.İşin sonuna da bir şey qalmayıb.

Nərmin əlindəki sarı bezlərini ayırd edə-edə dedi:

--Çox sağ ol, Qaratel xala, ehtiyac yoxdur, özün demişkən, daha işin sonuna nə qalıb ki?Bir təhər başa vuraram.Bir də bundan ötrü doktora ağız açma.

--Necə istəyirsən.Ay qızım, bəlkə ananın oğurlanmış puluna görə kefin yoxdur?Canınız sağ olsun, buna görə halını pozma, bala.

Səltənətin bu yalanı necə usatalıqla uydurması Nərminin yadına düşdü, o gülümsəyib dedi:

--Yox, yox, o məsələ heç yadımda deyil.Sadəcə bir az halsızam, soyuq dəyib, nədir...

--Özünü qoru, bu aralar qrip baş alıb gedir.Sabah özünü yaxşı hiss eləməsən, gəlmə, Səltənət gəlib doktora deyər.

Nərminin söhbət eləməyə heç həvəsi yox idi, deyə qısaca "Yaxşı", deməklə yaxasını qurtarmağa çalışdı.Elə bu vaxt, Qaratel:

--Odur ey, doktor da getdi,--deyib, pəncərədən bayıra baxdı.

Nərmin onun üzünün çölə olmasından istifadə edib, maşınına əyləşən Kamranı yaxşı görmək üçün pəncərədən bayıra boylandı. Kamran, hər şeydən xəbərsiz, maşına əyləşib, mühərriki işə saldı. O, maşını sürüb həyətdən çıxanda, Nərminin içindən bir sızıltı keçdi.Elə bil, Nərminin ruhu da Kamrana qoşulub gedərək, qızın daxilində qorxunc bir boşluq əmələ gətirdi. İş saatı başa çatdı.Nərmin Səltənətin yanına gəldi.Onlar geyinib çıxanda, Nərmin düşündü ki, Səltənəti o qədər həyəcanlandıran

məsələ hər nədirsə, onu yol boyu danışsalar, bəlkə bir az başı qarışar.Səltənət, sanki onun fikirlərini oxudu, yavaşca Nərminə tərəf əyilib dedi:

--Nərmin, bax, bu başdan deyirəm, evə kimi məndən heç nə soruşma.Evə çataq, mən özüm hər şeyi sənə danışacağam.Yaxşı?

Nərmin qorxa-qorxa ona baxdı, güclə eşidiləcək bir səslə dedi:

--Yaxşı...

Tramvay tənbəl-tənbəl hərəkət etdikcə, Sələtənət də, Nərmin də dərin fikirlərə dalıb, pəncərədən bayıra baxırdılar.Nə küçənin insan sıxlığını nəzərə çarpdıran mənzərəsi, nə də ötüb keçən mağaza vitrinləri onların diqqətini çəkə bilmədi.Çünki, onların ikisi də bu an öz fikirlərinin qanadında burdan çox uzaqda idilər.Onlar heç özləri də bilmirdilər ki, bu an düşüncələrində hər ikisi bir-birindən xəbərsiz, eyni yerdə, eyni adamın yanında idilər.

==20.

Xəstəxanadan evə qədər olan üç-dörd dayanacaq ikisnə də çox uzun yol kimi göründü.Bu yol nəhayət ki, başa çatanda, ikisi də hiss elədi ki, bir azdan aralarında ikisi üçün də gözlənilməz bir söhbət olacaq.Nərmin bu söhbətin vücudunu titrədən cərəyanını indidən hiss edirdi.Onlar yolu lal-dinməz gəldikləri kimi, evə də lal-dinməz girdilər.Həmişəkindən fərqli olaraq, Səltənət bu dəfə deyəsən, söhbəti yeməkdən sonraya saxlamağl düşünmürdü.O, içəri girər-girməz, paltosunu soyunub asdı, keçib divanda oturdu, əllərini də hökmdarlar kimi dizlərinin üstünə qoydu.Bu, çağırış əlamətli oturuş Nərmini bir az da qorxutdu.O, geniş açılmış gözlərlə Səltənətə baxdı.Səltənət təhərini pozmadan dedi:

--Əynini soyun, gəl otur.

Nərmin ayağının ucunda hərəkət edərək, paltosunu asdı, gəlib Səltənətlə üz-üzə kresloda oturdu.Səltənətin sınayıcı baxışlarının altında nə qədər əzilsə də, gözlərini onun gözlərindən çəkmədi. Səltənət yavaş-yavaş sözə başladı:

--Ay qızım, məyər biz bir-birimizə söz vermədikmi ki, heç nəyi bir-birimizdən gizlətməyək, sirr saxlamayaq, təkbaşına qərarlar

verməyək?Məyər bu qədər vaxtda yaşadıqlarımız bizə əsas vermirmi ki, biz bundan sonra bir-birimizə güvənək?Yoxsa sən məni hələ də özünə ana bilmirsən?Yoxsa, mən bu qədər vaxtı yanılmışam?

Səltənət sözünə ara verdiyinə görə, Nərmin daha gözləmədi, soruşdu:

--Ana, nə oldu, nə baş verdi ki, sən belə sözlər deyirsən?Mən nə iş tutmuşam?

--Nə iş tutmusan?Mənə yalan demisən.Doktorla aranızda olan söhbəti məndən gizlətmisən.Məyər mən sənə doğru olmayan yol göstərərəmmi?Nədir bu mənimlə, doktorla danışdığın tapmacalar? Nərmin artıq söhbətin nədən getdiyini anlamışdı.Lakin Səltənətin dediklərini özünə qarşı bir haqsızlıq kimi qəbul elədi, ona görə də dedi:

--Ana, sən Allah, belə danışma.Məni nədə günahlandırırsan?Mən həddimi bilirəm, ona görə də doktorun təklifinə rədd cavabı vermişəm. Belə olan halda, nə vardı ki, nə də danışaydım?Bir şey qaldı ki?

--Birincisi, niyə rədd cavabı vermisən?İkincisi, dünən mən burda nə qədər nahaq söz danışdım, heç nə bilmədiyim üçün nələr sayıqladım, sən niyə mənum sözümü kəsib ortada olan həqiqətləri mənə açmadın?Mən sənə o qədər uzaq bir adamam?Bu gün doktor çağırıb səni məndən soruşanda, heç nədən xəbərim olmadığına görə, mən ortada təlxək kimi qaldım.Doktorun niyyətini anlayana kimi, ağlıma gəlməyən qalmadı.Niyə belə edirsən, qızım?Deyək ki, qərarları hər zaman sən özün verməlisən, ancaq ana-bala məsləhətinə sözün nədir?Yəni mən o qədər gönüqalın adamam ki, heç məsləhət verməyə də yaramıram?Budur mənə verdiyin qiymət?

Bunu deyib, Səltənət yaylıqla gözünün yaşını silməyə başladı.Nərmin eşitdiklərinin şokundan çıxa bilmədiyindən, heykəl kimi donub qalmışdı.Doktor Səltənətlə söhbət eləmişdi?Nə söhbət eləmişdi, görəsən?Nərmin birdən özünə gəldi, diz üstə çöküb Səltənətin qarşısında oturdu, onun əllərini ovucuna alıb dedi:

--Ana, qurban olum, sakit ol, gəl hər şeyi birlikdə nəzərdən keçirdək.Mən qulaqlarıma inanmadım, deyirsən doktor səninlə mənim haqqımda danışdı?Nə danışdı?

Səltənət o saat duruxdu, Nərminin üzünə baxıb dedi:

--Nə olacaq, səninlə olan söhbətini danışdı, sənin elədiyin iradı haqlı qəbul edib, sənin ailə tarixçəni məndən soruşdu.Həyatında nələr olub, nə yaşamısan, başına nə gəlib?Həyat faciən nədən ibarət olub?

--Sən nə dedin?

--Nə deyəcəyəm, olduğunu dedim...Səni təkbaşına böyütdüyümü, tibb texnikomunda oxutduğumu...Sonra bir gün mənim iradəmin əleyhinə olaraq, sənə layiq bilmədiyim bir oğlana qoşulub qaçdığını, sənin ondan çəkdiyin məşəqqətləri anlatdım.Həyatının bundan sonrasının zindan əzabına çevrildiyindən, bir narkomandan, bir qumarbazdan nələr çəkilərsə, onun min bir qatını çəkdiyindən danışdım. Sən doktorun hisslərini ciddiyə almamısanmış, ancaq bir görəydin, mənim danışdıqlarımı dinləyərkən yazıq nə hallara düşürdü.

Nərmin başını aşağı salıb əlləri ilə üzünü qapadı.Ağlayırdımı, fikirləşirdimi, bilimçirdi.Səltənət ona baxdı, baxdı, sonra nə düşündüsə, söhbətini davam eləməyi qərara aldı:

--Doktor bircə yerdə sözümü kəsib soruşdu:"Bəs indi o adam hardadır?"

Nərmin cəld başını qaldırıb soruşdu:

--Sən nə dedin?

--Dedim ki, o ölüb.Öz qumarbaz yoldaşlarından biri vurdu, öldürdü.

--Off...ay ana, axı sən niyə elə dedin?Axı o ölməyib, o hər an peyda ola bilər.

--Sən nə danışırsan, ay qızım?Yadından çıxıb ona nə qədər iş veriblər?Düz on beş il.On beş ilin dolmasına hələ doqquz il var.O vaxta qədər çox papaqlar boş qala bilər.Birdəki, bunun sənə nə aidiyyatı var?Sən Nərminsən, sənin o məsələ ilə heç bir əlaqən yoxdur, ola da bilməz.Mən sənə nə dedim?Demədimmi Nərmin ol?Nərminin hekayəsi bu qədərdir.Sən otuz yaşında qız uşağı deyilsən, altı il bundan əvvəl əri ölmüş dul qadınsan.İki dul insan birlikdə həyatını qura bilməzmi?Niyə tez-tələsik onun ağzından vurmusan?Barı gəlib mənimlə məsləhət edəydin?Mən burda nəyəm, bostan oyuğuyam?

Nərmin qalxıb yerində oturdu, əllərini ovuşdura-ovuşdura dedi:

--Yox, heç düşünmə də...Bu iş olmaz!

--Niyə?

--Ona görə ki, mən Nrəminola bilərəm, ancaq vicdansız ola bilmərəm.Mən sənin dediklərini tək yaşamaq üçün qəbul elədim, daha ləyaqətli bir insanı aldadıb özümü ona sırımaq üçün yox!Bu boyda yalanın üzərində yuva qurmaq olmaz.Allah adamın təpəsindən vurar.Yox, olmaz, heç davam eləmə, heç xəyal qurma.Ona da ümid vermə, qoy öz yolunu getsin, məndən ona yar olmaz.

Səltənət ilk dəfə Nərmindən eşitdiyi bu yaşından böyük sözlərdən bir az çaşan kimi oldu.Bu sözlərin ağırlığı, doğruluğu o qədər aşkar idi ki, Səltənət bir an öz dediklərindən imtina eləmək, öz sözlərini geri götürmək istədi.Ancaq bu bircə an oldu.Səltənət bu gün doktorun ona dediklərini xatırladı.Doktor deyirdi ki, ömür yarıdan keçib, ancaq həyat yoldaşının vəfatından sonra, onun indiyə kimi bəyəndiyi bir insan olmayıb.İndi o, Nərmində ürəyinə yatan xasiyyətləri görüb, onu bir qadın kimi bəyənib, sevib, odur ki, keçmişdə qalmış bir macəra nədən ibarət olursa olsun, bu sevginin üzərinə kölgə sala bilməz, salmayacaq da.Doktor deyirdi ki, Nərmin də əyər ona qarşı xoş bir şey hiss edirsə, bütün bu boş söhbətləri bir kənara buraxıb, əlini ona versin.Doktorun sözlərinə görə, ömürlərinin qalanını əl-ələ verib getməyin vaxtı çoxdan çatıb.Əslində, Səltənət özü də bu fikirdə idi.O, doktorun dediklərini Nərminə kəlmə-bəkəlmə çatdırdı.Sözünün sonunda yenə də Nərminə iradını bildirərək dedi:

--Qızım, insan öz qismətinə təpik atmaz.İndi sənin elədiyin qismətə təpik atmaqdır.Gəl daşı tök ətəyindən, hər şeyi bir də yaxşı-yaxşı fikirləş, ölç-biç, qərarını sonra verərsən.Bu cür dürüst insan hər gün rastına çıxmaz.

Nərmin doktorun dediklərini eşidib gözünün yaşını sel kimi axıtsa da, dediyindən dönməri:

--Yox, olmaz!Belə eləmək olmaz.İndi onun gözünü sevgi tutmuş ola bilər.Ancaq sonra olacaqlara heç kim qaranti verə bilməz.Bircə elə Sirac kimisi yetər ki, hər şeyi yenidən alt-üst eləsin.Mən bu

boyda yükün altına nə özüm girə bilərəm, nə də Kamranın o yükün altına girməsini rəva görərəm.Ana, qurban olum, bitir bu söhbəti, ürəyim partlayır, bitir artıq.Mən heç vaxt Kamrana qıymaram...Qoy hər şey beləcə qalsın.Belə qalması daha doğrudur.

Bunu deyib, Nərmin öz otağına qaçdı, Səltənət də suyu qurumuş dəyirman kimi, oturduğu yerdəcə quruyub qaldı.

O gecə nə Kamranın, nə Nərminin, nə də Səltənətin gözünə yuxu getmədi.Kamran Səltənətin gətirəcəyi cavabı, Nərmin Kamranın onun barəsində Səltənətə dediyi sözləri, Səltənət də ertəsi gün Kamrana nə cavab verəcəyini düşünə-düşünə, hər üçü səhəri gözləri ilə açdılar. Ertəsi gün Səltənət Kamrana yeni heç nə demədi.Yalnız Nərminin inad elədiyini, özünü Kamrana uyğun bir qadın hesab eləmədiyini, bu izdivaca da güvənmədiyini dedi.Kamran onun dediklərindən çox pərişan oldu, ümidsizliyə qapıldı.Səltənət onun bu halını görüb, ona yenə də Nərminlə danışmağı məsləhət gördü. Kamran bu təklifdən bir az canlandı, elə bu gün Nərminlə bir də söhbət edəcəyini söylədi.Səltənət, ürəyində bu izdivacın baş tutmasını hamıdan çox istədiyi üçün, sonda yenə üzünü Kamrana tutub dedi:

--Oğlum,baxın, siz çox ləyaqətli bir insansınız.Başqa vaxt olsaydı, mən indi demək istədiklərimi deməyə utanardım, cəsarət eləməzdim. Ancaq indi deyəcəyəm, çünki bu gün söhbət, evlənmək vaxtı yetişmiş qız uşağından getmir, bu gün söhbət, ailə həyatında ağzı bir dəfə yanmış, özü də çox bərk yanmış bir qadından gedir.Ola bilsin ki, bundan sonra ona daha heç vaxt sizin kimi dürüst bir insan rast gəlməsin.Ona görə də mən də bu məsələyə ciddi yanaşmağın tərəfdarıyam.Biləsiniz ki, mən sizin ürəyinizdən keçənləri, bir ana kimi dəstəkləyirəm, çünki mənim qızım da xoşbəxt olmağa layiq qızdır.Nərmin çox inadcıldır, ancaq onu da anlamaq olar.Sizdən ricam, əyər doğurdan da Nərminə dediyiniz qədər dəyər verirsinizsə, geri çəkilməyin, dediyinizdə durun.İnanın, o inadcıl qızın ürəyində də sizə qarşı gözəl duyğular var, sizə rədd cavabı verməyinin başlıca səbəbi də budur.Keçmişin qarabasmaları onu hələ də rahat buraxmır, odur ki, yalnız sizi düşündüyü üçün, sizi özündən uzaq tutmaq istəyir.

Kamran, Səltənəti həmişə olduğu kimi, başı aşağı, əlindəki qələmi oynada-oynada dinlədi.Sonra başını qaldırıb Səltənətə baxdı, heç nə demədən, onun dediklərini başının hərəkəti ilə ağır-ağır təsdiqlədi.Səltənət Kamranın otağından çıxanda, onu başını aşağı dikib durduğu halda, dərin düşüncələr içində qoyub çıxdı.

İş vaxtının başa çatmasına iki saat vardı.Qaratel qaranəfəs gəlib Kamran doktorun onları yanına çağırdığını xəbər verdi.O, Nərmini səsləyib, özü dabanı üstə geri döndü.Nərmin qalxıb onun ardınca həkimin otağına yollandı.Kamran doktor çox fikirli idi.Bu üzdən də çox ciddi görünürdü.Hər kəs onun indi hansısa bir pis xəbəri elan edəcəyini gözləyirdi.O isə, əksinə, tibb bacılarına əyləşməyi təklif edib, kordioloji şöbənin son günlərdə keçirdiyi əməliyyatların uğurlu nticələrindən danışdı.Bu işdə ona yardımçı olan personala öz minnətdarlığını bildirib, səhiyyə nazirliyi tərəfindən kiçik tibbi personalın aylıq əmək haqqının qaldırılmasına dair sərəncam verildiyini söylədi. Doktor tibb bacılarına şöbənin tibbi ləvazimatında, dərman preparatlarında olan əyər-əksik nə varsa, siyahısını tutub gətirməyi də tapşırdı.Bu xəbər də xoş xəbər olduğu halda, doktorun nədən belə kədərli olduğu hər kəsi düşündürdü.Bu qısa iclas bitdi.Kamran doktor, Qaratelin getməsinə icazə verdiyi halda, Nərmindən daha beş dəqiqə qalmasını xahiş elədi.Nrəmin məsələnin nədən ibarət olduğunu təxmin edib, həyəcandan uçunmağa başladı.Kamran ona əyləşməyi təklif edib dedi:

--Nərmin, mən sənlə ciddi söhbət eləmək istəyirəm.Bilsəm ki, sözümü yerə salmazsan, burdan çıxıb harasa gedərdik, bir yerdə oturardıq, sözümüzü də rahat danışardıq.Nə deyirsən, mənimlə təmiz havada gəzməyə çıxarsanmı?

Bu sözləri deyərkən səsinin titrəyişi, heç cür gizlədə bilmədiyi həyəcan, keçirdiyi təlaş, Nərminin ürəyini parçalayır, Kamrana bu hissləri yaşatdığına görə özünə nifrət edirdi.Nərmin bu dəqiqə Kamrana o qədər yaxın olmaq istəyirdi ki, onu qucaqlayıb boynuna sarılmaqdan özünü güclə saxlayırdı.Bu çılğın hisslərin müşaiyəti ilə harasa getmək, bu gün ən yalnış bir hərəkət olardı.Nərmin Kamranı rədd etməli idi.Hər nə qədər onu sevsə də, hər nə qədər onunla

olmağı arzulasa da, buna izin vermək olmazdı.Bunları düşünərək, Nərmin ürəyinə daş bağlayıb dedi:

--İnciməyin, doktor, sözünüzü yerə salmalı olacağam, çünki olmaz.Sizinlə harasa çıxmaq, boş yerə insanların ağzına söz salmaqdan başqa bir şey deyil.Xahiş edirəm, bu fikri başınızdan atın, bu mövzunu da birdəfəlik bağlayın.

Nərmin başını qaldırmadan, dediyi bu sözlərin necə qəbul edildiyini görmək üçün başını qaldıranda, Kamranın sevgi dolu baxışları ilə göz-gözə gəldi.Bu toqquşan baxışlardan gənc qadının bütün vücudu uçundu, və ona elə gəldi ki, bu uçuntunu Kamran da görüb hiss elədi.Nərmin qıpqırmızı qızardı, yenə başını aşağı saldı.Kamran onu diqqətlə süzüb, nəhayət ki, dedi:

--Bilmirəm, sən niyə belə edirsən?Axı mən də uşaq deyiləm, səndən gələn enerjini hiss edirəm.Arada nə var ki, sən özünü də, məni də bu qədər qəddar bir qərarla razılaşmağa çağırırsan?Mən sənin ananla da danışdım, hər şeyi bilirəm, və mən bildiklərimdə elə bir şey yoxdur ki, bizim qarşımızı kəssin, mane olsun...

Kamranın ağzında sözü bitər-bitməz, Nərmin onun sözünü kəsdi:

--Yox, var! Elə məsələ də ondadır ki, belə bir şey var...

Kamran gözlərini qıyıb sınayıcı baxışlarla, diqqətlə Nərminə baxdı:

--Var?Nə var?Danış, mən hər şeyi bilmək istəyirəm...Nərmin, nə var?

Nərmin gözlərindən axan yaşı silə-silə dedi:

--O ölməyib, anam sizə düzünü deməyib.Onu öldürməyiblər, o birini öldürüb, on beş il iş alıb.Altı ildir, yatır...

Kamran gözlənilməz xəbərdən geri çəkilib kürəyini stulun söykənəcəyinə söykədi.O, geniş açılmış gözlərlə Nərminə baxır, elə bil deməyə söz tapmırdı.Kamran çatılmış qaşlarının altından Nərminə baxıb fikirləşir, qızın nədən həmişə bu qədər qəmli olduğunu indi anlayırdı.Birdən Səltənətin Nərminin keçmişindən gələn qarabasmalarla bağlı dediyi sözləri də yadına düşdü.O sözlərin mənası da bu imiş.Nərmin söhbəti bitmiş hesab edib, qalxmaq istəyirdi ki,

Kamran fikirlərindən ayrılıb onun əlindən tutdu, yerinə oturtdu

--Nərmin getmə, mənim sənə sualım var.Sən onu gözləyirsənmi? Siz boşanmamısınızmı?

Nərmin onun sözünə tabe olub oturdu, lap yavaşca, pıçıltıya bənzər bir səslə cavab verdi:

--Bizim nigahımız olmadı heç...Qaldı ki, gözləməyə, yox, mən onu gözləmirəm, mən ondan qorxuram.O çox dəhşətli adamdır. Doktor, mən nə vaxtsa, sizin onu tanımağınızı istəmirəm.Doktor, siz çox təmiz bir həyar yaşamısınız, məndən uzaq durun ki, qarmaqarışıq bir yol bir gün gəlib sizin düz yolunuzu kəsməsin.Mənim keçmişim bir gün sizin başınızın bəlasına çevrilə bilər.Mən buna razı ola bilmərəm.Bizim yolumuz ayrıdır.Yalvarıram, məsələ dərinləşməmiş, hər şeyi unudaq, hər kəs öz yoluna getsin...

Kamran ona sevgi dolu baxışlarla baxdı, qolundan tutub dedi:

--Elə bu?Qarşımızı kəsən, bizə mane olan məsələ elə budurmu?O, hər necə adam olursa olsun, bizim yolumuzu kəsə bilməz, mən buna imkan vermərəm.Qaçaq-quldur əyyamıdır bəyəm?İstər sabah gəlib qarşımda dursun, istər on il sonra, heç nə edə bilməz.Sizin yollarınız birdəfəlik ayrılıb, olan olub, bitən bitib.Özünü ona şərik eləmə, bu fikirləri də başından at.O, hələ uzun zaman cəzasını çəkməlidir, bundan sənə nə?Sən onu çoxdan unutmalıydın.Bu necə qorxudur ki, hələ də canından çıxmayıb?Bundan belə mən varam.Mən heç qoyarammı ki, kimsə sənin xətrinə dəysin, sənə söz desin?Mən səni heç kimin ayağına vermərəm, səni gözüm kimi qoruyaram, mənə güvən.Nərmin, gəl talehlərimizi birləşdirək, gəl əl-ələ verib, ömür-gün yoldaşı olaq.Ömür-gün keçib gedir...Nərmin, mən səni sevirəm, gəl evlənək...

Bu sözlərlə də Kamran üzünü Nərminin üzünə yaxınlaşdırmaq istədi.Nərmin ona mane olub tez ayağa qalxdı, otaqdan güllə kimi çıxıb, öz otağına qaçdı.Orda tək olduğundan istifadə edərək, qapını arxadan bağladı, hönkür-hönkür ağlamağa başladı.Nərmin artıq özünə etiraf eləmişdi, o, Kamranı sevirdi, həm də Kamranın onu sevdiyindən də çox sevirdi.Elə buna görə də, onu aldatmağa, dünyanın ən qorxunc

günahını ondan gizlətməyə ürəyi gəlmirdi.Hər şeyi gizlədərək, onunla evlənsəydi, heç vaxt ona istədiyi qədər yaxın ola bilməyəcəkdi.O yalan, hər zaman onların aralarında duracaqdı.Bunu Kamran bilməsə də, Nərmin hər zaman biləcəkdi.Nərmin Kamranı sevmək istəyirdi, həm də qorxusuz, hürküsüz sevmək istəyirdi.O, bu yolda Kamranın ona olan sevgisindən də vaz keçməyə razı idi, təki, Kamranı istədiyi qədər sevməyə üzü olsun.Təki, Kamranı sevdiyi üçün visdan əzabı çəkməsin.Bu da, ancaq Kamranı uzaqdan sevdikdə mümkün idi.Belə düşünərək, Nərmin öz inadından dönməməyi qərara aldı.

O, indi Kamrana qəti rədd cavabı versə, Kamran tez bir zamanda onu unudar, öz səadətini başqa yerdə axtarmağa başlayar.Nərmin də içindən yana-yana ürəyinin ən dərin güşəsində Kamrana bir taxt qurar, onu hamıdan gizli sevdikcə sevər, nə kimisə aldatmaz, nə də vicdanı göynəyər. Bu qərarı onu özünə gətirdi.Nərmin toxdadı, əl-üzünü yudu, özünü səhmana salıb, evə getmək üçün aşağı mərtəbəyə, Səltənətin yanına endi...

==21.

Aradan az bir zaman keçmişdi ki, Respublikanın Eksperimental ürək cərrahiyəsi xəstəxanası Kamran doktorun Nərmini istədiyini eşidib bir-birinə dəydi.Bu, Kamranla baş həkim Salman doktorun birlikdə iştirak elədikləri toy məclisindən sonra baş verdi.Hər şey həmin toyda, bu iki həkimin arasındakı adi bir dialoqdan başladı.Həmin gün həm Kamranın çoxdan vəfat eləmiş atasının, həm də baş həkim Salmanın yaxın dostu olan, Dənizçilər xəstəxanasının baş həkimi Süleyman doktor, onların hər ikisini oğlunun toyuna dəvət eləmişdi.Ona görə də Kamran da, Salman doktor da ertədən zəngləşib danışmış, Süleyman doktorun oğlunun toyunda görüşməyi qərarlaşdırmışdılar.Axşam Salman doktor toya öz həyat yoldaşı Firuzə xanımla, Kamransa, adəti üzrə tək gəldi.Onlar, qonaqlarının çoxunu həkimlər təşkil edən bu toyda, bir masanın başında yer tutub, yan-yana əyləşmələrindən məmnun qaldılar.Salman doktor da, Kamran da bu məclisin qonaqlarından çoxunu tanısalar da, onlara ən yaxın həmsöhbət, yenə də eyni kollektivdə uzun zaman birlikdə çalışdıqları kolleqaları, yəni elə

özləri idi.Ona görə də, toy başlar-başlamaz, onlar da yada düşən xatirələrdən, geridə qalmış illərin gözəl günlərindən söhbət edə-edə yeyib-içir, özlərini sərbəst hiss edirdilər.Bu məclisdə iştirak edən həkimlərin çoxu, bir vaxtlar Kamranın da toyunda iştirak eləmiş adamlar idilər.Həmin o toyda ilk dəfə "Feliçita" adlı italyan mahnısının sədaları altında öz qəribə rəqsini nümayiş etdirən Əhməd doktor ortaya çıxıb yenə də, o vaxt olduğu kimi, yaşına yaraşmayan hərəkətlərlə həmin rəqsi oynamağa başlayanda, Salman doktor özünü saxalaya bilməyib ürəkdən güldü, əlini-əlinə vurub dedi:

--Kamran, baxsana, bu Əhməd hələ də öz repertuarını dəyişməyib ey...Yadındadır, bu rəqsi o ilk dəfə sənin toyunda oynamışdı?Hələ rəhmətlik atan da onun abırını ətəyinə bükmüşdü.Gör neçə il keçib?Əhməd hələ də "Feliçita" oynayır, nə arsız adam imiş bu?

Dediyi sözlərə heç bir cavab almayan Salman doktor dönüb Kamrana baxdı.Elə o anda da necə yalnış bir söz dediyini, hansı yaraya toxunduğunu anladı.Peşman-peşman Kamrana baxıb dedi:

--Ah oğlum, Allah xatirinə bağışla, düşüncəsizlik elədim, mən ağılsız qocanı bağışla...

Kamran zorla gülümsəməyə çalışaraq dedi:

--Yox, yox, narahat olmayın, heç bir şey yoxdur.Nə olmuşdusa, olmuşdu, biz heç nəyi dəyişə bilmərik.Söhbətinizdə sərbəst olun, xahiş edirəm...

Bu yerdə Firuzə xanım söhbətə qoşulub ərini qınadı.

--Ay Salman, Salman, günah səndədir ki, əziz dostumuzun oğlu bu günə kimi də yalqızdır.Onun yanında xatirələrimizi sərbəst yada salmaqdan ötrü, gərək o da bu gün burda öz ailəsi ilə oturaydı.Yeni ailəsi ilə.Dünyanı qadın-qız alıb gedir, bizim Kamran oğlumuz hələ də təkdir.O nə düşünür görəsən?Kamranın işindəki uğurları ilə öyünürsən, ancaq onun iş həyatından başqa şəxsi həyatı da var axı... Firuzə xanım üzünü Kamrana çevirib soruşdu:

--Oğlum, ömrünü elə belə tək yaşayacaqsan?Bax, o vaxtdan nə qədər zaman keçdi, sən də yaşamağa davam edirsən, çünki həyat davam edir.Bu halda həyatını yoluna qoy, yenidən yuvanı qur.

Ömrünün qalanını beləcə tək yaşamaq istəyirsən, yoxsa?

Firuzə xanım yenidən üzünü ərinə tutub ərköyün uşaq kimi dedi:

--Bax, Salman, budur deyirəm, növbəti toy Kamtanın toyu olmalıdır.Eşitdin?

Həyat yoldaşının ərklə dediyi bu sözlər, sanki Salman doktoru yuxudan oyatdı.O da Kamrana zənnlə baxıb dedi:

--Vallah, Firuzə xalan düz deyir.Ağlıma yaxşı saldı bu fikri, xəstəxanamız doludur gözəl-göyçək həkim qızlarla.Özüm nəzarət edəcəyəm, birini seç, sən də evlən.Bax, boyun qaçırmaq fikrinə düşmə, onsuz da xeyri yoxdur.Evlənəcəksən, vəssalam!

Kamran bir az gözləyib dedi:

--Yox, boyun qaçırmayacağam, özüm də bu aralar götür-qoy edirəm, yaxınlarda evlənməyi düşünürəm.

Bu sözlər Salman doktorla Firuzə xanımı elə çaşdırdı ki, ikisinin də ağzı açıla qaldı.Bir ara nə deyəcəklərini bilmədilər.Yenə də Firuzə xanım birinci dilləndi:

--Aman Allah, ay oğul, sən elə bir sözə bənd imişsən ki,...Gör sözü necə də vaxtında demişəm ey, şükür, şükür...Çox yaxşı düşünmüsən, artıq vaxtdır.Həm özünü, həm də sənin yolunu gözləyən qismətini sevindir, murada yetir, oğlum.Biz hər zaman anan-atan əvəzindən sənin yanındayıq.Göstər qapını, gedək istəyək.

Bu gözəl sözlər Salman doktoru da coşdurdu, o dedi:

--Kamran, oğlum, sənə bir toy edərik ki...Bax, sən Allah, istədiyin varsa, daha uzatma.Gözümüzün kökü saraldı, vallah...

Kamran ehtiyat edə-edə sözə başladı:

--Əslində, yaxşı oldu, bu söhbət açıldı.Doktor, sizin yardımınıza ehtiyacım var.İstədiyim qadın bəzi səbəblər üzündən tərəddüd edir.İstərdim ki, siz onun anası ilə söhbət edəsiniz.

Salman doktor bu sözü anlamadı, ona görə də təəccüblə soruşdu:

--Yəni deyirsən, elçi gedim?

Kamran utandığından qımışıb dedi:

--Yox, hələ elçi getmək tezdir, sadəcə anası ilə söhbət edin ki, qızını yola gətirsin. Salman doktor lap çaşdı, Firuzə xanıma baxdı, onun da bir şey anlaya bilmədiyini görüb dedi:

--İncimə, oğlum, ancaq mən bir şey anlamadım axı...Bəyəm qız özü razı deyil?Anası ilə niyə danışaq ki? Kamran vəziyyəti belə görüb, məsələni bir az açıqlamağı qərara aldı.

--Mən qızla danışmışam, o da əvəllər evli olub, bu səbəbdən də ya özünü mənə layiq bilmir, ya da qürurunu basıb keçə bilmir.Nə isə, bir sözlə, inad edir.Ona görə də siz onun anası ilə söhbət eləsəniz, bu məsələ bir az da ciddiyə alınar.Bir şey anlaya bildiniz?

Firuzə xanım mat-mat əvvəl Kamrana, sonra da ərinə baxdı.Salman doktor çox ciddi görkəm alıb dedi:

--Çoxunu anladım, ancaq bilmirəm, mən qızın anasını harda görərəm ki, elçilik olmasın, ancaq söhbət olsun?Bu necə olacaq?

Kamran məsələnin ən vacib nöqtəsinə gəldiyini hiss edib həyəcanlandı, bir az susub dedi:

--Doktor...,Salman əmi...,siz onu kabinetinizə çağırıb danışa bilərsiniz.Onlar ikisi də bizdə işləyir.

Bunu deyib, Kamran susdu.Salman doktorun üzünün ifadəsindən Kamran da, Firuzə xanım da, hər ikisi başa düşdülər ki, o, söhbətin kimdən getdiyini anlamışdı.Salman doktor fikrə gedər kimi məchul bir nöqtəyə baxıb, birdən dedi:

--Nərmin?Səltənət xanımın qızı?Düz tapdım?

--Bəli odur...

Kamran ancaq bunu deyə bildi.Doktorun Nərmin haqqında nə deyə biləcəyini bilmədiyi üçün həyəcanla gözləməyə başladı.Bu dəqiqə onun ürəyi harda idi, özü də bilmirdi.Ancaq ürəyinin döyüntüləri qulaqlarında vurub, bu toyun gur musiqisini də onun üçün eşidilməz eləmişdi.Salman doktor nəhayət üzünü Firuzə xanıma çevirib dedi:

--Bilirsənmi, Firuzə xanım, bu qız mənim heç ağlıma da gəlməmişdi.O qədər tərbiyəli, başı açağı, mədəni bir qızdır ki, bu üzdən də kölgədə qalıb, heç yadıma da düşməyib.Demək, evli olub, hə? Yəqin ona görə mən onda nə isə bir sınıqlıq hiss edirdim.Anası da çox namuslu, ləyaqətli, zəhmətkeş qadındır.Pis bir şey deyə bilmərəm, onların hər ikisindən yerlə-göy qədər razıyam.Demək, deyirsən, özün danışmısan?Bəs nə deyib inad edir?Bəlkə könlü yoxdur?

Firuzə xanım məsələnin bu həssas nöqtəsində söhbətə qoşuldu.

--Yox, yox, elə deyil, könlü olmasa, Kamran bilərdi.Nə isə başqa bir şeydir.Yəqin, sən hara, mən hara, söhbəti var arada, düzdür?

Kamran Firuzə xanımın məsələni bu cür dəqiq anlamasına çox sevinib ürəkləndi.

--Tamamilə doğrudur, söhbət məhz, bu nöqtədə dirənib-durub.O, özünü nə bilim, savad baxımından, yetişdiyi ailə baxımından mənə layiq bilmir.Salman doktor kimi, mənə işimizdəki həkim qızları nişan verir, gözləri ayaqlarının altını görməyən əhli-kefləri mənə layiq bilir.Amma mən özümü bilirəm, mənimki onlarla tutmaz, mənə sözü-gözü özündə, ağıllı-kamallı olsun, təhsili də, ailəsinin şan-şöhrəti də o yana qalsın, belə biri lazımdır.Bir sözlə, mən bu qızda axtardığım hər şeyi tapmışam, hətta onun qürur edib, söz ağzımdan çıxmamış razılıq verməməsi də, onu ancaq müsbət tərəfdən xarakterizə edir.Elə deyilmi, doktor?Siz nə fikirdəsiniz?

--O fikirdəyəm ki, seçimin gözəldir, biz də əlimizdən gələni edərik ki, iki könül bir olsun.Elə deyilmi, Firuzə xanım?

--Tamamilə doğrudur, Allah xeyir versin, biz bu işi əlimizə alarıq.Kamran, oğlum, bax,görərsən, hər şey yaxşı olacaq.

Həmin o gün, o toyda Kamran Salman doktoru bu işə qoşdu, bu iş də bir neçə günün içində sirr olmaqdan çıxıb, bütün xəstəxanaya yayıldı.Beləki, bir-neçə gün sonra, Salman doktor Kamranın dediyi kimi, fürsət tapıb Səltənəti yanına çağırdı.Bu xəstəxanaya işə düzələndən bəri, yalnız ədəb-ərkanla salam-əleyk elədiyi Salman həkimin onu yanına çağırması, Səltənəti çox təəccübləndirdisə də, ağlına heç nə gəlmədi.Baş həkim onu ayaq üstə salamladı, nəzakətlə kabinetin bir küncündə qoyulmuş yumşaq mebeli göstərib, çay masasına dəvət elədi.Bu da onun Səltənətlə deyri-rəsmi söhbət edəcəyinə bir işarə idi.Yəni, yəqin ki, mövzu işlə əlaqəli olmayacaqdı. Bu, Səltənəti bir az həyəcanlandırdı.Salman doktor katibəyə çay sifariş etdikdən sonra gəlib Səltənətlə üz-üzə kresloda oturdu.

--Həə...Səltənət xanım, nə var, nə yox, neçə yaşayırsınız, necə dolanırsınız?Artıq üzün zamandır ki, yanımda çalışırsınız, ancaq

hələ bir dəfə də olsun, məndən yardım istəməmisiniz.Hərdən gəlin, bir dərdləşək, danışaq.Məndən çəkinməyin, mən öz personalımın güzəranını düşünən adamam.Mən bilirəm ki, siz hər şey üçün köməyə çağıran adamlardan deyilsiniz, ancaq mən onu da bilirəm ki, iki köməksiz qadın bu zamanda təkbaşına yaşamlarını sürdürərkən, nə qədər çətinliklərdən keçməli olur.Ona görə də deyirəm ki, bir ehtiyacınız olanda, çəkinməyin, gəlin, deyin.

Səltənət bu söhbətin səbəbini heç cür anlaya bilmir, baş həkimin sözü hara gətirəcəyini təxmin eləmək istəyirdi.Ona görə də təəccüblə Salman doktorun üzünə baxıb dedi:

--Doktor, məyər qulağınıza çatıb ki, biz Nərminlə ehtiyac çəkirik?

Salman doktor mövzunun yalnış istiqamətə yönəldiyini başa düşüb, ucadan güldü.

---Yox, yox, qulağıma söz-zad çatmayıb, sakit ol.Elə-belə soruşdum, bilmək istədim ki, necə yaşayırsınız?

--Şükür Allaha, heç kimdən pis yaşamırıq, iki maaş ikimizi də artıqlaması ilə görür.

--Deməli, günlərin bir günü Nərmini gəlin yola salsan, öz başını dolandıra bilərsən də, hə?

--Dolandıraram...ancaq...doktor, mən bir savadsız qadınam, yəqin ona görə də sizi başa düşə bilmirəm.Siz nə demək istəyirsiniz?

Salman doktor qadını gərginlikdən çıxartmaq üçün gülümsəyib dedi:

--Demək istəyirəm ki, qızını turşuya qoyacaqsan, niyə vermirsən getsin? Yuvasını qursun, oğul-uşaq sahibi olsun.

Səltənət utandığından qıp-qırmızı qızardı, başını aşağı salıb dedi:

--Allah köməyiniz olsun, ay doktor, o nə deməkdir, getmək istəsə, vermərəmmi?Mənim də bütün arzularım yeganə övladımla bağlı deyilmi?Ancaq istəyən olanda, inad edir, bir dəfə ağzı yanıb deyə, gözü qorxur...İnadla evlənmək istəmədiyini deyib durur.Bu gün elə mənim yeganə dərdim də budur.Çox inadkardır Nərmin...

Salman doktor bu etirafdan təsirlənib ciddiləşdi.

--Bəs necə edək?Bu işi özbaşına buraxaq?Bir-birinə yaraşan, bir-birini tamamlayan iki gənc, inadkarlıqları üzündən damlarının altında təkbaşına qocalsınlar?

Səltənət başını qaldırıb geniş açılmış gözlərlə doktora baxdı.

--Kimi deyirsiniz, doktor?

--Kimi deyəcəyəm?Kamranla Nərmini...Kamran mənə oğul kimidir.Bilmirəm bilirsən, ya yox, o mənim ən yaxın dostumun oğludur.Rəhmətlik atasından sonra, mən ona ata əvəziyəm.Onun talehi ilə mən maraqlanıram.Ara-bir, o faciədən sonra, ona söz atıram, necə deyərlər, ağzını yoxlayıram ki, görüm yarası köz bağlayıbmı?Deyirəm, nə qədər gec deyil, yenidən özünə bir yuva qursun.İndi birdən özü gəlib mənə ürəyini açıb.Nərmini bəyəndiyini deyib.İndi biz qarışmayaq, dayanıb kənardan baxaq, Nərminin inadı üzündən bu iş alınmasın?

Səltənət o qədər həyəcanlanmışdı ki, elə bil onun özünə elçi gəlmişdi, elə bil söhbət onun özündən gedirdi.

--Doktor, bu söhbəti mən də yeni öyrəndim.Kamran dedi.O gündən qızımla çəkişirəm, çünki, mən də Kamran kimi bir insanın hər gün rast gəlinəcək biri olmadığını anlayıram.Qızıma da bunu deyirəm, ancaq o da çox səbəblər gətirir ki, onları da hesaba qatmamaqq olmaz.

Salman doktor hövsələsizlik edib soruşdu:

--Nədir ey, o səbəblər?Bir dəfə evli olduğunu deyirsənsə, onu biz də bilirik.Burda nə var ki?Olub, olub da...İndi ki, ikisi də eyni vəziyyətdədirlər? O baxımdan, burda heç bir səbəb-filan yoxdur. Yenidən evlənməyə qorxur desən, bu da heç ciddi söz ola bilməz. Məyər siz Kamranı tanımırsınız?Məyər Kamran açıq kitab kimi ortada deyil? Yox, yox, bu söz olmadı...Gör nə deyirəm, Səltənət xanım, sən qızımızla çox ciddi danış.Mən də onun xətrini çox istəyirəm. Denən, uşaqlıq eləməsin, ağıllı-kamallı qızdır.Bu hərəkət ona yaraşmaz.Çalış onu yola gətir, qolumuzu çırmalayıb bu işi həll edək. Mən də rahat olum.Ona deyərsən ki, elə eləməsin ki, özüm çağırıb danlayım.Necə olsa, qayınatası sayılıram, aradan pərdə

götürülməsin...

Bu sözləri deyib, Salman doktor yenə də güldü.Səltənət də utana-utana gülümsəyib dedi:

--Çox sağ olun, doktor.Danışaram, əlimdən gələni edərəm.

--Danış, danış...Səndən xəbər gözləyirik.Razılığını alam kimi, xəbər elə, gələk qızı istəyək.

Səltənət qalxıb,--Bəli doktor,---dedi və ədəblə vidalaşıb getdi.

Salman doktor vaxt itirmədən, katibədən indi də Qaratel xanımı çağırmağı rica etdi.Qaratel xanımla da eyni mövzuda söhbət edib, bir iş yoldaşı kimi Nərminə təsir etməsini, onu yola gətirməsini tapşırdığı həmin gün, bu gözlənilməz xəbərdən şoka düşmüş Qaratelin sayəsində bu, sirr sirr olmaqdan çıxıb, bütün xəstəxanaya yayıldı.

==22.

Qaratel baş həkimin otağından yel kimi çıxıb Nərminlə ikisinə aid olan otağa gəldi.Həyəcanını bir qədər gizlətməyə çalışaraq, əvvəlcə qapının ağzından içəri boylandı.Nərmin əlindəki kağız-kuğuzla məşğul idi.Qaratelin qapıda durduğunu heç hiss eləmədi də.Qaratel yavaş-yavaş içəri girib ona yaxınlaşdı.Nərmin geri dönüb onu gördü, bu sirli gəlişinə, çox mənalı baxışına maraqla baxıb dedi:

--Qaratel xala, bu nə qəribə gəlişdir?Nə qəribə baxışdır?Səndə nə isə təzə xəbər var, düz tapdım?

Qaratel Nərminə çox diqqətlə baxıb dedi:

--Düz tapdın...İndi də tap görüm, mənim bu gün öyrəndiyim təzə xəbər nədir?Ya da, nə ola bilər?

Nərmin uşaq səmimiyyəti ilə dedi:

--Yox, yox, o qədərini bilmərəm, sən de, nə xəbər var?

Qaratel birdən ciddiləşdi, gəlib Narının lap yanında oturdu.

--Qızım, o xəbəri ki, mən bu gün öyrənmişəm, sən çoxdan bilirsən.Özü də o qədər ehtiyatlı davranmısan ki, özümü dünya görmüş bir ağbirçək bildiyim halda, heç nə hiss eləməmişəm.Afərin sənə!

Bu sözlərdən, Nərminin təbəssümü üzündə dondu.O, Qaratelin məzəmmətə bənzər sözlərindən pərt olub, ciddiləşdi.Utana-utana soruşdu:

--Bu nə sözdür, Qaratel xala?Sözünü açıq de görüm, nə eşitmisən?

Qaratel Nərminin alındığını başa düşüb tonunu dəyişdi.

--Utanma qızım, niyə utanırsan?Sevib-sevilmək insanın ən təbii haqqıdır.Kamran doktorsa o qədər gözəl insandır ki, hamı onun yenidən ailə qurmağını nə vaxtdır, səbirsizliklə gözləyir.İndi mən eşidəndə ki, sən belə bir insanı rədd edirsən, qəlbini qırırsan, vallah, ananın yerinə olsaydım, səni əməlli-başlı döyərdim.Bu nədir a qızım, onu niyə rədd edirsən?Ondan yaxşı oğlanı hardan taparsan ilin-günün bu vaxtı? Bəlkə də bu xəstəxanada onun dərdindən ölməyən qız-gəlin yoxdur.İndi deyirsən, özün öz əlinlə onu başqalarına buraxacaqsan? Niyə, nə səbəbə?

Nərmin bir anlıq elə bildi ki, yuxu görür.Bu sözləri anası yaşındakı Qaratel deyirdi? Onların arasında müəllim-şagird münasibətindən başqa elə bir yaxınlıq olmamışdı.İndi birdən-birə, bu ağır xasiyyətli qadın, onunla rəfiqəsi imiş kimi sevgi-məhəbbət mövzusunda söhbət edirdi, ona məsləhət verirdi.Nərmin birdən, ağlına gələn fikri Qarateldən soruşdu:

--Qaratel xala, mənimlə bu barədə danışmağı anam tapşırıb sizə?

Qaratel başını dik tutub qürurla dedi:

--Xeyr, anala bu barədə danışmağa hələ macalım olmayıb.Mənə səninlə danışmağı tapşırıblar.

Nərmin bir az da təəccüb qalıb soruşdu:

--Tapşırıblar? Kim tapşırıb?

--Kim olacaq, qaynatan əvəzi Salman doktor.

Nərmin dik ayağa qalxıb geri çəkildi.Qulaqlarına inanmadı.Ona görə də bir də soruşdu:

--Salman doktor?Qaratel xala, sən nə deyirsən?Salman doktor səninlə bu barədə danışdı?

--Sakit ol qızım, burda nə var ki? Kişi el adəti ilə səni Kamrana almaq istəyir də...Deyir ki, qoy hər şey qayda-qanunla olsun, adətlə

olsun.Kamran özü ürəyini ona açıb, sənin inad elədiyini də deyib.Axı sən niyə inad edirsən?Yəni, Kamran kimi oğlanı bəyənmirsən?

Nərmin deyilənləri eşitmirmiş kimi soruşdu:

--Qaratel xala, Salman doktor sənə nə dedi?

--Nə deyəcək, olanları...Dedi ki, biz neçə ildir Kamtranı yola gətirib evləndirmək istəyirik.O isə inad edib öz faciəsinin yasını tutmaqda davam edirdi.İndi birdən-birə özü gəlib ürəyini açıb, səni sevdiyini deyib.Hamı bu xəbərə çox sevinib ki, nəhayət Kamran yenidən özünə yuva quracaq.Kamransa deyib ki, sən onu rədd edirsən, səbəbini də demirsən.İnid Salman doktor da mənə tapşırıb ki, səninlə söhbət edim, sənin inad eləməyinin səbəbini öyrənim.Mən də deyirəm, görəsən, bu Kamran doktor niyə son zamanlar belə fikirlidir, dinib-danışmır?Sən demə, burda bu boyda işlər baş verir, mənim heç nədən xəbərim yox...

Nərmin əlində tutduğu vərəqə baxıb susurdu.Qaratel onun danışmaq fikrində olmadığını anlayıb sözünə davam elədi:

--Bax qızım, əyər mənim qızımı belə bir insan istəmiş olsaydı, mən günün iyirmi dörd saatını dayanmadan danışıb qızımı yola gətirərdim.Deyərsən niyə, nə varmış bu Kamranda?Deyərəm ki, kişiyə yaraşan hər şey!İnsan ona gözü yumulu inanıb, güvənə bilər. Allahdan, boylu-buxunlu, yaraşıqlı, ağıllı-kamallı, savadlı.Bu günsabah Salman doktor təqaüdə çıxsa, Kamranı bu boyda xəstəxanaya baş həkim qoyacaqlar.Sənətiniz-işiniz bir, görürəm ki, xasiyyətiniz də birdir.Daha nə fikirləşirsən, ay sənə qurban olum?O bizim hamımızın əziz oğlumuzdur, dərdli balamızdır.İndi sən də yaxşı-yaxşı fikirləş, ürəyində ona qarşı bir şey varsa, nə onu incitmə, nə də qismətini qapıdan qovma.Belə insanlara az-az rast gəlinər. Yaşınız da keçir, uşaq deyilsiniz daha.Gələcəyini düşün.Anan bu gün var, sabah yox.Seçə-seçə tək qala bilərsən, təkliksə, çox qorxunc bir şeydir.Sonra peşman olarsan, onda da çox gec olar. Mənim bu sözlərimi ürəyində təhlil elə, görəcəksən ki, haqlıyam.O cür balanın da qəlbini qırma.Yola gəl, el yığılıb sizin toyunuzu eləsin.Mən sənin rəhbərinəm, xalanam, iş yoldaşınam. Ona görə də

fikirləşirəm ki, mənim sözlərimin sənin yanında bir qiyməti olar.Bu sözlərimi dərindən düşün.Oldumu, qızım?Hamı səndən cavb gözləyir.Qurtar milləti bu intizardan.

Nərmin bu yerdə başını qaldırıb soruşdu:

--Hamı?Deməli hamı bu söhbəti bilir?

--Yəni, Kamranın xətrini istəyənlərin hamısı sənin sözünü gözləyir ki, sizə gözəl bir toy eləsinlər.Hamı biləndə, nə olacaq? Bəyəm burda gizli iş tutmaq istəyən var?Nərmin, sən bu işə "hə" desən, bil ki, Qaratel xalan hamıdan çox sevinəcək.Bilirsən niyə? Ona görə ki, mən həm Kamranın yerinə, həm də sənin yerinə sevinəcəyəm. Mən ikinizi də balam kimi sevirəm.Ağıllı qızım, yola gəl.

Bunu deyib, Qaratel Nərmini bağrına basdı.Nərmin bu hərəkətdən kövrəldi, heç nə demədən Qaratelin boynuna sarıldı.

O axşam, Qaratelin elədiyi söhbətin davamı kimi, eyni mövzuda söhbət, Səltənətin dilindən deyildi.Səltənət də, Salman doktorun onu çağırıb danışdığını, Səltənətin Nərmini guya gözündən heç yana buraxmaq istəmədiyini deyib, məzəmmət elədiyini söylədi.Səltənətin sözləri Nərminin ürəyini göynətdi, ana dediyi qadının halına elə acıdı ki, az qaldı, Kamranı dəlicəsinə sevdiyini də, onu bütün dünyaya qısqandığını da, mümkün olsaydı, ömrünü yalnız Kamranla keçirmək istədiyini də açıb desin.Ancaq vaxtında özünü ələ aldı, bunların heç birini demədi.Hamı ona yaxşı-yaxşı fikirləşməyi tapşırdısa da, o, heç kimə bu təklifi düşünəcəyinə dair heç bir söz vermədi.Amma düşündü, gecə-gündüz düşündü.Düşündüyü bir neçə həftədə Kamranın gözünə görünməməyi qərara alıb, mümkün qədər ondan gen gəzdi, gözünə görünməməyə çalışdı.Ancaq elə, Salman doktorun Qaratellə danışdığı günün ertəsi gün, Nərmin hamının hər şeyi bildiyini anladı.Rastına çıxan hər kəs, ya onu təbrik edir, ya məsləhət verir, ya da, sadəcə, mənalı-mənalı baxıb keçirdi.Forsları ilə, fasonları ilə bu boyda xəstəxanaya sığmayan həkim qızlar isə, Nərmini acı baxışlarla sancıb keçirdilər.Nərmin özünü ilk dəfə diqqət mərkəzində hiss edir, bu şöhrətə görə Kamrana borclu olduğunu düşünür, qəribə hisslər yaşayırdı.Dilə-dişə düşməyi onu Kamrandan nə qədər uzaqlaşdırırdısa, Kamran

hamıya qısqanmağı, onu maqnit kimi Kamrana sarı çəkirdi.Nərminin bu məsələ ilə bağlı mövqeyi saat-basaat dəyişirdi.O, gah heç nəyi unutmamağı qərara alıb bu məsələni birdəfəlik bağlamağı düşünür, gah da Kamranın yanına qaçıb, başını onun köksünə qoymaq, bütün dünyanı birdəfəlik unutmaq istəyirdi.Beyinlə ürəyin, düşüncə ilə hissiyyatın bu şəkildə çarpışması, yazıq qızı lap əldən salmışdı.O, özünü yerin-göyün altında tək-tənha hiss edir, ürəyinin sözünü olduğu kimi deməyə heç kimi tapmırdı.Ən yaxın adamı olan Səltənət də, məsələyə birtərəfli baxır, yalnız bu evliliyin tezliklə baş tutmasına çalışırdı.Nərmin isə, onun düşünmək istəmədiyi hər şeyi düşünürdü.İndi tələm-tələsik razılığını verib evlənməklə iş bitmirdi.Arada nə qədər ağ səhifələr buraxılırdı ki, Nərmin onları ömrünün sonuna kimi daşımalı olacaqdı.Bu uzun ömür boyunca, məhz bu üzdən ola biləcəkləri heç kim söyləyə bilməzdi.İrəlidə pis bir şeyin olmayacağını da heç kim deyə bilməzdi.Nə yaxşıya, nə də pisə qaranti verən yox idi.Belə, qeyri-müəyyən vəziyyətdə də Nərmin qərar verməyə ürək eləmirdi.Səltənət ona, dönə-dönə yalnız bir şeyi tapşırırdı:"Sən Nərminsən, Kamran da yalnız Nərminin tarixçəsini bilməlidir.Ondan qalan nə varsa, sənə aid deyil, birdəfəlik unut getsin!" Demək asan idi, ancaq buna əməl eləmək, o qədər də asan olmayacaqdı.Bunu Nərmin bəri başdan hiss edirdi.Ona görə də nə sevdiyi Kamrandan əl çəkə bilirdi, nə də onunla evlənməyə qərar verə bilirdi.Bu vaxta qədər Kamranı gizlicə sevəcəyinə qərar verib, aşkarda onu rədd edəcəyinə dair fikrində nə qədər qətiyyətli idisə, Kamran bu sirri açıb ortaya qoyandan sonra, hər kəs hər şeyi bildikdən sonra, Nərminin qətiyyəti birdən-birə harasa yoxa çıxmışdı.O, bir də ayıldı ki, Kamranı o qədər güclü bir eşqlə sevir ki, onu daha heç kimə vermək istəmir.Bu sevgi onu var qüvvə ilə Kamrana sarı çəkirdi.Nərmin bircə günün içində bu qüvvənin qarşısında öz acizliyini anladı.Həmin an ona elə gəldi ki, havası çatmır, boğulur.Nərmin baxçaya çıxıb, bir az hava almaq məqsədilə, əlindəki işləri atıb yeyin addımlarla otaqdan çıxdı.Elə koridorun tinini dönürdü ki, bir qəfil Kamranla üz-üzə gəlib toqquşdu.Bir-birini dəlicəsinə sevən iki gəncin bir-birini görmədikləri bu günlərdə həsrətləri, sən demə, o qədər böyük imiş ki, bu gözlənilməz toqquşma zamanı hər ikisi dünyanı unudub bir-

birinə sarıldılar.Nə qədər beləcə dayandıqlarını bilmədilər. Birdən, Nərmin özünə gəlib, yavaşca Kamrandan aralandı, lal-dinməz qaçıb həyətə çıxdı.

Aralarında heç nə danışılmasa da, Kamran bu hərəkəti razılıq kimi qəbul edib, tezliklə başda Salman doktor olmaqla, böyük bir dəstəni Nərmingilə elçi göndərdi.Həmin gün Nərmin öz sevgisinə təslim olub, elçilərə razılığını bildirdi.

Nərminlə Kamranın toyu Salman doktorun dediyi kimi, çox təmtəraqlı oldu.Ən şöhrətli restoranların birində, qonaqlarının çoxu həkimlər olan böyük toy məclisində, Səltənətlə Qaratel yan-yana əyləşib, bəy masasının arxasındakı, bir-birinə çox yaraşan Nərminlə Kamrana baxır, bu günü gördüklərinə çükür edirdilər.Kamranın yenidən ailə qurması, həm də ona çox yaraşan Nərmin kimi gözəl, ağıllı qadınla evlənməsi, bu toyun qonaqlarının dilində uzun zaman danışılan bir mövzu oldu.

Kamran, nə qədər gözəl həkim idisə, bir o qədər də gözəl həyat yoldaşı idi.O, Nərminə qarşı diqqətli olub, onun ürəyindən keçənləri çox vaxt baxışlarından anlayacaq qədər həssas bir ömür-gün yoldaşı idi.Nərmin elə ilk gündən doğru qərar verdiyinə, Kamran kimi gözəl bir insandan vaz keçmədiyinə görə talehindən razı qaldı.Bir il sonra onların bir oğlu oldu, adını da Seymur qoydular.Səltənət həyatında bu günləri də yaşadığına görə gecə-gündüz Allaha dua edir, balaca Seymuru həyatının ən böyük hədiyyəsi, bundan sonrakı ömrünün ən qiymətli bəzəyi hesab edirdi.Bundan belə, hər iki qadın, ömürlərinin geriyə qalan hissəsini Kamran kimi güclü bir şəxsiyyətin qanadları altına sığınaraq, nəhayət ki, məşəqqətlə dolu nisgilli günlərinin qara səhifələrini birdəfəlik bağlayır, yeni həyatın gözəl günlərini yaşamağa başlayırdılar.

=23.

Nərmin ayağını sürüyə-sürüyə evə yaxınlaşanda, olub-keçənləri yenidən yaşamış kimi idi.Çünki, avtobusdan endiyi dayanacaqdan evə qədər olan bu qısa məsafəni, həyatının bütün olub-keçənlərini

bir kino lenti kimi gözünün önündən keçirərək gəlmişdi.O, indi necə bir təhlükə ilə qarşılaşdığını artıq aydınca anlayırdı.Nərmin onu da anlayırdı ki, yarımca saat əvvəl, o qaranlıq keçmişin kabusunu gördüyü andan, canına hopub, kürəyinin ortasını buza döndərən bir qorxu, bundan sonra onu bir daha rahat buraxmayacaq.O, özünə bu qorxunun əsiri olmayacağına dair nə qədər söz verirdisə də, daxilinəki qətiyyətsizlik, acizlik onun bu məsələ qarşısında nə qədər zəif olduğunu, köməksiz olduğunu açıq-aşkar göstərirdi.Nərmin o vaxt, evlənmək məsələsində dirənib duranda da, həmişə bu görüşü gözünün altına alırdı, bu günü düşünüb qorxurdu.Qətiyyətsizliyi də bu üzdən idi.Elə bil, ürəyinə dammışdı ki, bir gün belə bir şeylə rastlaşacaq, və gələcəyini təhlükə altına alan bu durumla təkbaşına mübarizə aparmalı olacaq.Budur, o ömrünün ən xobəxt bir günündə, öz kirli keçmişinə rast gəldi, və yanında onu bu kabusdan müdafiə edəcək, onu təmizə çıxardacaq heç kimi görmədi.Səltənət, nə qədər döşünə döysə də, o sadəcə yaşlı bir qadın idi, öz həyat təcrübəsi ilə çətin ki, Tahirin öhdəsindən gələ bilərdi.Tahir Nərmini ifşa edəcək elə faktlar bilirdi ki, onları hətta dinləməyə hər kəsin gücü çatmazdı.Kamran isə bütün bu olanlardan tamamilə xəbərsiz, öz dürüstlüyü ilə, təmizliyi ilə paklığın ən əlçatmaz zirvəsində idi.Onu o zirvədən endirib, bu qədər kirli bir məsələyə müdaxilə eləməsini istəmək, onu birdəfəlik sındırmaq demək olardı.Bu mənada, Nərminlə Kamranın arasında çox böyük, qət edilməsi heç vaxt mümkün olmayacaq bir məsafə var idi.Beləcə, Nərmin bu gün o kabusla mübarizədə təm-tək qalıb, yanında özündən başqa güvənəcəyi başqa heç kimi görmürdü.O, anlayırdı ki, Tahir, hətta bundan sonra bir daha Nərminə rast gəlməsə də, ona rast gəlmək qorxusu Nərmini həyatı boyu təqib edəcək, onu rahat yaşamağa qoymayacaqdı.Nərmin bircə şeyi anlayırdı, o bundan sonra, hər cür gözlənilməz vəziyyətə hazır olmalıdır.Bundan sonra ətrafındakı hər şeyə çox diqqət etməli, ehtiyatlı olmalı, ən əsas da Seymuru bir an belə, gözündən uzağa buraxmamalıdır.Ürəyindəki bu ağır yüklə, beynindəki həyəcanla, Nərmin qapını öz açarı ilə açıb içəri girdi.Bu vaxt Kamranla

Seymur, əli-ayağı una bulaşmış halda mətbəxdən çıxdılar.Nərmin Kamranın unlu üz-gözünə, Seymurun yerlə sürünən önlüyünə baxıb, sanki hər şeyi birdən unutdu, gülümsəyərək, onların qarşısına yeridi.

--Ay Allah, bu nə gündür özünüzü qoymusunuz?

Kamran onu qucaqlayıb öpdü.

--Elə demə, elə demə.Oğlumla sənə sürpriz hazırlamışıq.

Seymur da anasına sarılıb dedi:

--Ana xahiş edirəm, sən get əynini dəyiş, biz də o vaxta qədər sürprizi hazırlayaq.Biz səni çağırmadan gəlmə haa...yaxşı?

--Yaxşı oğlum, yaxşı...

Nərmin oğlunu öpüb yataq otağına keçdi.Keçirdiyi həyəcanların ağırlığından, yorğun düşüb, yatağa sərildi.Bayaq gördüyü mənzərəni bir daha yadına saldı, bütün xırdalıqlarına qədər xatırlamağa çalışdı.Əslində, gördüyü adam heç də Tahirə bənzəmirdi.Bəs necə oldu ki, yaxalığını burnuna qədər qaldırmış, üzü tüklü, yanağını dərin bir çapığın ikiyə böldüyü bu adamda Nərmin Tahiri tanıdı? Onun Tahir olduğuna bu əminlik hardan idi?Nərmin bütün gücünü toplayıb fikirləşdi.Birdən xatırladı...Gözləri...Gözləri onun Tahir olduğuna şübhə yeri qoymadı.Bu Tahirin gözləri ,Tahirin baxışları idi.Nərmin özünün bu fikrindən qorxdu, qalxıb oturdu.O da Nərminin gözlərinə baxırdı, həm də elə diqqətlə baxırdı ki, sanki, aradakı məsafə bu qədər uzaq olmasaydı, nəsə deyəcəkdi.Deməli, o da Nərmini gözlərindən tanımışdı.Qorxudan Nərminin kürəyi yenidən buz bağladı. Tahirə rast gəlmək təhlükəsinin qarşısını almaq lazım gələcəkdi. Amma necə?Necə, necə?Nərmin başını iki əli ilə tutub, yerində irəli-geri yırğalana-yırğalana bu suala cavab axtarırdı.Onun bu hərəkəti, insanın ən çarəsiz olduğunu göstərən, hər kəsin də həyatında ən azı bir dəfə yaşadığı bir anın ifadəsi idi.Nərmin bu gün ən çarəsiz günlərindən birini yaşayırdı.O, bu gündən sonra hara gedirsə getsin, nə edirsə etsin, üzərində o kinli baxışları, peysərində o təhlükəli nəfəsi hiss edəcəkdi.Nərmin anlayırdı ki, bundan sonra ən günəşli gündə də, ən nurlu sabahda da, qaranlıq bir kölgə onu

daim təqib edəcək.

Bir azdan Kamranla Seymurun onu çağırdıqlarını eşidən Nərmin, bütün fikirlərini yataq otağında qoyub, qonaq otağına gəldi.Kamran, əlində bir dəstə çiçək dayanıb ona baxır, mehriban-mehriban gülümsəyirdi.Onun arxasından çıxan Seymur, böyük tortu qucağında güclə tutaraq, anasına sarı gəlirdi.Nərmin tez oğlunun qarşısına çıxıb, onun az qala əlindən salacağı tortu aldı.Kamran da cəld yaxınlaşıb tortun bu başından yapışdı, dönüb oğluna bir işarə elədi.İkisi də bir ağızdan dedilər:

--Evliliyimizin on ili mübarək!Yüz il yaşayaq, qoşa qarıyaq!

Nərmin bu sözlərdən elə kövrəldi ki, nə edəcəyini bilmədi.Heç bir söz demədən, yaxınlaşıb onların ikisini də qucaqladı.Ata-oğul Nərminin belə kövrəlməsinin sürprizin gözlənilməzliyi ilə bağlı olduğunu sanıb, Nərmini nəvazişlə oxşamağa başladılar. Nərmininsə ürəyində fırtınalar qopmuş, şimşəklər çaxmışdı. Ömrünün belə əlamətdar günündə ən çox qorxduğu bir adamla rastlaşması, fələyin amansız oyunlarından olmalı idi ki, Nərmin bunu heç cür yaxşılığa yoza bilmirdi.O, həyatının bu xoşbəxt anlarını bir gün itirəcəyindən qorxduğu üçün, bir qolunu Kamranın belinə, bir qolunu da oğlunun boynuna dolayıb, indidən həzin-həzin ağlayırdı.

O gündən sonra, Nərmin bir müddət fikirli gəzib dolandı.Yenidən qaraqabaq, lal-dinməz olub, ətrafındakı həyata qarşı laqeyd münasibət bəsləməyə başladı.Səltənət də, Kamran da dəfələrlə ondan bu halının səbəbini soruşsalar da, Nərmindən doğru-düzgün bir cavab ala bilmədilər.Nərmin onların suallarına gah "başım ağrayır", gah da "dişim ağrayır" kimi, dərinə getməyən cavablar verməklə yaxasını qurtara bilirdi.Ancaq o, özü də anlayırdı ki, bu bəhanələr uzun-uzadı təkrarlanarsa, yaxında hər kəsi şübhəyə salmağa başlayacaq.Odur ki, ciddi şəkildə özünü ələ almağa, vəziyyəti yerli-yersiz gərginləşdirməməkdən ötrü onu qorxudan fikirləri başından qovmağa çalışırdı.Onun bu cəhdi, bal arısının yuvasını qurdalamış insanın, üstünə hücuma keçmiş arıları qovmasına bənzəyirdi.Nə qədər qovursan qov, arılar intiqam almadan çəkilmədikləri kimi, qorxulu fikirlər də Nərmindən əl

çəkmək bilmir, elə hey geri qayıdıb, üzərinə gəlirdilər.Bəzən olurdu ki, Nərmin çarəni Səltənət ana ilə dərdləşməkdə görürdü.Ancaq elə o an da fikrindən vaz keçirdi.Səltənət ana Nərmini evli-eşikli gördüyü bu illərdə elə arxayınlaşmışdı ki, qapını kəsmiş təhlükənin ciddiliyini çətin ki, olduğu kimi anlaya bilərdi.Onun aləmində, Kamran kimi güclü, geniş qəlbli, geniş imkanlı bir adamın nə özünə, nə də ailəsinə kimsə pislik eləməyə cəsarət etməzdi.Yaşlı qadın bu məsələnin incə nöqtələrini artıq çoxdan unutmuşdu. Birdəki, Səltənət ana Nərmini artıq, tamamilə Nərminə çevrilmiş biri kimi görür, əyər günlərin bir günü Tahirlə üz-üzə gələrsə, öz Nərminliyini göstərə biləcəyinə inanırdı.Çox heyif ki, Nərmin buna Səltənət qədər əmin deyildi.Məsələnin ən qorxulu yeri də elə bu idi.Hələ uzaq məsafədən baxan kinli baxışlar, bir anın içində, aradan keçən on-on iki ili bir anda unutdurub, Nərmini o illərə qaytarmış, Tahirin baxışları altında həmin o aciz qıza döndərmişdi.İndi bir gün, bu görüş bir də baş versə, onlar daha yaxından üz-üzə gəlsələr, Nərmin bu baxışlara tab gətirə biləcəkdimi?Yenə də bircə anın içində Nərmin olduğunu unudub Gülxara dönməyəcəkdi ki?Hər şey bu sualın cavabından asılı olacaqdı ki, bu cavabı da Nərmin bilmirdi.Çünki, özünə əmin deyildi.Bircə onu yəqin bilirdi ki, Nərminliyini göstərə bilməyib özünü ifşa elədiyi ilk andan, Tahir ona hakim kəsiləcəkdi.Şantaj yolu ilə onun başına istədiyi oyunu açа biləcəkdi.Hər dəfə fikirlər gəlib bu yerə çatanda, Nərmin heç bir şeyin üstü açılmadan ölməyi arzulayırdı.Nərmin fikirləşirdi ki, onun qəfil ölümü, Kamranla Seymuru bəlkə də, irəlidə başlarına gələ biləcək mənəvi zərbələrdən daha az göynədərdi.Ancaq o, sevdiklərindən ayrılmağa da özündə güc tapa bilmirdi.Onun beynində düyün düşmüş fikirlər tez-tez yerini dəyişir, arada bəlkə daha heç Tahirə rast gəlməyəcəyinə dair ona ümidlər də verirdi.Suda boğulan saman çöpündən necə yapışırsa, Nərmin də bu ümidlərdən eləcə yapışıb yaşamağa davam edirdi. Vəziyyətin bu qədər qeyri-müəyyən olduğu bir durumda, Nərminin hər gün işə gedib-gəlməsi, onun üçün bir növ mina tarlasını o yan-bu yana keçmək qədər təhlükəli

bir yola çevrilmişdi. Nərmin artıq, yalnız Kamranla birlikdə işə getdiyi günləri ömründən sayırdı.İş növbəsi Kamranın iş saatı ilə üst-üstə düşməyən günlərini o, qorxu içində, ətrafa baxına-baxına gedib gəlirdi.Gözü hər yerdə tanış bir sima görəcəyindən qorxur, az qala hər üzü tüklü, qaş-qabaqlı kişini Tahirə bənzədirdi.Təhlükənin onu harda yaxalayacağını Nərmin heç ağlına da gətirə bilməzdi...

Salman doktor artıq dörd il idi ki, təqaüdə çıxmışdı.O, təqaüdə çıxanda, özü dediyi kimi, ən yaxşı tələbəsini öz yerinə namizəd verdi.Həmin o gündən, Kamran onun yerini tutmuş, artıq dörd il idi ki, ürək cərrahiyəsi xəstəxanasının baş həkimi vəzifəsinə keçmişdi. Bu illərdə Nərmin də həm oğlunu böyütməklə məşğul olmuş, həm də öz ixtisasında əhəmiyyətli irəliləyişlər edib, baş tibb bacısı vəzifəsinə qədər gəlmişdi.Nərmin öz karyerasını yüksəltməyə davam etmək fikrində deyildi.İşi ilə ailəsi onun həyatını yetərincə doldurur, Nərmini hər cəhətdən qane edirdi.Buraya qədərki həyatında Nərmin necə böyük bir həvəslə işə gedirdisə, elə də iş bitər-bitməz, qaranquş kimi yuvasına tələsər, ailəsi ilə keçirdiyi hər anın qiymətini bilərdi.İndi birdən-birə, hər şey dəyişdi, sanki, dünya öz əlvanlığını itirdi.Hər şeyi itirmək qorxusu ön plana keçib, bu günə kimi dəyərli olan hər şeyi ikinci plana endirdi.Qorxu hissi hər şeydən önə çıxıb Nərminin bütün ixtiyarını əlindən almışdı.İndi hər şey bu qorxunun əlində idi.Çünki, gendən dolaşardısa, təkcə Nərmini, yaxınlaşardısa, bütün ailəni məhv edə bilərdi.

Nərmin öz daxili çarpışmalarından qurtulmağın yollarını axtardığı günlərdən birində, Kamran işdən gəlib, ona heç gözləmədiyi bir təklif elədi.O, əlində tutduğu məzuniyyət vərəqlərini Nərminə göstərib dedi:

--Nərmin, neçə ildir, istirahət bilmədən çalışırsan.Bax, bu məzuniyyət vərəqlərini sizin üçün almışam.Səltənət xanım, sən, bir də Seymur, gələn ay Pirşağı sanatoriyasında yaxşıca dincələcəksiniz. Bir aylıq müddət götürmüşəm.Fikirləşdim ki, mənsiz çox uzağa getməniz doğru olmaz.Bu yay burada istirahət edin, inşallah gələn yayı birlikdə xaricə gedərik.Nə deyirsən, qəbul edirsənmi?

Nərmin belə bir təklifi heç gözləmirdi, odur ki, o dəqiqə qərar verə bilmədi.Təəccüblə Kamrana baxıb soruşdu:

--Ay səni, Kamran, bu hardan ağlına gəldi? Düzü, nə deyəcəyimi bilmirəm.

Kamran mehribancasına arvadının çiyinlərini qucaqlayıb dedi:

--Həə...anladım...Yəni deyirsən ki, biz hara, istirahət hara?Nə desən, haqlısan.Ancaq qəbul edərsən ki, gec də olsa, səhvimi düzəldirəm.Siz Pirşağıda dincələrsiniz, mən də həftə sonu gələrəm yanınıza.Necə fikirdir?

--Gözəl fikirdir.Ən azı, Seymur doyunca dənizdə çimər, isti qumda oynayar.Yeni dərs ilinə bir az enerji toplamış olar.

--Elə isə, danışdıq.Siz yavaş-yavaş əşyalarınızı toplayıb hazırlaşın. Səltənət xanıma da xəbər verim, onun da sənədlərini özüm hazırlayacağam.

Nərmin, Kamranın tam zamanında elədiyi bu təklifə çox sevindi. Bir aylıq da olsa, Bakının sıxlıqdan keçilməz olmuş küçələrindən bir az uzaqlaşar, anası və oğlu ilə vaxt keçirərək, beynini yoran fikirlərdən müvəqqəti də olsa xilas olardı.Bu qənaətlə də Nərmin Kamranın təklifini qəbul elədi, vacib şeyləri topladı, vaxtın gəlməsini gözlədi.Bir həftədən sonra, tən yayın ortasında, Kamran onları maşına mindirib, Pirşağıdakı sanatoriyaya apardı.

Sanatoriya Pirşağı qəsəbəsinin sahil qayalıqlarına dirəndiyi ən son nöqtədə yerləşdiyindən, qayalığın üstündən baxanda, dənizin dəli dalğalarının böyük sürətlə gəlib özlərini bu qayalara çırpmaları möhtəşəm bir görüntü əmələ gətirirdi.Bu görüntü nə qədər vahiməli də olsa, dənizin gözəlliyi, qayalara çırpılan dalğalardan qalxan duzlu suyun özünəməxsus mazutlu qoxusu, qağayıların hayqırtısı, insanın ürəyini qürur hissi ilə doldurur, bu vəhşi gözəlliyi dönə-dönə seyr etməyə səsləyirdi.Səltənət kimi cəsur qadın, ilk baxışda bu qayalardan qorxdusa da, Nərminlə Seymur əksinə, bu mənzərəyə heyran oldular.

Kamran bir gün onlarla qalıb, ailəsini yerbəyer elədi.Hər şeyin qaydasında olduğundan, seçiminin düzgünlüyündən əmin olduqdan sonra, Bakıya, işinin başına geri döndü.

İndiyə qədər ömründə heç yerdə olmamış üç nəfər, bu sanatoriyada çox gözəl istirahət elədilər.Onlar mavi səmanın, qızmar günəşin, qızılı qumun vəhdətindən kifayət qədər bəhrələnib, ürəkləri istəyən qədər əyləndilər.Hər həftə sonu Kamran onları əli dolu ziyarət edir, sanatoriyanın həyətində onlara kabab da çəkirdi.Bir ay boyu Nərmin, onu narahat edən qara fikirləri tamamilə unutdu.Ömründə ilk dəfə sevdikləri ilə bir yerdə istirahət elədiyi bu gözəl yerləri gəzib dolaşmaqla, təbiətin bəxş elədiyi nemətlərdən dadmaqla, tətil günlərini dolu-dolu yaşadı.Bu bir aylıq istirahət, hər kəsi xeyli gümrahlaşdırmış, günəşin qəhvəyi rəngli sığalı onlara sağlam bir görünüş vermişdi.Seymur yeni dərs ilinin başalanmasını səbirsizliklə gözləyirdi ki, dostlarına sanatoriyada keçirdiyi günlərdən maraqlı xatirələr danışsın.

Evə gəldikləri günün ertəsi, hər kəs işinin başına döndü.Həmin gün Nərmin də Kamranla eyni növbədə işləyəcəkdi.Odur ki, Kamran Nərminlə Səltənəti xəstəxananın qapısında endirib, öz kabinetinə getdi.Səltənət, söhbət edə-edə pilləkanım başına qədər Nərminə yoldaşlıq elədi, pilləkanın başında Nərmindən ayrıldı.Nərmin də asta addımlarla yuxarı qalxıb, öz kabinetinə doğru yeridi.O, qarşısına çıxan iş yoldaşlarının salamını alır, keyfini soruşanların suallarına cavab verirdi.Diqqəti onunla söhbət edən adamlarda olduğundan, Nərmin koridor boyu skamyalarda oturmuş ziyartçilərə heç fikir vermirdi.Elə bu vaxt, koridorun o başında Qaratel göründü.Nərmin də sevinclə addımlarını yeyinlədib, ona sarı yeridi.Birdən, arxadan bir səs onu çağırdı:

--Gülxar!!!

Nərmin ani olaraq, özünün kim olduğunu, harda olduğunu unudub, kəskin hərəkətlə geri döndü.Onu çağıran adama baxdı. Qarşısında Tahir dayanmışdı...

Nərmin özünü itirdi, rentgen şüası kimi onu yoxlamadan keçirən bu qorxunc gözlərdən qaçmaq, hardasa gizlənmək istədi.Ancaq özündə nə qacmağa, nə də gizlənməyə güc tapa bilmədi.

Onunla burun-buruna dayanmış bu insanın çox tanış baxışları altında quruyub qaldı.Bu gözlərin zəhmi altında əzilərək, arada

Tahirsiz yaşanmış ömür yolunu büsbütün unutdu.Qorxu o qədər güclü idi ki, Tahirin adı keçməyən bütün olanları Nərminin yaddaşından bir anda silib atdı.Nərmin də qarşısında yaxşı tanıdığı qəddar Tahirin onu müti qula çevirən amansız baxışlarına təslim olub, özünü ifşa elədi...

==24.

--Niyə gəldin?Nə istəyirsən?

Rəngi bəmbəyaz olmuş Nərminin göz yaşlarından boğula-boğula dediyi bu sözlər, onun ən böyük yalnışı olmaqla, bircə anda bütün səlahiyyəti Tahirin əlinə vermiş oldu.Həmin an Nərmin, həyəcandan tir-tir əsərək, gözlərini qaçırmasaydı, Tahirin baxışlarında bir qalibiyyət qığılcımının yanıb-söndüyünü görərdi.Tahir Gülxarı görən kimi tanımışdı.Dünya yığışıb desəydi ki, bu Gülxar deyil, Nərmindir, Tahir bunu qəbul etmiyəcəkdi.Çünki, aradan nə qədər vaxt keçirsə keçsin, Gülxar nə qədər dəyişirsə dəyişsin, Tahir qarşısındakının Gülxar olduğuna zərrəcə şübhə eləməmiş, onu gözünün içindən tanımışdı. Görünür, o özü də Nərminin belə asanlıqla Gülxar olduğunu boynuna alacağından əmin deyilmiş.Ancaq işə bax ki, hər şey onun gözlədiyindən də asan oldu.

Tahir bir il əvvəl azadlığa buraxılanda, belə tezliklə geri dönməyi düşünməmişdi.O, cəzasını çəkib qurtardıqdan sonra, bir müddər Rusiyanın o şəhərini, bu şəhərini gəzib dolaşdı.Ancaq heç yerdə uzun müddət qala bilmədi.Rusiyanın şaxtalı qışından, rütubətli yayından bezib, nəhayət ki, vətənə dönməyi qərara aldı.Tüfeyli həyat tərzi keçirməyə alışmış Tahir, özünə iş axtarmağı heç düşünmədi də.Əksinə, pasportundakı möhürə görə, ona heç kimin iş verməyəcəyini bəhanə edib, yenidən öz köhnə dostlarını tapdı.Onlarla keçmişlərdə olduğu kimi, avara-sərgərdan bir həyat sürməyə başladı.Qumarını oynadı, nəşəsini çəkdi, ara-sıra xırda oğurluqlar da eləməyə başladı.Bir sözlə, qumarbaz Tahir, on il həbsxana həyatında topladığı təcrübələri ilə öyünərək, qısa zamanda Bakının kriminal aləmində yenidən öz layiqli yerini tutdu.

İlk vaxtlarda, o heç Gülxarı xatırlamırdı da.Gülxarı ilk onun yadına salan Sirac oldu.Sirac öz xəstəliyindən, keçirdiyi ürək əməliyyatından danışırdı ki, xəstəxanada eynilə Tahirin Gülxarına bənzəyən bir tibb bacısı gördüyünü də xatırladı.O vaxt Tahir bu söhbətdə onu maraqlandıran heç nə tapmayıb, eşitdiklərini qulaq ardına vurmuşdu.Ancaq, aradan bir müddət keçəndən sonra, Tahir küçə ilə getdiyi yerdə, avtobusda oturub, düz onun gözünün içinə baxan bir qadına təsadüfən gözü sataşanda, onun nə qədər Gülxara bənzədiyinə özü də heyrətlənmişdi.Ürəyində, "İnsan da insana bu qədər bənzəyərmiş", deyə fikirləşmişdi.Elə bu vaxt da, Siracın söhbəti yadına düşmüşdü.O gün Tahir bu qadının Gülxar ola biləcəyini anladısa da, bu təsadüf heç nəyi dəyişmədi.Gördüyü qadının Gülxar olduğuna şübhəsi olmasa da, Tahir tənbəlliyindən, bunu yoxlamağa heç cəhd də göstərmədi.Bu günkü təsadüf olmasaydı, Tahir bəlkə də heç vaxt Gülxarı axtarmaq fikrinə düşməyəcəkdi.Bu gün sadiq dostu Siracın ürəyi bir qəfil dayanmaq fikrinə düşəndə, Tahir də onu təcili yardımla Siracın vaxtilə əməliyyat olunduğu xəstəxanaya gətirəndə, heç özü də bilmirdi ki, onu burda nə gözləyir.Koridorda dayanıb həyəcanla doktorların deyəcəyi xəbəri gözləyirdi ki, koridorun o biri başından, bir az yaşa dolmuş, ancaq daha da gözəlləşmiş Gülxarın üzü bəri gəldiyini gördü.Görən kimi də tanıdı.Elə tanıdı ki, elə bil onunla yarımca saat əvvəl ayrılmışdılar.Elə bil aradan on beş ildən də artıq bir vaxt keçməmişdi.Gülxarı adı ilə çağıranda, onun da öz adını eşidən adamlara xas, kəskin hərəkətlə dönüb baxması, hər şeyi öz yerinə qoydu.Gülxarın onu tanıması da, dirənib Gülxar olduğunu inkar eləməməsi də Tahiri çox sevindirdi.Çünki, o bu işin bu qədər asan olacağını düşünməmişdi.Ancaq onun bu sevincində, bir zaman çox sevdiyi bir qadını yenidən görməsi ilə bağlı heç nə yox idi.Tahir sevgi-məhəbbət kimi saf duyğuların varlığını çoxdan unutmuş, daşını çoxdan atmışdı.O, Bakıya qayıtdığı gündən yenə də qumar oynaya-oynaya üstünə o qədər borc yığmışdı ki, indi bütün fikri nə yolla olursa olsun, tezliklə yaxasını bu borcdan qurtarmaq idi.O, hələ yeniyetmə vaxtından yaxşı bilirdi ki, qumar borcu ilə zarafat

olmaz.Adamı yox edərdilər, izi də qalmazdı.İndi heç gözləmədiyi bir təsadüf birdən-birə ona, bu borclardan tezliklə yaxasını qurtarmaq şansı verirdi.Tahirin ilk ağlına gələn mənfur fikir də, bir çarə tapıb, düşdüyü borc quyusundan çıxmaq oldu.O, bu çarəni keçmişlərdə olduğu kimi, Gülxarda görür, onu yenidən Gülxarla üz-üzə gətirən bu günkü, faciəvi də olsa, bu təsadüfə sevinirdi.Tahirə görə, o, bir günün içində qumar dostunu itirmiş, əvəzində pul kisəsi tapmışdı.

Nərminin panikdə olub, özünü büsbütün itirdiyi bu məqamda, bir yandan Qaratel gəlib çatdı, bir yandan da Siracı müayinə edən doktor Tahiri içəri çağırdı.Tahir dönüb getdi, Nərmin də real həyata qayıdıb, Qaratelin boynuna sarıldı.Daxili dünyasının alt-üst olmasına baxmayaraq, Nərmin özünü ələ alıb Qaratelin suallarına cavab verdi, bir-iki kəlmə ilə hal-əhval tutub öz kabinetinə getdi.Nərminin fikri Tahirin yanında qaldığından, harda olduğunu anlaya bilmirdi, qorxudan ayaqları yerdən üzülmüşdü.O, özünə heç yerdə yer tapa bilmirdi.Bu qədər sarsıntının içində Nərmin bircə şeyi gözəl anlayırdı.O, bu gün illərlə ürəyində gəzdirdiyi bir sirrin carçısı ilə üz-üzə gəlmişdi.Bundan sonra hər şey bu carçıdan asılı olacaqdı.Çünki, Nərmin illərlə bu günə hazırlaşmasına baxmayaraq, həyatının ən vacib sınağından keçə bilməmiş, kəsilmişdi.Səltənətin nəsihətləri, Kamranın məhəbbəti, illərin təcrübəsi, bunların heç biri onu Tahirin zəhmindən, kinindən, acı baxışlarından qoruya bilmədi. Nərmin,"Vətəndaş, siz yanılırsınız, mənim adım Nərmindir," demək əvəzinə, həyəcandan qırılan zəif səsilə, "Niyə gəldin?Nə istəyirsən?", dedi, və bununla da özünü də, ailəsini də, böyük bir təhlükəyə atmış oldu.İndi Nərmin kabinetində oturub, bu düşdüyü vəziyyətdən necə çıxa biləcəyini düşünmürdü.Qorxudan kütləşmiş beyni isə ona heç bir yol göstərə bilmirdi.Elə bu xavt qapı döyüldü.Nərminin ürəyi ayağının altına düşdü.Özündə "Gəl" deməyə də güc tapmadı.Qapı yavaşca aralandı.Səidə adlı tibb bacısı içəri boylandı.Nərmin yalnız Səidəni görəndən sonra ürəklənib,"Gəl, gəl", deyə bildi.Səidə içəri girdi, əlindəki xəstəlik tarixçəsini onun qarşısına qoyub dedi:

--Nərmin xanım, bu xəstəni qurtara bilmədik.Baş həkim onun ölüm aktını hazırlamağı tapşırdı.

Nərmin sözgəlişi soruşdu:

--Həkimi kim idi?

Səidə şəxsi işə baxıb cavab verdi:

--Xəstənin ilk əməliyyatını on il əvvəl Kamran doktor eləmişdi, sonrakı iki əməliyyatı Fizuli doktor eləmişdi.Əməliyyatlar uğurlu keçmişdi, və on il müddət qoyulmuşdu.On illik müddət bu gün bitdi.Xəstə, altmış yeddi yaşında vəfat etdi.

Səidənin bu hesabatından sonra Nərmin şəxsi işin ilk səhifəsini açıb baxdı.Sözü gedən xəstənin Sirac olduğunu görüb, yavaşca qovluğu örtdü.Üzünü Səidəyə tutub zəif səslə dedi:

--Sən gedə bilrəsən, doktora da de ki, hər şeyi hazırlayıb ona göndərəcəyəm.

Səidə "Bəli, Nərmin xanım", deyib çıxdı.Nərmin yenidən qovluğu açıb baxdı.

--Deməli, getdin, hə?Bəlanı gətirib mənim başıma sarandan sonra, getdin...Mən indi neyləyim?Bu bəladan yaxamı necə qurtarım?

Nərmin doluxsunmuş gözlərlə Siracın şəklinə bir də baxdı, sonra qovluğu bağlayıb ayağa qalxdı.Pəncərəyə yaxınlaşıb uzaqlara baxdı, dənizlə səmanın birləşdiyi nöqtəni axtardı.Ən gərgin anlarında, dənizlə səmanın üfüqdəki kəsişmə nöqtəsini axtarmaq, Nərminin özü üçün kəşf elədiyi bir vasitə olmuşdu.Bu vasitə ona, özü də anlamadığı səbəbdən, bir yüngüllük gətirirdi.Nərmin də, ən fikirli günlərində, fürsət tapan kimi pəncərəyə yaxınlaşar, dənizin harda bitdiyi, səmanın harda başladığı bilinməyən, o məchul nöqtəni axtarar, o sərhədi tapmağa çalışardı.İndi də gözünü çəkə bilmədiyi bu mənzərəni, bu dəfə tələsik seyr edib, baxışlarını xəstəxananın həyətinə yönəltdi.Elə bu vaxt da, xəstəxananın həyətində siqaret çəkə-çəkə o baş, bu başa var-gəl edən Tahiri gördü.Nərmin birdən, Tahirin başını qaldırıb onu görəcəyindən qorxdu, geri çəkildi.Sonra yenidən irəli gəldi, pəncərənin bir küncündən burnunu cıxardıb, Tahiri izləməyə başladı.Tahirin kirli-

pasaq üst-başı, günlərlə təraş olunmayan tüklü üzü, səliqəsiz baş-gözü, indi daha da qorxunc görünürdü.Təkcə elə bu görünüşü ilə fikirlərdə özü barədə ən pis qənaətlərə səbəb olan bu adamın Nərminin həyatında nə işi vardı, görəsən?Özü-özünə verdiyi bu suala Nərmin cavab tapa bilmirdi. Desəydi ki, bu adamın Nrəminlə heç bir işi yoxdur, o Gülxarın keçmişindən gəlmiş bir adamdır, onda da bu suala cavab verməli idi ki, bəs onda niyə sən özünü ortaya atıb Gülxar oldun?Niyə demədin ki, mən Gülxar deyiləm, səni də tanımıram?Məyər, illərlə sən bu görüşə hazırlaşmırdınmı?Necə oldu ki, həyatını birdəfəlik xilas edəcək o bircə cümləni deməyə sən özündə güc tapmadın?Əlbəttə belə bir sözü bir dəfə eşitməklə, bəlkə də Tahir əl çəkib getməyəcəkdi, ancaq bu sözü yüz dəfə desəydilər, o da sonda inanmasa da, çarəsiz qalıb əl çəkəcəkdi.İndi daha bu fürsət əldən getmişdi. İndi qarşıda nələr ola bilərdi, bunu təsəvvür eləmək belə, Nərmini dəhşətə gətirirdi.

Qorxudan gözü böyüyən Nərmin, hər yerdə Tahiri axtardısa da, bir neçə həftə Tahir heç yerdə görünmədi, Nərminin yolunu kəsmədi.Buna baxmayaraq, Nərmin heç cür sakitləşə bilmirdi. Onun ürəyinə dammışdı ki, Tahir elə-belə dönüb gedən adamlardan olmayacaq.O, mütləq özünə xas nə isə çirkin bir əmələ əl atacaq.Hələ bir də Nərminin, bu boyda xəstəxananın baş həkiminin arvadı olduğunu bilsə, yəqin ki, onunla şərəfsiz bir oyuna başlayacaq.Bir nəşəxorun, bir qumarbazın belə bir gəlir mənbəyinə tuş gəlməsi, mənfəət əldə etmək məqsədi ilə onun ağlına mütləq, müəyyən fikirlər salacaqdı.Ona görə də, Nərmin heç cür rahatlıq tapa bilmir, onun mütləq bir qəfil peyda olub, yolunu kəsəcəyini yəqin bilirdi.Döyükə-döyükə yaşamaqdan cana gəlmiş Nərmin, bir yandan onun tezliklə üzə çıxıb sözünün canını deməsini istəyir, bir yandan da Tahir adlı adamı onun həyatından birdəfəlik siləcək bir möcüzənin baş verməsini arzulayırdı.Belə bir möcüzənin olacağına inanmasa da, Nərmin hələlik Tahirə rast gəldiyini heç kimə demir, bu sirri Səltənətdən də gizlədirdi.Çarəsiz qadın, bəlkə də bu məsələnin bir yolla, böyüyüb cızığından çıxmadan, həll

olunacağına ümid edir, hələlik heç kəsi duyuq salmaq istəmirdi.Bu narahat fikirlərlə də o hər gün işə gedir, axşam evə dönəndə hər sakit keçən gün üçün Allaha şükür edirdi.

Aradan bir aydan da çox vaxt keçmişdi.Bu müddətdə Nərmin, özünün qorxulu fikirlərindən bir az soyumuşdu.O, bir müddət bundan əvvəl onu iflic edən fikirləri özündən uzaqlaşdıraraq, yenidən normal həyatını yaşamağa başlamışdı.Nərminin xoş əhvalı onun əhatəsindəki insanları çox sevindirir, onun gülər üzü üçün darıxanları yenidən yaşamaq eşqi ilə coşdururdu.Kamranla Seymur Nərminin sağaldığını görür, onun qayğısını çəkməkdə bir-biri ilə yarışırdılar.Səltənət də qızını gülər üzlü görüncə, ürəyindəki şübhələrin səbəbsiz olduğuna sevindi.

O gün Nərmin, uzun iş gününü palataları gəzib, xəstələrin səhhətini yoxlamaqla keçirdib çox yorulmuşdu.Asistenti Səidəni çağırıb özü üçün bir fincan çay sifariş elədi.Səidə çayı gətirməyə getməzdən əvvəl üzünü Nərminə tutub dedi:

--Nərmin xanım, xəstələrdən birinin qohumu sizinlə görüşmək üçün gözləyir.Onu qəbul edəcəksinizmi?

Nərmin hər nə qədər yorğun olsaydı da, həmişə xəstələrin uzun yol qət edib gəlmiş qohumlarını, mütləq qəbul edirdi.Çünki, onların öz xəstələrinin səhhəti ilə bağlı suallarına cavab vermək, onlarda xəstənin sağalacağına inamı artırmaq demək idi.Bu fikirlə də, Nərmin Səidəyə dedi:

--Elə isə, qoy əvvəlcə ziyarətçi gəlsin, çayı o gedəndən sonra gətirərsən.

Səidə getdi.Nərmin ayağa qalxıb pəncərəyə yaxınlaşdı.Uzaq üfüqə baxdı.Səma ilə dəniz yenə eyni rəngdə idilər.Adama elə gəlirdi ki, ya bu mavi səmadır ki, sonsuza qədər uzanıb gedir, sonda da, səmaya sığmadığı üçün özünü yerə sərir, ya da bu dənizdir ki, ucsuz-bucaqsız olub, uzaqlarda göyün üzünə qalxırdı.Onların bu qədər yaxın olması, iki mavi gözəlliyin hardasa, çox uzaqlarda beləcə yanaq-yanağa söykənməsi, Nərminin gözünü oxşayır, könlünə bir rahatlıq gətirirdi.Nərmin ürəyində, onların bir-birinə bu qədər sadiq olduğuna qibtə edirdi.Elə bunları düşünürdü

ki, kabinetin qapısı yavaşca açıldı, kimsə içəri girdi, heç bir təklif gözləmədən keçib oturdu.Nərmin xəyalən burdan uzaqda olsa da, qonağın bu üzlülüyü onu təəccübləndirdi.O, geri dönüb, gələnin kim olduğuna baxdı.Gördüyü mənzərədən yerindəcə donub qaldı.Tahir geniş kresloya yayxanıb, təbəssümlə ona baxırdı.Bu dəfə o, üzünü təraş etdirmiş, şıq geyinmişdi.Tahirin də saçlarına dən düçmüşdü, ancaq o, Nərminin yaxşı tanıdığı həmin yaraşıqlı Tahir idi.Nərmin ona diqqətlə baxdı, bu yaraşıqlı görünüşdə təhlükə hissi oyadan iki şeyin fərqinə vardı.Biri Tahirin kinayəli baxışları, digəri də onun sol yanağından keçib, sifətini ikiyə bölən dərin çapıq izi idi.Bu iki səbəb, Tahirin xoş niyyətli olacağına heç bir ümid yeri qoymurdu.Nərminlə üz-üzə, kriminal aləminin tanınmış, nüfuzlu isimlərindən biri, bir cinayətkar oturmuşdu.

Nərmin bircə anda yenə bütün cəsarətini itirdi.Tahirlə birgə yaşadığı günlərə xas, aciz bir qadına çevrildi.Gücü ancaq ilk dəfə Tahirlə üz-üzə gəldiyində soruşduğu sualları təkrarlamağa yetdi:

--Niyə gəldin?Nə istəyirsən?

Tahir diyircəkli kreslonu altında sağa-sola döndərə-döndərə, ciddiləşdi, dedi:

--Gəldim soruşum ki, Gülxar xanım, sən bilərsən, adamlar niyə bəzən adlarını dəyişirlər?

Bu sözlərdən sarsılan Nərmin, qorxusundan tir-tir əsməyə başladı.

--Məqsədin nədir, onu de, oynatma məni.Nə istəyirsən?

--İstəyirəm, sualıma cavab verəsən, insan adını niyə dəyişir? Məsələn, Gülxar niyə birdən-birə dönüb Nərmin olub?Cavab ver!

Nərmin az qala huşunu itirəcəkdi.Tahiri susdurmaqdan ötrü səsini alçaldıb dedi:

--Yalvarıram, səsini qaldırma, eşidən olar.Nə istəyirsən, söylə, sakitcə danışaq.

--Nə oldu?Cavabdan niyə qaçırsan?İstəyirsən, mən deyim, insan adını niyə dəyişir?Bir qadın adını ona görə dəyişir ki, keçmişi bir fahişə olub.Hər gecəsi bir başqa kişinin qucağında keçib...İçki, qumar, nəşə, kef...Sonra ərini bir yolla başdan edib, özünə gün

ağlamağa başlayır.Bir gün əlinə düşən fürsətdən istifadə edir, şahid-sübut da olmadığına görə, özünü namuslu bir qadın kimi sadəlövh bir kişiyə sırıyır.Özü də gör necə kişiyə ey...Savadlı, vəzifəli, pullu... Fahişə Gülxar indi dönüb olur baş tibb bacısı Nərmin xanım... Xarici maşında gəzmək, restoranlarda ad günlərini qeyd eləmək, xan sarayında yaşamaq...Pəh, pəh, pəh...Nə yaxşı imiş?Bəs bunları eləyəndə, bilmirdin ki, bir gün mən geri dönüb səndən bunların hesabını soruşacağam?Bəs bilmirdin ki, bunlar elə-belə ötüb keçməyəcək?Mən sənə çox şeyi bağışlaya bilərəm, ancaq həbsxana illərini bağışlamayacağam, Gülxar! Sən bu on ildə bir dəfə də olsun, mənim yanıma gəlmədin.Məni ziyarət eləmədin.Səni o dağlardan gətirib özünə arvad edən mən idim ey!Nə tez yadından çıxdı?Birlikdə yaşadığımız səkkiz illik evliliyi nə tez sildin?Sənin pis yola düşüdüyünü bildiyim halda, çölə ata bilmədiyimi nə tez unutdun?Çox sağ olun bu idi?Üzüm o yana olan kimi, adını dəyiş, özünə yeni həyat qur, Tahir də necə olursa olsun, hə???

Nərmin oturduğu yerdə başını iki əli ilə tutub, özünü masanın üstünə sərdi. Eşitdikləri onu dəhşətə gətirmişdi.Tahir, bu gedişlə, dünyanın bütün olub-bitmiş günahlarını onun boynuna yıxacaqdı. Arada başını qaldırıb altdan yuxarı Tahirə baxır, yazıq-yazıq deyirdi:

--Yavaş, eşidən olar, nə istədiyini söylə.Birazdan mənim dalımca gələn olacaq, sözünü de...

Görünür, Tahir özü də hər şeyin bir anda aşkar olmasını planlamamışdı.O, bilirdi ki, işin belə şəkil alması, ona heç bir xeyir verməyəcək. Olsa, olsa, Nərminin həyatını məhv edəcəkdi. Nərminin ailə həyatı dağılsaydı, Tahir onu yenə arvadı kimi qəbul edər, əvvəllərdə olduğu kimi, ondan hər cürə istifadə edərdi.Ancaq Nərmini qorxuda saxlayıb, vaxtaşırı şantaj eləsəydi, bu ona daha çox xeyir gətirərdi.Tahir, ortalarda görünmədiyi vaxtı boş keçirməmiş, özlüyündə belə bir haqq-hesab aparıb, özü üçün iş planı da tutmuşdu.Ona görə də, monoloqunu davam etdirəndə, məqsədini də Nərminə anlatmağı qərara aldı.

--Bilirəm, qorxursan, isti yerini itirmək istəmirsən.Ərin var, oğlun var, ev-eşiyin var, malın-dövlətin var, işin-gücün var...Bircə

kəlmə sözümlə hamısını itirə bilərsən.Elə bilərsən ki, hamısını yuxuda görmüsən.Necədir? Oynamağa dəyərmi?

--Niyə edəsən bunu? Qazancın nədir?Məndən nəyin hayıfını çıxırsan?

--Səndən sənin hayıfını çıxacağam.Mən səni dağ kəndindən gətirdim, xanım kimi saxladım, ilk fürsətdə məni aldadıb Siracın qoynuna girdin.Mənim bütün dost-tanışımla yatdın, yenə də səni atmadım. Ancaq sən məni qoyub qaçdın, görüşümə gəlmədin. Məktub yazmadın, bir sözlə, sildin məni həyatından.İndi məni silmək nə imiş, görəcəksən.Sənin ailənin içinə qarışacağam, sizdən biri olacağam. Səninlə istədiyim kimi rəftar edəcəyəm.Ərinin də bundan xəbəri olmayacaq.Yox, əyər deyərsən ki, qoy xəbəri olsun, onda mən onunla görüşüb, bütün olub-keçənləri bircə-bircə ona danışaram. Ondan sonra da özün sürünə-sürünə qapıma gələrsən. Həyatımızı yenidən başlayarıq.Yaxşı-yaxşı fikirləş, iki yoldan birini seç! Sənin üçün elə darıxmışam ki, sənə hələ seçim də verirəm. Hansını seçərsən, onu da qəbul edərik.Təki, ölüncə birlikdə olaq.

Nərmin qulaqlarına inanmırdı, bu manyak nələr deyirdi?Ailəyə qarışmaq nədir? Birlikdə olmaq nədir?Bu adam dəlidir, nədir? Məyər o anlamır ki, onunla birlikdə daha heç vaxt heç bir şey ola bilməz?

Nərmin anladı ki, bu ağlını oynatmış manyaka özü ilə bağlı ümid vermək olmaz.Onun nəzərinə çatdırmalıdır ki, söhbət ancaq puldan gedə bilər.Ona başa salmalıdır ki, aralarındakı alış-veriş yalnız pulla olacaq.Tahir hər şeydən əvvəl bunu anlamalıdır.Əks halda, qoy nə olursa, olsun.Qoy hamı hər şeyi bilsin.Yalnız bundan sonra, onunla hər-hansısa danışığa gəlmək olar.Bütün iradəsini toplayandan sonra Nərmin ayağa qalxıb üzünü Tahirə tutdu.

--Tahir, bax, məni diqqətlə dinlə.Sən də, mən də bu həyatda az ağrı-acı çəkməmişik.İndi burda durub kimin kimi daha çox incitdiyindən, kimin kimə arxa çevirdiyindən danışmağın heç bir mənası yoxdur.Biz ikimiz də həyatımızı düzənə salıb, yaşamaq istəyirik.Sən azadlıqda deyildin deyə, bu məsələdə bir az geri

qalmısan.Mən də keçmiş həyat yoldaşım olduğun üçün, sənə yardım edə bilərəm.Hər kəs öz yolunu gedər, öz həyatını yaşayar.Bir-birimizin həyatını alt-üst eləmək məcburiyyətində deyilik ki... Ondansa, bir-birimizə kömək edək.Mən sənə müəyyən məbləğdə pul verə bilərəm, sən də məni rahat buraxarsan.Hərə öz yoluna gedər. Bunu bir düşün.

Nərmin birnəfəsə bu sözləri deyə bildiyinə sevindi.Özünü bu manyakın əlindən qurtara biləcəyinə bir inam hissi yarandı.Bir az ürəklənib Tahirin gözünün içinə baxdı.Elə bu vaxt Tahir ayağa qalxıb ucadan bir qəhqəhə çəkdi.

--Sağ ol səni! Nə yaman ağıllı olmusan, işgüzar olmusan?Sən bir bunun sözünə bax...nə yaxşı fikirləşmisən?Ay qız, sən mənə nə qədər pul verə bilərsən ki, mənim bütün ömrümə bədəl olsun?Yoxsa elə bilirdin ki, bu yolla məndən yaxa qurtara bilərsən?Ay-hay...Adını dəyişmisən, həyatını dəyişmisən, qoynuna girdiyin kişini də dəyişmisən, ancaq toyuq kimi düşünməyi dəyişə bilməmisən.İndi mən deyəcəyəm, sən də qulaq asacaqsan.Ya, birdəfəlik ərindən boşanıb mənim yanıma qayıdırsan, ya da, istədiyim vaxt, istədiyim məbləği mənə gətirəcəksən!Vəssalam!İndi sən bunları düşün...Hansını seçsən, qəbulumdur.

Bunu deyib, Tahir otaqdan çıxdı.Qapının örtülməsi ilə açılması bir oldu.Kamran içəri girdi.Nərmin həyəcanını gizlədərək, güclə də olsa, gülümsədi.Kamran ona diqqətlə baxıb dedi:

--Bu nə vacib qonaq imiş ki, sabahdan səni gözləyirəm?

Nərmin çantasını toplaya-toplaya cavab verdi:

--Xəstələrdən birinin qohumudur, o ölən xəstənin qohumu... Sənədləri aparmağa gəlmişdi...Verdim, getdi.

--Elə isə, çıxaq?

--Çıxaq.

Nərmin çantasını alıb Kamranla xəstəxanadan çıxanda, artıq saat yeddinin yarısı idi.Axşamın sakitliyini ağaclarda yuva qurmuş quşların səsi pozurdu.Kamranın xarici markalı maşını xəstəxananın həyətindən çıxanda, Nərmin dərindən nəfəs alıb, arxaya yaslandı,

pəncərədən bayıra baxdı.Elə o an da ilan vurmuş kimi dikəlib oturdu.Ürəyi quş kimi səkməyə başladı.Darvazadan çöldə qocaman şam ağacları cərgələnmişdi.Onlardan hər birinin gövdəsi, arxasında bir insanı gizlədə biləcək qədər enli idi.Tahir onlardan birinin arxasından boylanıb, düz Nərminin gözünün içinə baxırdı...

==25.

Üzdə heç nə baş verməsə də, Nərminin həyatı o gündən yenidən bir cəhənnəm əzabına çevrildi.Tahirin nə zaman, neçə hərəkət edəcəyini bilmədiyindən, fikri havalarda, qulağı səsdə oldu.Tahir öz sözünü deyib qeybə çəkilmişdisə də, Nərminlə konkret heç nə danışmamış, onu nigaran buraxıb getmişdi.İndi Nərmin heç özü də bilmirdi ki, təhlükəni haçan gözləsin, hardan gözləsin?Bu özü də, əslində çox ağır cəza idi.Ancaq Tahir yəqin ki, bununla kifayətlənməyəcəkdi. Bütün bu təhlükəli oyunların sonu, yəqin ki, pul tələbi ilə bitəcəkdi.Ancaq Nərmin bu mənada da onu yola gətirə bilmədi.Tahirin qoyduğu şərt, bir ömür boyu davam edən soyğunçuluğa çevrilə bilərdi.Odur ki, Nərmin ürəyində götür-qoy edir, bəlkə də hər şeyi açıb Kamrana danışsa, daha doğru olar deyə, ölçüb-biçirdi.Bu yol daha tez nəticə verərdi, ancaq o nəticənin nə olacağını Nərmin bilmirdi.Bilmədiyi üçün də qorxurdu.Nərmin Tahirə rast gəldiyi gündən, bir uçurumun kənarı ilə yeridiyini anlayır, bir gün bu uçuruma yuvarlanacağından qorxurdu.O uçurumdan aşağıda günahlarla damğalanmış bir insanın, yenidən düz yola çıxmaq uğrunda yaşam mücadiləsi vardı.O yolda həm də, yalqızlıq, kimsəsizlik, düşgünlük var idi.Nərmin ordan gəlmişdi, oradakı həyatı bilirdi.O bir daha o quyuya düşmək istəmirdi. Kamranı, Seymuru, artıq çox yaşlanmış Səltənəti yenidən itirmək istəmirdi.Onları bir daha geri qazanmağa ömrü də çatmazdı.Nərmin bütün bunları yaxşı bilirdi.Odur ki, ürəyinin dərinliyində Tahirin oyununu qəbul eləməyi, bu oyunu ən az risklə davam etdirməyi düşünürdü.İkili həyat yaşamaq asan olmayacaqdı, ancaq biləndə ki, sevdiklərin yanındadır, nə olursa olsun, axşamları onlarla birlikdə keçirəcəksən, bu təhlükəli fikir də adama cəlbedici gələ bilirdi.

Nərmin evdə, ürəyini gəmirən daxili çəkişmələri ilə uğraşdığı günlərin birində Kamran işdən gəlib, onu nəvazişlə qucaqladı və dedi:

--Tap görüm, şənbə günü kimin toyuna gedirik?

Nərmin hər şeydən hürkdüyü üçün həyəcanla soruşdu:

--Kimin?

--Nərgizin...

--Həə...nə gözəl, kimə gedir?

--Neyrocərrahiyyədən elmlər doktoru bir oğlana.

--Tanıdığın biridir?

--Həm də lap yaxşı tanıyıram.Adı Cəmildir, özü də çox yaxşı oğlandır.Çox məclislərdə bir yerdə olmuşuq.Ali məktəbi bitirdiyimiz illərdə onunla , iki il təcrübə mübadiləsi məqsədi ilə, Amerikada bir klinikada işləmişik də.Möhkəm dostluğumuz olub. Çox mərd insandır. O da çox gərgin işlədiyindən, çoxdadır görüşə bilməmişik. İndi fürsət düşüb, köhnə dostumu da görəcəyəm.Bilirsənmi, Nərgizin bəxti gətirib.Belə oğlana ərə gedir.Nərmin, bax, dəvət olunduğumuzu bu gündən deyirəm ki, hazırlığını görəsən.Sonra deməyəsən ki, gec dedin, çatdıra bilmədim.Bu gün hələ ikinci gündür, xeyli vaxtımız var.

--Nə hazırlıq? Hədiyyə alacağıq?

--Nə hədiyyə?İndi hədiyyə alan var?Özümüzə əyin-baş almağı deyirəm.Sabah çıxaq, mağazaları gəzək, görək nə ala bilərik?Mən də özümə yeni kostyum almaq istəyirəm.Nə deyirsən, sabah şəhərə çıxaqmı?

--Olar.Mənə bax, Kamran, bu hazırlıq xüsusi olmadı ki?Nə tələş, nə tələş...

Desəydilər, inanmazdım.Olmaya məni qısqanırsan?

--Yoox...nə qısqanmaq, qısqanmağa yer yoxdur, o vaxt istəsəydin, məni yox, onu alardın da...

--Ay sağ ol! Odur ki, ürəyinə heç nə gətirmə.Xüsusi hazırlığın başqa səbəbi var.Hamı orda olacaq.Çoxdandır tanışların hamısını bir yerə yığan toyda olmamışıq.Ona görə deyirəm ki, yaxşı hazırlaşaq, belə toylar çox şən keçir, bir az üzümüz gülsün.Səltənət

xanım gəlib Seymurla bizdə qalar, biz də doyunca əylənərik, yaxşımı?

--Həə... yaxşı olar.

Kamran arvadını öpüb çıxdı.Nərmin yatağın kənarında oturub son günləri Kamrandan gizli baş verən məsələləri yadına saldı, Kamrana yazığı gəldi.Onun səmimiyyətinin, böyük məhəbbətinin müqabilində, Tahir kimi mənfur bir adamla oyuna başlaması, Nərmini özündən iyrəndirdi. "Bəs mən neyləyim?Başqa yolum varmi?Allahın köməyi ilə canımı qurtararam bu bəladan.Ay Allah, sən mənə kömək ol!"--deyə özü-özünə təskinlik verdi.

Səltənət, həyatını mənayla dolduran bu kiçik ailənin ən hörmətli üzvü olmaqla, bu ailənin ən qiymətli şəxsi olan Seymuru dünyalar qədər sevir, onun bütün işlərinin dalınca bu yaşında özü gedirdi.Nərmindən ayrı, öz evində tək yaşasa da, Səltənət hər gün qızıgilə baş çəkir, onlara əlindən gələn köməyi edirdi.Bu işlərin başında Seymurun məktəbə gedişi, məktəbdən dönüşü, onun dərsdən sonrakı boş vaxtları, dərs çalışmaları gəlirdi ki, bütün bunlara Səltənət nənə baxırdı.Səltənət Nərmini ərə verəndən sonra, Kamranla xoşbəxt həyat qurduqlarının şahidi olub sakitləşmişdi.Seymurun dünyaya gəlişi onu o qədər sevindirdi ki, Səltənət ürəyində daha heç bir qorxulu fikrə, gözlənilməz təhlükəyə yer qoymadı.Gözünü, könlünü Seymura olan məhəbbəti ilə doldurdu.Seymur doğulan gündən, Səltənətin ömrünün ən böyük bayramı, ən gözəl günü, Seymurun doğum günü oldu.Doqqiz il boyunca, bu ailə həmin günü ən böyük restoranlarda qeyd elədilər.Seymur Səltənəti çox sevir, axşamlar ondan güclə ayrılırdı.Onun da ən böyük bayramları, nənəsigildə qonaq olduğu günlər olurdu.Beləcə, nənə-bala bir-birindən doymadan, bir-biri üçün yaşayırdılar.Nərmin hərdən fikirləşirdi ki, Səltənət ana Seymurun gəlişi ilə çox dəyişib, uşaq kimi olub.Əvvəlki sayıqlığı yoxa çıxıb.Əvvəllər onun gözündən heç nə qaçmazdı.İndi elə bil dünyada Seymurdan başqa gördüyü, düşündüyü heç nə yoxdur.Bir ara Nərmin ürəyində onu da, Kamranı da qınadı."Hamı hər şeyi tez bir zamanda unutdu.Anam da, Kamran da, unutdular ki, mənim

belə bir dərdim var.Kamranın unutması normaldır.O nə bilir ki?Bu günə kimi heç Səltənətin mənim doğma anam olmadığını da bilmir.Bildiyi odur ki, mənim bir ərim olub, bu neçə ili həbsdə yatıb.Bir gün gələrsə də, kimdən nə istəyə bilər?Ancaq anam bütün haqq-hesabları bilir.O, unutmamalı idi.O bilirdi ki, Tahir bir gün gəlib yolumu kəsə bilər.Çünki, deyəcəyi çox çirkin sözlər, edəcəyi çox şərəfsiz hərəkətlər var.Hamı hər şeyi unutdu.Mən də qaldım öz dərdimlə baş-başa.İndi gəl görüm, bu işlərin öhdəsindən, Nərmin xanım!"

Nərmin bu gileylərində qismən haqlı idi.Kamran doğurdan da Nərminin hekayəsini çoxdan unutmuşdu.Niyə də unutmayaydı?Onun fikrincə, Nərminin keçmiş əri olmur, kim olursa olsun, bundan sonra heç kim onun ailəsinə pis gözlə baxa bilməz, haqqında pis söz danışa bilməzdi.Keçmişlər keçmişdə qalmalı idi, qalmışdı da.İndi Nərmin onun həyat yoladaşı, oğlunun anası idi.Kim gəlib, nəyin iddiasını apara bilərdi?

Səltənət anaya gəlincə, onun barəsindəki gileylərində, Nərmin yanılırdı.Sələnət əvvəlki Səltənət idi.Doğrudur, o arabir doğurdan da hər şeyi unudurdu.Bütün ailə ovuc içi kimi gözünün önündə olanda, hamı bir yerdə deyib güləndə, Seymurun doğum günlərini qeyd elədikləri günlərdə, Səltənət hər şeyi elə unudurdu ki, elə bil bildiklərini heç vaxt eşitməyib, bilməyib.Ancaq hər dəfə Nərminin halı dəyişəndə, əhvalı pis olub bulud kimi tutulanda, Səltənətin ürəyinə ilk gələn elə o olurdu ki, bəlkə Tahir gəlib çıxıb?Bəlkə Nərminin yolunu kəsib, onu qorxudub, nəyəsə təhrik edib?Nərmin, son zamanlar Səltənətin onu sorğu-suala tutduğu günləri yadına salsaydı, görərdi ki, Səltənətin tələşli günləri, məhz elə onun Tahirə rast gəldiyi, bu səbəbdən də qorxudan bəmbəyaz olduğu günlərə təsadüf edirdi.Səltənət elə ilk dəfə, Nərmin Tahirə rast gəlib, evə kabus görmüş kimi qayıdanda, onun bu halından narahat olub şübhələnmiş, Nərmini çox sorğu-sual etmişdi.

--Qızım, bir şey olmayıb ki?Elə bil kabus görmüsən.Məndən heç nə gizlətmirsən ki?Bir dərdinmi var?Bax, ürəyimə min cür şey gəlir.Bir şey varsa, gizlətmə, de, birlikdə çarəsini tapaq.

O vaxt da Nərmin heç nəyi boynuna almadı.Ancaq elə gah başım ağrayır, gah da dişim ağrayır deyib, cavabdan qaçdı.İndi də, son günlər Nərminin bulud kimi tutulması, fikirli gəzməsi yaşlı qadının gözündən qaçmadı.O, yenə də Nərmini xəlvətdə tutub öz nigarançılığını bildirdi.Ağzına almaq istəmədiyi təhlükəyə işarə edib, Nərmini üzən səbəbi soruşdu.Nərmin bu dəfə də ona dəqiq bir söz demədi.Tahirlə aparacağı ikili oyunda özünə güvənib, hər şeyi təkbaşına, heç kimi duyuq salmadan həll edəcəyini düşünərək, bu dəfə də Səltənətə sirr vermədi.

Nərgizlə Cəmilin toyu yeni tikilib istifadəyə verilmiş "Firuzə"şadlıq evində keçirilirdi.Gələn qonaqların cəmiyyətin yüksək təbəqəsindən olması, elə şadlıq evinin qarşısında cərgəyə düzülən maşınlardan bəlli olurdu.Hamısı ən bahalı, ən görünüşlü xarici maşınlar idi.Nərmin, Kamranın lap elə bu yaxınlarda maşınını yenilədiyinə bu gün sevindi.Kamranın gecə mavisi "Mersedes-600" markalı maşını başqa maşınların yanında daha gözəgəlimli görünürdü.Kamran da bunu hiss edib qürurla arvadına baxıb gülümsədi.Sonra onun qoluna girib, şadlıq salonuna daxil oldu.Bu gün Kamran da, Nərmin də, həyətdə göz çıxardan maşınları qədər şıq geyimli, zərafətli idilər.Nərmininə elə gəldi ki, hamı onlara baxır.O, onlar üçün ayrılmış masaya yaxımlaşanda, yavaşca əyilib Kamranın qulağına pıçıldadı:

--Allah, sənə şükür, elə bilirdim, bu saat yıxılacağam.Birdən mənə elə gəldi ki, hamı bizə baxır.

Kamran heç nə demədən, stulu çəkib, xanımını nəzakətlə əyləşdirdi.Sonra, özü də keçib oturdu.Yalnız bundan sonra Nərminə tərəf əyilib dedi:

--Yanılmırsan əzizim, hamı doğurdan da bizə baxır.

Bu vaxt toy sahibləri, Nərgizlə Cəmilin ataları onlara yaxınlaşıb, xoşgəldin elədilər.Hal-əhval tutub, gələn qonaqları qarşılamaq üçün, yenə də öz yerlərinə, salonun girişinə geri döndülər.Bir azdan "Vağzalı" eşidildi, bəylə gəlin bu musiqinin sədaları altında salona daxil olub, öz yerlərinə keçdilər.Toy başladı. Kamran doğru demişdi ki, tanışların böyük əksəriyyətini bir yerə toplayan toylar

adətən, çox şən keçir.Bu toy da, bir-birini çoxdan tanıyan, bəzisi hər gün, bəzisi ara-sıra görüşən qonaqlarla dolu olduğundan, Kamran burda özünü çox sərbəst hiss edirdi.Daim ona yaxınlaşıb hal-əhval tutan tanışları, Nərminə də diqqət göstərir, halını soruşurdular.Dost-tanış onları tez-tez rəqsə dəvət edirdilər.Nərmin nə qədər tərəddüd etsə də, Kamran onu yola gətirib ortaya çəkir, böyük həvəslə rəqs edirdi.Nərmin Kamranın bu cür gözəl rəqs elədiyini bilmirdi.Özü bir müddət ərinin məharətli rəqsinə heyran-heyran baxandan sonra, dönüb ətrafa göz gəzdirdi.Bütün toy əhli geri çəkilib, meydanı bu gözəl rəqqasa buraxmışdı.

Kamran bu gözəl axşamın gətirdiyi nəşədən keflənib, elə hey Nərminə xoş sözlər deyirdi.Nərmin də durmadan onun qolunu dartışdırır,--Sus, yavaş, eşidən olar,-- deyə onu sakitləşdirməyə çalışırdı.Nərmin Kamranın qədərindən artıq içib sərxoş olacağından ehtiyat edirdi.Ona görə də, nə qədər gec deyil, Kamranı köməkli yola gətirib, evə aparmaqdan ötrü, ətrafa boylanıb gözü ilə onun yaxın dostlarından birini axtarırdı.Siqaret tüstüsü, ucu-bucağı görünməyən salonu qalın dumana bürümüşdü.Musiqidən qulaq tutulurdu. Qonaqların çoxu, nə çalındığının fərqinə varmadan, ortalıqda atılb-düşürdü.Bu da o demək idi ki, hamı kefli idi.Bu qədər insanın içində ərk edib köməyə çağıracağı birini tapmaq asan olmayacaqdı.Nərmin bu tələşlə ətrafa baxır, Kamran isə, bir dəstə köhnə tanışı ilə bir ucdan elə hey sağlıq deyir, araqdan süzüb içirdi.Nərmin, bu halında ona söz keçirəcəyindən əmin olmadığı üçün, Kamranın qəlbini qırmadan, onu yola gətirib evə aparmağı düşünürdü.Ona görə də, ətrafa baxmağa davam edir, kafedralarından tanış bir adam axtarırdı. Nərmin nigaran baxışlarla sağa-sola baxırdı, birdən ona elə gəldi ki, başını döndərdiyi yüz səksən dərəcəlik yarımdairədə gözünə inanılmaz bir şey göründü.Ürəyi ayağının altına düşdü.Öz-özünə, "Yox, bu ola bilməz, bu mümkün deyil"—deyib, yavaş-yavaş başını soldan sağa döndərməyə, döndərə-döndərə də həmin o yüz səksən dərəcəlik yarımdairədə bayaq gözünə görünən qorxunc görüntünü axtarmağa başladı.Onların masası ilə üz-üzə qurulmuş

masalardan birində Nərminin tanımadığı bir neçə qadın-kişi əyləşmişdi.Onların başı deyib-gülməyə qarışdığından, içlərindən birinin gözü ilə Nərmini az qala yediyini görmürdülər.Əlində siqareti tüstülənən, süzgün baxışlı bu adam, gözlərini qırpmadan sınayıcı baxışlarla Nərminə baxırdı. Bu, Tahir idi.

==26.

O gecə Səltənət, Nərminlə Kamrana qapı açanda, Nərminin dilxor olduğu gözündən qaçmadı.Ancaq o, bunu Kamranın həddindən çox içib sərxoş olması ilə əlaqələndirdi. Doğrusu, Səltənət özü də ilk dəfə idi ki, Kamranı bu qədər içmiş görürdü.Odur ki, yatmağa getmədi, mətbəxdə oturub, Kamranı güc-bəla ilə soyundurub yatağına salan Nərmini gözlədi.Nərmin əynini dəyişib mətbəxə gələndə, Səltənət onun əlindən tutub oturtdu, qızının kürəyinə sığal çəkə-çəkə yavaşdan dedi:

--Eybi yoxdur, qızım. Ayda-ildə bir dəfə ürəkdən əylənib, sabah üzünə vurma.Özün bilirsən ki, Kamran elə adam deyil, hər şeyin ölçüsünü biləndir. Nərmin başını aşağı salıb oturmuşdu.Elə bil heç burda deyildi, elə bil heç Səltənətin dediklərini də eşitmirdi.Onun bu halını görən Səltənət, ona sarı əyilib soruşdu:

--Nərmin, qızım, olmaya orda nəsə bir şey oldu?Niyə belə fikirlisən?

Yalnız Səltənətin bu sözlərindən özünə gələn Nərmin, qadını şübhəyə salmamaq üçün, tələsik dedi:

--Yox, yox, heç nə olmayıb.Sadəcə, fikirləşirəm ki, bu qədər içmək nəyə lazım idi? Bizim Səməd olmasaydı, heç bilmirəm evə necə gələcəkdik.Gedən baş lovğa-lovğa getdik, gələn baş utana-uatan gəldik.İndi Allah bilir millət bizdən nələr danışacaq.

Səltənət bir az rahatlamış kimi dedi:

--Yaxşı, yaxşı, böyütmə, hər gün belə toya getmirsiniz ki...Millət getsin, özünə baxsın.Kamran kimi oğul varmı?Bax, onu yeyib-içdiyinə peşman eləməyəsən haa...Heç nədən evinə söz salma qızım, dəyməz.İndi sakitləş, get yat, sabah danışarıq.Mən də yatmağa gedirəm, gecən xeyrə qasın.

--Xeyrə qarşı...

Səltənət qalxıb getdi.Nərmin yalnız indi sağlam düşünə bildi.O, birdən anladı ki, Tahirin belə bir toyda iştirak eləməsi, heç də təsadüfə bənzəmirdi.Çox ola bilərdi ki, o ora bir vasitə ilə yol tapıb, bu toya qəsdən gəlmişdi.Nərmin özünün bu fikrinə bir paranoya kimi baxdı, ancaq öz müşahidələrinə başqa izahat da tapa bilmədi.Tahir öz dəstəsi ilə bu toya nə yaraşırdı, nə də Nərmin onların toy əhli ilə qaynayıb qarışdığını gördü.Onların ayrıca bir qrup kimi oturub, heç kəsə qarışmadan yeyib içmələri onu göstərirdi ki, onlar bu toya dəvətsiz gəliblər, həm də nə yollasa, bilə-bilə gəliblər.Görünür, Tahir bura, Nərminin rahatlığını pozmaq üçün, onu hər yerdə tapacağını göstərmək üçün gəlmişdi.Üz-üzə oturub, süzgün baxışlarla Nərminə baxması da bu mənaya gəlirdi.Bu baxışlar Nərminin əsəblərini gərir, dünyanı başına dar edirdi.Tahir, sanki, bu sınayıcı baxışları ilə Nərmindən soruşurdu:

--İndi burda sənin keçmişindən söz açsam, səni hamıya tanıtsam, necə olar?

Özünün bu fikrindən, Nərminin əti ürpəşdi, kürəyinin ortasından bir üşütmə keçdi.Qalxıb çiyinlərini ovxalaya-ovxalaya yataq otağına keçdi.Yuxusu ərşə çəkilsə də, düşüncələrinin qalanını yatağında təhlil eləməyi qərara aldı.Çünki, bir az da otursaydı, Səltənət işığın sönmədiyini görüb geri gələrdi, onu bu halda görüb yenə də sorğu-suala tutardı.Bu dəfə Nərmin özünə güvənmirdi, çünki, bu sorğu-suala davam gətirəcəyinə inamı çox az idi.

Toy günündən xeyli vaxt keçmişdi.Bu müddətdə, Kamran toyda kontrolu itirib çox içdiyinə görə, özünü günahkar sayıb, dəfələrlə Nərmindən üzr istəmişdi.Nərminin yenə də içinə qapanmasını, az danışıb fikirli gəzməsini, Kamran özünün o gecəki vəziyyəti ilə əlaqələndirir, içkili olub evə qədər özündən, Nərmindən xəbəri olmaması ilə izah edirdi.Kamran kimi bir adamçün bu böyük bir qəbahət idi.Bunu, o özü də özünə bağışlaya bilmir, bu səbəbdən də Nərmini haqlı sayıb, hər yolla könlünü almağa çalışırdı.Nərmin nə qədər əsəbləşmədiyini deyirdisə də, nə qədər yorğunluğunu səbəb gətiridisə də, Kamranı inandıra bilmirdi.Kamran öz arvadına qarşı daha diqqətli olduğu bu

günlərdə, Nərmini işə özü aparır, axşam da Nərminin iş saatı bitməsə belə, özü ilə evə gətirirdi.Nərmin də ərinin könlünü qırmamaq üçün, bir neçə gün onun xətrinə dəymədi, iş qrafikini onun xahişi ilə pozdu.

Bir gün Kamran lap günorta üstü Nərmini işdən aparmağa gəldi.Nərmin ayağa qalxıb gülə-gülə onun qarşısına yeridi.

--Doktor, indi nə var öz klinikanızdır, məni iş intizamını pozmağa təhrik edirsiniz?

Kamran da gülərək, onun dediyi şəkildə cavab verdi:

--Bəli, öz klinikamdır, özüm bilərəm.Sən də mənim ürəyimsən. Ürəyimi burda qoyub gedə bilmərəm ki...Gəldim, səni gəzməyə aparım.

--Soruşmaq ayıb olmasın, hara?

--Bunu sən deyəcəksən.Hara desən, ora gedəcəyik.

Əslində, elə Nərmin də bir az əvvəl buna bənzər bir şey arzulamışdı.Düşünmüşdü ki, harasa gedib beynini yoran ağır fikirlərdən uzaqlaşmaq, havasını dəyişmək pis olmazdı.İndi, Kamranın sözlərindən sonra, Nərmin ürəyində fikirləşdi ki, Kamran, hər halda həyat yoldaşlarının ən həssasıdır.O, artıq neçənci dəfə idi ki, Nərminə tam zamanında, tam yerinə düşən təkliflər edirdi.Odur ki, ərinin bu dəfə də vaxtında yetişib, belə bir təkliflə gəlməsinə Nərmin çox sevindi.O, uşaq kimi başını yana əyib Kmarana dedi:

--Kamran, o bir dəfə getmişdik ey..."Mirvari" restoranında balıq yemişdik...Dadı hələ də damağımdadır.

--Həə...Seymura hamilə olanda?Sumaxlı, göyərtili kütüm yemişdik.Hələ sən də ofisiantı "acika" sözünə görə tənbeh eləmişdin.Demişdin ki,"acılı" desən, dünya dağılar?Millət hər şeyi bizdən öyrənir, hər sözü bizdən götürür, siz öz milli yeməklərimizə də cürbəcür yamaqlar vurub, özgələşdirirsiniz.

--Necə də hamısı yadında qalıb ey...

--Qalmazmı?Həyat yoldaşımın milliyyətçiliyinə o gün orda heyran oldum.

--Həə...elə isə, gəl yenə ora gedək, həmin o balıqdan yeyək. Sumaxlı, göyərtili, acılı, ıımm...Yaman başıma düşüb.

Kamran bir qəfil duruxub, geniş açılmış gözlərlə Nərminə baxdı.

--Əzizim, olmaya hamiləsən?

Nərmin heç gözləmədiyi bu sualdan pərt olub dedi:

--Yox ey, yox...sən də qoy görək...eləcə ürəyim balıq istədi.Bir də o balıqdan yemək üçün mütləq hamilə olmaq lazımdır?

Kamran arvadının bu sözünə gülüb dedi:

--Vacib deyil, ancaq nə gizlədim, mən istərdim ki, sən bir dəfə də hamilə olasan.Yəni, Seymura bir yoldaş pis olmazdı.

--Onu başqa vaxt danışarıq.Bu gün sən məni harasa aparmaq istəyirdin.Yoxsa, yanılıram?

--Yox, yox.Gedirik."Mirvari" restoranına, kütüm yeməyə...

Bu sözdən sonra Nərmin çantasını alıb Kamranla otaqdan çıxdı.

Nərminin əhvalı doğördan da düzəlmişdi."Mirvari"restoranı bulvarda yerləşdiyindən, o, həm sevdiyi balıqdan yeyir, həm də göz işlədikcə uzanan mavi dənizin gözəlliyini seyr edirdi.Nərmin yenə də gözü ilə dənizlə səmanın kəsişdiyi nöqtəni axtardı.O, bu dəfə də o nöqtəni tapa bilmədi.Hava çox gözəl idi.Qağayılar böyük dəstələrlə dənizin üstündə dövrə vurur, arabir dənizə baş vurub balıq ovlayırdılar.Günəşin gur işığı dəbizin rəngini də dəyişmişdi.Bu gün dəniz zümrüd rəngində idi.

Restoranda adam çox idi.Onların çoxu hər il bu mövsümdə Bakıya axışan turistlər idi.Bakının gözəlliyi, qiymətlərin ucuzluğu, bu mənada turistlər üçün çox cəlbedici idi.Nərmin sevdiyi balığı tikələrə ayırıb, sumaxa batıra-batıra yeyir, bununla ürəyi soyumur, hələ üzərinə bol-bol limon da sıxırdı.O, növbəti tikəni ağzına aparırdı ki, gözü Kamranın arxasındakı masalardan ən dibdəkinə sataşdı. Orda, görünüşləri ilə həmişə Nərmini qotxuya salan bir neçə kişi əyləşmişdi. Nərmin bir az da diqqətlə baxanda, onların arasından əyilib, sınayıcı baxışlarla ona baxan Tahiri gördü.O, deyəsən, bu dəfə də, yalnız Nərminə görünməyi qəsd edirdi.Bu, bir-neçə, öz xarici görünüşləri ilə ətrafdakılara xoş təsir bağışlamayan adamlar da, yəqin ki, onun tüfeyli dostlarından idi.Nərmin ağzına apardığı tikəni yenidən boşqabına qaytardı.Başını aşağı salıb, narahatçılığını Kamrandan gizlətməkdən ötrü, bir xeyli

boşqabda balıq tikələrini o üzə, bu üzə çevirdi.Onun yeməyə qarşı soyuduğu Kamranın gözündən qaçmadı.

--Nə oldu, sevmədinmi?

Nərmin tez özünü ələ alıb gülümsədi və dedi:

---Yoox...Çox sevdim, sadəcə gözümə sümük sataşdı, onu axtarıram. Çox ləzzətlidir, bir gün bura hamılıqla gələrik.Anam da balığı çox sevir.

Kamran iştahla yeyə-yeyə dedi:

--Mütləq gələrik.Doğurdan, gərək bura tez-tez gələk, balıq çox ləzzətlidir.

Nərmin, bu dəqiqə, onu bu cür izləməklə, yeməyinə zəhər qatan acı baxışların altında necə işgəncə çəkdiyini bir özü bilirdi.O, özünü zorla ələ ala bilir, bu işgəncəyə uzun sürə davam gətirə bilməyəcəyini anlayırdı.Ona görə də yeməyini tez bitirməyi, Kamranı çəkib burdan uzaqlaşdırmağı düşünürdü.Kamran ofisianta çağırıb hesabı verəndə, Nərmin, nəhayət dərindən nəfəs aldı.Onlar restorandan çıxıb bulvara endilər.Bulvar həmişəki kimi, adamla dolu idi.Burda hər yaşda, hər qəbildə insan var idi.Bulvarın şəhərə arxalanan hissəsində çox sayda kafelər, çayxanalar, dondurma köşkləri cərgələnmişdi.Kamran onlara işarə edib Nərmindən soruşdu:

--Növbəti dayanacağımız hansında olsun?

--Mən dondurma yeyərdim.

--Oldu.

Bu sözlə də, Kamran Nərminin qolundan tutub dondurma köşkünə sarı döndərdi.Onlar bütün yolu arxaya baxmadan gəldiklərindən, Nərmin Tahirgilin onların arxasınca gəlib-gəlmədiklərindən nigaran idi.Kamran onu dondurma köşkünün qarşısındakı masalardan birinin arxasında oturdub, özü dondurma almağa getdi.Nərmin oturan kimi, bulvarda o baş bu başa hərəkət edən insan axının içində gözü ilə Tahiri axtarmağa başladı. Heç kimi görmədiyinə sevindi, arxayınlaşıb, üzünü Kamrana tərəf çevirdi.Kamran onun sevdiyi qəhvəli dondurmadan iki böyük pay alıb gəlirdi.Nərmin uşaq kimi sevinib, Kamrana yardıma getdi.

Onlar qoşa göyərçinlər kimi baş-başa verib, söhbət edə-edə, dondurmalrını yeyirdilər.Kənardan baxan heç kimsə, ağlına belə gətirməzdi ki, bu gənc ər-arvadın da bir dərdi ola bilər. Nərmin doğurdan da, isti yay günündə, Bakı bulvarında, sevimli Kamranı ilə çox sevdiyi qəhvəli dondurmasını yeyə-yeyə, bayaqkı sıxıntılarını bir anlıq da olsa, büsbütün unutmuşdu.Onlar hər cür qayğılardan uzaq, şirin-şirin söhbət edir, deyib gülə-gülə dondurmalarını yeyirdilər.Birdən, Kamran yeməyinə ara verdi, arvadına heyran-heyran baxıb soruşdu:

--Necə oldu, əzizim, bu günkü gəzintimiz ürəyincə oldumu?

--Özün bilirsən ki, birlikdə olmağımız hər zaman ürəyimcədir. Bu günkü gəzintimizi xüsusilə bəyəndim.Çox sağol.

Kamran xoş bir təbəssümlə düz Nərminin gözünün içinə baxıb, yavaşca dedi:

--Bir də bunun üstündən hamilə də qalsaydın...

Onun bu sözünə Nərmin özünü saxlaya bilməyib, elə ucadan güldü ki, yaxında əyləşənlərdən bəziləri dönüb onlara baxdı. Nərmin bu hərəkətindən özü də utanıb ətrafa baxındı.Birdən, kənardakı salxım söyüdün altında, həmin kişilərlə əyləşmiş Tahiri gördü. O, yenə də qıyqacı əyilib, diqqətlə Nərminə baxırdı. Nərminin gülüşü üzündə dondu.

Onlar dondurma köşkündən uzaqlaşanda, Nərmin artıq anladı ki, bu gün hara getsələr, Tahir onları təqib edəcək.Odur ki, Kamran bir də, "İndi hara?"--deyə soruşanda, Nərmin yorulduğunu bəhanə gətirib, evə dönmək istədiyini söylədi.

O gün, Nərmin hər şeyi anladı.Anladı ki, Tahir artıq öz oyununa başlamışdır.Anladı ki, heç bir məşğuliyyəti olmayan bir manyak, bütün günü onun ardınca gəzib, özünü ona göstərəcək. Bunun bir gün konkret bir tələbə çevriləcəyinə Nərminin artıq heç bir şübhəsi qalmadı.Sən demə, Tahir onun düşündüyündən də təhlükəli imiş. Onun Nərmini izləməsi, hər yerdə özünü yalnız ona göstərməsi,o demək idi ki, Tahir artıq kəndiri Nərminin boğazına keçirtmişdi, hara istəsə, ora da çəkəcəkdi.O, istədiyi vaxt kəndirin halqasını daraldacaqdı da... Tahirdən, artıq nə desən, gözləmək

olardı.Nərmin bunları düşündükcə, qorxusu bir panikə dönürdü.Bu panik hər an onu ifşa edə bilərdi. Odur ki, Nərmin gecə-gündüz fikirləşir, bu vəziyyətdən çıxmaq üçün bir yol axtarırdı. Lakin heç bir yol tapa bilmirdi. Ağlına heç bir fikir gəlmirdi. O, ümidsizliyə qapılaraq, özündə nə hadisələri qabaqlamağa, nə də sakitcə dayanıb gözləməyə güc tapa bilmirdi. Beləcə, öncədən qara gününü qablaşdıran Nərmin, içində olduğu həyatına indi sanki, kənardan baxır, irəlidə nələri itirə biləcəyini düşündükcə, dəhşətə gəlir, öz acizliyinə acıyırdı.Artıq, xəlvət bir yer tapan kimi, için-için ağlamaq, Nərmin üçün bir vərdiş halını almışdı.Səltənətin, Kamranın, Seymurun bu olanlardan xəbərsiz, qayğısız yaşamaları, onları Nərmindən çox uzaqlaşdırır, onları bir-birindən fərqli iki dünyanın insanlarına çevirirdi.Hadisələr Nərmini, məcburiyyət nəticəsində də olsa, Tahirə yaxınlaşdırdıqca, Nərminin sevdikləri öz dünyaları ilə ondan daha çox uzaqlaşır, əlçatmaz olurdular.Son günlər Nərmin onlara ulduzlara baxar kimi baxır, hər baxışında onların ən xırda çizgilərini də yaddaşına həkk eləməyə çalışırdı.İrəlidə nələr olacağını kimsə bilmirdi.Şübhəsiz, bu bir savaş olacaqdı.Bu savaş, Nərminin-Gülxarın öz keçmişi ilə savaşı olacaqdı.Bu savaş, həm də ölüm-dirim savaşı olacaqdı.

==27.

Nərminlə Kamranın kiçik ailəsində həyat öz axarı ilə davam edirdi.Kənardan baxan göz üçün, Nərminlə Kamranın üç nəfərdən ibarət olan ailəsində, həmişə olduğu kimi, bir-birinə səmimiyyətdən, qarşılıqlı hörmətdən doğan hüzur vardı. Xasiyyətləri də davranışları ilə bir-birini tamamlayan bu insanların qarşılıqlı münasibətində ümumi bir harmoniya hökm sürürdü.Ailə üzvlərindən hər kəs, həyatından məmnun olub, ailənin digər üzvləri ilə eyni qayğıları paylaşırdı.Ailənin yeganə ağbirçəyi olan Səltənət nənə də, öz sonsuz sevgisi ilə, tükənməz qayğısı ilə bu kiçik ailəyə qanad gərmisdi.Kənardan baxanların çoxu, bu xoşbəxt ailəyə qibtə edir, onlara, bəlkə də, bəxtəvərlik oxuyurdu. Nərminin Tahirə rast gəldiyi dünə kimi hər şey doğurdan da belə idi.

O gündən sonra da, ailə münasibətlərində heç nə dəyişməmişdi. Bu evdə hökm sürən sakitlik, bir-birinə qarşı qayğıkeşlik eynilə davam edirdi. Yalnız, Nərmin hər şeydən şübhələnir, bu sakitlikdə bir təhlükə, bu qayğılarda bir eyham, bir saxtakarlıq axtara-axtara özünü əldən salırdı.

Tahirin peyda olması, onu öz qabından çıxartmış, ürəyinə şübhə toxumu səpmişdi.O, Tahirə rast gəldiyi gündən qəribə hisslər yaşayır, özünü də ikiləşmiş hiss edirdi.Həmin gün Nərminlə Tahirin arasındakı qısa dialoq nələri dəyişdisə, nələri tərpətdisə, həmin gündən Nərmin özü də ayırd etməkdə çətinlik çəkməyə başladı ki, o indi Nərmindir, yoxsa Gülxar?O, illərlə Nərmin olmağa çalışmışdı. Öz dərdlərini birdəfəlik unudub, Nərminin həyatını yaşayacağına dair Səltənətə də söz də vermişdi.İndi, Tahirə rast gəlib özünü ifşa elədiyi o bircə anda Nərmin nəinki, Nərmin olaraq qalmadı, əksinə, Nərminlə Gülxarın arasında qalaraq, ikisinin də yükünü daşımağa, daha doğrusu, bu yüklərin altında əzilməyə başladı.Nərmin, artıq hər zaman yanında ikinci bir şəxsin varlığını hiss eləyirdi.Əyər o, Nərmin idisə, yanındakı da yəqin ki, Gülxar idi.Yox, əyər o, Gülxar idisə, deməli, yanındakı da Nərmin olmalı idi.Nərmin yanında ikinci şəxsin varlığını hiss elədikcə, öz-özündən xoflanır, tək qalmaqdan da qorxurdu.

Kamran Nərmindəki gərginliyi həmişə hiss edirdi, ancaq bu gərginliyin səbəbini heç cür tapa bilmirdi.Nərmindən soruşanda da, ondan doğru-dürüst bir cavab ala bilmirdi.O, sevib evləndiyi qadının əzəl gündən şit-şılığ olmadığını bilirdi.Ancaq bu qaradinməzliyin bəzən xəstəlik şəklini almasına Kamran dözə bilmirdi.Belə zamanlarda o, arvadına vaxt ayırmağı, nə yolla olursa olsun, onu əyləndirməyi özünə borc bilirdi.

Günlərin bir günü, Kamran işdən gəlib, Nərminə bir həftəlik qış tətili götürməyi, yeni ili Moskvada qarşılamağı təklif edəndə, Nərmin heç düşünmədən öz razılığını bildirdi. Çünki, fikirləşdi ki, təkbaşına altından çıxa bilmədiyi bu məsələni düşündükcə ağlını itirə bilər. Ondansa, ailəsi ilə birlikdə Moskva kimi bir yerdə yeni ili qarşılasın, bir həftə boyunca, bir dəqiqə də ayrılmadan, sevdiklərinin əhatəsində olsun.Nərmin anladı ki, bundan sonra

düşən hər fürsətdən istifadə eləməlidir.Onsuz da bu işlərin nə ilə bitəcəyini heç kəs deyə bilməzdi.Kim bilir, ailəsi ilə bir yerdə olmaq ona bir də qismət olacaqdımı?

Kamran öz təklifi ilə Nərminin yanına gələndə, onun bu təklifə bu qədər sevinəcəyini heç gözləmirdi, odur ki, sevincək halda Nərminin çiyinlərini qucaqlayıb dedi:

--Ay mənim gözəl xanımım, sən elə harasa getmək istəyirsənmiş... Bəs niyə gəlib mənə demirsən?Hələ də mənə ərk eləmirsən?Özün bilirsən ki, mənim başım işə qarışdımı, bitti...Hər şeyi unuda bilərəm. Barı, sən gəl de, ay Kamran, əl çək bu işlərdən, gəl oğlumuzu da götürək, harasa gedək.Desənə, ay doktor, həyat insana bir dəfə verilir...

Nərmin ərində, ən çox da onun bu nikbin ruhunu sevirdi.Nə baş versəydi, Kamran təmkinini pozmaz, hər şeyi ağılla, məntiqlə həll edərdi. Çox heyif ki, Nərminin qarşılaşdığı, hər kəsdən gizli problemində Kamranın müdaxiləsinə yer yox idi.Çünki, Kamranın müdaxiləsi ilə, hər şeyin bitməsi bir olardı.Bu mənada, vəziyyət çox ciddi idi, ancaq Nərmin yenə də bir anlıq da olsa, özünü Kamrandan ayrı təsəvvür eləmək, onsuz yaşamağı düşünmək belə, istəmirdi.

Moskva tətili uğurlu keçdi.Onlar bir həftəni "İzmaylovo " mehmanxanasında yerləşib, bütün günü gəzdilər.Gündüzləri görməli yerləri gəzib, Moskvanın böyük univermaqlarından bazarlıq elədilər, özlərinə çoxlu əyin-baş aldılar.Axşamları da müxtəlif restoranlarda nahar elədilər.Bir dəfə Seymuru Kremlin sütunlu salonunda təşkil olunmuş "yolka"şənliyinə də apardılar.Ən məşhur kino artistlərinin oynadığı Şaxta baba, Qar qız obrazları həm Seymur üçün, həm də onların özləri üçün unudulmaz xatirə oldu.İki dəfə də Kamranın həmkarlarına qonaq getdilər.Onlar da cərrah idilər.Kamranla bir qrupda təhsil almışdılar.Fərq onda idi ki, onlar tibb institutunu bitirəndən sonra geri qayıtmamış, qalıb buradaca işləməyə başlamış, elə o vaxtdan da Moskvalı olub getmişdilər.Onlardan adı Əli olub, ailəsinin dili ilə Alik çağırılan Kamranın tələbə yoldaşı, o vaxt Tanya adlı bir rus qızı ilə evlənmişdi.Alik özü də, evlərində rusca danışan

azərbaycanlılardan olduğundan, iki oğlu da rusca danışır, azərbaycanca bir kəlmə də bilmirdilər.Öz övladlarını milli ruhda böyüdən Nərminlə Kamran Seymurun o uşaqlarla anlaşa bilmədiyini görəndə çox pərt oldular.Çünki, onlar Aliki öz dilini bilmədiyinə görə qınamasalar da, Alik onları Seymura rus dilini öyrətmədiklərinə görə qınadı.Alikgilə qonaq getmək, onların gəzinti proqramının ən uğursuz günü oldu.O gün Nərmin bir daha heç kimə qonaq getmək istəmədiyini söylədi.Kamran arvadını haqlı sayıb, onun fikri ilə razılaşdı.

Kamran işini-gücünü atıb, bu səfəri təşkil elədiyinə görə, belə bir tədbiri həyata keçirdiyinə görə çox sevinirdi, çünki, Nərmin burada yenə də gülərüz, həlim bir xanıma çevrilmişdi.Nərminsə, öz növbəsində, fikirləşirdi ki, kaş mümkün olaydı, daha heç geri qayıtmayaydılar, elə burda qalıb, burda yaşayaydılar.Bəlkə o zaman Tahir onları tapa bilməzdi.Beləliklə də, zaman içində düşündüyü o mənfur oyunun daşını birdəfəlik başından atıb, onlardan əl çəkərdi.

Günlər tez-tez ötüb keçdi, bu bir həftəlik yeni il tətili də sona gəldi.Doğma şəhəri üçün, evləri üçün darıxan Kamranla Seymurun sevincdən uçmağa qanadı yox idi.Təkcə Nərmin, evə yaxınlaşdıqca, içindən onu gəmirən fikirlərin təsirinə düşüb, yenidən qaradinməz olmuşdu.

Bakı onları günəşli bir günlə qarşıladı.Vətəndə günəş o qədər bol idi ki, yayda göydən od ələyib, göz qamaşdıran günəşli günlərdən qışın da payına düşə bilirdi.Onlar bir taksiyə minib evlərinə gəlirdilər.Təyyarədən enən kimi, aeroportdan zəng vurub çatdıqlarını Səltətnət anaya xəbər vermişdilər.İndi o, da yəqin ki, əli ayağını basa-basa, cürbəcür ləzzətli yeməklər hazırlayırdı.

Taksi gəlib onların yaşadığı, görünüşü ilə seçilən elit binanın önündə dayandı. Bu binada həkimlər, rəssamlar, bəstəkarlar yaşayırdı. Bu kooperativ binanı Kamran kimi, hər kəs öz cibinin pulu ilə tikdirmişdi.Ona görə də, bu bina həm içəridən çox gözəl proyektlə inşa edilmişdi, həm də çöldən gözəl görünüşü var idi.Binanın giriş qapısı kodlu olub, içəriyə kənar şəxslərin daxil olmasının qarşısını alırdı.İçəridə liftin yanında liftçinin otağı

yerləşirdi.Liftçi qadınlar növbə ilə burda oturub, liftin aramsız çalışmasına nəzarət edirdilər.

Kamran qapını öz açarı ilə açıb bloka girdi, əlindəki çantaları yerə qoyub, yenidən əşyaların qalanını da gətirmək üçün çölə çıxdı.Bu arada Nırmin də əlindəki çantaları ilə içəri girdi.Gözü içərinin alaqaranlığına alışan Nərmin, adəti üzrə, başını qaldırıb pilləkanın başına baxdı.Orda, liftçinin pəncərəsinə yaslanıb ordan Nərminə baxan tanış bir siluet gördü.Nərmin diqqətlə baxanda, gözlərinə inanmadı.Bu, Tahir idi.

Qapıdan birlikdə içəri girən Seymurla Kamran, heç nəyə fikir vermədən, liftə yaxınlaşdılar.Kamran, liftçi Sürəyya xala ilə salamlaşdı, hal-əhval tutdu. Sürəyya xala onları görən kimi ayağa qalxıb dedi:

--Kamran doktor, düz deyirlərmiş ki, yaxşı adam sözünün üstünə gələr.İndicə bu oğlanla sizdən danışırdıq.

Kamran Tahirə diqqətlə baxıb soruşdu:

--Xeyir ola, nə barədə danışırdınız?Mən sizi tanımadım...

Sürəyya xala cavab verməkdə Tahiri qabaqlayıb dedi:

--O da sizi tanımır, ancaq bu gün qəribə bir şey baş verib.Bu oğlan qəzetdə satılıq ev axtarırmış, biri telefonunu qoyub ki, belə bir ev satıram.Oğlan da zəng vurub ünvanı istəyib ki, gəlib evə baxsın.İndi bura gələndə məlum oldu ki, verilmiş ünvan sizin ünvanınızdır. Bayaqdan mən də bu balama onu başa salıram ki, burda nəsə bir yalnışlıq var.Siz evinizi niyə satasınız ki?Ola bilsin, kimsə ya sizinlə, ya da bu oğlanla zarafat edib.

Nərmin eşitdiyi bu söhbətdən donub qalmış, nitqi qurumuşdu. Bir ara ona elə gəldi ki, bu olanlar bir yuxudur, belə şey gerçək ola bilməz.Tahir bu qədər cəsarət edib, gəlib onların ağzının içinə girə bilməz.Nərmin yuxunu qovmaq üçün yavaşca başını tərpətdi, ancaq heç nə baş vermədi.Açıq-aşkar gördüyü mənzərə bu idi ki, Tahir Kamranla üz-üzə dayanmışdı.Kamran ona izahat verirdi.O deyirdi:

--Bu ünvan doğurdanda bizim ünvanımızdır, ancaq biz ev satmırıq.Mən bilmirəm, bu kimin işi ola bilər, ancaq bu kimdirsə, yəqin sizinlə zarafat edib.

Tahir Nərmini görməməzliyə vurub, öz rolunu məharətli artist kimi oynamaqda davam edirdi.

--Dəqiq bilirsiniz ki, mənimlə zarafat ediblər?Bəlkə kimsə elə sizinlə zarafat edib?

Kamran yad adamın belə üzlü olub, onunla zarafatlaşmasından əsəbləşdi, tonunu dəyişib dedi:

--Ay yoldaş, burda araşdırmalı bir məsələ var idi, o da araşdırıldı, biz ev satmırıq.Sağ olun.

Bunu deyib Kamran üzünü liftə sarı döndərib düyməni basdı.Lift gəldi, onlar köməkli əşyaları liftə yığıb yuxarı qalxdılar.Lift qalxan vaxtda Kamran üzünü bəmbəyaz olduğundan, az qala ruha dönmüş Nərminə tutub dedi:

--Vallah, elə bil millətin başı xarab olub ey...Əylənməyə mövzu axtarırlar.Sən bunun üzlülüyünə bir bax, elə bil mənimlə bir məktəbdə oxuyub.

Kamran hələ indi fikir verib gördü ki, Nərmin özündə deyil.Əlini uzadıb Nərminin yanağını sığallayaraq soruşdu:

--Eey...Gözəlim, sənə nə oldu?Qorxdun yoxsa?

Nərmin başını onun sinəsinə qoyub dedi:

--Həə...Qorxdum, bu söhbət heç xoşuma gəlmədi.

Seymur onların ikisini də qucaqlayıb dedi:

--Ana, qorxma, atamla biz səni hər kəsdən qoruyarıq.

Kamran oğlunun bu sözünə güldü, Nərminsə, fikirləşdi ki, oğlunun sözü necə də yerinə düşdü...O, əyilib oğlunun üzündən öpdü.

Səltənət, doğurdan da süfrəni cürbəcür yeməklərlə doldurmuşdu. O, içəri girən Kamranı, Nərmini qucaqlayıb öpdü, sonra Seymuru bağrına basıb oturdu.Səltənət lal-dinməz ağlayır, Seymursa, onun ağ saçlarını tumarlaya-tumarlaya deyirdi:

--Nənə, ağlama, bir də səni qoyub getmərik, hara getsək, səni də özümüzlə apararıq.

İri yol çantasını yataq otağına sürükləyən Kamran birdən dayanıb dedi:

--Vallah uşaq doğru deyir, axı niyə biz Səltənət xanımı da özümüzlə aparmadıq?Bu bizə dərs olsun, düz demirəm Nərmin?

Nərmin otaqdan boylanıb dedi:

--Ana, niyə ağlayırsan?Bir həftə nədir ki, ondan ötrü belə kövrəldin? Onsuz da, bir də bundan sonra sənsiz heç yerə getməyəcəyik.

Nərmin anasının könlünü bir az da xoş eləməkçün əlavə elədi:

--Bilirsən, yerin necə görünürdü?

Səltənət sakitləşib Seymuru qucağından buraxdı.Gülümsəyib utana-utana dedi:

--Fikir verməyin, qocalıqdandır.Mənim sizdən başqa kimim var axı?Getdiniz, elə bil oba köçdü, yurdu qaldı.Şükür ki, gəlib çıxdınız, həmişə evinizdə...Əlinizi yuyun, keçin süfrəyə.

Yeməkdən sonra hər kəs dövrə vurub oturdu, Nərmin də Moskvanın məşhur dükanlarından aldığı əyin-başı göstərə-göstərə yerbəyer eləməyə başladı.O, hər dəfə anasına aldığı bir şeyi ona verəndə, Səltənət əvvəl utanır, sonra uşaq kimi sevinirdi.Səltənət elə hey Nərminin ona verdiyi yun jaketləri, isti köynəkləri, corabları, plaşı, baş örtüklərini alıb yanına yığırkən, bir də baxdı ki, yanında bir qalaq şey var.O, ürəkdən gülərək dedi:

--Allah köməyiniz olsun, daha deyin mənə bazarlıq eləməyə getmisiniz də...Başınıza xeyir, mən bunları nə vaxt geyinib qurtararam, buna heç ömrüm də çatmaz ki...

Sonra birdən ciddiləşib əlavə elədi:

--Çox sağ olun, payınız çox olsun, cibinizə min bərəkət.Kamran, oğlum, çoz sağ ol, zəhmət çəkmisiniz, xərc çəkmisiniz...Bir kiçik hədiyyə də bəs idi.

Kamran gəlib Səltənətin yanında oturdu, onun çiyinlərini qucaqlayıb dedi:

--Elə deməyin, Nərminlə ikimizə bir anamız var, borcumuzdur. Sağlıqla geyinin, Allah ömür versin.Seymurun nənəsi bizim üçün hər kəsdən əzizdir.

Nərmin ərinin bu sözlərindən kövrəldi.Yaxınlaşıb əvvəlcə Səltənətin, sonra Kamranın üzündən öpdü.Seymur bunu görüb anasının üstünə qaçdı:

--Bəs mən?

Nərmin də onu qucaqlayıb bir necə dəfə öpdü, dedi:

--Hə, bu da sən...

Axşam hamı yerinə girib yatanda, Nərmin mətbəxdə son yır-yığışını edə-edə fikirlərini də saf-çürük eləməyə başladı.Əyər evə gələrkən, liftin yanındakı çağrılmamış qonaq olmasaydı, indi o özünü dünyanın ən xoşbəxt qadını hesab edə bilərdi.Nərmin nə qədər çox fikirləşirdisə, Tahirin bu günkü hərəkətinə bir ad qoya bilmirdi.Onun bu qədər həyasızlıq edəcəyini, Nərmin gözü ilə görməsəydi, inanmazdı.Aydındır ki, Tahir bu riskli addımları bilə-bilə atırdı.Bu hərəkətlərində, onun Nərminə anlatmaq istədiyi şeylər var idi.Bu da o demək idi ki, Tahir artıq Nərminin boynuna keçirtdiyi kəndirin halqasını daraltmağa başlamışdı.Nərmin, təhlükənin onun özünə, evinə, ailəsinə bu qədər yaxınlaşacağını təsəvvür eləməmişdi.Bir möcüzə gözləyib, nəyəsə arxayın olduğuna görə, vaxtı boş-boşuna uzatdığına görə, ürəyində özünü qınadı.Bu gün olanlardan sonra, Nərmin anladı ki, artıq yubanmaq olmaz.Elə bu günlərdə o, Tahirlə görüşüb danışmalı, şərti hər nə olacaqsa, qəbul eləməlidir.Əks halda, onun növbəti addımı ilə, düzəlməsi bir daha mümkün olmayan şeylər baş verə bilər, bu dəfə hər şey, artıq birdəfəlik, alt-üst olardı.

==28.

Nərmin qərarını almasına almışdı, bu işi daha gecikdirməyəcəkdi, ən yaxın zamanda Tahirlə danışacaqdı.Ancaq, bu qərarı həyata keçirmək üçün o, hələ özündə bir xeyli cəsarət toplamalı idi.Çünki, özünə xas qətiyyətini günbəgün itirən Nərmin, birdən-birə hərəkətə keçməyə ürək eləmir, hər səhər oyananda, bu məsələ ilə əlaqəli atacağı addımı gələn dəfəyə saxlayırdı.Ancaq, iş elə gətirdi ki, Nərminin heç özü də gözləmədiyi halda, Tahirlə danışığa girmək, onun düşündüyündən də xeyli yaxına düşdü.Günlərin bir günü, Nərmin oğlunu məktəbdən götürmək üçün gedərkən, məktəbin həyətində qarşılaşdığı mənzərə, bu işin bu qədər tezləşməsinə səbəb oldu.

Səltənət təqaüddə olduğundan, Seymuru məktəbdən gətirmək çox vaxt onun payına düşürdü.Yalnız, hərdən, onun işi olduğu

günlərdə, iş qrafikinin verdiyi imkanlara əsasən, uşağın dalınca ya atası, ya da anası gəlirdi.Həmin gün Səltənət qonşuları ilə bağa, Kamran da işə getdiyindən, Seymuru məktəbdən gətirmək Nərminin boynuna idi.Nərmin, erkən oyandı, evləri yığıb-yığışdırdı. Yemək hazırladı.Bir də baxdı ki, Seymuru məktəbdən gətirmək saatı çatıb.O, telefonla Kamranın sürücüsünü aradı. Sürücü, bayaqdan aşağıda gözlədiyini söylədi.Nərmin çantasını alıb tələsik aşağı endi.

Nərmin məktəbin darvazasının önündə maşından düşüb, yeyin addımlarla həyətə daxil olanda, anladı ki, əbəs yerə tələsirmiş.O, məktəbin həyətinə girəndə, böyük tənəffüs hələ yenicə başlamışdı. Şagirdlər dəstə-dəstə qruplara ayrılıb, hərəkətli oyunlarla əylənir, müəllimlər də bir tərəfdə toplaşıb söhbət edirdilər.Uşaqlarını aparmağa gələn valideyinlərdən kimisi, elə ordanca uşağını götürüb gedir, kimisi də övladının dərsləri barədə məlumat almaq üçün müəllimlərin yanına yaxınlaşırdı.Hələ iki il öncə, məktəbin yuxarı sinif şagirdləri tərəfindən əkilmiş ağaclar artıq böyüyüb, məktəb binasını dörd bir tərəfdən əhatə eləmiş, məktəbin həyətini yamyaşıl bağçaya çevirmişdi.Ağacların qol-budağı bağçada qaçışan şagirdləri görünməz elədiyindən, Nərmin ha baxırdısa, Seymuru görə bilmirdi. Nərmin gözü ilə Seymuru axtardığı bu qısa vaxt içində ürəyinin həyəcanla döyündüyünü, nəfəsinin təngidiyini hiss elədi.O, bədənini bürüyən qəribə bir hissin səbəbini anlamağa macal tapmamış, ağlından ildırım sürətilə ötüb keçən bir siqnalın təsirilə, indicə hansısa bir təhlükənin şahidi olacağını hiss elədi.Elə bu fikrini özü üçün aydınlaşdırmaq istəyirdi ki, məktəbin sağ tərəfindəki yaşıllığın arasından Seymurun dayanıb kiminləsə söhbət elədiyini gördü. Nərmin bayaqdan gözü ilə ancaq oğlunu axtardığından, diqqəti də ancaq oğlunda idi.O, həmin an Seymurla üz-üzə dayanan adamın fərqinə varmadı.Oğlunu gördüyünə sevinərək, yeyin addımlarla ağaclığa girdi.Nərmin, oğlunun kiminlə üz-üzə dayandığını görüncə, sevinci üzündə domdu, o, ildırım vurmuş kimi, yerində quruyub qaldı. Tahir diz üstə çömələb Seymurun qollarından yapışmışdı, uşağa nəsə danışırdı.Nərmin tez

Seymurun reaksiyasına fikir verdi. O, nədənsə, Seymurun görünüşündə bir qorxu, bir tələş görəcəyini düşünmüşdü, halbuki, Seymur Tahirin danışdıqlarına ürəkdən gülür, onun dediklərini başının hərəkəti ilə təsdiqləyirdi.

Övladını belə bir təhlükəli insanla bu qədər yaxın təmasda görən Nərminin dünya başına dolandı.O, əvvəl istədi ki, Tahirin üstünə cumub, onun barəsində düşündüklərini üzünə çırpsın.Sonra birdən ayıldı, özünə gəldi.Anladı ki, belə bir hərəkət həm burdakı uşaqlı-böyüklü hər kəsin diqqətini cəlb edər, həm də bu hərəkətdən sonra Seymur burda gördüklərini mütləq atasına danışardı.Nərmin işləri cızığından çıxartmamaqdan ötəri, bir az da dayanıb, bu vəziyyətdə necə hərəkət edəcəyini fikrində düzüb-qoşdu.Ancaq bundan sonra, ağacların arasından çıxıb, oğluna sarı addımladı.Tahir onu birinci görüb, Seymurun qollarını buraxdı, ayağa qalxdı.Nərmin içində kükrəyən vulkanı biruza verməməyə çalışaraq, yaxınlaşıb nəzakətlə salam verdi.Görünür, onun bu hərəkəti Tahirin xoşuna gəldi.O da eyni nəzakətlə salam verib dedi:

--Mən də oğlumu bu məktəbə yazdırmağı düşünürdüm, birdən bu cavan oğlanı görüb tanıdım.Ondan bu məktəb haqqında bir az məlumat almaq istədim.Eybi yoxdur ki?

Nərmin ciddiyyətini saxlayaraq, yavaşca dedi:

--Yox...Nə eybi olacaq?

Tahir öz sınayıcı nəzərini bir an belə Nərmindən ayırmadan, susur, sanki Nərminə öz qərarını bildirməyə imkan verdiyini anlatmaq istəyirdi.Nərmin Seymurun əlindən tutub özünə sarı çəkdi.Onun çantasını alıb dedi:

--Oğlum, get müəllimlə xudahafizləş, mən də gəlirəm.

Seymur cəld anasının əlini buraxıb məktəb binasına doğru qaçdı.Nərmin Tahirlə üz-üzə qaldı.O, Seymurun tezliklə geri gələcəyini bildiyindən, vaxt itirmədən, Tahirə suallarını yağdırmağa başladı.Suallar elə-belə suallar deyildi, bu suallarda Nərminin ürəyinin üsyanı var idi.Bu suallarla Nərmin həm Tahiri ittiham edirdi, həm də döyüşə çağırırdı.

--Sən nə eləməyə çalışırsan?Fikrin nədir?İstədiyin nədir?Əyər

qəsdin mənim ailəmi dağıtmaqdırsa, belə də de, sənə zəhmət qalmasın, mən elə bu axşam açıb hər şeyi olduğu kimi yoldaşıma danışım.Yox, əyər başqa bir fiktin varsa, onu da de.Nə olacaqsa, olsun, sən də sakitləş.Daha nə oyun oynayırsan? Yox, əyər başqa bir fikrin varsa, uzatma, oyun oynama, açıq-aşkar söylə, mən də baxım görüm, sənin üçün nə edə bilərəm...Ancaq, budur sənə deyirəm, nə mənim anama, nə yoldaşıma, nə də oğluma bundan sonra bir daha yaxın durma, yoxsa peşman olarsan.Səni bir də onların həndəvərində görsəm, elə o gün hər şeyi açıb yoldaşıma danışacağam.Mən nə itirəcəyəm, bilmirəm, ancaq sən, Əli aşından da olacaqsan, Vəli aşından da.Bunu unutma!

Tahir Nərminin cəsarətinə, danışığındakı qətiyyətə heyrət edərək, onun bu qədər dəyişdiyinə inana bilmirdi.Arada, hətta ona elə gəldi ki, qarşısındakı doğurdan da Gülxar deyil, tamam başqa bir qadındır.Ancaq bu fikir tez uçub getdi, Tahir də öz qorxusunu kinayəli baxışlarının altında gizlədərək, dedi:

--Bax, görürsən, həkim arvadı olandan, əməlli-başlı danışmaq öyrənmisən.Elə bil yetim Gülxar deyil, bir professor danışır.

Nərmin onun bu kinayəsindən əsəbləşib dedi:

--Bəsdir məni ələ saldın, sözün varsa, sözünü de, mən getməliyəm.Sənin şit zarafatlarını dinləməyə gəlməmişəm.

Tahir vəziyyəti belə görüb anladı ki, Nərmin doğurdan da qətiyyətlidir, getsə, ola bilər ki, onunla öz oyununu oynamağa bir daha fürsət olmasın.Odur ki, o da cidiləşib dedi:

--Mənə bax, hikkəni bir az azalt, mənə ultimatum vermə.Burda şərtləri mən qoyuram.Mən deyəcəyəm, sən də yaxşı-yaxşı dinləyəcəksən.İndi qulağını aç, məni diqqətlə dinlə."Nizami" kinoteatrının yaxınlığında, kinoteatrın qarşısından keçib sola dönən kimi, pilləkənlə zirzəmiyə enən bir dərzi atelyesi var.Orda Ziba adında bir dərzi qadın işləyir.Sən bundan sonra tez-tez onun yanına, özünə paltar tikdirməyə gedəcəksən.Detalları özün fikirləşərsən.Hər dəfə sən Zibanın yanına gedəndə, mən də orda olacağam.Orda kişi geyimi bölümü də var.Daha neyləyim, mən də özümə kostyum tikdirərəm də...Uzun sözün qısası, biz sənin lə hər

dəfə orda görüşəcəyik.Mən sənə hansı məbləği desəm, sən də onu ora gətirdəcəksən.Beləcə, sən ailəni dağılmaqdan qoruyacaqsan, mən də borclarımdan yaxa qurtaracağam.Mənim şərtim belədir, indi sən qərar ver.

Nərmin eşitdiklərindən qorxub, bəmbəyaz olmuşdu.Bu manyakın əlindən asanlıqla qurtara bilməyəcəyini bu gün bir daha anladı. Razılığını bildirməzdən əvvəl, bu manyakı son dəfə yola gətirmək məqsədi ilə dedi:

--Mən də sənə pis təklif eləmirəm ki, Tahir.Sən gəl mənə bir qiymət de, mən də tapıb-düzəldib

gətirim, bu oyun da birdəfəlik bitsin.Uzatmağın nə mənası var?Ha xırda-xırda almış, ha birdəfəlik almış, pul puldur da....Nə fərqi var, al pulunu, sonra xırda-xırda xərcləyərsən də...Sən pulunu götür get, biz də rahat olaq da...Bu daha yaxşı deyilmi?

Tahir o saat ciddiləşdi, kinli-kinli Nərminə baxıb dedi:

--Məni uşaq yerinə qoyma!Ağlını da özünə saxla!Belə faydalı məsləhətləri ərinə verərsən.Mənim şərtim budur, nə zaman desəm, nə qədər desəm, o qədər də götürüb dediyim yerə gələcəksən. Bildin?! Planlarında səndən asılı olmayan dəyişikliklər baş versə, zəng vurub Zibaya məlumat verəcəksən.Əks halda, başına çox işlər gələ bilər.Talehinlə oynamaq istəmirsənsə, dediyimi edəcəksən...Onda heç kəs heç nə bilməz.Cavabını gözləyirəm, mənim də işim var, getməliyəm...

Nərmin xatırladı ki, özü bu danışığı başlamağı, onun şərti hər nə olsa, qəbul eləməyi qərara almışdı.Bundan sonra bu məsələni uzatmağın mənası yox idi.İşin içindən iş çıxmamış, bu gözünü qan tutmuş adamın şərtini qəbul eləməkdən, dediyi məbləği vaxtlı-vaxtında ona çatdırmaqdan başqa çarə qalmamışdı.Odur ki, Nərmin hər şeyini itirmiş insanlar kimi, güclə eşidiləcək səslə dedi:

--Yaxşı, necə deyirsən, elə də olsun.Ancaq söz ver ki, bir daha ailəmə yaxın durmayacaqsan, onlarla işin olmayacaq.

Tahir, məmnunluqdan gözlərini süzdürərək, dedi:

--Mən söz vermək durumunda deyiləm, çaşma...Ancaq özüm, keçmiş dostluğumuzun xatirinə deyirəm ki, nə qədər əməliyyat cızığından çıxmayacaq, nə qədər dediyimi vaxtında çatdıracaqsan,

mənim də heç kimlə işim yoxdur.Sən diqqət elə ki, hər şey vaxtlı-vaxtında, yerli-yerində olsun. Onda problem də çıxmaz.

--Çalışaram...

--Elə isə, uzatmadan birinci əməliyyatımızı elə burdaca planlaşdıraq. Gələn həftənin üçüncü günü, saat üçdə...Unutma, üçüncü gün, saat üçdə, beş min manat pulla Zibanın yanında ol.Çalış, tam vaxtında gəl, yox, əyər dəqiq o vaxta yetişə bilməsən, telefonla Zibaya xəbər ver. O mənə çatdıracaq.Aydın oldu?

Nərmin, indicə eşitdiyi sözlərə "hə" desə, necə bir çirkaba bulaşacağını da yaxşıca anladı, ancaq başqa bir yol tapa bilmədiyindən, tam bir ümidsizlik ifadə edən səslə cavab verdi:

--Oldu...

Tahir ona diqqətlə baxıb dedi:

--İndi get, yəqin oğlun gözləyir...

Nərmin, çarəsizlikdən, qolları yanına düşmüş halda, ağaclıqdan çıxıb, bayaqdan onu gözləyən maşına sarı yeridi.Seymur həmişə olduğu kimi, şoferin yerini dəyişib özü sükan arxasına keçmişdi. Onun "qğınn...qğınn..."deyə-deyə guya maşın sürdüyünü görən Nərmin, ürəyindəki boşluğun böyüklüyünü hələ də hiss edərək, acı-acı gülümsədi.

Elə o gündən də, Nərmin ailəsindən gizlin, çirkin bir şantaja məruz qalaraq, öz evinin oğrusu oldu.Tahirin tələb elədiyi beş min manat pulu Nərmin, heç kəsə heç nə demədən, Kamrandan da izin almadan, evlərindəki balaca seyfdən götürdü.O, hələ də nə isə bir möcüzə baş verəcəyini, bu qorxulu macəranın bir gün bitəcəyini düşünür, bu dəfəlik heç kəsə heç nə demədən bu pulu Tahirə vermək istəyirdi.

Danışaıqları kimi, həmin gün Nərmin Tahirin nişan verdiyi atelyeyə gəlib Zibanı tapdı. Ziba, 35-40 yaşlarında, qaraçılar kimi zövqsüz geyinib, üzünə bolluca ənlik-kirşan çəkmiş bir qadın idi.Nərmin ürəyində fikirləşdi ki, Tahirin yaşadığı həyat tərzində, ancaq bu tip qadınlara yer olardı.Ziba Nərmini başdan-ayağa incələyən bir baxışla süzüb dedi:

--Nərmin xanım, bundan sonra tez-tez görüşmək

məcburiyyətində olduğumuz üçün, sizə bir neçə parça növü göstərəcəyəm. Siz parçanı seçin, mən də bacarığımı nümayiş etdirərək, sizə bir paltar tikim. Görüm, əl işimi bəyənəcəksinizmi? Özümü tərifləmək üçün demirəm, ancaq biləsiniz ki, artistlərin çoxu paltarını mənə tikdirir.

Nərmin narahat-narahat yerində vurnuxur, tez bir zamanda Tahirlə görüşüb, pulu ona verməyi, üzün sürə onun da, bu üzündən yağ daman qadının da üzünü görməməyi arzulayırdı.Ziba, sanki onun fikirlərini baxışlarından oxudu, o dedi:

--Narahat olma, o burdadır, o biri bölmədə...Sənin paltar sifariş verməyini gözləyir.

Nərmin bu, hər şeyi bilib, hər şeyə müdaxilə edən qadına acıqla baxıb dedi:

--Nə sifariş, məyər mən sifariş verməyə məcburam?Çağır gəlsin, vaxt gedir...

Ziba ona əyri-əyri baxıb dedi:

--Mənə bax, ay qız, bu bir dəfəlik iş deyil ey, gələsən-gedəsən, buranın yolunu da birdəfəlik unudasan...Sənə deyirəm ki, bura tez-tez gəlməli olacaqsan.Bəs evdəkilərə nə deyəcəksən?İstəməzsən ki, burda tikdirdiyin paltarı hamıya göstərəsən, camaat da səndən şübhələnməyə?

Nərminin bu qadınla höcətləşməyə daha hövsələsi çatmadı, çarəsiz təslim olub dedi:

--Yaxşı, gətir parçaları...

Ziba yan otağa keçib tez də qayıtdı.Görünür, məsələnin bu tərəfi də Tahir tərəfindən əvvəlcədən hazırlanmışdı.Nümun üçün seçilmiş parçalar Nərminin gözləmədiyi qədər gözəl, həm də bahalı parçalar idi.Nərmin, ürəyi qan ağlaya-ağlaya, onlardan birini seçdi, Zibaya heç nə demədən, masadan bir parça kağız götürüb, üstündə çox sadə bir model çəkdi.

--Belə bir çey olsun...

Ziba,gah bu rəsmə, gah da Nərminə baxıb rişxəndlə dedi:

---Nə deyirəm, xanım nə deyirsə, o da olacaq.

Ziba Nərminin bədən ölçülərini götürdü, parçaları da götürüb

çıxdı.Bu vaxt Tahir içəri girdi.O, Nərmini həris baxışlarla süzüb dedi:

--Xoşum gəldi, gecikmədin...Pulu necə, gətirdinmi?

Nərmin onun üzünə də baxmadan, çantasından bir dəstə pul çıxardıb ona uzatdı.Tahir pulu alıb baxdı, sonra kənara çəkilib pulu saydı.Hər şeyin qaydasında olduğundan arxayın olduqdan sonra, Nərminə yaxınlaşıb dedi:

--Nədir, olmaya mənimlə danışmağa da iyrənirsən?Axı sən uca yerlərin xanımısan, bizimlə nə işin, həə...?

Nərmin onu acıqlı baxışlarla süzüb dedi:

--Bax, Tahir, səni son dəfə xəbərdar edirəm, sən də işini təmiz tut.Aldığın pula qarşı heç bir atmaca, heç bir oyun olmasın.Yoxsa, hər şeyin üstündən xətt çəkib, tutduraram səni.Halıma bax, və anla ki, mən çox ciddiyəm...

Tahir duruxub bir müddət düz onun gözünün içinə baxan Nərminə baxdı, heç nə demədi.O, sanki qadının gözündən onun qətiyyətini oxuyub, daha hər hansı bir artıq hərəkət eləməyə ehtiyat elədi.Aldığı pulları pencəyinin içəri cibinə qoya-qoya dedi:

--Yaxşı, hədə-qorxu gəlmə.Bilirsən ki, mən qorxu nə olduğunu bilən deyiləm.Zibaya telefon nömrəni ver, o sənə zəng vurub, paltarı üstünə ölçməyə çağıracaq.Nə vaxta çağırsa, bil ki, səni mən çağırıram.Deyilən vaxt da gələrsən.Mənim istəyəcəyim məbləği də sənə Ziba deyəcək.Nə qədər desə, o qədər də gətirəcəksən.Bundan sonra əlaqələrimiz bu şəkildə davam edəcək.Bu günlük sənlə işimiz bitdi.Gedə bilərsən!

Elə bu sözə bənd imiş kimi, Nərmin tez qalxıb, sağolsuz, filansız otaqdan çıxdı.Tahir onun ardınca baxa-baxa qaldı.

==29.

Aradan bir il keçdi.Bu bir ildə Nərmin həyatının bəlkə də, ən çətin günlərini yaşadı.O, Tahirin tələb elədiyi böyük məbləğləri, hər cür vasitə ilə tapıb, vaxtlı-vaxtında ona çatdırmaqdan ötəri olmazın əziyyətlər çəkir, bu yolda öz ailəsini də aldatmalı olurdu.Nərmin gah özünə nifrət edir, gündə neçə dəfə hər şeyi Kamrana etiraf eləməyi

düşünür, gah da özünü, bu addımı atmaqdan güclə saxlayıb, bu işlərin bir gün bitəcəyinə ümid edə-edə nəyisə gözləyirdi.Ancaq, nə bir möcüzə baş verirdi, nə də Tahirin gözü doyurdu.İlk dəfədən tələbini beş minlə başlayan Tahir, sonralar bu məbləği artıraraq, əvvəlcə yeddi, sonra on, daha sonra iyirmi minə çatdırdı.Məbləğ artdıqca, onu tapıb düzəltmək də çətinləşirdi. Kamran artıq, çox nəzakətlə də olsa, Nərmindən bu qədər pulu hara xərclədiyinə dair izahat da istəmişdi.Nərmin də tələsik bir nağıl uydurub, Kamrana danışmaq məcburiyyətində qalmışdı.Guya ki, Nərminin gənclik rəfiqəsi onun üstünə borca gəlib, övlad sahibi olmaq üçün xaricə müalicəyə getməyə ondan pul istəyib.Rəfiqəsinin övladı olmaması üzündən ailəsi dağılmasın deyə, Nərmin də ona evdən pul verib.Nərmin ilk dəfə bu söhbəti Kamrana danışanda, Kamran ürəyinin təmizliyindən bu duruma anlayış göstərib, çox sakit qarşıladı.Kamran o vaxt Nərminə inandı da.Ancaq sonralar, həm tez-tez evdən yoxa çıxan pullar, həm də Nərmində baş verən dəyişikliklər, Kamranda arvadının davranışlarına qarşı şübhə oyatmağa başladı.Son günlər Nərminin əsəbləri elə pozulmuşdu ki, hər qəfil səsdən dik atılır, hər xırda şey üçün əsəbləşirdi.Kamran, gün keçdikcə, arvadının daha da gərginləşdiyini görüb, Səltənətlə məsləhət eləmək üçün, bir gün səhər qalxıb işə getmək yerinə, onlara getdi.Səltənət qapını açıb, Kamranı qapıda görən kimi, məsələni başa düşdü.Çünki, o özü də, son günlər qızının halını görürdü.Kamranın bir gün buraya gəlib, bu mövzunu açacağını da gözləyirdi.Səltənət Nərmində ciddi bir əsəb pozğunluğu olduğunu nə vaxtdı, müşahidə edirdi.O, qızından bu halının səbəbini soruşanda, Nərmin demişdi:

--Ana, mən sadəcə bir az yorulmuşam.Əsəblərim pozulub.Ancaq siz də çox şişirtməyin, yayda gedib hardasa istirahət edərik, keçib gedər.Artıq neçə dəfə belə olub, özün bunun şahidi olmusan ki...

Səltənət Kamrana qızı ilə aralarındakı söhbəti danışanda Kamran dedi:

--Səltənət xanım, bəlkə yenə də onu götürüb harasa gedək? Nərminin bu halı heç xoşuma gəlmir.

Səltənət onun sözünə cavab olaraq dedi;

--Oğlum, bu günlərdə mən də söhbət eləmişdim onunla.Sənin dediyini mən də demişdim ona.

--O nə dedi?

--Bilirsən, necə etiraz elədi?Belə dedi ki, iki dünya bir olsa, indi olmaz, hələ bir qoy yay gəlsin, onda baxarıq.

Kamran ümidsizləşmiş bir halda qaynanasından soruşdu:

--Səltənət xanım, bu qızın dərdi nədir?Niyə durub-durukən bu hala düşür?Məsləhət verin, mən nə eləyim ki, həyat yoldaşımı bu halda görməyim?Vallah, hərdən mənə elə gəlir ki, onun bizdən gizli bir dərdi var.Elə bil hansı bir problemləsə əlləşə-əlləşə qalıb.Açıb dərdini desəydi, mən də kömək edərdim.Ancaq demir ki...Elə deyir, yorulmuşam.Ancaq bu heç də yorğunluğa bənzəmir.

Kamran öz fikrini bu sözlərlə ifadə etməklə Səltənətin də ürəyinə şübhə toxumu səpdi.Yaşlı qadın fikrə getdi, yadına bəzi şeylər düşdü, xatirində bəzi şeylər canlandı.Kamrana bir söz demədisə də, özlüyündə ən yaxın zamanda Nərminlə göz-gözə danışmağı qərara aldı.Kamrana isə dedi:

--Səbirli ol, oğlum.Mən də qızımla danışaram, əyər bir dərdi, bir problemi varsa, öyrənərəm.Ancaq mən də fikirləşirəm ki, o sadəcə yorulub.Özün neçə dəfə şahidi olmusan ki, bir neçə günlüyə də olsa, istirahər edən kimi, özünə gəlir.Bu dəfə də elə olar.Mən onu yola gətirərəm, gedib hardasa dincələrsiniz.

Səltənətin dedikləri Kamranı qane eləmədisə də, o daha söhbəti uzatmadı, qalxıb Səltənətlə xudahafizləşdi, xəstəxanaya işə getdi. Səltənət də fürsətdən istifadə edib, Nərminlə görüşmək üçün, elə onun ardınca yığışıb evdən çıxdı.

Səltənət qızıgilə gələndə, Nərmin hələ də yataqda idi.Başqa vaxt olsaydı, Səltənət onu, bu vaxta qədər yataqdan çıxmadığına görə ərklə danlayardı.Ancaq indi vəziyyət başqa idi.Nərmin doğurdan da xəstəyə oxşayırdı.Onun bənizi avazımış, gözlərinin altı qap-qara yanmışdı. Özü də halsız, kefsiz idi.Səltənət yataq otağının pəncərələrini tay-batay açıb, bayırın təmiz havasını içəri buraxdı.

--Nərmin, heç sən bu vaxta qədər yatardınmı? Qalx, mənim gözəl qızım, sənə yataqda yatmaq yaraşmır. Gör hava necə

gözəldir? Belə havada da pəncərəni qapayıb yatmaq olar?

Nərmin anasının təkidi ilə qalxıb oturdu, təmiz havanı ciyərlərinə çəkərək, dedi:

--Təmiz hava doğurdan da çox gözəldir, ancaq mən ət kimiyəm, bir az da yatmaq istəyirəm.

Səltənət yaxınlaşıb onun qolundan tutdu.

--Qətiyyən olmaz, özün də tibb işçisisən, bilirsən ki, insan yatdıqca bədənin fəaliyyəti zəifləyir.Sağlam adam da özünü xəstə kimi hiss edir.Əyər bir ağrıyan yerin varsa, sadəcə yatmaqla olmaz, gərək özünü həkimə göstərəsən.Yox, əyər heç nədən şikayətin yoxdursa, burax bu tənbəlliyi, elə bu saat qalx, əl-üzünü yu, ana-bala birlikdə səhər naharı edək.Mən də heç nə yemədən evdən çıxmışam. Nərmin daha inad eləmədi, qalxıb vanna otağına getdi.O vaxta qədər qızının evində hər şeyin yerini bilən Səltənət, çayı dəmlədi, qayğanağ bişirdi, süfrəyə yağ, pendir, cürbəcür cemlər yığıb, süfrəyə iştah açan bir görkəm verdi. Nərmin yuyunub daranmış halda gəlib süfrəyə oturdu.O, indi daha gümrah görünürdü.Səltənət naharı bitirənə kimi heç nə danışmadı.Elə ki, nahar bitdi, Səltənət də hər şeyi yığışdırıb yerli-yerinə qoydu, gəlib Nərminin yanında oturdu.Nərmin anasının əllərini əlinə alıb dedi:

--Çox sağ ol, ana, gəldin, uşaq kimi məni yedirtdin.Bu yaşında da sənə gör nə qədər zəhmət verirəm...

Səltənət, üzündə təbəssüm ona baxıb dedi:

--Nə zəhmət, ay qızım...Bir-birimizin qayğısına qalmaq zəhmət deyil ki...Sən onu de görüm, indi necəsən?

--Vallah, elə bil mənə yemək deyil, dərman verdin, özümü daha yaxşı hiss edirəm.Sənin elə gəlişin nəyə desən dəyər, canım anam...

Səltənət qızının kürəyini sığallayıb dedi:

--Elə isə, de görüm, bizi niyə qorxudursan, qızım?Niyə belə eləyirsən?Biz səninlə nəfəs alırıq, yoldaşın daha bilmir neyləsin sənin üçün.Sənsə, elə bil başqa aləmdəsən.Bizi nə görürsən, nə eşidirsən...Olmaya, həyatından razı deyilsən?Olmaya, bizdən gizli bir dərdin var?Kamran məndən, mən də Kamrandan soruşa-soruşa qalmışıq ki, axı bu qıza nə olub, dərdi nədir?

Nərmin Səltənətin dediklərinə qulaq asa-asa ürəyində fikirləşdi

ki, gör Tahirin oyunları işi hara gətirib çıxardıb?Bir az da belə getsə, hər kəs hər şeyi başa düşəcək.Elə bircə Kamran pul məsələsini araşdırmağa başlasa, Nərmini bircə dəfə izləsə, hər şeyin üstü açılacaq. Nərmin ürəyində özünü danladı.Sinirlərini boş buraxmamalı idi, özünü daim kontrolda saxlamalı idi.Belə şeylə zarafat olmazdı.Əyər hər şeyin üstü açılacaqdısa, onda bu qədər pulları Tahirə niyə ödəyirdi?Özünü bu qədər riskə niyə atırdı?Öz evinin oğrusu niyə olurdu?

Səltənət onun dərin fikrə getdiyini görüb, şübhələrini daha açıq söyləməyi qərara aldı.

--Qızım, Nərmin, olmaya o vicdansız gəlib çıxıb?

Nərmin elə qorxdu ki, qorxusunu gizlətməyi də unudub qaranəfəs soruşdu:

--Kim?Kimi deyirsən?

--Kimi deyəcəyəm, o da...Tahir...Adı batsın...Yoxsa o gəlib?

Səltənət elə bunu demişdi ki, Nərmin qalxıb yataq otağına qaçdı, üzüqoylu yatağa sərilib hönkürə-hönkürə ağlamağa başladı.Səltənət də cəld qalxıb onun yanına gəldi.Yatağın kənarında oturub dedi:

--Mən düz tapdım, həə?Deməli gəlib çıxıb, həə?Ay bala, ay qızım, niyə məndən gizlədirsən?Mən ki, işi başdan bilirəm, gəl denən ki, ay ana, başıma bəla gəlib, mən də fikirləşim, görüm neyləyə bilərik də...İnanırsan, Kamran demək olar ki, hər şeyi başa düşüb... Səltənətin bu sözünə Nərmin qalxıb dik oturdu.

--Sən nə danışırsan?Hər şeyi başa düşüb?Hardan bilirsən?Sənə bir söz dedi?

Səltənət onun bu sözü ilə də quşu gözündən vurduğunu anladı.O, düz tapmışdı, Tahir geri dönübmüş.Sən demə, Nərmini üzən də bu imiş.Səltənət qızı ilə açıq danışmağı qərara aldı.O dedi:

--Bax qızım, ərin bu səhər mənim yanıma gəlmişdi.Sənin halını gözü ilə görür, uydurduğun yalanlara da daha inanmır.O elə düşünür ki, sənin bizdən gizli bir dərdin var.O, sənin üçün narahat olduğundan, artıq öz araşdırmalarına başlayıb.Bu işin axırı pis olar, odur ki, məsələ hər nədirsə, mənə düzünü de, əl-ələ verib bi işin içimdən çıxaq.

Nərmin başını aşağı salıb fikirləşir, həyəcandan əllərini ovuşdurardu. Səltənət, onun bu halını yaxşı bilirdi.O, inid düşünüb bir qərar verəcəkdi.Odur ki, Səltənət susub səbirlə onun deyəcəyi sözü gözlədi.Birdən, Nərmin dönüb ona baxdı, elə baxdı ki, elə bil onu ilk dəfə görürdü.Səltənət onun bu halını görüb ürəkləndi:

--De qızım, dərdini mənə de...Məndən sənə ziyan gəlməz.İkimiz bir yol taparıq. Nərminin başını Səltənətin dizinə qoymağı ilə, yenidən ağlamağı bir oldu.

--Ana, o gəlib...Allahın bəlası gəlib...Mən bilirdim belə olacaq, o vaxt da elə bunu deyirdim...Gəlib tapdı məni...İndi də yaxamı qurtara bilmirəm əlindən.Məni şantaj edir, pul istəyir...

--Pul istəyir?Deməli, indiyə qədər evdən götürdüyün pullar onun üçün imiş?

--Bəs kimin üçün olacaq?Əlbəttə onun üçün idi.Mən tapıb verdikcə, o daha çox istəyir.Bilmirəm neyləyim.Mən bundan yaxamı necə qurtara bilərəm ki?Bu iş bir ömür davam edə bilər.

Səltənət onu sakitləşdirib dedi:

--Dayan, dayan, panikləmə, fikirləşib bir çarəsini taparıq. Deyirsən, ancaq pul tələb edir, həə?

--Ona daha nə lazımdır ki?Qumar oynayır, uduzur, gəlib məndən pul tələb edir.Ona ancaq pul lazımdır.Son görüşümüzdə həddini lap aşıb, məndən əlli min manat pul istədi.Mən bu qədər pulu hardan tapa bilərəm?Elə yerə qısıb məni ki, nə irəli gedə bilirəm, nə də geri dura bilirəm.Dəli olmayım, neyləyim?

Səltənət fikirli halda susub onu dinləyirdi.Nərmin sözünü bitirəndən sonra Səltənət ağır-ağır dedi:

--Həə...Bu pis oldu...Əclaf, gör nə oyun aparır ey, sənlə...Bunun qarşısını almaq bir az çətin olacaq.

--Bunun qarşısını heç almaq olacaqmı ki?

--Niyə olmur?Olar...Sadəcə yaxşı-yaxşı düşünmək lazımdır.

--Ana, qurban olum, kömək elə.Ölmüşəm məni yerdən götür...Mən Seymursuz yaşaya bilmərəm.Kamran olanları öyrənsə, məni bağışlamaz.Evim yıxılar, ailəm dağılar.Ona görə boyun əydim bu əclafın dediklərinə.İndi də bilmirəm neyləyim...

==30.

Nərmin bu dəfə hər şeyi Səltənətin öyrətdiyi kimi elədi.Təyin olunmuş gündə, təyin olunmuş saatda atelyeyə gəlib əlli mini Tahirə verdi.Tahir həmişəki kimi, pulu sayıb özündən razı halda Nərminə baxırdı ki, Nərmin qarşıdakı stulu ona göstərib dedi:

--Otur, sənə sözüm var.

Tahir ilk dəfə Nərmini bu qədər ciddi görürdü.Nərmin elə bil dəyişib tamam başqa bir insan olmuşdu.Tahir qadının bu qətiyyətindən ehtiyat edib, oturdu.Nərminin gözlərində həmişəki qorxunu görmək üşün düz gözünün içinə baxdı.Ancaq orda qorxudan bir əsər-əlamət görmədi.Bu, Tahirin xoşuna gəlməsə də, özünü zorla gülümsəməyə məcbur edərək dedi:

--Buyur, Gülxar xanım, sözünü de, eşidirəm.

Nərmin Tahirin bilə-bilə ona Gülxar deməsinin səbəbini artıq anlamışdı.Bu yolla Tahir onun əvvəlki müti-qul xasiyyətini bərpa eləməyə çalışırdı.Çünki, ilk gündən anlamışdı ki, Nərmin adını götürməklə, Gülxarın təkcə adı deyil, xasiyyəti də dəyişmişdi. Nərmin adını daşıyan qadın, Gülxarın tayı deyildi, açıq gözlülüyü ilə, cəsarəti ilə, tamam başqa bir qadın idi.Bu səbəbdən də, Tahir çalışırdı ki, Nərmini kənarlaşdırıb, işini yenə də Gülxarla görsün.Ancaq Tahirin istəyi bu dəfə baş tutmadı.Nərmin nəinki, meydandan çəkilmədi, əksinə, özünün cəsarətli görünüşü ilə Tahirə meydan oxudu.Bu dəfə onun cəsarəti Gülxarı da müdafiə eləməyə çatırdı.O, deyəcəyi sözlərin ciddiyyətini artırmaq üçün, uzun bir pauza verib, aramla sözünə başladı.

--Yadında varsa, mən bizim anlaşmamızın lap başında sənə öz təklifimi vermişdim.O vaxt sən o təklifi qəbul eləsəydin, nə şiş yanardı, nə də kabab.Sən o təklifi qəbul eləmədin, öz bildiyinə getdin.Bu qədər vaxtda mən də əlləş-vuruş edib, sənin tələb elədiyin pulları tapıb-düzəldib gətirirdim.Bu gün hər şey bitdi.Bu gün mən bura son dəfə gəlmişəm.Gəlmişəm sənə deyəm ki, sabahdan hər kəs öz yoluna...Əlli mini götür get, bir daha məni narahat eləmə. Tahir qulaqlarına inanmadı.Nərmini dinləməyə hövsələsi çatmadığından, qadının sözünü kəsib bağırdı:

--Necə, necə?Nə dedin?

Nərmin əlini qaldırıb ona "sus" işarəsi verəndə, onun bu cəsarətindən Tahirin nitqi tutuldu.O, bütün bu gördüklərinə mat qalıb susdu.Nərmin, təhərini pozmadan, eyni təmkinlə sözünə davam elədi:

--Heç bağırıb eləmə, sözümü də kəsmə, məni axıra qədər dinlə.Bu gün pul bitdi, deməli oyun da bitdi.Mən sənin tələb elədiyin pulları tapana kimi özümü necə böyük risklərə atırdım, onu bir Allah bilir.Odur ki, bu gün bu oyuna son qoyuram.O ki, var, pul çəkdin məndən, daha bəsdir.Mən pul kəsən maşının yerini bilmirəm, tapıb gətirdiyim pullar hamısı borcdur.Yoldaşımın xəbəri də yoxdur ki, sənə verdiyim pullarla ailəmi xirtdəyə kimi borca salmışam.Bundan artıq heç nə edə bilmərəm.Bundan sonra nə eləsən də, məndən bir qəpik də görməyəcəksən, çünki yoxdur.Ağlın varsa, bu bizim son görüşümüz olsun.Ya sən xoşluqla məndən əl çəkirsən, ya da, bir də mənə ultimatum göndərsən, məndən pul almağa gəldiyin gün, sənin azadlıqda son günün olacaq. İşi elə quracağam ki, yerindəcə səni tutacaqlar.Bundan əvvəl də on beş illik türmə stajın olduğuna görə, fikirləş ki, bu dəfə nə qədər iş alarsan.Mənim deyəcəyim bu qədər... Tahirin qəzəbdən az qalırdı gözləri hədəqəsindən çıxsın.O, əvvəlcə Nərminin üstünə şığıdı, lakin sonra nə düşündüsə, geri çəkilib kinayə ilə Nərminə baxdı.

--Ay qız, sən məni hədələyirsən? Sən mənə şərt qoyursan? Məyər bilmirsən, sənin başına nə oyun açа bilərəm? Ərinə sənin macəralarla dolu keçmişini danışsam, səncə sən ondan sonra da Nərmin xanım ola biləcəksənmi? Sən nəyə arxayın olub belə qudurdun?

Nərmin ayağa qalxıb onun sözünü kəsdi:

--Bura bax, mən sənin hədələrindən bezdim, əlindən gələni yüz qaba çək.Pul yoxdur, bildin?Pul tapa bilmirəm daha.Canımı boğazıma elə yığdın ki, artıq səndən heç qorxmuram da, indi sən məndən qorx.Mən sənə demişdim, elə elə ki, məni divara dirəmə, əks halda özüm hər şeyi açıb yoldaşıma danışaram.Ancaq əvvəlcə səni tutduraram.Gəldiyin yerlərə qayıdıb bir az havanı dəyişərsən. Görünür, darıxmısan oralarçün.Xülasə, sən mənim dediyimi başa

düşdün. Sənə son sözüm, məni bir daha narahat eləmə.Bundan sonra nə eləsən, bil ki, odla oynayırsan.

Tahir hirsindən ağız-burnunu gəmirə-gəmirə dedi:

--Aaz...sən deyəsən unutmusan ey, mən kiməm.Mən Tahirəm ey, Tahir...yoxsa yadından çıxıb ki, mən qorxu nə olduğunu bilmirəm?Səni bu günkü artistliyinə görə ayağımın altında qarışqa kimi əzərdim.Qurban olasan ki, hələ mənə lazımsan.Əlimi sənə bulaşdırmamış rədd ol get burdan, məndən də xəbər gözlə.Bu gün burda dediklərinin əvəzini sənə ödətməsəm, mənə də Tahir deməsinlər.Bunu da yadında saxla!

Nərmin qapıya yaxınlaşıb dedi:

--Bəsdir, Tahir!Daha səndən qorxan yoxdur!Bax, budur deyirəm, odla oynama.Mən bir daha bura gəlməyəcəyəm.Yox, əyər söz eşitməyib öz bildiyini eləsən, bu sənin sonun olacaq.

Bu sözlərlə də Nərmin qapını çırpıb getdi.Tahir bu dəfə ona ürəyi istədiyi kimi hökm edə bilmədiyindən, hikkəsi içində qalmışdı.Odur ki, acığını, üstü min cür xırdavatla dolu olan dərzi masasından çıxaraq, masanı təpiklə vurub aşırtdı. Nərmin, atelyenin qapısını çırpıb çıxdıqdan sonra, olanları danışmaq üçün birbaşa Səltənətin yanına getdi.Bu gün onun Səltənətə danışmağa çox sözü var idi.Düşündüklərini Tahirin üzünə qorxmadan söylədiyi üçün, Nərminin bu dəfə özündən xoşu gəldi.İlk dəfə özündə gördüyü bu cəsarət ona elə güc vermişdi ki, Tahirə bir-iki şillə çəkmədən ordan çıxdığına da heyfisləndi.Ancaq dediyi sözləri yadına salıb düşündü ki, elə o sözlərin hər biri bir şillə qədər var idi.Səltənətin sözləri yadına düşdü.Tahir deyəsən, doğurdan da qorxmuşdu.Doğrudur, onun Nərminin cəsarətindənmi, yoxsa elədiyi hədələrdənmi qorxduğunu demək çətin idi.Ancaq, Nərmin fikirləşdi ki, Tahirin gözlərində ilk dəfə gördüyü bu qorxu, ona yəqin ki, bir yol göstərməlidir.Bəlkə də məsələ elə bununla da bitəcəkdi.Nərmin özünü indidən ümidləndirməmək üçün, məsələnin gerisini daha düşünmək istəmədi.

Nərmin, bu gün Tahirlə arasında olanları Səltənətə danışanda, Səltənət onu diqqətlə dinləyib dedi:

--Afərin qızım, hər şeyi düz demisən.Məncə, o elə bununla da əl çəkəcək.Yox, əyər bu dəfə də əl çəkməsə, elə dediyin kimi edərik.Bu dəfə mən də sənlə gələrəm.Milisə də xəbər verərik, özümüzlə adam da götürərik.Ya ona verən Allah, ya bizə...

Nərmin Səltənəti dinləyə-dinləyə dərin fikrə getmişdi.Səltənət onun çiynindən tutub dedi:

--Nərmin, qızım hardasan?Sən heç məni dinləmirsən ki...İndi nə fikirləşirsən?Yenə bir nigarançılığın var?

Nərmin fikirdən ayrılıb dedi:

--Məsələ burasındadır ki, mən bu əclafı çox yaxşı tanıyıram. Ürəyim də mənə deyir ki, bu iş belə asan olmayacaq.

--Olmayacaq, olmayacaq da...daha niyə qorxursan?Dediyim kimi edərik.Hələ bir az gözləyək, görək...

İki qadın, əl-ələ verərək, bu sirri öz aralarında ört-basdır edib gözləməyə başladılar.Onlar nə qədər öz həyatlarını heç nə olmamış kimi davam etməyə çalışırdılarsa da, qulaqları hər zaman səsdə, ürəkləri səksəkədə idi.Yalnız yay tətilini ailəlikcə Antaliyada keçirtmələri, onlara o gizli təlaşı büsbütün unutdura bildi.

Kamran ailəsini Antaliyaya aparacağına çoxdan söz vermişdi.İl boyu, Nərminin səhhəti ilə bağlı gərginlik, ailənin rahatlığını pozmuş, onları nigarançılıq içində yaşatmışdı.Belə gərgin keçən ilin sonunda gözəl bir istirahət eləmək yerinə düşərdi.Ailə üzvlərindən hər kəs, xüsusən də Kamran, bu yaya böyük ümidlər bəsləmişdi.O, inanırdı ki, Antaliya kimi bir istirahət yeri hər dərdin dərmanı ola bilərdi.Ona görə də, vaxtı yetişənə kimi səsini çıxartmadan, sənədləri hazırlayıb gözlədi.Bakıda temperatur 40-a, 42-yə qalxan avqust ayı başlamadan, ailəsinə sürpriz edib, onları Türkiyənin ən gözəl guşələrindən birinə istirahətə apardı.Kamran burda tamam başqa bir adam oldu. O, ailə üzvlərindən hər birinin nazı ilə oynamaq məqsədilə heç nəyə "yox" demir, onları istədikləri yerə aparırdı.Gün boyu Kamran Nərmini, Seymur da nənəsini əyləndirir, iki kişi onlara aid olan qadınların könlünü hər vəchlə xoş eləməyə çalışırdılar.Onlar ən bahalı hotellərdən birinin iki nömrəsinə yerləşmişdilər.Səltənət nəvəsi ilə bir otaqda qalırdı.

Nərmin yenə də Kamranın nə zamandan bəri həsrətini çəkdiyi ipək kələfi bir xanıma döndüyündən, Kamranın uçmağa qanadı yox idi.Onlar gün boyu günəşli, dənizli, ləzzətli yeməklərlə dolu istirahər proqramlarını, axşamın sərinində dəniz kənarında keçirdikləri gəzinti ilə başa vururdular.Bu qədər yorğunluqdan sonra dərhal yuxuya gedən Seymurla Səltənətdən fərqli olaraq, Kamranla Nərmin, hələ bundan sonra sevgi dolu gecələr də yaşayırdılar.Kamran dilinə gətirməsə də, ürəyində fikirləşirdi ki, bu qədər ünsiyyət, məhəbbət dolu günlərdən sonra Nərmin bir də hamilə qalsaydı, nə gözəl olardı...

Nərmin Antaliyada dincəldikləri günlərin qədrini, Bakıya payızın gəlişi ilə anladı.Yay fəsli bitər-bitməz, Bakıda soyuq küləklər başladı, və bu il qışın çox soyuq olacağından xəbər verdi.Çoxdan yarpaqları saralıb-solmuş ağacların budaqlarını yolub-yoluşduran şimal küləyi, Bakının əncir bişirən isti günlərini çox tez unutdurdu.Hamı qış qayğıları ilə məşğul olub, indidən nəfəsi ilə insanları təlaşa salan soyuq qışı layiqincə qarşılamağa hazırlaşırdı.Ərzaq tədarükünə başlayan kim, isti geyimlərini hazırlayan kim, evinin əyər-əksiyini tamamlayan kim. Nərmin belə bir vaxtda fikirləşdi ki, yayı yaxşıca istirahət elədikləri gözəl oldu.Həm Seymur günəşdə bolluca oynayıb enerji topladı, həm də Kamranla Nərmin qış mövsümü üçün bolluca bazarlıq edib, bütün əyər-əksiklərini aldılar.İndi onlar hamıdan artıq qışa hazır idilər.

Seymur bu sabah yeni gödəkçəsini geyinib çıxanda, onun nə qədər böyüdüyü də valideynlərinin gözündən qaçmadı.O, Türkiyədə özü seçib aldığı gödəkçəni elə bəyənmişdi ki, hər kəsin işə gecikdiyinə baxmayaraq, güzgünün qabağından çəkilə bilmirdi. Axırda Nərmin onun qolundan tutub kənara çəkdi və dedi:

--Seymur, dərsə gecikirsən ey, oğlum.Sən nə vaxtdan belə surətpərəst olmusan?Geyim-keçimə bu qədər vaxt ayırma.Heç kişi də bu qədər güzgülənər?

Seymur qapıya sarı gedə-gedə cavab verdi:

--Ana, sənin dediyin keçmişdə qaldı.Xarici görünüşünə diqqət eləmək indi hər kəsin borcudur.Düz demirəm, ata?

Kamran da ayaqqabılarını geyə-geyə dedi:

--Xanım, incimə, ancaq oğlum düz deyir.Bu dövrdə adamın üst-başına baxıb, qiymət verirlər.

Nərmin çantasını alıb onların ardınca çıxanda, yalnız bunu tapıb deyə bildi:

--Bah, bah, bah...Mənim yaraşıqlılarım...

Onlar beləcə, deyə-gülə evdən çıxdılar.Bu gün Nərminlə Kamranın iş qrafikinin üst-üstə düşdüyü günlərdən biri idi.Odur ki, onlar Seymuru oxuduğu məktəbin qapısında endirdilər.Seymur məktəb binasına girib gözdən itəndən sonra, onlar da yollarına davam edib, işə getdilər. Nərmin günortaya qədər bütün işlərini yoluna qoyub, Səidədən çiçəkləri sulamaq üçün bir qab su istədi.Səidə suyu gətirdi, Nərmin də ömrü boyu çox sevib, ətrafından əksik eləmədiyi dibçək güllərini sulamağa başladı.O, harda yaşadısa, harda işlədisə, oranı qısa bir vaxt içərisində güllü-çiçəkli bir yaşıllığa çevirdi.Onları xüsusi qayğı ilə yetişdirdi, xüsusi qayğı ilə bəslədi, odur ki, indi onun kabineti də yaşıllığın içində itib-batırdı.Nərmin çiçəklərlə danışa-danışa onları sulayırdı ki, telefon zəng çaldı.O, lüləkli su qabını əlindən qoymadan, o biri əli ilə telefonu götürdü.O başdan Seymurun müəlliməsinin səsi gəldi.

--Alo, Nərmin xanım, salam, danışan Zümrüd müəllimədir. Nərmin xanım, məktəbə gələ bilərsinizmi?

Nərminin ürəyi quş kimi çırpındı.

--Nə olub ki? Yoxsa Seymura bir şey olub?

Müəllimə özü də həyəcanlı idi, nəfəsi daralırdı.

--Yox, yox, heç nə olmayıb.Ancaq siz mümkünsə, məktəbə gəlin.Sizi gözləyirəm.Bu sözlərlə də o, telefonu qoydu.Nərminin əlləri boşaldı, su qabı əlindən yerə düşdü.Bu səsə yan otaqda əyləşən Səidə gəldi, Nərmini bəmbəyaz görüb tələşlə soruşdu:

--Nərmin xanım, nə oldu?Sizə nə isə pis xəbər dediləR?

Nərmin yuxulu adam kimi səndələyə-səndələyə qapıya doğru addımladı, qapıya çatanda, dönüb Səidəyə baxdı.

--Seymuruma nəsə olub...Səidə, mən məktəbə gedirəm, hələlik Kamran bimasin.Mən vəziyyəti öyrənib sənə zəng edərəm, mən necə desəm, sən də elə hərəkət edərsən.

Səidə də qorxudan əsə-əsə dedi:

--Oldu...Nərmin xanım, siz tələşlanmayın, uşaqdır, bəlkə bir nadinclik edib, ona görə çağırırlar.

Nərmin qapıdan çıxanda havalı kimi bir də təkrar elədi:

--Seymuruma nəsə olub...

Nərmin taksidən enib məktəbin həyətinə girəndə, ora toplaşmış müəllimli, şagirdli izdihamı gördü, az qaldı huşunu itirib yıxılsın.Seymurun müəlliməsi Zümrüd müəllimə vaxtında yetişib onu tutdu.Nərmin bütün ağırlığı ilə ona yaslanıb zəif bir səslə soruşdu:

--Hanı Seymur? Nə olub ona?

Zümrüd müəllimə onu sakit eləmək üçün söz axtardı, ancaq tapa bilmədi, dönüb məktəbin direktoruna baxdı.Direktor Nərminin yanına gəlib soruşdu:

--Nərmin xanım, Seymurun əmisi, ya da dayısı onu aparmağa gəlmiş ola bilərmi?

Nərmin sualı başa düşməyib dedi:

--Seymurun nə əmisi var, nə də dayısı.Onun yalnız nənəsi var.Axı, burda nə baş verib, onu deyə bilərsiniz?Hanı mənim oğlum?

Direktor daha bir sualı ilə Nərmini çaşdırdı:

--Nərmin xanım, bir düşməniniz yoxdur ki?

--Bu nə deməkdir, Məryəm xanım?

--Bilirsiniz, sizin oğlunuz böyük tənəffüsdə bir kişiyə qoşulub gedib.Görənlər deyir ki, o, Seymurla bir xeyli söhbət edib, sonra onlar birlikdə harasa gediblər.Biz iki saatdır, hər yeri axtardıq, yer qalmayıb baxmamış, adam qalmayıb soruşmamış, gördüm deyən yoxdur. Bu adam hər kimdirsə, bilməli idi ki, bu uşağı axtaracaqlar. Niyə belə bir iş tutur, anlamıram.Ona görə də, soruşuram ki, bu adamın kimliyinə dair bir fikriniz varmı?

Nərmin ağlamsına-ağlamsına dedi:

--Bu dəqiqə ağlıma heç kim gəlmir.Axı, mənim oğlumla kimin nə işi?Bəs necə olub ki, uşaq nəzarətsiz qalıb?İndi mən oğlumu kimdən istəyim? Direktor Nərminin qolundan tutub onu ağacın altındakı skamyaya sarı çəkdi, oturdub dedi:

--Nərmin xanım, sakit olun, biz milisə xəbər verdik, indi milisdən də gələcəklər.Bilirsiniz, uşaqlar tənəffüs vaxtı bir-birinə qarışıb oynayırlar.Belə vaxtda onların tualetə, ya da bağçada olduğunu düşünüb nəzərdən qaçıra bilirik.Bu gün də elə bildik ki, Seymur hardasa yubanır.Ancaq bir dərs keçəndən sonra onu axtarmağa başladıq.Onda da uşaqlardan bir neçəsi onun bir əmi ilə çıxıb getdiyini gördüklərini dedilər.Bu əmi kim imişsə, Seymur onu tanıyırmış.Onlar köhnə tanışlar kimi görüşüblər, xeyli söhbət ediblər, sonra da bir-birinə qoşulub gediblər.

Nərmin bu deyilənləri eşidən kimi, ayağa qalxıb həyəcanla dedi:

--Mənə telefon göstərin, təcili zəng vurmalıyam.

Müəllimlər onu katibənin otağına gətirdilər.Nərmin ordan Səltənətə zəng vurub həyəcanla dedi:

--Ana, tez Seymurun məktəbinə gəl.Seymur yoxdur, ana, Seymur yoxa çıxıb.Ana, tez gəl, yoxsa mən dəli olacağam...

Səltənət o başdan əvvəl bir fəryad qopartdı, sonra da tez özünü ələ alıb Nərminə dedi:

--Qızım, özünü itirmə, mən bu saat gəlirəm, inşallah heç nə olmaz Seymura, uşaqdır, görəsən harda gizlənib.

Artıq ürəyinə dolan şübhələrlə, Nərmin bu olanları Kamrana xəbər verməyi son ana saxladı.Əvvəlcə Səltənətlə məsləhətləşmək fikri ilə, həyəcandan bir yerdə qərar tuta bilməyib, məktəbin koridorunda var-gəl eləməyə başladı.Səltənət koridorda görünəndə, Nərmin özünü onun üstünə atıb, ucadan ağlamağa başladı.

--Ana, ana, oğlum yoxa şıxıb, onu qaçırdıblar.

Səltənət özü də göz yaşlarını tuta bilməyərək soruşdu:

--Bala, sakit ol, özünü ələ al.De görüm, niyə belə fikirləşirsən?

--Başqa nə ola bilər, ana?Seymur bir adama qoşulub harasa gedib .Bu nə deməkdir? Deməli kimsə onu dilə tutub, aldadıb aparıb da...

--Həə...oxşayır...Bu kim ola?

Elə bu sözü demişdi ki, Səltənət cərəyan vurmuş kimi dönüb Nərminə, Nərmin də eyni cür Səltənətə baxdı.Onlar bir xeyli mat-mat bir-birinə baxdılar.Sonra Səltənət Nərminin qolundan tutub onu həyətə çıxartdı.Bir kənara çəkib yavaşca dedi:

--Nərmin, bu o dəyyusun işi olmasın?

Nərmin ağlamağa başladı, göz yaşları içində dedi:

--Ana, mən də indicə bunu düşündüm, evim yıxılıb, oğluma nə isə bir xətər yetirəcək.

Səltənət Nərmini sakitləşdirmək üçün dedi:

--Qorxma, qızım, onun bəlli bir məqsədi olmalıdır, axşama kimi gözləyək, yəqin bir xəbər çıxar.

--Bəs mən indi bunu Kamrana necə izah edim?

--İndi bunu düşünmə, oğlunu düşün, hər şeyi necə var, elə də deyərsən.Türmədən qayıdıb gəlib, səndən pul istəyib, sən də verməmisən.O da Seymuru qaçırdıb ki, səndən pul çəksin.Nə isə, bunları sonra danışarıq...Nərmin, əyər uşağı o aparıbsa, mütləq səninlə əlaqəyə girməyə çalışacaq. Səltənət sözünü bitirməyə macal tapmadı, katibə qız çıxıb bir nəfərin Nərmin xanımı telefona çağırdığını dedi.Səltənət Nərminin qolundan tutub sıxdı:

--Nərmin, bu odur...--dedi.

==31.

Nərmin bir anlıq yerində donub qaldı.Ona elə gəldi ki, onu elektrik vurdu.Qəribə bir cərəyan dabanlarından qalxıb, başına, lap tükünün dibinə kimi getdi.O, yıxılmaqdan özünü güclə saxladı. Səltənət onun halını dərhal anladı, Nərmini belindən qucaqlayıb dedi:

--Nərmin, qızım, özünü ələ al.Əyər bu ədursa, dediklərinə diqqətlə qulaq as.Şərti hər nə olsa, qəbul elə.Eşidirsən?Özünü ələ al, get danış, gör nə deyir?

Bu sözlərlə də Səltənət onu katibənin otağına qədər müşaiyət elədi.Nərmin yaxınlaşıb telefonu yavaşca götürdü, qorxa-qorxa qulağına yaxınlaşdırdı.

--Alo, buyurun...

Nərminin, telefonda danışan adamın səsini eşidən kimi bəmbəyaz olmasından, Səltənət gümanında yanılmadığını anladı. Nərmin xəttin o başındakı adama müraciət edərək, get-gedə artan həyəcanla soruşdu:

--Oğlum səndədir? Neyləmisən oğlumu? Nə istəyirsən?Sənin dərdin mənimlə deyilmi? Balaca uşaqla nə işin var?

Nərmin panik içində ağlaya-ağlaya bu sualları verdikcə, Səltənət o tərəfdəkinin Tahir olduğuna əmin oldu.Tahir Nərminin sözünü kəsmədən, onun daha çox üsyanı xatırladan suallarını dinlədi.Sonra, heç təhərini pozmadan, soyuqqanlılıqla dedi:

--Həə...Gülxar xanım, nə oldu?Hanı sənin cəsarətin?Son görüşümüzdə erkək Tükəzbana dönmüşdün?Mənə hədə-qorxu gəlirdin...İndi necəsən?Hünərin, qətiyyətin harda qaldı?

--Nə istəyirsən?Oğlumdan nə istəyirsən?

--Oğlundan istəmirəm, səndən istəyirəm.Səndən istədiyimi almayana qədər oğlun yanımda qalacaq.

--Yaxşı, məndən nə istəyirsən?

--Səndən?Səndən məni ölümdən qurtarmağını istəyirəm.

--Başa düşmürəm, bu nə deməkdir?Sözünü açıq de, mənim tapmaca tapacaq halım yoxdur.

--Bu tapmaca deyil, Gülxar xanım, bu mənim şərtimdir.Bu şərti yerinə yetirsən, oğlunu sağ-salamat sənə qaytaracağam, yox, əyər qəbul eləməsən, ya da o vaxt dediyin kimi, milisi işə qatsan, onda oğlunu ölmüş bil.Bu dəfə məsələ çox ciddidir.Mənim həyatıma qarşı, oğlunun həyatı...

Nərmin ağlamağını kəsib, Tahirə yalvarmağa başladı:

--Tahir, yalvarıram, oğlumu rahat burax.Onun nə günahı var?Nə istəyəcəksən, məndən istə.Təki ona toxunma, burax gəlsin.Söz verirəm, nə desən, onu edəcəyəm, milisi də bu işə qarışdırmayacağam.

Tahir, Nərminə şərtini söyləməzdən əvvəl, bir müddət susub gözlədi.Nərmin rabitənin kəsildiyini düşünüb panikə düşdü.O, ucadan çağırdı:

--Tahir, Tahir, alo, alo...

O başdan Tahir cavab verdi:

--Burdayam, qışqırma...

--Bəs niyə cavab vermirsən?

--Gözləyirəm ki, sakit olasan.Sakitləş, və mənə diqqətlə qulaq as.Bu çox vacibdir, eşidirsən?

--Hə, hə, eşidirəm, de...

--Yanında kim var?

--Heç kim, mən kabinetdəyəm, hamı bayırdadır...

--Onda mənə diqqətlə qulaq as...Mən borca düşmüşəm, çox böyük borca...Borc yiyəsi mənə bircə həftə vaxt verib.Mən bir həftənin içində o borcu ödəməliyəm, əks halda, sən o insanların nəyə qadir olduqlarını gözəl bilirsən.Sən mənim həyatımda baş verənləri yaxşı bilirsən axı...yadından çıxıbsa, yadına sal...

Nərmin özünü zorla ələ alıb dedi:

--Tahir, sözünü de, mən neyləməliyəm, istədiyin nədir?

--Bir milyon dollar...bir milyon dollar pulu tap gətir, sən mənim həyatımı qurtar, mən də oğlunu sənə qaytarım.Şərtim budur.

--Tahir, sən nə danışırsan?Mən o qədər pulu hardan tapa bilərəm? Tahir, bizə yazığın gəlsin, bizdən bunu istəmə.Bu mümkün olan şey deyil.

Tahir tonunu dəyişib səsini ucaltdı:

--Mənə bax, Gülxar, mən oyun oynamıram ey, tələb edirəm.Ya bir milyon dollar, ya da oğlun, indi özün seç.Sənə fikirləşməyə iki gün vaxt verirəm.İki gündən sonra qərarını soruşacağam.Hər şey sənin cavabından asılı olacaq.Bir də deyirəm, milisi bu işə qatma, peşman olarsan.Anladın?

Nərmin az qalırdı bayılsın, odur ki, cavab verməkdə gecikdi.Tahir hövsələsizlik edib telefonda bağırdı:

--Səndən söz soruşdum, cavab ver, anladın?

Nərmin qorxusundan tələsik dedi:

--Anladım, anladım...Oğlum hardadır?Oğlum necədir?Səsini eşitmək istəyirəm.

--Oğlun məndədir, başqa heç nə deməyəcəyəm.Get pul tap.Ərinə denən, xəstəxananı satmalı da olsa, o pulu tapsın, yoxsa bir də oğlunu görə bilməyəcək.Mən arxanıza adam salacağam, hər addımınızı güdəcək, odur ki, səhv addım atmayın, pis olar.Pul tapın, siz oğlunuzun həyatını qurtarın, mən də öz həyatımı.Xudahafiz... Bununla da danışıq kəsildi.Nərmin, telefon əlində, heykəl kimi donub qaldı.Bayaqdan bütün bu söhbətə

diqqətlə qulaq asan Səltənət, yaxınlaşıb telefonu Nərminin əlindən aldı, yerinə qoydu.Yalnız bundan sonra Nərmin birdən halsızlaşıb stula çökdü, iki əli ilə başını tutub dedi:

--Vay, vay, vay...evim yıxıldı...indi mən neyləyəcəyəm?Ana, ana, ana, indi mən başıma haranın daşını töküm, ay ana?

Səltənət yaxınlaşıb onun boynunu qucaqladı.

--Ah, ay mənim başı bəlalı qızım, anan sənə qurban, nə olursa olsun, təki sən ruhdan düşmə, başını itirmə.Amandır bala, bircə sən başını itirmə.Dur gedək Kamranın yanına.Bu məsələni ona açmağın vaxtı çatıb.Gedək, bir yolla hər şeyi ona danışaq.

Nərmin başını qaldırıb sual dolu baxışlarla Səltənətə baxdı.

--Ana, mən Kamrana nə deyəcəyəm, necə deyəcəyəm?

--Ay bala, daha , nə varsa, onu da deməlisən də...Məyər Tahir səni şantaj eləyib pul almırdımı?Sən ona daha pul verməyəcəyini dedin, o indi də bu yola əl atdı.Bundan sonrasını sən onsuz da təkbaşına həll edə bilməzsən, gərək Kamran da bilsin.Dur gedək, vaxt itirmədən, onu məsələdən agah edək.

Kamran qaynanası ilə arvadını görəndə, onların rəng-ruhundan anladı ki, nəsə baş verib.O, masanın arxasından qalxıb irəli çıxdı, həyəcanla soruşdu:

--Bir şey olmayıb ki?Bu nə haldır sizdə?

Nərmin özünü saxlaya bilməyib ucadan ağalmağa başladı.Səltənət də ağlaya-ağlaya üzünü Kamrana tutub dedi:

--Kamran, oğlum başımıza bir iş gəlib, ailəmizə bir fəlakət üz verib.

Kamran gözlərini geniş açıb tələşlə soruşdu:

--Nə deyirsiniz?Nə fəlakət?Seymur hardadır?

Səltənət, onu sakitləşdirmək məqsədilə, birbaşa dedi:

--Seymur sağ-salamatdır, ancaq onu girov götürüblər.Geri qaytarmaq üçün də bizdən böyük məbləğdə pul istəyirlər.

--Siz nə danışırsınız?Mənim oğlumu kim qaçırda bilər?Başa salın, görüm, bu nə deməkdir?Bu nə axmaq zarafatdır?

Nərmin özünü ələ alıb yavaşca dedi:

--Kamran, Tahir qaçırdıb oğlumuzu.

Bu dəfə az qaldı Kamranın gözləri hədəqəsindən çıxsın.

--Nə dedin?Kim qaçırdıb?

--Mənim həmişə qorxduğum başıma gəldi.Tahir həbsdən çıxıb gələn gündən, mənim həyatım alt-üst oldu.Elə hey məni hədələyib pul istədi, mən də tapıb verdim.Hardan, necə tapdığımı yəqin ki, artıq anlayarsan.İndi də oğlumuzu aparıb, əvəzində bir milyon dollar pul istəyir.

Kamran yazıq-yazıq Nərminə baxdı.

--Bəs niyə mən bunları indi bilirəm?Niyə məndən gizlətmisən, Nərmin?Gərək oğlumuzu bir cani oğurlayaydı, ondan sonra sən mənə bunları deyəydin?

Nərmin Kamranın baxışları altında əzilərək dedi:

--Kamran, mən elə bilirdim ki, bir yolla onu başımızdan edəcəyəm. Boş yerə sizin hüzurunuzu pozmaq istəmirdim.Nə biləydim ki, o gec-tez, yenə də öz bildiyini edəcək?

--Nərmin, biz bir narkomandan bəhs edirik, bir qumarbazdan, ömrünün on beş ilini türmədə keçirmiş bir canidən söz edirik.Sən bununla zarafat edirsən?Mənim oğlumun belə bir adamın yanında nə işi var?Bu qədər ciddi bir məsələni məndən gizlətməyə sənin nə haqqın var?

Səltənət daha dözməyib söhbətə qarışıdı:

--Kamran, oğlum, mən də hər şeyi bu gün bilmişəm.Səndən əvvəl bu sözləri ona mən də demişəm.Sən dediklərində çox haqlısan. Nərmin gərək elə ilk gündən hər şeyi açıb sənə danışaydı.Onda hər şey də başqa cür olardı.Siz bu məsələni sonra daha ciddi araşdırarsınız. Ancaq indi, gəlin fikirləşək, görək nə edə bilərik? Seymuru belə bir caninin əlindən necə qurtara bilərik?İndi əsas məsələ budur, oğlum.

Kamran duruxdu, keçib pəncərənin qabağında dayandı.Onun bu dəqiqə nə qədər gərgin olduğu, adicə nəfəs almasından da bəlli olurdu. Oğlunun, hansısa bir manyakın əlində olduğunu düşündükcə, az qalırdı, Kamranın ürəyi ağzından çıxsın.O, birdən dönüb ortalığa soruşdu:

--Hardan bildiniz ki, kimsə Seymuru qaçırdıb? Nərmin bu gün baş verənləri başdan-ayağa, olduğu kimi danışdı.Tahirlə olan

telefon söhbətini də, onun qoyduğu şərti də bütün xırdalıqlarına qədər söylədi.Tahirin dönə-dönə, milisi bu işə qarışdırmamağı tapşırdığını da, iki gün sonra zəng vurub cavab alacağını da dedi.Kamran onu dinləyə-dinləyə kabinetində var-gəl edir, özünə yer tapa bilmirdi.O, acığından kinayə ilə gülüb dedi:

--Günümüzə baxın ey, elə bil kino çəkirik.Başıma belə bir şey gələcəyini desəydilər, inanmazdım.

Nərmin qorxa-qorxa ona baxıb dedi:

--Kamran, qurban olum, bir şey elə, qurtar oğlumuzu...Mən sizi o yaramazdan qorumaq istərkən, gör başımıza nə gəldi...Bilirəm, buna görə sən məni bağışlamayacaqsan, ancaq əvvəl oğlumuzu xilas elə, sonra mənə nə cəza verirsən, ver.

Səltənətin ürəyi dözmədi, araya girib dedi:

--Yazıq bala, o vaxt elə dad edirdin ki, bu əclaf türmədən qayıdıb gəlsə, bir oyun çıxardacaq.Biz sənin sözünə əhəmiyyət vermədik.İndi budur, sənin ehtiyat elədiyin şeylər başımıza gəldi.Ümidsiz olma, bala, bir yolunu tapıb qurtararıq Seymuru.

Bu sözlərlə də Səltənət gözündən axan yaşı yaylıqla silib üzünü Kamrana tutdu:

--Oğlum, nə fikirləşirsən?Milisə xəbər verəcəksənmi?

Kamran qəzəbindən dişlərini qıcayaraq dedi:

---Canını da alacağam.Bu oyununu onun gözündən gətirməsəm, dünya mənə haram olsun.

Nərmin qorxa-qorxa dedi:

--Axı dedi ki, bizi güddürəcək, milisə xəbər versək, uşağa bir xətər yetirər.

Kamran dönüb acıqlı-acıqlı ona baxdı:

--Qələt eləyər.Mən durub onun bu dedektiv oyununa şərik olmayacağam.Siz indi qalxın, gedin evə.Mən də bir-iki yerə zəng vurum, görüm neyləyirəm.Mənsiz bir addım da atmayın. Eşidirsən, Nərmin? Bundan sonra hər addımını mənimlə məsləhətləşəcəksən! Bundan oğlumuzun həyatı asılıdır.

Di gedin, vaxtımı daha artıq almayın.' Səltənət Nərminin qolundan tutub onu qapıya sarı çəkə-çəkə dedi:

--Gəl qızım, gəl gedək, qoy Kamran da nə lazımsa, eləsin.

Nərmin ayağını sürüyə-sürüyə qapıya çatıb dayandı, geri dönüb məzlum-məzlum Kamrana baxdı.

--Kamran...

Deməyə söz tapmayıb susdu.Kamran onun halını görüb dedi:

--Get evə, Nərmin, mən nə lazımsa, edəcəyəm.

Yalnız bundan sonra Nərmin, suyu süzülmüş toyuq kimi kabinetdən çıxıb, Səltənətin qoluna girdi.

==32.

Gözlənilmədən başlarına gələn bu hadisədən sonra, Nərminlə Kamranın arasında elə bir gərginlik əmələ gəldi ki, Nərmin hər şey uğurla bitsə belə, bir daha yenidən Kamranla bir ailə ola biləcəklərinə şübhə eləməyə başladı.Bu işin necə bitəcəyini bilmədiyi üçün, indidən özünü ifşa olunmuş hesab edən Nərmin, sanki bayırın sərt rüzgarı ürəyinə dolubmuş kimi, bütün günü üşüdür, bu üzdən də yataqdan çıxa bilmirdi.Həmin gecə Kamran ilk dəfə nə evə gəldi, nə də zəng vurdu.Nərmin bilirdi ki, o bu dəqiqə quş kimi çırpınır, oğlunu xilas eləməyin yollarını axtarırdı.Nərmin onu da bilirdi ki, Kamran bunun üçün əlindən gələni edəcəkdi.Ancaq belə bir ağır gündə, Kamranın bir həyat yoldaşı kimi özünü ondan uzaq tutması, Nərminə çox ağır gəlir, o heç cür bununla barışa bilmirdi.Oğlunun qaçırılması, ərinin ondan şübhələnib uzaqlaşması, Nərmini elə sarsıtmışdı ki, boğazından su da keçmirdi.O, gah səssizcə ağlayır, gah da bütün gücünü itirib, bayğın halda yatırdı.Səltənət nə qədər edirdisə, onu nə sakitləşdirə bilir, nə də bir içim su içirdə bilirdi.Beləcə, ən adi günlərdə də sakinlərinin gülüşü, şən danışığı ilə bayram yerinə bənzəyən bu ev, bütöv bir gün boyu, səssiz-səmirsiz olub, matəm yerinə bənzəyirdi.Seymurun həyatı üçün narahat olan bu iki qadının ürəyində əsən küləklər, tezliklə evin divarlarını da soyudub buza döndərdi.

Kamran yalnız ertəsi günün səhəri evə döndü.Tezdən evə dönməkdə məqsədi, Nərminə bəzi sərəncamlar vermək idi.Kamran yenə də qaşqabaqlı, qaradinməz olmuşdu.Bununla belə, o, öğlu üçün keçirdiyi

gərginliyi o qədər dərinlikdə gizlətmişdi ki, bu dəqiqə nələr düşündüyünü, nələr keçirdiyini üzündəki ifadədən müəyyən eləmək çox çətin idi.O, bu gün işə getməyəcək, Nərminlə birlikdə Tahirin zəngini gözləyəcəkdi. Nərmin neçə dəfə istədi ki, Kamrandan Seymurun xilası üçün nə tədbir gördüyünü soruşsun.Ancaq Kamranın üzündəki ciddi ifadə onu fikrindən daşındırdı.Aydın idi ki, Kamran Nərminə heç nə deməyəcəkdi.Bir evin içində yad adamlar kimi oturan Nərminlə Kamran, arada Səltənətin təklif elədiyi çayı da içməkdən imtina edirdilər.

Kamran evə gələn kimi, ən birinci Nərmini çağırıb oturtdu, vacib şeyləri ona başa saldı.Tahirə nə deyəcəyini söylədi,Tahirin deyəcəyi ünvanı yadında saxlamağı tapşırdı.Sonra hərə bir otağa çəkilib gözləməyə başladı.Tahir, zəng vuracağı günü demişdi, lakin saatı deməmişdi. Odur ki, səhər tezdən tikan üstə oturmuş kimi özünü narahat hiss edən bu insanlar, ürəklərində həyəcan, qorxu, tez-tez saata baxa-baxa gözləyir, hər tıqqıltıya, hər şırıltıya yerlərindən dik atılırdılar.Səltənət də onların bu halını görüb, mətbəxdə gördüyü işləri yarımçıq qoydu, keçib bir tərəfdə sakit oturdu.Evə ölü bir sükut çökdü.

Tahir düz saat dörddə zəng vurdu.Telefon zəng çalanda, hər ikisi dik atıldı.Sonra Kamran əlinin işarəsi ilə hər kəsi sakit olub yerində oturmağa çağırdı.O, üzünü Səltənətə tutub dedi:

--Səltənət xanım, zəhmət olmasa, soyuq su gətirin.

Səltənət cəld gedib su gətirdi, Kamrana uzatdı.Kamran suyu alıb Nərminə verdi.

--İç, sakitləş,--dedi.

Nərmin suyu alıb içdi, sual dolu baxışlarla Kamrana baxdı. Kamran dedi:

--Çox sakit ol, hər kəlməsini yadında saxlamağa çalış.Ünvanı eşidən kimi, əzbərlə...

--Yaxşı...

Nərmin bu an dünyada Kamrandan yaxın, Kamrandan güvənli heç kimin olmadığını bir daha anladı.Bu hiss onu ürəkləndirdi.

Kamran, bayaqdan özünü yeyib-tökən telefonu qaldırıb, Nərminin qulağına tutdu.

--Alo...

--Bu nədir?Yoxsa daha oğlunun talehi səni maraqlandırmır?

--Nə deyirsən, Tahir? Bu nə sözdür?

--Sən telefona iki saat sonra gələndə, mən də belə deyərəm də...

--Heç bilirsən nə haldayam?Hamımız ölüb sabaha qalmışıq ey...Bu nə işdir, başımıza açırsan?

--Eybi yoxdur, dediyimi edərsən, oğluna qovuşarsan.

--Seymur necədir?Nə olar, onun səsini eşidim də...

--Oğlun sağ-salamatdır, siz bir hoqqa çıxartmasanız, hər şey yaxşı olacaq.İndi yanımda deyil.Gələk əsas məsələyə, qərarımız nə oldu?

--Nə olacaq, oğlumuzdan qiymətli nə olar bizim üçün? Boynumuza torba salıb qapı-qapı gəzəcəyik, sənin istədiyin məbləği toplayacağıq.

--Milis olmayacaq haa...Yoxsa, hər şey başqa cür olacaq.Bunu unutma!

--Demişəm, milis-zad olmayacaq, ancaq sən də uşaqdan muğayat ol, bunu xahiş edirəm səndən.

--Yaxşı, yaxşı, gözünün qorasını sıxma yenə, sakit ol, görüşəcəyimiz yeri deyim, yadında saxla.Yazma haa...yadında saxla, bildin?

--Bildim.

--Üçüncü mikrorayonun sonunda "Pitomnik" deyilən sahə var, tanıyırsan?

--Fidanlar bağını deyirsən?Hə, tanıyıram.

--Ordan o yana yeni qəsəbə salınmışdı.Sonra da lap Biləcəri dağının üstündə bir neçə on səkkiz mərtəbəli göydələn tikirdilər. Binalar hazır idi, yalnız tamamlama işləri qalmışdı.O binaları elə o vəziyyətdə atıb getdilər.Tipik sovet tikintisi.Nə qapısı var, nə də pəncərəsi...Ancaq pilləkanları var.Sən ora ya Biləcəriyə, ya da Xırdalana gedən avtobulsla gələcəksən.Bu avtobuslar o binaların yanından keçir. Bu mənim şərtimdir, avtobusla gəl!Yoldan hesab edəndə, üçüncü göydələnə yaxınlaş, qapının üstündə lövhə görəcəksən. Orda belə bir yazı var:A-4052.Bu nə deməkdir, mən də

bilmirəm. Ancaq sən bu nömrəni görən kimi içəri gir, on beşinci mərtəbəyə qalx.Mən səni orda gözləyəcəyəm.Amma bax, ehtiyatlı ol haa...O qədər eybəcər proyektdit ki, pillələr hər mərtəbədə binadan bayıra çıxır, çox təhlükəlidir.Yayın cırhacırında da orda güclü küləklər əsir, az qalır adamı qoparıb atsın.İndi küləklər aləmi dağıtdığı bir mövsümdə, oranın küləyi adamı yağdan tük çəkən kimi çəkib ata bilər.Bir də deyirəm, ehtiyatlı ol.Diqqətin ayağının altında olsun, mərtəbələri saymağa ehtiyac yoxdur.On beşinci mərtəbəyə çatanda, qarşında məni görəcəksən.Sən pulu mənə verəcəksən, mən də sənə oğlunun yerini deyəcəyəm.Bura qədər hər şeyi anladın? Anlamadığın bir şey oldusa, soruş.

Nərmin, həyəcanını bildirməməyə çalışaraq dedi:

--Anladım, anladım, A-4052.Seymur orda olacaq?

--Bax, bu olmadı.Hər şey vaxtında, yerində məlum olacaq. Tələsmə.Gələk əsas məsələyə...Mən sizə iki gün vaxt verirəm.Sabah yox, birisi gün, axşam saat altıda səni həmin binanın on beşinci mərtəbəsində gözləyəcəyəm.Bir milyon dolları gətirib, oğlunu alacaqsan.Sualın varsa, soruş, yoxsa, danışığı bitirək, mənim işim var.

Kamran Nərminə başı ilə təsdiqləyici işarə elədi.Nərmin də nə deməli olduğunu anlayıb dedi:

--Tahir, bax biz sənin dediyini dəqiqliyi ilə yerinə yetirəcəyik, sən də sözünü tut, yaxşı?Oğlumdan muğayat ol, yalvarıram.

--Mən nə vaxt sözümü tutmamışam?Dedim ki, arxayın ol da...Pulu gətir, oğlunu al.

--Yaxşı, birisi gün, saat altıda, A-4052-də.Eləmi?

--Həə...elə. Di sağ ol.

Danışıq bitti,Nərmin yenə də telefon əlində donub qaldı.Bu səfər Kamran onun əlindən telefonu alıb yerinə qoydu.Nərmin buna bənd imiş kimi, divana çöküb hönkürtü ilə ağlamağa başladı. Kamran onun yanına gəlib oturdu. Nərmini bərk-bərk qucaqlayıb gözlərini yumdu. Beləcə, o ağladığını gizlətməyə çalışırdı.Səltənət bu mənzərəni göz yaşları içində seyr edirdi.Kamran gözlərini açıb Səltənətə dedi:

--Səltənət xanım, yenə də sizə zəhmət, su gətirin.

Səltənət su gətirdi, Kamran stəkanı alıb Nərminin dodaqlarına dayadı, dedi:

--İç, əzizim, iç sakitləş.Sənə söz verirəm, hər şey yaxşı olacaq.

Kamran bu sözləri elə-belə demirdi.O, artıq bütün ərki çatan, gümanı gələn adamlardan lazım olan məbləği toplamışdı.Ancaq Tahiri də layiqincə cəzalandırmaqda qərarlı idi.Nərmin Tahirin istədiyi pulu doğurdan da özü ilə aparacaqdı, Tahirə verəcəkdi, ancaq sonra milis işə qarışıb bu məsələni qanuna uyğun şəkildə həll edəcəkdi.Məsələnin bu tərəfini də Kamran çox ciddi planlamışdı. Milis orqanlarındakı dostları bu işi nə Nərminə, nə də Seymura ziyan vermədən, həll etməkdən ötrü, bütün gecəni çalışmış, xüsusi əməliyyat planı hazırlamışdılar.Məsələdə hələ də cavabını tapmamış bir sual qalmışdı, Seymuru harda gizlədirdilər?Kamran bu sualın cavabını Tahirdən kəlbətinlə də olsa çəkəcəyini bilirdi.Bu gün arvadına söz verəndə, Kamran artıq bu əməliyyata hazır idi.

İki gün, yeganə övladını Tahir kimi yırtıcı canavarın ağzında buraxmış ana-ata üçün iki il kimi keçdi.Onlar nə yediklərini bildilər, nə içdiklərini.Nə yatdıqlarını bildilər, nə də oturduqlarını.Ölüm-zülüm iki günü başa vurub, əməliyyatı həyata keçirtmək üçün axşamı gözləməyə başladılar.Kamran Nərminə son təlimatlarını verirdi.O, Nərminə çox sakit davranmağı tapşırır, gözlənilməz bir addım atmamasını tövsiyə edirdi.Nərmin onun dediklərini artıq neçənci dəfə idi ki, diqqətlə dinləyir, hər dəfə də Kamrandan əməliyyatın nədən ibarət olacağına dair informasiya alacağını gözləyirdi.Lakin, Kamran əməliyyatın gedişatına aid heç nə demir, gözü onun ağzında qalan Nərmini nigarançılıq içində buraxırdı.Axşam saat altıya on dəqiqə işləyəndə, Nərmin dözməyib Kamrandan soruşdu:

--Kamran, orda hər şey ola bilər, nə olar, əməliyyatı mənə anlat. Orda nələr olacaq?

Kamran ona yaxınlaşıb alnından öpdü.

--Hər şey yaxşı olacaq, qorxma.

Nərmin anladı ki, Kamrandan bundan artıq heç nə öyrənə bilməyəcək. Saat altının yarısında Səltənətlə Kamran maşına əyləşdilər,

Nərmini Biləcəri avtobusuna mindirmək üçün, üçüncü mikrorayonun sonuna gəldilər.Kamranla Səltənət maşında gözlədilər, Nərmin içi pulla dolu çantanı götürüb avtobus dayanacağına getdi.Nərmin avtobusa minib gedəndə, Kamran da maşını yavaş-yavaş avtobusun ardınca sürdü.

Nərmin avtobusun pəncərəsindən baxa-baxa on səkkiz mərtəbəli binaları sayırdı.Bu binalardan üçüncüsünün bərabərinə çatanda, Nərmin sürücüdən xahiş edib, maşını saxlatdı, ins-cins olmayan bu tikinti sahəsində avtobusdan endi.Toz-torpaqdan, dərə-təpədən ibarət olan bu baxımsız sahəni keçib binanın giriş qapısına çatana kimi, baş-gözü toz-torpaq oldu.Hələ binanın önündə vıyıltısından qulaq tutulan küləyin gücünü görəndə, Tahirin xəbərdarlığı yadına düşdü.Nərmin ehtiyatla giriş qapısından içəri boylandı.Küləyin səsindən başqa heç nə eşitmədi.Burada kiminsə olduğuna dair heç bir əlamət yox idi.Bu tənhalıqdan xoflanan Nərmin, ürəyinin döyüntüsünü qulaqlarında eşidə-eşidə çılpaq betondan ibarət, paslı dəmir məhəccərli pillələri qalxmağa başladı.Birinci mərtəbədən ikinci mərtəbəyə keçid yerinə çatanda, duruxub qaldı.Spiral şəkilli dəmir pilləkan doğurdan da binadan bayıra çıxır, çox təhlükəli vəziyyətdə dolanıb ikinci mərtəbədə yenidən binanın blokuna girirdi.Binanın bayır hissəsində qalan pilləkan, insana heç bir güvənlik vəd eləmirdi.Üstəlik, doğurdan da, heç bir sığınacağı olmayan yalın dəmir pillələrdə külək çövlan edirdi.Nərmin bu qorxunc keçidlərdən on beşini keçəcəkdi, halbuki, hələ birincisinin qarşısında donub qalmışdı.Birdən, niyə burda olduğunu xatırladı, Seymur yadına düşdü.Ana ürəyi bütün qorxuları üstələdi, Nərmin dəmir məhəccərdən bərk yapışıb, özünü küləyin ağzına verdi.Külək onun saçını üzünə dağıtdı, Nərminə ayağının altını görməyə imkan vermədi.Nərmin heç nəyə əhəmiyyət vermədən, ayağını sürüyə-sürüyə pillələri bir-bir qət elədi, nəhayət, gəlib ikinci mərtəbənin qapısından içəri girdi.O, daldaya keçən kimi, yaxşını açdı, evdən çıxanda boynuna doladığı ipək yaylığı boynundan açdı.Saçlarını geri darayıb, başını yaylıqla sıx bağladı.İndi daha külək saçlarını gözünün üstünə dağıda bilməyəcəkdi.Nərmin yoluna davam eləmək üçün yenidən pilləkana qalxdı.

Aradan nə qədər vaxt keçdiyini bilməsə də, Nərminə elə gəldi ki, o bu pillələri artıq neçə gündür qalxır.Nə mərtəbələrin sayını hesablaya bilmişdi, nə də hələ nə qədər bu minvalla qalxacağını bilirdi. O, elə hey qalxır, qalxırdı.Bir mərtəbənin keçidinə adlayanda, özü də bilmədən aşağı baxdı.Elə o an, Nərmin özünü açıq fəzada, heç bir sığortası olmayan bir cisim kimi hiss elədi, başı fırlandı, müvazinətini itirib yerə çökdü.Özünü yıxılmaqdan güclə saxladı, o biri əlində tutduğu pulla dolu ağır çanta əlindən sürüşüb, dəmir pilləkanın divara qaynaqlanmış yerinə qədər getdi, divara dirənib durdu.Onu götürmək üçün, Narın gərək güclə gəldiyi bir mərtəbəlik yolu yenidən geri qayıdaydı.Nə edəcəyini fikirləşirdi ki, külək Nərminə güclü həmlə edib, az qaldı onu dəmir məhəccərdən qopartsın.Nərmin bütün gücünü toplayıb daha bir addım atmaqla, özünü blokdan içəri atdı.Qorxudan əsən vücudunu beton meydançaya sərib oturdu.O, bir xeyli beləcə qaldı.Bir azdan qalxıb başını blokun qapısından çıxardıb aşağı baxdı.Çanta yerində, olduğu kimi dirənib qalmışdı.Nərmin irəli getməyi qərara aldı.O, ürəyində fikirləşdi ki, Tahir zəhmət çəkib, özü gəlib pulu götürər.Əsas odur ki, pul burdadır.Nərmin hər şeyi olduğu kimi Tahirə danışacaqdı.Onu başa salacaqdı ki, çanta burdadır, sadəcə onu yuxarı daşımağa Nərminin gücü çatmadı.Bu fikirlə də, o, yuxarı qalxmağı qərara alıb yoluna davam elədi.

Nərmin bu gedişlə daha bir neçə mərtəbə qət elədi.Nəhayət, bir yerdə, özünü küləyin pəncəsindən zorla qurtarıb içəri atılanda, qarşısında Tahiri gördü.Tahir hədəqəsindən çıxan gözləri ilə onu başdan-ayağa süzüb bağırdı:

--Bəs pullar hanı?Niyə əliboş gəlmisən?Sənə demədim, hoqqa çıxartmağa qalxmayın?

Nərmin əllərini irəli uzadaraq, onu sakit eləməyə çalışdı:

--Pullar burdadır, Tahir, burdadır, sadəcə, mənim gücüm çatmadı, yarı yolda əlimdən çıxdı.Sən özün gedib götürərsən.

Tahir Nərminin dediklərinə inanmadığından dəliyə döndü.

--Siz mənimlə oyun oynadınız?Siz məni ələ saldınız?Sən bundan sonra oğlunu bir də yuxuda görərsən...

Nərmin onun dediklərindən dəhşətə gəlib yalvarmağa başladı:

--Tahir, elə demə, mənə inan, mən pulu gətirmişəm, inanmırsan, get, bax.Aşağı mərtəbələrdən birində divara dirənib qalıb.Sən get götür gəl, görəcəksən, pullar yerindədir.Get pulu götür, oğlumu mənə qaytar.

Tahir vəhşi bir çılğınlıqla Nərminə yaxınlaşıb, var gücü ilə üzünə bir şillə vurdu.Hər tərəfindən külək girib-çıxan bu dəlmə-deşikdə ayaq üstə güclə dayanan Nərmin, bu ağır zərbədən müvazinətini itirib yerə yıxıldı.Tahirin şilləsindən qulaqları uğuldamağa başladı. Nərmin heç nə anlaya bilmirdi, bir şillənin uğultusu bu qədər bərk olardımı, bilmirdi.Ancaq uğultu get-gedə artırdı.Elə bu zaman Tahirin arxasında, havada bir helikopter göründü.Tahir nə baş verdiyini anlamağa macal tapmamış, müvazinətini saxlaya bilməyib açıq divardan çölə sürüklənməyə başladı.Helikopterin küləyi onu öz ixtiyarından alıb, bayıra sovururdu.Nərmin yerdən qalxa bilmədiyindən, elə uzandığı yerdən bu dəhşəti seyr edə-edə qalmışdı.O, bir azdan baş verəcək fəlakəti anlamışdı deyə, uzandığı yerdən qışqırmağa başladı:

--Tahir, otur yerə, otur, otur...

Tahir hərəkətlərini kontrol edə bilmirdi.O, divarın bir küncündən yapışıb, onu sovuran küləkdən canını qurtarmağa çalışırdı, ancaq, aydın görünürdü ki, onun buna gücü çatmırdı.Tahirin oyuncaq kukla kimi bayıra uçub yox olduğunu gözü ilə görən Nərmin, bircə dəfə bağırıb huşunu itirdi. Nərmin özünə gələndə, ətrafda nə bir insan var idi, nə də bir səs-səmir gəlirdi.O, ətrafa baxıb harda olduğunu xatırlamağa çalışdı.Birdən bayaqkı dəhşəti xatırladı, dərhal ayağa qalxıb, çölə çıxan pillələrə yaxınlaşdı.Məhəccərdən iki əlli yapışıb, qorxa-qorxa aşağı baxdı.Gördüyü mənzərədən ağzı açıq qaldı.Tahir, binanın qarşısındakı toz-torpaq təpəsinin üstündə, çarmıxa çəkilmiş kimi uzanmışdı.Milis formasında olan adamlar onu əhatəyə alıb, nəsə ölçüb biçirdilər.Nərmin geri çəkilib yerə oturdu, çarəsiz ağlamağa başladı.Tahirdən Seymurun yerini öyrənə bilmədiyindən, onu hardan tapacağını bilmir, özünün bu fikrindən dəhşətə gəlirdi.Odur ki, ağalaya-ağlaya öz-özü ilə danışır, get-gedə artan həyəcanı ilə

isterikaya qapılırdı.Külək onun ağzından aldığı sözləri alıb harasa aparır, onun öz səsini onun özünə də eşidilməz edirdi.Nərmin fikrindən keçən sualları bağıra-bağıra qalmışdı.O, deyirdi:

--Bəs indi mən Seymurumu hardan tapacağam?Tahir öldü, Seymurun yerini də demədi.Bəs mən balamı indi hardan tapım? Nərminə elə gəlirdi ki, yavaş-yavaş ağlını da itirir.Çünki, bu qədər olanların içində qulağına hardansa, qarmon səsi də gəlirdi.Elə bil, qarmon çalmağı bacarmayan birisi, qarmonun dillərini pərakəndə halda basırdı.Nərmin bunu qolüsinasiya hesab edib, ağlamağa davam elədi. Onun Seymur həsrəti get-gedə coşub bir dəlinin bağırtısına çevrildi.

--Seymur, Seymur, hardasan oğlum?Seymurum, hardasan?

Birdən hardansa, Nərminin bağırtısına cavab gəldi:

--Ana, ana, mən burdayam, burdayam...

Nərmin cəld ayağa qalxdı, ətrafa qulaq kəsildi, küləyin səsindən başqa heç nə eşitmədi.O, bir daha çağırdı:

--Seymur, hardasan?Məni eşidirsən?

Cavab gəldi:

--Ana, mən burdayam, yuxarıda.Ana, yanıma gəl, yuxarı gəl...

Nərmin artıq bu səsi aydınca eşidirdi.Bu, Seymurun səsi idi.Nərmin dərhal yuxarı qalxmağa başladı.Bu dəqiqə o, nə qorxu bilirdi, nə də başı fırlanırdı.O, sanki bayaqkı küləklə əlləşən Nərmin deyildi.Üç mərtəbəni birnəfəsə qalxıb, sonuncu bloka girəndə, qapı yerinə tələm-tələsik pərçim edilmiş bir taxta qapı ilə üz-üzə gəldi.Oğlunun bu qapının arxasında olduğunu anlayıb çağırdı:

--Seymur, hardasan?

Seymur doğurdan da qapının arxasından hay verdi:

--Burdayam, ana, burdayam...Qapını açа bilmirəm, açar yoxdur.

Nərmin dedi:

--Seymur, sən təki qorxma, atangil də indicə gələcəklər.Qapını açа bilməsələr də sındıracaqlar.Səni bir azdan azad edəcəyik.Bir azca gözlə, yaxşı?

--Narahat olma, ana, mən heç nədən qorxmuram.Atamı gözləyirəm. Elə bu vaxt Kamran son mərtəbənin arakəsməsində göründü. O, özünü irəli atıb Nərmini qucaqladı.Nərmin ağlaya-ağlaya dedi:

--Kamran, oğlumuz burdadır.Tez ol, qapını aç, oğlumu azad elə.

Kamran Nərminin halını görüb dedi:

--Yaxşı, yaxşı, sən sakit ol.Yoldaşlar gəlirlər, indi qapını qıracaqlar. Seymur, oğlum, ordasan?

--Burdayam ata,çıxardın məni burdan.

--Bu saat, bu saat...

Xüsusi dəstənin zabiti yanındakı əskərlərə sərəncam verdi, onlar bir həmlə ilə taxta qapını sındırdılar.Seymur bir küncə çəkilib qapının açılmasını gözləyirdi.Qapı açlan kimi, o özünü anasının üstünə atdı.Kamran da qəhərlənib oğlunu bağrına basdı.Nərmin indi fikir verib gördü ki, burda kirli-paslı yorğan-döşək, qab-qacaq var. Görünür bu neçə günü Seymuru elə burdaca saxlayırlarmış. Birdən Nərminin gözü yerdə atılıb qalmış qarmona sataşdı.Nərmin bayaq eşitdiyi səsin burdan gəldiyini anladı.O, qarmonu tanıdı, bu, Tahirin qarmonu idi.

==33.

Hamı xəstəxanaya toplaşmışdı.Dost-aşna, tanış-biliş, kim vardısa, hamısı burda sonu uğurlu bitmiş bu hadisəyə Kamranla birlikdə sevinməyə gəlmişdilər.Seymuru ümumi kontroldan keçirdirdilər. Nərminin də ayağında əmələ gəlmiş dərin yaraya tikiş qoyacaqdılar. Nərmin hələ də gözünün önündə baş vermiş hadisənin bir yuxu olmadığına inana bilmirdi.

Tahirin faciəvi şəkildə öldüyünə baxmayaraq, müstəntiq əməliyyatın uğurlu keçdiyini söylədi.Nərmin ürəyində fikirləşdi: "Tahir,Tahir, sənin ölümünlə bitən bir əməliyyatı uğurlu adlandırırlar. Çünki sən, bu dəfə də məni dinləmədin, öz bildiyinə getdin.Halbuki, "məndən əl çəkməsən, bu sənin sonun olacaq", deyəndə, mən işin belə olacağını heç ağlıma da gətirməmişdim."

Bura toplaşanlardan hər kəs öz gördüyünü yada salıb danışır, bu əməliyyatdakı rolunu dinləyənlərin diqqətinə çatdırmağa çalışırdı.

Səltənət qızını da, nəvəsini də yenidən tapdığına, hamıdan çox sevinirdi.O, Nərmini bir az məyus görüb, onun bu saat nə düşündüyünü də təxmini anlamışdı.Ona görə də, ətrafdakıların başı qarışan kimi, fürsət tapıb Nərminə dedi:

--Qızım, Allah özü səni bu bəladan birdəfəlik qurtardı.Sən hamıdan çox sevinməlisən, bu gün tək oğlunu yox ey, öz evliliyini də xilas elədin.Daha onun da fikrini çəkmə.O, bu yolu özü seçmişdi.Bu yolun sonu da əvvəl-axır bu olmalı idi.Oğlunu yenidən tapdığına şükür elə, doyunca sevin.

Nərmin Səltənətin bu sözlərinə heç nə deyə bilmədi, yalnız başının hərəkəti ilə onun dediklərini təstiqlədi.Bu vaxt cərrah gəlib Narının ayağındakı dərin kəsiyə tikiş qoymaq üçün, onu əməliyyat otağına apardı.Nərmin sürüşüb çantanı əlindən salanda, o qədər qorxmuşdu ki, həmən an ayağına batıb, dərin yara açan dəmirin ətinə batdığını da hiss eləməmişdi.Yalnız Seymuru azad edəndən sonra, Kamran fikir verib görmüşdü ki, Nərminin bir ayağından durmadan qan axır.İndi cərrah həmin yaraya tikiş qoyurdu.Nərmin çoxlu qan itirdiyindən, ona qan köçürüləcəkdi.Ona görə də doktor onu bir gecəlik də olsa, xəstəxanada tutacağını söylədi.Seymuru hər tərəfli müayinədən keçirtdilər, sağlamlığında heç bir qüsur tapmayıb, onu atası ilə evə göndərməyi qərara aldılar.Milis işçiləri Kamranın dost-tanışdan topladığı pulları da gətirib ona qaytardılar Onlar çantanı elə Nərminin qoyub getdiyi yerdəcə tapmışdılar.Nərmin təkcə helikopter məsələsini başa düşməmişdi ki, onu da Kamran başa saldı.Əməliyyat belə düşünülmüşdü ki, Tahir Nərmindən pulu aldığı zaman, helikopter birdən peyda olub, onu təslim olmağa çağıracaqdı.Hər şey gözlənilmədən başqa cür oldu.Helikopter binaya lazım olduğu qədər yaxın düşə bilmədi, elə ordan miqafonla "təslim ol!" əmrini verdi.Lakin, məsafə uzaq olduğundan, bir də küləyin səsindən heç nə eşitməyən Tahir, bu əmrə heç bir reaksiya vermədi.Belə olduğu halda, əsgərlət eyni əmri dönə-dönə təkrarlamalı oldular.Bu müddətdə də o hadisə baş verdi, helikopterin küləyi Tahiri sovurub aşağı saldı. Bu söhbətdən Nərmin anladı ki, heç kim Tahirin bu şəkildə öldüyünə heç heyfislənmir də.Nərmin fikirləşdi ki, bəlkə də onlar haqlıdırlar.

Nərmin o günü xəstəxanada qalmalı oldu.Səltənət gecəni onun yanında qalmaq istədisə də, Nərmin razı olmadı.O, anasına Seymuru göstərib dedi:

--Sən ondansa, bizə get, Seymuru hamama sal, bir yaxşı-yaxşı

çimsin.Gör nə gündədir?Sabah gələrsiniz, bir yerdə çıxarıq burdan.

Səltənət daha inad etmədən Nərminlə görüşdü, Kamrangilə qoşulub bir yerdə onlara getdi. Nərmin, o gecə yalqız qalmasından istifadə edib uzun-uzun fikirləşdi. Tahirin o cür ölümü ürəyini ağrıtdısa da, bu cəzanın ona Allah tərəfindən göndərildiyini də anladı.Tahir Gülxarın həyatını alt-üst edib, yaşamaq haqqını da əlindən almağa qadir bir cani idi.Onun Gülxarın qarşısındakı günahı nə qədər böyük olursa olsun, Nərmin heç vaxt ondan intiqam almağı düşünməmişdi.Nərmin yalnız Gülxara daha bir şans vermişdi, onu yenidən həyata qaytarmışdı. Tahirsə, çəkdiyi cəzadan nəticə çıxartmaq əvəzinə, yenidən gəlib, indi də Nərminin həyatı ilə oynamağa başlamışdı. Nərmin, çarəsizlikdən onun dediklərinə boyun əyib, hər istədiyini yerinə yetirməyi düşünürkən, Allah özü Tahirin bu cür cəzalandırılmasına hökm vermişdi. Nərmin bütün gecəni fikirləşib səhəri gözü ilə açdı.Özü də hiss elədi ki, evə getmək istəyir.Oğlu üçün, anası üçün, Kamran üçün darıxıb.Gözünü qapıya dikib onların gəlməsini gözləməyə başladı. Bütün gecəni yuxusuz qaldığından, bir azdan onu yuxu apardı.Nə qədər yatdığını özü də bilmədi.Yuxuda hiss elədiyi gözəl bir qoxunun təsiri ilə gözlərini açdı.Kamran böyük bir gül dəstəsini onun burnuna tutub gülümsəyirdi.Seymur yaxınlaşıb onun boynuna sarıldı, o üzündən, bu üzündən öpdü.Səltənət də Nərminin alnından öpüb nəvazişlə saçını tumarladı.

--Necəsən, qızım, yaran bərk ağrayır?

--Yox, ağrıkəsici vurublar, elə də ağrı hiss eləmirəm.Evə getmək istəyirəm.

Kamran dedi:

--Bu saat doktor gəlsin, görək nə deyəcək?

--Nə deyirsə desin, mən evə getmək istəyirəm.

Kamran onun əlindən tutub dedi:

--Yaxşı, əzizim, gedərik evimizə.

Doktor gəlib Nərminin yarası barədə məlumat verdi.O dedi ki, Nərmin əslində bir neçə gün qalmalı idi, ancaq indi ki, bu qədər evə getmək istəyir, onda vaxtlı-vaxtında yarasını kontrol eləməyə gələcək.Nərmin bu şərti məmnuniyyətlə qəbul elədi.Onda doktor

üzünü Kamrana tutub dedi:

--Kolleqa, sizə bir müjdəm də var.Nərmin xanım hamilədir.

Kamran bu xəbərə uşaq kimi sevindi, Nərmini bir də qucaqlayıb öpdü.Səltənətlə Seymur bu xəbəri elə böyük sevinclə qarşıladılar ki, dünənki sevinc bu günkünün yanında yalan oldu.Onlar sevinə-sevinə, Nərminin əşyaları toplanmış çantalarını götürüb maşına getdilər.Kamran da Nərminin sənədlərini almaq üçün doktorla çıxdı.Nərmin öz qəribə hissləri ilə tək qaldı.O, düşüncələrə dalıb pəncərədən bayıra baxırdı.Nərmin fikirləşirdi ki, həyatının bütün sınaqlarından çıxa bildiyi üçün, yəqin ki, Allah da onu mükafatlandırırdı.Belə olmasaydı, Kamranın nə vaxtdan bəri gözlədiyi xəbər, məhz bu günə tuş gəlməzdi.Sən demə, bu qədər çaxnaşmanın, bu qədər sarsıntının içində, heç nəyə əhəmiyyət vermədən, Nərminin bətnində yeni bir həyat cücərirmiş.Hələ çox üzün yol qət etməli olan bu kiçik varlıq, bu ailəyə nə boyda sevinc gətirəcəyini, bəlkə də elə bu gün anlamış oldu.Nərmin nəvazişlə göbəyini sığalladı.Bir daha ana olacağı fikri ona sevinclə qürurun qarışığı olan yeni bir duyğu yaşatdı. Nərmin yenə də pəncərədən görünən səmaya baxdı.Deyəsən, hava düzəlmək istəyirdi.Neçə gündən bəri göyün üzünü sarıb günəşi də görünməz eləmiş boz buludlar, yavaş-yavaş dağılmağa başlamışdı. Günəş yenidən buludların arxasından boylanıb, yer üzünü öz nuruna qərq eləyirdi. Onun parlaq şüasından bir zolaq ayrılıb, Nərminin ürəyinə doldu.Bu şüa onun gözünü oxşadı, ruhunu sevindirdi, bütün vücudunu ilıq bir istiyə bürüdü.Günəşin parlaq şüası sanki Nərminə, işıqlı sabahın, günəşli günlərinin sayı daha çox olacaq bir həyatın müjdəsini verirdi.O həyat, həm də yeni doğulacaq körpənin həyatı olacaqdı...

P.S.

Həyat, ən sonuncu anına kimi mübarizə deməkdir.

Nəsibə Günəş.2009-cu il.Belçika.

Azf296344

Bakı - 2016